Gəncə-Qazax iqtisadi rayonu

(*Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Xanlar (Göygöl), Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan şəhərləri*)

- **Ağstafa**
- **Daşkəsən**
- **Gədəbəy**
- **Goranboy**
- **Xanlar** (Göygöl)
- **Qazax**
- **Samux**
- **Şəmkir**
- **Tovuz**
- **Gəncə**
- **Naftalan**

Ağstafa

2004, 15 iyun

- Ağstafa Azərbaycan Prezidentini hərarətlə qarşıladı
- Ağstafa şəhərindəki Heydər parkında görüş: Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

2008, 24 sentyabr

- Ağstafada Heydər Əliyev Mərkəzinin açılış mərasimi
- Ağstafa tikiş fabriki yüngül sənayenin ən böyük müəssisələrindən biridir

Ağstafa Azərbaycan Prezidentini hərarətlə qarşıladı

(15 iyun 2004-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 15–də Qazaxdan Ağstafa şəhərinə gəldi. Şəhər sakinləri dövlətimizin başçısını böyük mehribanlıqla qarşıladılar. Respublikamızın rəhbərinə və onun xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.

Prezident İlham Əliyevin burada ilk tanışlığı yumşaq mebel istehsal edən "Karvan-el" şirkətinin Azərbaycan-Rumıniya müştərək müəssisəsi ilə oldu. Müəssisənin rəhbərliyi respublikamızın qərb bölgəsi üçün yeni olan bu istehsal sahəsi, onun gələcək planları barədə ətraflı məlumat verdi. Bildirildi ki, burada istehsal olunan məhsullar yüksək keyfiyyəti ilə seçilir və özünə bazar tapmışdır. Özbəkistanda, qonşu Gürcüstanda bu mebellərə tələbat çoxdur. Şirkətin baş planına ofis, mebel mağazası, şirə sexi, tikinti materialları istehsalı sahəsi, mehmanxana, kiçik istehsal sexləri inşa etmək, bir sıra meyvə bağları salmaq daxildir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva müəssisənin məhsullarını və gələcək planlarını müsbət qiymətləndirdilər və bu sahənin çox perspektivli olduğunu söylədilər.

"Karvan-el" şirkətinin fəaliyyəti barədə də ətraflı məlumat verildi. Şirkətin rəhbəri dedi ki, Şəki, Zaqatala, Balakən, Qax rayonlarında 800 hektar sahədə günəbaxan əkdirmişik. Avropa standartlarına uyğun boyalar da istehsal edirik. Yaxın vaxtlarda yeni sertifikat alacağıq. Şirkətdə 175 işçi çalışır. Kollektivimiz xahiş edir ki, Bakıda Babək prospektində yerləşən müəssisəmizə gələsiniz. Biz Sizin regional inkişaf Proqramınızı, siyasətinizi dəstəkləyirik. Biz heç nə istəmirik, sadəcə, Sizin mənəvi köməyiniz lazımdır. Biz iş adamları Sizə arxa olacağıq, çalışacağıq, yaradacağıq və Sizin başınızı uca edəcəyik.

Azərbaycan Prezidenti İlham Əliyev dedi ki, mən mütləq müəssisəyə gələcəyəm. Bilirsiniz ki, sahibkarları dəstəkləyirəm. Bunu bütün çıxışlarımda da qeyd edirəm ki, hamı gərək sizə şərait yaratsın. Dövlət yalnız kredit vasitəsilə kömək edə bilər. Bu iş də gedir. İndi mikrokreditlərin həcmi ildən-ilə artır. Bu il 100 milyard manat nəzərdə tutulmuşdur. İndi 20 faiz artıbdır. Gələn il bu rəqəm artacaqdır. Çünki imkanımız çoxalır, büdcəmiz çoxalır. Dövlət bu yol ilə, bir də dəstək verməklə kömək edə bilər. Qalanını isə gərək siz edəsiniz. Azərbaycanın gələcəyi bundadır - sahibkarlıq, yeni iş yerlərinin yaranması, yerli istehsalın yaranması. Bütün bunlar var, iş də gedir, gələcəkdə daha sürətlə gedəcəkdir. Mən Bakıda gəlib sizinlə görüşəcəyəm.

X X X

Sonra Heydər parkında ağstafalılarla görüş keçirildi. Buraya toplaşmış şəhər sakinləri Prezident İlham Əliyevi böyük səmimiyyətlə, hərarətli alqışlarla qarşıladılar.

Məlumat verildi ki, parkda futbol meydançası, üzgüçülük hovuzu, uşaq şəhərciyi, istirahət üçün hər cür şərait vardır.

Məktəblilər Prezident İlham Əliyevi və onun xanımını gül-çiçəklə qarşıladılar. Dövlətimizin başçısı burada rayon aşıqlarının və musiqiçilərin çıxışlarına qulaq asdı.

Respublikamızın rəhbəri görüşə gələnlər qarşısında çıxış etdi.

AzərTAc
2004, 17 iyun

Ağstafa şəhərindəki Heydər parkında görüş

(15 iyun 2004-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 15-də Qazaxdan Ağstafa şəhərinə gəldi. Şəhər sakinləri dövlətimizin başçısını böyük mehribanlıqla qarşıladılar. Respublikamızın rəhbərinə və onun xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.

Sonra Heydər parkında ağstafalılarla görüş keçirildi. Buraya toplaşmış şəhər sakinləri Prezident İlham Əliyevi böyük səmimiyyətlə, hərarətli alqışlarla qarşıladılar.

Respublikamızın rəhbəri görüşə gələnlər qarşısında çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Əziz bacılar və qardaşlar!

Əziz ağstafalılar!

Mən hamınızı ürəkdən salamlayır, dərin hörmət və məhəbbətimi bildirirəm.

Bu gün Azərbaycanda bayramdır - Milli Qurtuluş bayramıdır. Azərbaycanın ümummilli lideri Heydər Əliyev 11 il bundan əvvəl xalqın tələbi ilə ölkəmizə rəhbərliyə qayıtdı. Məhz o vaxtdan Azərbaycanda müharibəyə, hərc-mərcliyə, anarxiyaya, xaosa son qoyuldu. Azərbaycanın dirçəliş dövrü başlandı. Sosial məsələlər öz həllini tapmağa başladı.

Bu bölgədə də vəziyyət çox ağır idi. Sərhəd bölgəsində yerləşən ağstafalılar bunu çox yaxşı xatırlayırlar. Məhz Heydər Əliyevin müdrik, məqsədyönlü, düşünülmüş, cəsarətli siyasəti nəticəsində Azərbaycan bu çətin dövrdən şərəflə çıxdı.

O zaman ölkəmiz, demək olar ki, parçalanma ərəfəsində idi. Amma bu gün baxın, Azərbaycan inkişaf edir, güclənir. Azərbaycan regionda liderdir. Bunu təkcə biz yox, bütün dünya ictimaiyyəti bilir və qiymətləndirir. Mən əminəm ki, ölkəmiz bundan sonra da sürətlə inkişaf edəcəkdir.

Bilirsiniz ki, mənim siyasətimin əsas istiqamətlərindən biri də odur ki, Azərbaycanın bütün bölgələrində inkişaf olsun, yeni iş yerləri açılsın, insanlar işlə təmin olunsunlar, maaşları qalxsın. Biz bu istiqamətdə böyük işlər görürük, böyük proqramlar həyata keçiririk. Mən çox şadam ki, Ağstafada da bu istiqamətdə işlər gedir.

Mən bu gün mebel fabriki ilə tanış oldum. Orada çox gözəl istehsalat var. Digər sahələr də inkişaf edəcəkdir. Mən heç şübhə etmirəm ki, bir neçə ildən sonra Azərbaycanın bütün bölgələri daha sürətlə inkişaf edəcəkdir. Bizim qarşımızda böyük məsələlər var.

Azərbaycan çox uğurla qonşuları ilə öz münasibətlərini qurubdur. Mən dünən və bu gün səhər Gürcüstanda idim. Orada bir daha əmin oldum ki, bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Gürcüstanda Heydər Əliyev adına park yaradıldı. Biz o parkın açılışında iştirak etdik. Bu, bir daha göstərir ki, bütün dünya ümummilli liderimizi qiymətləndirir, onun fəaliyyətini çox gözəl bilir. Eyni zamanda, Gürcüstanda Azərbaycan Dram Teatrına dövlət statusu verilibdir. Bu da böyük əhəmiyyətli bir məsələdir. Mən Borçalı mahalında yaşayan azərbaycanlılarla, soydaşlarımızla da görüşmüşəm, onların problemləri ilə də məşğul olmuşam. Sərhəddə də olmuşam, sərhəd problemləri ilə məşğul olmuşam.

Çalışıram əlimdən gələni edim ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, rifah, sülh, əmin-amanlıq içində yaşasın. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycanda sabitlik pozulsun. Heç vaxt imkan verə bilmərik ki, asayiş pozulsun. Bu, bizim inkişafımız üçün başlıca şərtdir. Mən əminəm, şübhə etmirəm ki, biz qarşıda duran bütün məsələlərin həllinə nail olacağıq.

Heydər Əliyev siyasəti yaşayır. Biz hamımız bunu dəstəkləyirik, Azərbaycan xalqı bu siyasəti dəstəkləyir. Ötən il keçirilmiş prezident seçkilərində də siz - ağstafalılar bu siyasətə səs vermisiniz. Mən əminəm ki, hamımız birlikdə Azərbaycanı zənginləşdirəcəyik, gücləndirəcəyik, qüdrətli dövlətə çevirəcəyik.

Sizi bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, səadət, uğurlar arzulayıram.

Sağ olun!

AzərTAc
2004, 17 iyun

Ağstafada Heydər Əliyev Mərkəzinin açılış mərasimi
(24 sentyabr 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də Qazax rayonuna səfərini başa çatdıraraq, Ağstafa rayonuna gəlmişdir.

Həmin gün Ağstafa şəhərində Heydər Əliyev Mərkəzinin açılışı oldu. Açılış mərasiminə gələn dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin mərkəzin həyətində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu. Abidənin müəllifi, xalq rəssamı, akademik Ömər Eldarovdur.

Prezident İlham Əliyev mərkəzin açılışını bildirən lenti kəsdi.

Mərkəzin tikintisinə bu ilin martında başlanmışdır. 3,7 hektar ərazidə Heydər Əliyev Muzeyi, 450 yerlik konsert salonu, 20 və 50 yerlik konfrans salonları, kino salonu, elektron kitabxana, linqafon və internet otaqları, sərgi salonu vardır. Burada açıq havada tədbirlər keçirmək üçün də şərait yaradılmışdır. Məktəblilər burada təşkil ediləcək internet və xarici dil kurslarında məşğul olacaqlar.

Bir-birinə bitişik 3 korpusdan ibarət tikintinin sifarişçisi Heydər Əliyev Fondu, podratçı isə "Akkord" şirkətlər qrupudur.

Mərkəzin həyəti Hollandiyadan gətirilmiş gül və ağac kolları ilə bəzədilmişdir. Burada quraşdırılan fəvvarə həyətə xüsusi gözəllik verir.

Dövlətimizin başçısı Heydər Əliyev Muzeyi, konfrans salonları, elektron kitabxana, linqafon və internet kabinetləri ilə tanış oldu.

Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev burada rayon veteranları ilə görüşüb söhbət etdi.

Rayon Ağsaqqallar Şurasının sədri MƏMMƏD MƏSMƏLİYEV dövlətimizin başçısına müraciətlə dedi:

- Cənab Prezident, Ağstafa rayonuna xoş gəlmisiniz! Son illərdə respublikamızda böyük işlər görülmüşdür. Hər yerdə abadlıq işləri gedir, məktəblər, yeni xəstəxanalar tikilir. O cümlədən Ağstafa rayonunda da yaxşı işlər görülmüşdür. Ağstafa camaatı Sizdən çox razıdır, Allah Sizə cansağlığı versin. Heydər Əliyev Fondunun hesabına rayonda 3 məktəb tikilibdir, bu mərkəz də həmin Fondun hesabına tikilibdir. Tikiş fabrikinin açılış mərasimində də olacaqsınız. Mən deyərdim ki, son illərdə respublikada işsizliyin aradan qaldırılması, 700 min nəfərin işlə təmin olunması üçün görülən işlər həmin fabrikdə 1000 nəfərlik iş yerinin açılması ilə yekunlaşır. Ona görə Sizə uğurlar, uzun ömür, cansağlığı arzu edirəm. Bu, bizim xalqımızın müvəffəqiyyətidir, Azərbaycan xalqının rifahının yaxşılaşmasıdır.

İLHAM ƏLİYEV: Sağ olun, təşəkkür edirəm. Mən də sizi bu gözəl mərkəzin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Doğrudan da, mərkəzin həm xarici görünüşü, həm də daxili tərtibatı çox gözəldir. Misal üçün, Heydər Əliyev Muzeyində olan fotoşəkillər çox nadir şəkillərdir. Hətta mən dedim ki, onlardan bəzilərini Bakıya, Heydər Əliyev Fonduna göndərsinlər. Çünki, o şəkillər müxtəlif vaxtlarda çəkilib və ola bilsin, onların bəziləri bizdə arxivdə yoxdur.

Burada həm böyük, həm kiçik iclas zalları, uşaqlar üçün dərnək, rəssamlıq dərnəyi, rəsm qalereyası, kompyuter otağı, xarici dilləri öyrənmək üçün linqafon otağı var. Yəni, sözün əsl mənasında, mərkəzdir və ətrafı da çox gözəldir. Əlbəttə ki, siz yəqin yaxşı xatırlayırsınız, burada heç nə yox idi. İndi gözəl park salınıb, fəvvarələr, oturacaqlar var, yəni burada insanlar həm dincələ bilərlər, həm də vaxtlarını səmərəli keçirə bilərlər. Gənclər də gəlib burada elektron kitabxana vasitəsilə dünyanın bütün kitabxanalarına daxil ola bilərlər. Yəni bu mərkəzin çox böyük mənası var və mən çox şadam ki, məhz Ağstafa rayonunda belə gözəl mərkəzin tikintisinə nail ola bilmişik. Bu mərkəzin fəaliyyəti və Ağstafa rayonunun inkişafına da böyük kömək göstərəcəkdir. Çünki gənclər bilikli, savadlı olmalıdırlar. Bütün rayonlarımızda yeni tikilən obyektlər müasir olmalıdır.

MƏMMƏD MƏSMƏLİYEV: Bu işlər Sizin fəaliyyətiniz nəticəsində görülübdür. Bu mərkəzdəki 500 nəfərlik zal Heydər Əliyev Sarayının beşdə bir hissəsi qədərdir.

İLHAM ƏLİYEV: Dörddəbir hissəsi, o, 2000 nəfərlkdir!

Burada müxtəlif tədbirlər keçirmək olar. Ən gözəl səviyyədə tikilibdir. İndi tikiş fabrikinə gedib baxacağam.

MƏMMƏD MƏSMƏLİYEV: 1000 nəfər işləyəcək.

İLHAM ƏLİYEV: Bəli! Mən bilirəm, onun şəkillərini görmüşəm. Böyük istehsal sahələri var. Orada 1000 nəfər işləyəcək, özü də, bildiyimə görə, xüsusilə qadınlar işləyəcəklər. Bu da çox vacibdir.

MƏMMƏD MƏSMƏLİYEV: Yeni parklar salınır, xiyabanlar salınır. Burada bizim parkımızda indi Heydər Əliyevin büstü var. Heydər Əliyev bizim rayonda çox olubdur. Mən onun dövründə Mərkəzi Komitənin bürosu tərəfindən vəzifəyə təsdiq olunmuşdum. Həmin dövrdə "Xalqlar Dostluğu ordeni", müxtəlif medallarla təltif edilmişəm. Mən vaxtında Heydər Əliyevə öz minnətdarlığımı bildirmişəm. Onunla uzun müddət işləmişik. Yaxşı da işləmişik. Bu işlər hamısı onun gördüyü işlərin davamıdır. Elə-belə, boş yerdən yaranmayıbdır.

Heydər Əliyevin fəaliyyəti nəticəsində görülmüş işlərdir ki, bu gün də Siz davam etdirirsiniz. Fəxr edirik ki, Heydər Əliyevin Sizin kimi davamçısı var.

İLHAM ƏLİYEV: 1970-ci illərdə Azərbaycanın uğurlu inkişafının təməli qoyulmuşdur. Buradakı fotoşəkillər də göstərir ki, nə qədər böyük işlər görülübdür. Demək olar ki, Azərbaycan yenidən tikilib. Amma sonra, 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində vəziyyət dəyişdi. Azərbaycan iqtisadiyyatı da bərbad vəziyyətə düşdü, sənayedə də tənəzzül, böhran başlandı. Həm də vətəndaş müharibəsi. Azərbaycan müstəqilliyə qovuşanda keçmiş Sovet İttifaqı respublikaları arasında ən ağır vəziyyətdə idi. Amma ondan sonra yenə də Heydər Əliyevin səyləri nəticəsində 1993-cü ildən 2003-cü ilə qədər inkişaf dövrü olmuşdur. Yenə Azərbaycan ayağa qalxdı, islahatlar başladı və bütün rayonlarda işlər görülməyə başlandı. O ki, qaldı son beş il ərzindəki görülən işlərə, o barədə mən çox danışmaq istəmirəm. Hər halda çalışacağam ki, bütün rayonlarda inkişaf, abadlıq, quruculuq olsun, məktəblər, xəstəxanalar, belə gözəl mərkəzlər, sənaye müəssisələri tikilsin, iş yerləri açılsın. Azərbaycanda son beş il ərzində 700 mindən artıq iş yeri açılıb və onlardan təxminən 550 mini daimi iş yerləridir. Bu, çox vacibdir. Hər yerdə yeni fabriklər, zavodlar, müəssisələr yaradılır, yollar çəkilir. Misal üçün, Bakı-Ağstafa-Qazax yolu.

MƏMMƏD MƏSMƏLİYEV: Bakıda olmuşam, gözəl yol infrastrukturu yaradılır, tıxaclar aradan qaldırılır.

İLHAM ƏLİYEV: Bakıda öz yerində. Bakı paytaxtdır, onun böyük potensialı var. Bakı, əlbəttə ki, gözəl şəhərdir, daha da gözəlləşir. Əsas Bakıdan uzaqda yerləşən rayonların inkişafına diqqət göstərməliyik. Sərhəd rayonlarına ilk növbədə, o cümlədən Ağstafa rayonuna. Mən çox şadam ki, burada işlər yaxşı gedir və yəqin son aylar ərzində böyük dəyişikliklər hiss edirsiniz. Altı aya tikiş fabriki tikilibdir. Növbəti illərdə işlər daha da sürətlə gedəcəkdir. Sizə yeni uğurlar və cansağlığı arzulayıram! Sağ olun!

Prezident təqaüdçüsü YASƏMƏN MƏMMƏDOVA: Xoş gəlmisiniz, Allah Sizə cansağlığı versin, ailəliklə xoşbəxt olun! Heydər Əliyevin qoyduğu yolu belə davam etdirin. Çox sağ olun, minnətdarıq! Bütün cavanlar, qocalar, veteranlar - hamımız Sizə cansağlığı, uzun ömür arzulayırıq.

AZƏRTAC
2008, 24 sentyabr

Ağstafa tikiş fabriki yüngül sənayenin ən böyük müəssisələrindən biridir

(24 sentyabr 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, sentyabrın 24-də Prezident İlham Əliyev "Akkord" şirkətlər qrupunun Ağstafadakı tikiş fabrikinin açılışı mərasimində iştirak etmişdir.

Müəssisənin kollektivi dövlətimizin başçısını böyük hörmətlə qarşıladı.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.

Almaniya və Türkiyədən gətirilmiş müasir avadanlığın quraşdırıldığı fabrikdə uşaq, qadın və kişi paltarları, idman geyimləri, iş paltarı tikilir. Orta aylıq əmək haqqı 300-350 manat təşkil edir.

İlkin mərhələdə min nəfər işçi cəlb olunmuşdur. Ayda 80 min geyim istehsal edəcək fabrikdə gələcəkdə 1500 nəfər işləyəcəkdir. Fabrikin yataqxanası və yeməkxanası da var. Bu, "Akkord"un ikinci tikiş fabrikidir. Digəri Qaradağ rayonunun Lökbatan qəsəbəsindədir.

Dövlətimizin başçısı istehsal sahələrini gəzdi, avadanlıqla, müəssisənin iş prinsipi ilə tanış oldu, hazır məhsul nümunələrinə baxdı.

Prezident İlham Əliyev fabriklə tanışlıqdan sonra işçiləri təbrik edərək dedi ki, burada işləmək üçün çox gözəl şərait yaradılmışdır. Ən müasir avadanlıq quraşdırılmışdır. Yəni, burada işləmək sizin üçün xoş olmalıdır. Əminəm ki, siz səmərəli işləyəcək və Azərbaycanın bütün regionlarının, o cümlədən Ağstafa rayonunun inkişafına öz töhfənizi verəcəksiniz. Azərbaycanda yaradılan yeni müəssisələr ölkəmizi gücləndirir, həm də yeni iş yerləri açılır. Xüsusilə bu fabrikdə qadınlar işləyəcəklər ki, bu da çox vacibdir. Həm də bu müəssisə rayonda güclü iqtisadi və sənaye potensialı yaradır. Əminəm ki, siz burada çox yaxşı məhsullar istehsal edəcəksiniz. Sizi təbrik edir və uğurlar arzulayıram.

X X X

Bununla da Prezident İlham Əliyevin Ağstafa rayonuna səfəri başa çatdı.

AZƏRTAC
2008, 24 sentyabr

Daşkəsən

2006, 31 oktyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Daşkəsənə səfəri: Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yolunun açılışı
- Daşkəsən şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsinin açılışı
- Heydər Əliyev Muzeyinin açılışı
- Şəhid Anar Mürsəlov adına məktəblə tanışlıq
- Prezident İlham Əliyev "Daşkəsən filizsaflaşdırma" ASC-də olmuşdur: Azərbaycan Prezident İlham Əliyevin nitqi
- Daşkəsəndə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni yaşayış binası istifadəyə verilmişdir

Azərbaycan Prezidenti İlham Əliyevin Daşkəsənə səfəri
Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yolunun açılışı
(31 oktyabr 2006-cı il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 31-də Daşkəsən rayonuna gəlmişdir.

Dövlətimizin başçısı əvvəlcə Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yolunun açılış mərasimində iştirak etdi.

Buraya toplaşan inşaatçılar, eləcə də ətraf kəndlərin sakinləri Prezident İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladılar.

Nəqliyyat Nazirliyinin "Yolnəqliyyatservis" departamentinin sədri, Milli Məclisin deputatı Cavid Qurbanov Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yolunun göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, ümumi uzunluğu 47 kilometr olan 3-cü texniki dərəcəli yolun örtüyü əsasən asfalt-betondur. Yolun yatağının eni 12 metr, hərəkət hissəsinin eni isə 7 metrdir. Yolboyu 10 körpü bərpa edilmiş və yenidən qurulmuşdur. Daşkəsən şəhərini respublikanın magistral yollar şəbəkəsi ilə birləşdirən bu yeganə yol Azərbaycan Prezidentinin 2006-cı il 13 iyul tarixli sərəncamına uyğun olaraq, qısa müddətdə əsaslı şəkildə təmir edilmişdir. Layihənin ümumi dəyəri 21,3 milyon manatdır. İndiyə qədər 10,2 milyon manatlıq iş görülmüşdür. Qalan 10,1 milyon manat isə əlavə işlərə və əsasən, dayaq divarlarının tikintisinə xərclənəcəkdir. Yola 76 min ton asfalt-beton döşənmişdir. Hərəkətin təhlükəsizliyi üçün 320-dən çox yol işarələri qoyulmuş, 800-dən çox siqnal dirəyi basdırılmışdır. Avtomobil yolu Xanlar rayonunun 5 kəndinin, Daşkəsən rayonunun 37 kəndinin əhalisinin gediş-gəlişini asanlaşdıracaqdır.

Bundan əlavə, Daşkəsən şəhərində 3,5 kilometr küçə təmir olunmuş, 7250 ton asfalt salınmışdır. Bütün işləri "Yolnəqliyyatservis" departamenti görmüş, eyni zamanda, 300-ə yaxın yerli sakin işlə təmin olunmuşdur.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi. İnşaatçıları təbrik edərək dedi ki, qısa müddət ərzində Xınalıq, Lerik, Yardımlı yolları, indi də Daşkəsən yolu çəkilmişdir. Sizə təşəkkür edirəm, yüksək səviyyədə, gözəl yol çəkmisiniz. Özü də bu dağ şəraitində yol tikmək çətindir.

Dövlətimizin başçısı sonra inşaatçılarla xatirə şəkli çəkdirdi.

AZƏRTAC
2006, 1 noyabr

Daşkəsən şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsinin açılışı
(31 oktyabr 2006-cı il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, oktyabrın 31-də Daşkəsən şəhərində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev heykəlin üzərindən ağ örtüyü götürdü. Postamentlə birlikdə abidənin hündürlüyü 6 metrdir. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Prezident İlham Əliyev burada salınmış Heydər Əliyev parkına da baxdı, burada sakinlərin istirahəti üçün yaradılmış şəraiti, görülmüş abadlıq işlərini yüksək qiymətləndirdi.

AZƏRTAC
2006, 1 noyabr

Heydər Əliyev Muzeyinin açılışı
(31 oktyabr 2006-cı il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, oktyabrın 31-də Daşkəsən şəhərində ümummilli lider Heydər Əliyev muzeyinin açılışı olmuşdur.

Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, burada ulu öndərin uşaqlıq, gənclik illərinə aid, milli təhlükəsizlik orqanlarında çalışdığı illərə, respublikamıza rəhbərliyinin hər iki dövrünə aid, rayonlara səfərlərini, zəhmətkeşlərlə görüşlərini, xarici ölkələrə səfərlərini, ölkəmizin sosial-iqtisadi sahədə dirçəlişi, Azərbaycanın yeni neft strategiyasının hazırlanması və həyata keçirilməsini, ordu quruculuğu sahəsindəki fəaliyyətini əks etdirən zəngin fotoşəkillər toplanmışdır. Muzeydə ulu öndərin büstü də qoyulmuşdur.

Prezident İlham Əliyev muzeyin ayrı-ayrı guşələrinə baxdı. Daşkəsən rayonunun tarixi, sosial-iqtisadi göstəriciləri ilə bağlı məlumatlar, rayon ərazisindəki faydalı qazıntıların nümunələri də böyük maraq doğurdu.

Dövlətimizin başçısı muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

“Heydər Əliyev muzeyi”nin eksponatları və muzeydə nümayiş etdirilən fotoşəkillər ulu öndərin həyat və fəaliyyətini əks etdirir. Muzeyin xarici görünüşü və daxili tərtibatı yüksək standartlara cavab verir. Müstəqil Azərbaycanın inkişafında Heydər Əliyevin müstəsna və əvəzolunmaz rolu olmuşdur. Bu gün onun siyasi kursu uğurla davam etdirilir.

Daşkəsən rayonunun sürətli inkişafı bunun əyani sübutudur. Daşkəsən rayonunun inkişafına çox böyük diqqət göstərilir. Xüsusi sərəncam imzalanmışdır və uğurla icra edilir. Abadlıq işləri geniş vüsət almışdır. Bütün daşkəsənlilərə yeni uğurlar və qələbələr arzulayıram.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
31 oktyabr 2006-cı il”.

AZƏRTAC
2006, 1 noyabr

Şəhid Anar Mürsəlov adına məktəblə tanışlıq

(31 oktyabr 2006-cı il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, oktyabrın 31-də Azərbaycan Prezidenti İlham Əliyev Daşkəsən şəhərində şəhid Anar Mürsəlov adına 2 nömrəli orta məktəblə tanış olmuşdur.

Dövlətimizin başçısı əvvəlcə Daşkəsən rayonunun keçmişini və bugününü əks etdirən fotoguşələrə baxdı.

Məlumat verildi ki, 500 şagirdin təhsil aldığı məktəbin üçmərtəbəli binası Təhsil Nazirliyi tərəfindən yüksək səviyyədə təmir olunmuşdur.

Prezident İlham Əliyev ayrı-ayrı siniflərə, kompyuter otağına baş çəkdi. Gənclərin müasir texnologiyalardan istifadə etməsinin, məktəblərin kompyuterləşdirilməsinin əhəmiyyətini vurğuladı.

Məktəbin direktoru Frunze Rüstəmov təhsilə göstərdikləri diqqət və qayğıya görə dövlətimizin başçısına, habelə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya təşəkkürünü bildirdi. Şagirdlərin yaxşı təhsil alması üçün hər cür şərait yaradıldığını bildirən direktor məktəbin kitabxanasına verilən latın əlifbası ilə çap edilmiş kitablara, dərs vəsaitlərinə, bədii ədəbiyyata görə də minnətdarlıq etdi.

Məktəbin qarşısındakı binaların eyvanlarına çıxan sakinlər Prezident İlham Əliyevi və xanımını səmimiyyətlə salamladılar, Daşkəsənə göstərdiyi qayğıya görə təşəkkürlərini bildirdilər.

AZƏRTAC
2006, 1 noyabr

Prezident İlham Əliyev "Daşkəsən filizsaflaşdırma" ASC-də olmuşdur

(31 oktyabr 2006-cı il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 31-də "Daşkəsən Filizsaflaşdırma" Açıq Tipli Səhmdar Cəmiyyətində olmuşdur.

Burada dövlətimizin başçısını və xanımını böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar. Yüzlərlə yerli sakin, müəssisənin işçiləri Prezidentin pişvazına xalqımızın lideri Heydər Əliyevin və ölkə rəhbərinin portretləri, dövlət bayraqları və transparantlarla çıxmışdılar.

Azərbaycan Prezidenti əvvəlcə bu böyük ASC-nin "Daşkəsən" və "Gəncə" layihələri, gələcəkdə yaradılacaq zavodların planları ilə tanış oldu.

"Detallimited" şirkətinin baş direktoru Əli Özkurt məlumat verdi ki, investisiya proqramına əsasən, gələcəkdə bu layihələr üzrə yeni zavodlar yaradılacaq və bunun nəticəsində minlərlə yeni iş yeri açılacaqdır. Ümumilikdə 235 milyon dollar həcmində sərmayə qoyulacaq və bütün işlər yeni texnologiya əsasında görüləcəkdir. Dünyada ABŞ-dan sonra bu tipli ikinci müəssisə Azərbaycanda olacaqdır. Hazır məhsul Qazaxıstana və digər ölkələrə də göndəriləcəkdir.

İLHAM ƏLİYEV: Bu, bizdə heç vaxt olmamışdır. Buradan çıxarılan filiz həmişə Gürcüstana aparılırdı.

ƏLİ ÖZKURT: İndi hər şey burada olacaq və gənc azərbaycanlılar çalışacaqlar. Gəncədə istehsal gücü 160 min ton olan alüminium zavodu fəaliyyətə başlayacaqdır. Bütün bu işlər 2009-cu ilə qədər başa çatdırılacaqdır.

İLHAM ƏLİYEV: Cəmi neçə zavod olacaqdır?

ƏLİ ÖZKURT: Cənab Prezident, ardıcıl reduksiya zavodu, poladəritmə zavodu və Gəncədə alüminium zavodu. "Daşkəsən" layihəsi üzrə 1250, "Gəncə" layihəsi üzrə 1250, alüminium zavodunda isə 2500 işçi çalışacaqdır. 3 il ərzində 5 min yeni iş yeri yaradılacaqdır.

İLHAM ƏLİYEV: Deməli, Gəncədə və Daşkəsəndə 5 min yeni iş yeri açılacaqdır. Təxminən nə qədər məhsul istehsal edəcəksiniz?

ƏLİ ÖZKURT: Cənab Prezident, 100 min ton alüminium, 500 min ton dəmir filizi. Həmin filizdən də boru istehsal edəcəyik. Çünki bazarda boru ən qiymətli məhsuldur. Bundan başqa, armatur, habelə inşaatda istifadə olunan digər materiallar istehsal olunacaqdır.

İLHAM ƏLİYEV: Bu gün buna həm Azərbaycanda, həm də qonşu ölkələrdə böyük tələbat var. Azərbaycanda daha çox tələbat var və hələ uzun müddət ərzində bu tələbat azalmayacaq, əksinə artacaqdır. Yəni bizdə inkişaf sürətlə gedir.

ƏLİ ÖZKURT: Biz bu il Sumqayıtda 60 min ton alüminium istehsal etməyi planlaşdırmışıq.

İLHAM ƏLİYEV: Orada 30 min ton idi, indi 60 min ton. Burada da 100 min ton olacaqdır.

ƏLİ ÖZKURT: Bəli, cənab Prezident. Gəncədə istehsal olunan alüminium oksidinin 80 faizi daxili tələbata yönəldiləcəkdir.

İLHAM ƏLİYEV: Qalan hissəsini də xaricə göndərəcəksiniz?

ƏLİ ÖZKURT: Bəli.

İLHAM ƏLİYEV: İndi bizdən xaricə neçə faiz məhsul gedir.

ƏLİ ÖZKURT: Alüminium oksidinin 100 faizi. Biz bu il 425 min ton istehsal edəcəyik. Keçən il isə 400 min ton idi. Sovet dövründə heç vaxt bu həcmdə istehsal olmamışdır.

İLHAM ƏLİYEV: Bəli, gələn 3 ildə inkişafımız daha da yüksək olacaqdır. Həm təzə iş yerləri, həm yeni istehsal sahələri yaranacaq, həm də qeyri-neft sektoru, sənaye yüksək səviyyəyə çatacaqdır.

ƏLİ ÖZKURT: Cənab Prezident, dəqiq hesablamalara görə, burada hələ 250 milyon ton dəmir filizi ehtiyatı vardır. Biz ildə 2,5 milyon ton hasil edirik.

İLHAM ƏLİYEV: Yəni bizim 100 illik işimiz var.

ƏLİ ÖZKURT: Allaha şükür. Sizin sayənizdə çalışacağıq.

TAHİR KƏRİMOV (Daşkəsən rayonu İcra hakimiyyətinin başçısı): Cənab Prezident, ulu öndərimizin dövründə bu zavod 700 min ton məhsul istehsal edirdi. Yenidən hakimiyyətə gələndən sonra 1 milyon ton oldu. O dövrdən də zavodun inkişaf dövrü başlandı. Sizin rəhbərliyinizlə bu zavod yeni inkişaf dövrünü yaşayacaqdır.

İLHAM ƏLİYEV: O dövrdə sovet texnologiyası idi. Bizdə başqa texnologiya yox idi. Amma indi burada dünyadakı ən yüksək texnologiya olacaqdır.

ƏLİ ÖZKURT: Bizim müəssisə dünyada 2-ci, 3-cü olacaqdır.

İLHAM ƏLİYEV: Bütövlükdə bu, nadir bir yataqdır.

ƏLİ ÖZKURT: Bu, Allahın bir nemətidir.

İLHAM ƏLİYEV: Onun ehtiyatı Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəldilməlidir.

ƏLİ ÖZKURT: Cənab Prezident, biz gənclərə də şərait yaradırıq. Təhsil ocaqları ilə razılıq əldə etmişik. Tələbələrə ingilis dilində iqtisadiyyat üzrə xüsusi dərslər keçilir. Yəni kadr hazırlığına da xüsusi diqqət yetiririk.

İLHAM ƏLİYEV: Oradakı bayraq da çox böyükdür.

ƏLİ ÖZKURT: Cənab Prezident. Dağın sinəsinə vurulmuş bayraq 5 min kvadratmetrdir. Uzunluğu 100, eni isə 50 metrdir. Daim orada qalacaqdır.

X X X

Prezident İlham Əliyev "Daşkəsən Filizsaflaşdırma" ASC-nin yeni yatağının istifadəsinə başlanmasını bildirən düyməni basdı. Daha sonra isə növbəti düyməni basmaqla, dəmir filizinin daşındığı kanat yolunu işə saldı.

Sonra təntənəli mərasim keçirildi.

Mərasimi rayon icra hakimiyyətinin başçısı Tahir Kərimov açdı.

Daşkəsən rayon icra hakimiyyətinin başçısı Tahir Kərimovun çıxışı

- Möhtərəm cənab Prezident!

Çox hörmətli Mehriban xanım, bu gün Daşkəsənə gəlişiniz rayonun həyatında çox əlamətdar, mühüm tarixi bir hadisədir. İlk dəfədir ki, dövlət başçısı uca dağlar rayonuna, daşkəsənlilərin görüşünə gəlmişdir. Cənab Prezident, icazə verin, Sizi, ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısını Daşkəsən rayonunun bütün əhalisi adından ürəkdən salamlayım. Sizin gəlişiniz bütün daşkəsənlilərin qəlbində əbədi iz qoyacaq və daim yadda qalacaqdır.

Respublikamızda sosial-iqtisadi inkişafın təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Daşkəsən rayonunun inkişafı da ümummilli liderimiz Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Sonsuz sevincimizə səbəb olan Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yolunun və filizsaflaşdırma müəssisəsinin açılışı Sizin rayonumuza, daşkəsənlilərə olan məhəbbətinizin, qayğı və diqqətinizin təzahürüdür. Bu gün ulu öndərimizin abidəsinin və xatirə muzeyinin açılışı daşkəsənlilərin ümummilli liderimizin xatirəsinə böyük hörmət və ehtiramının daha bir təsdiqidir.

İcazə verin, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramının və 2006-cı il 12 iyun tarixli Sərəncamınızla təsdiq edilmiş Daşkəsən rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər planının yerinə yetirilməsi barədə Sizə məruzə edim. Sizin çox böyük diqqət və qayğınız nəticəsində, tapşırıq və göstərişinizlə 2006-cı il ərzində Daşkəsən rayonunun sosial-iqtisadi inkişafı sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, rayonda üç məktəb tikilmiş, 6 məktəb, 2 uşaq bağçası, 6 mədəniyyət evi, bir klub, bir kitabxana, üç xəstəxana və şəhərin yaşayış binalarının dam örtükləri əsaslı təmir olunmuşdur.

Daşkəsən şəhərinin su-kanalizasiya sistemi yenidən qurulmuşdur. Beş yaşayış məntəqəsinə arx su xətti çəkilmişdir. Rayonda 21 kilometrlik elektrik xətti çəkilmiş, şəhərin işıqlandırma sistemi yenidən qurulmuşdur. 4 kilometr yeni qaz xətti, 6 kilometr telekommunikasiya xətti çəkilmiş, elektron tipli ATS-lər quraşdırılmışdır. Şəhərdə 3,5 kilometr uzunluğunda küçələr, kəndlərarası 50 kilometrlik yol təmir olunmuşdur. Daşkəsəndə əhəng daşı müəssisəsi yaradılmış, yeni asfalt zavodu, süd emalı zavodu, xalçaçılıq sexləri, ticarət mərkəzləri, iaşə müəssisəsi tikilib istifadəyə verilmişdir. Rayonda yeni aqrotexniki servis xidməti müəssisəsi yaradılmışdIr. Bu da kənd təsərrüfatının inkişafına əsas zəmindir. Fermerlərə, ayrı-ayrı insanlara aşağı faizlərlə kreditlər verilmişdir.

Cənab Prezident, görülmüş tədbirlər nəticəsində 2006-cı ilin keçən dövrü ərzində 1022 yeni iş yeri açılmışdır ki, bunun da 607-si daimi iş yeridir.

Fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü, diqqət və qayğısı ilə Daşkəsəndə quruculuq, tikinti, abadlıq işləri aparılmışdır. Heydər Əliyev Fondunun xətti ilə Daşkəsən şəhərində ümummilli liderimizin abidəsinin ucaldılmasına, Heydər Əliyev adına parkın salınmasına, Heydər Əliyev Muzeyinin, Yuxarı Daşkəsən qəsəbəsində 200 yerlik, Çovdar kəndində 80 yerlik məktəblərin, Daşkəsən şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 12 mənzilli binanın,

məscidin tikilib istifadəyə verilməsinə, Şəhidlər xiyabanı kompleksinin tikilməsinə görə biz daşkəsənlilər daim hörmətli Mehriban xanıma minnətdarıq.

Cənab Prezident!

Sizin rayonumuza tarixi səfəriniz qüvvəmizi qat-qat artırır və bizi yeni-yeni uğurlara ruhlandırır. Respublikamızın hər yerində, hər sahəsində inkişaf olduğu, quruculuq işləri getdiyi kimi, bizim də bunda öz payımız olmalıdır. Sizi Daşkəsən rayonunun bütün əhalisi adından bir daha əmin edirəm ki, həmin vəzifənin layiqincə öhdəsindən gələcəyik. Bütün tapşırıqlarınızı yerinə yetirəcək və Sizin daimi diqqət və qayğınız sayəsində Daşkəsən rayonunu inkişaf etdirib qələbədən-qələbəyə, uğurdan-uğura aparacağıq.

Yaşasın müstəqil Azərbaycan dövləti!

Bizi qələbədən–qələbəyə, uğurdan-uğura aparan möhtərəm Prezidentimiz İlham Əliyevə eşq olsun!

"Det.Al Limited" şirkətinin baş direktoru Əli Özkurtun çıxışı

- Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, əziz daşkəsənlilər!

Sizlərin hüzurunda ölkəmizin Prezidenti, möhtərəm İlham Əliyevə hamınızın adından "Xoş gəlmisiniz!" deyirəm.

Bu gün bizim üçün bayram qədər sevincli və xoşbəxt bir gündür. Çünki 16 ildir fəaliyyətini dayandıran, ölkənin ən dəyərli istehsal sahələrindən olan mədən xeyir-duanız və uğurlu əllərinizlə yenidən işə başlayır.

Ayağınız o qədər düşərlidir ki, ilin bu mövsümündə belə bir gözəl hava da sanki Sizə "Xoş gəldin!" deyir.

Cənab Prezident, bir az əvvəl hörmətli icra hakimiyyəti başçısının da söylədiyi kimi, bizim məqsədimiz buranın yenidən həyata qaytarılmasıdır. Bu gün də həmin proses Sizin uğurlu əlinizlə başladı. Bizim üçillik planlarımıza uyğun olaraq, Asiyanın ən böyük metallurgiya şirkətlərindən biri olan "Nobl" ilə birgə əldə edilən saziş çərçivəsində 235 milyon dollarlıq investisiya qoyuluşunu həyata keçirəcəyik. Ən son texnologiyadan istifadə edəcəyik. Hazırda bəzi işləri görməyə başlamışıq. Bu mədən də, inşallah, bu gündən etibarən fəaliyyətə başlayacaqdır. Cənab Prezident, iki ay ərzində 4 milyon dollara yaxın sərmayə qoymuşuq. Bundan əlavə 1,5 milyon dollara yaxın vəsait də əməkhaqqı, vergi, elektrik borclarının ödənilməsinə sərf edilmişdir. Allaha şükür ki, bu gün alnımız açıqdır. Allah bizi Sizin yanınızda başıaşağı etməsin. Sağ olun.

"Daşkəsən Filizsaflaşdirma" ASC-nin baş mühəndisi Müzayəddin Həsənovun çıxışı

- Möhtərəm Prezident!

Hörmətli Mehriban xanım!

Sizi bütün daşkəsənlilər və Daşkəsən ağsaqqalları adından salamlayır və "Xoş gəlmisiniz!" deyirəm.

Bu gün Daşkəsəndə hər bir ailədə bayramdır. İlk dəfə olaraq, ölkəmizin Prezidenti Daşkəsənə gəlmişdir. Möhtərəm Prezident, xalq Sizi çox sevir. Ona görə sevir ki, Siz xalq üçün çalışırsınız. Bu gün Azərbaycan və dünya ictimaiyyəti bilir ki, Siz yaradıcı, qurucu Prezidentsiniz. Ona görə də Siz xalqımızın ən sevimli oğlusunuz.

Hörmətli Prezident!

Mən 1968-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirərək, bu müəssisəyə işləməyə gəlmişəm. Fəhləlikdən müəssisənin baş mühəndisi vəzifəsinə qədər yüksəlmişəm. Demək olar ki, müəssisənin inkişaf tarixinin canlı şahidiyəm. Daşkəsən rayonunun iqtisadiyyatının əsasını bu müəssisə təşkil edir. Daşkəsən camaatının bütün həyatı bu müəssisə ilə bağlıdır. Ulu öndərimiz Heydər Əliyevin dağ rayonlarının iqtisadiyyatının inkişaf etdirilməsi barədə Sərəncamından sonra müəssisəmiz daha da gücləndi. Onun inkişaf dövrü də 1970-80-ci illərə təsadüf edir. Lakin 1980-ci illərin sonu - 90-cı illərin əvvəlində respublikaya rəhbərlik edən səriştəsiz adamların fəaliyyəti nəticəsində ölkəmizin iqtisadiyyatı iflic vəziyyətinə düşdü. Həmin dövrdə bizim müəssisəmizin də fəaliyyəti dayandı. Səmimi etiraf edirəm ki, bu müəssisənin dayanması bütün Daşkəsən rayonunda həyatın donması demək idi. Müəssisəmizin fəaliyyətinin dayandığı 15 il ərzində daşkəsənlilər ümidlərini itirməyərək, onun yenidən işə düşəcəyini gözləmişlər. Ancaq biz inanmırdıq ki, belə bir gün gəlib çatar. Ona görə də Daşkəsən camaatı bu gün ikiqat bayram hissi keçirir. Allaha şükürlər olsun ki, Sizin rəhbərliyiniz, işgüzarlığınız və xeyir-duanızla Daşkəsən filizsaflaşdırma müəssisəsi işə düşdü.

Cənab Prezident, Siz bayaq o düyməni basmaqla təkcə müəssisəyə deyil, bütün Daşkəsən rayonuna yeni həyat, yeni ruh bəxş etdiniz. Respublikanın ağır sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyur. Hazırda burada 300 nəfər daşkəsənli çalışır, yüksək əməkhaqqı alaraq rahat yaşayırlar. Son dövrdə Sizin rəhbərliyiniz sayəsində rayonumuzda da çox işlər görülmüşdür. Klub, muzey, məscid, univermaq tikilib istifadəyə verilmişdir. Biz daşkəsənlilər başa düşürük ki, bu, Sizin təsdiqlədiyiniz regionların sosial-iqtisadi inkişafı proqramının nəticəsidir.

Hörmətli Prezident!

Biz Sizin xalq üçün gördüyünüz işləri çox bəyənirik. Az vaxt ərzində bu qədər iş yerlərinin açılması, bu qədər müəssisələrin, idman qurğularının tikilib istifadəyə verilməsi, yolların çəkilməsi, körpülərin salınması, ulu öndərimizin şah əsəri olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə salınması məhz Sizin yorulmaz əməyinizin və xalqınıza olan məhəbbətin nəticəsidir. Bütün bunlar Sizin yaradıcı və qurucu Prezident olduğunuzu bir daha təsdiqləyir. Biz inanırıq ki, Siz xalqımızın ən ağrılı problemi olan Qarabağ məsələsini də uğurla həll edəcəksiniz. Respublikamızın gələcəyi ilə bağlı planlarınıza ürəkdən inanırıq. Bilirik ki, Siz verdiyiniz sözü həmişə işinizlə təsdiq edirsiniz.

Möhtərəm Prezident!

Biz daşkəsənlilər bu dağların övladlarıyıq. Bizim Sizə olan sevgi-məhəbbətimiz bu dağlar qədər böyükdür. Biz Sizi çox sevirik. Düzdür, Sizi respublikanın hər yerində sevirlər. Ancaq biz daşkəsənlilər Sizi hamıdan çox sevirik.

Cənab Prezident, daşkəsənlilər həmişə Sizə arxa olacaq və Sizi dəstəkləyəcəklər. Arzumuz odur ki, bir olan Allah Sizi həmişə qorusun, xalqımız üçün gördüyünüz nəhəng işlərdə Tanrı Sizə kömək olsun!

Azərbaycan Prezidenti İlham Əliyevə eşq olsun!

X X X

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Əziz daşkəsənlilər,

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz dərin hörmət və məhəbbətimi ifadə edirəm.

Bu gün Daşkəsən rayonunun həyatında iki əlamətdar hadisə baş verir. Daşkəsən rayonuna gələn yol yenidən tikilib istifadəyə verilibdir. Bu gün mən bu yolu gəlmişəm, onu açmışam. Çox qısa müddət ərzində çəkilən ən müasir dünya standartlarına cavab verən bu yol Daşkəsən rayonunun inkişafına, daşkəsənlilərə xidmət edəcəkdir.

Azərbaycanda yol tikintisi çox geniş vüsət alıbdır. Bütün istiqamətlərdə yollar çəkilir. Azərbaycanı başqa ölkələrlə birləşdirən magistral yollar və eyni zamanda rayonlara gedən yollar, şəhərlərarası yollar, kənd yolları, ən ucqar kəndlərə yollar çəkilir. Əsas şərt də ondan ibarətdir ki, bütün yollar ən yüksək dünya standartlarına cavab versin. Bu gün biz bunu görürük və Daşkəsənə çəkilən yol da ən yüksək səviyyədədir. İndi insanlar rahat gəlib-gedəcəklər. Mən bilirəm ki, bu yol tikiləndən bəri heç vaxt təmir olunmamışdı, çox bərbad vəziyyətdə idi. İnsanların gəliş-gedişi üçün çox böyük problemlər yaradırdı. İndi isə bu yolu rahat getmək olar. Bu çox böyük əhəmiyyət kəsb edən məsələdir. Bir tərəfdən, insanlara rahatlıq verəcək, digər tərəfdən, rayonun inkişafına xidmət göstərəcəkdir.

Rayonunuzun çox böyük imkanları, potensialı var. Burada çox gözəl yerlər var, təbiət çox gözəldir, çox zəngindir. Əminəm ki, bu yol tikiləndən sonra burada turizmin inkişafı daha da sürətlə gedəcəkdir. Rayonun infrastrukturuna sərmayələr qoyulacaq və beləliklə Daşkəsən rayonu sürətlə inkişaf edəcəkdir.

İkinci önəmli hadisə Filizsaflaşdırma kombinatının işə düşməsidir. Deyə bilərəm ki, bu, Daşkəsən rayonunun tarixində çox əlamətdar hadisədir. Hesab edirəm ki, bu kombinatın fəaliyyətə başlaması bütövlükdə Azərbaycanın hərtərəfli inkişafı üçün çox tarixi əhəmiyyətə malikdir. Kombinatın işə başlaması nəticəsində minlərlə yeni iş yerləri açılacaqdır. Artıq iş yerlərinin açılması prosesi başlanmışdır. Yeni sənaye istiqaməti, sənaye kompleksi yaranacaqdır. Azərbaycanda yeni zavodlar tikiləcək, minlərlə insan yüksək maaşla təmin olunacaqdır. Azərbaycanın sənaye kompleksi, qeyri-neft sektoru inkişaf edəcək və ümumən ölkəmizin iqtisadiyyatı hərtərəfli inkişaf edəcəkdir. Filizsaflaşdırma kombinatının tarixini siz

yaxşı bilirsiniz. 1940-cı illərdə burada bu mədən yaradılmışdı. O vaxt hökumət qərar vermişdi ki, burada işlər başlansın və uzun illər ərzində bu mədən səmərəli işləmişdir. Amma 1990-cı illərin əvvəlində bu kombinatın dayanması ilə yaranan problemlər insanlara çox böyük təsir göstərmişdir. Həm burada işləyən insanların kombinatın fəaliyyətində böyük zəhməti olub, həm də kombinatın mövcudluğu rayonun inkişafına, insanlara böyük dəstək idi.

Kombinat bağlanandan sonra, əlbəttə ki, işsizlik də yarandı, insanların da rayondan getmə prosesi başlanmışdı. İndi biz kombinata və demək olar ki, Daşkəsən rayonuna yeni həyat veririk. Buraya qısa müddət ərzində, növbəti üç ildə 200 milyon dollardan çox vəsait qoyulacaq, həm Daşkəsəndə, həm də Gəncədə ən yüksək səviyyəli zavodlar tikiləcəkdir. Rayonun bütün infrastrukturu yeniləşəcək və bəlkə də, vaxt gələcək, gün gələcək ki, burada kombinatda və onun fəaliyyəti nəticəsində yaradılacaq zavodlarda işləmək üçün başqa yerlərdən insanlar gələcəklər. Bu vaxt gələcək, mən buna əminəm. Beləliklə, rayonun əhalisi yaxşı yaşayacaq. İnsanlar yüksək maaş alacaqlar, yaxşı şəraitdə yaşayacaqlar. Həm insanların rifah halı yaxşılaşacaq, həm Azərbaycanın iqtisadi potensialı güclənəcək və bütünlükdə ölkənin sənaye kompleksi inkişaf edəcəkdir. Bu kombinatın fəaliyyətə başlamasının nəticələri budur. Biz bunu bilirik və bilirik ki, haraya gedirik, məqsədimiz nədir. Məqsədimiz güclü dövlətin yaranması, güclü iqtisadiyyatın yaranmasıdır. Biz buna nəyin hesabına nail ola bilərik? Əlbəttə ki, yeni sənaye müəssisələrinin yaranması ilə. Yalnız sənaye müəssisələrinin yaranması Azərbaycanın hərtərəfli inkişafına xidmət göstərə bilər. Bizim indi güclü iqtisadi potensialımız var. İqtisadiyyatımız dünyada ən yüksək sürətlə inkişaf edir. Bu ilin 9 ayında iqtisadi artım 34 faiz olubdur. Bu, dünyada görünməmiş bir hadisədir. Azərbaycanda sənaye istehsalı 40 faiz artıbdır. Bunun nəticəsində ölkəyə böyük valyuta axını gəlir, büdcəmiz ildən-ilə artır və imkan verir ki, biz sosial məsələlərin həlli üçün vəsait ayıraq. Rayonların abadlaşmasına vəsait ayıraq. Daşkəsən rayonunun timsalında da biz bunu görürük.

Güclü iqtisadi potensial Azərbaycan üçün çox önəmlidir. Çünki qarşıda duran bütün vəzifələrin həlli üçün əsas şərt iqtisadi güc, iqtisadi potensialdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın müasir neft strategiyasının nəticəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsi tarixi hadisədir. Bütün iqtisadiyyata təkan verən hadisədir. İndi bu nadir imkanlardan istifadə etməli, güclü sənaye kompleksi yaratmalıyıq. Bu məqsədlə Azərbaycanda Sənaye və Energetika Nazirliyi yaradılmışdır. Nazirlik qarşısında konkret vəzifələr qoyulmuşdur ki, qısa müddət ərzində Azərbaycanın qeyri-neft sektorunun inkişafına dair proqram təqdim olunsun, biz bunu qəbul edək və işə başlayaq. Qısa müddət ərzində Azərbaycanda müxtəlif sahələrdə yeni, müasir standartlara cavab verən sənaye komplekslər, sənaye istiqamətləri yaranacaqdır.

Əminəm ki, Filizsaflaşdırma kombinatının fəaliyyətə başlaması böyük bir sənaye kompleksinin yaranması deməkdir. Bu işlər digər sahələrdə, bütün qeyri-neft sektorunda getməlidir. İndi bizim diqqət mərkəzimizdə duran əsas məsələ qeyri-neft sektorunun inkişafıdır. Çünki neft-qaz sektorunda işlərimiz yaxşı gedir, bütün vəzifələri yerinə yetirmişik. Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq fəaliyyətdədir, Bakı-Tbilisi-Ərzurum qaz kəməri bu ilin sonuna qədər işə başlayacaqdır. Beləliklə, biz neft-qaz sektorunda bütün məsələlərin həllinə nail olmuşuq. İndi əsas məsələ qeyri-neft sektorudur. Sənaye istehsalı, infrastruktur layihələri və sosial məsələlərin həlli.

Bütün bunlar bir-birinə bağlıdır və ilk növbədə iqtisadi potensiala bağlıdır. Məsələn, buraya çəkilən yolun timsalında biz bunu görürük. Əgər Azərbaycanın uğurlu iqtisadi siyasəti olmasaydı, büdcə gəlirləri artmasaydı, bu yolu nəyin hesabına çəkə bilərdik? Ancaq və ancaq uğurlu iqtisadi siyasət nəticəsində büdcə gəlirləri artır, əlavə vəsait yaranır və biz bu vəsaiti infrastruktur layihələrinə və insanları narahat edən məsələlərə xərcləyirik və bundan sonra da bu istiqamətə yönəldəcəyik. Məktəblər tikilir. Daşkəsən rayonunda da tikilir və bu gün mən yeni təmir olunmuş məktəbə də baş çəkdim. Orada şəkillər asılmışdı, məktəbin əvvəlki və indiki vəziyyətini gördüm. Çox böyük fərq var.

Eyni zamanda, məktəbdə bütövlükdə Daşkəsən rayonunun əvvəlki və indiki vəziyyətini əks etdirən fotoşəkillər nümayiş etdirilirdi. Mən ilk dəfədir ki, Daşkəsən rayonundayam. Ona görə mən müqayisəni yalnız bu fotoşəkillər vasitəsilə edə bilərəm. Siz, burada yaşayan insanlar bunu əyani şəkildə görürsünüz. Qısa müddət ərzində rayonun demək olar ki, bütün siması dəyişibdir. Yollar salınıb, asfaltlaşdırılıb, işıq dirəkləri qoyulub, parklar salınıb, binalar təmir olunub və rayon çox gözəl görkəm alıbdır. Bütün bunları etmək mümkündür. Bu onu göstərir ki, əgər iradə varsa və əgər düzgün qərarlar qəbul olunursa, hər bir şeyi etmək mümkündür. Qərarlar da qəbul olunur. Bilirsiniz ki, Daşkəsən rayonunun inkişafına dair xüsusi sərəncam imzalanmışdır. Sərəncamda nəzərdə tutulan məsələlər rayonun bütövlükdə abadlaşmasına və infrastrukturun yeniləşməsinə gətirib çıxaracaq və artıq biz bunun ilkin nəticələrini görməkdəyik. Daşkəsən

rayonunun rəhbərliyi dəyişdirilmiş, yeni icra hakimiyyəti başçısı təyin edilmişdir. Qısa müddət ərzində böyük işlər görülübdür və bunları qeyd etmək mümkündür. İş görmək üçün qərarlar, proqramlar qəbul olunmalı, maddi vəsait ayrılmalı, düzgün kadr siyasəti aparılmalı və yerlərdə işləyən insanlar öz vəzifə borcunu ləyaqətlə icra etməlidirlər. Bütün bunlar Daşkəsən rayonunun timsalında var və çox şadam ki, mənim təyin etdiyim icra hakimiyyəti başçısı Tahir sizin etimadınızı və mənim etimadımı doğruldubdur. Hər bir adamın əməlləri onun gördüyü işlərdə öz əksini tapır. Söz demək, vəd vermək olar, hansısa bəyanat vermək olar. Amma əgər bunların arxasında konkret işlər dayanmırsa, heç bir əhəmiyyəti yoxdur.

Ona görə mən həmişə demişəm, bir də demək istəyirəm ki, bizim siyasətimiz bizim işimizdir. Bizim siyasətimiz görülən işlərdir, əldə olunan nəticələrdir, yaradılan müəssisələr, açılan iş yerləri, tikilən məktəblər, salınan yollar, körpülər, tikilən elektrik stansiyaları, su xətləridir. Budur, bizim siyasətimiz, budur, bizim işimiz. Bu gün səhər Gəncə şəhərində aeroportun açılışında iştirak edirdim. Aeroportun tikilməsi də mənim təşəbbüsümlə başlanmışdı və indi ən yüksək dünya standartlarına cavab verir. İndi başqa yerlərdən insanlar yeni alınmış xarici istehsallı rahat təyyarələrlə gələcək, gözəl aeroportun xidmətindən istifadə edəcək, gözəl yolla Daşkəsənə gələcək və Daşkəsəndə bu abadlığı, bundan sonrakı inkişafı görəcəklər. Bütün bunları edirik, edəcəyik. Ölkəmizi hərtərəfli inkişaf etdiririk, Azərbaycan xalqının rahat yaşamasını təmin edirik.

Əziz daşkəsənlilər, çox şadam ki, bu gün sizinlə birlikdəyəm. Ağsaqqal öz çıxışında daşkəsənlilərin mənə olan münasibətini bildirdi. Mən də öz tərəfimdən demək istəyirəm ki, daşkəsənliləri sevirəm, daşkəsənliləri dəstəkləyirəm və Daşkəsənin hərtərəfli inkişafı üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm. Sizi kombinatın işə başlaması münasibətilə bir daha ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

(Dövlətimizin başçısının nitqi diqqətlə dinlənildi və dəfələrlə sürəkli alqışlarla qarşılandı).

AZƏRTAC
2006, 1 noyabr

Daşkəsəndə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni yaşayış binası istifadəyə verilmişdir

(31 oktyabr 2006-cı il)

Oktyabrın 31-də Daşkəsən şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş yaşayış binası istifadəyə verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanı burada böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.

Dövlətimizin başçısına məlumat verildi ki, 12 mənzildən ibarət üçmərtəbəli binanın iki mərtəbəsi Nazirlər Kabinetinin, bir mərtəbəsi isə Heydər Əliyev Fondunun vəsaiti hesabına tikilmişdir. Birinci-ikinci mərtəbələrdəki 8 mənzil aidiyyəti üzrə paylanır. Üçüncü mərtəbədəki 4 mənzil isə internat məktəbində böyümüş gənclər ailə qurduqdan sonra onlara veriləcəkdir.

Prezident İlham Əliyev ayrı-ayrı mənzillərə baxaraq, burada yaradılan şəraitlə yaxından tanış oldu və görülən işləri yüksək qiymətləndirdi. Respublikamızın rəhbəri adından hər mənzilə televizor hədiyyə edildi.

Sonra dövlətimizin başçısı mənzillərin orderlərini sahiblərinə təqdim etdi.

Şəhid Mikayıl Mustafayevin atası Murtuzəli Mustafayev Prezidentə müraciət edərək, şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə göstərilən qayğıya, o cümlədən belə rahat mənzillər verilməsinə görə minnətdarlığını bildirdi.

Rayon Qarabağ müharibəsi əlilləri və şəhid ailələri ictimai birliyinin sədri Bəxtiyar İsmayılov da dövlətimizin başçısına təşəkkür edərək, gələcəkdə də belə binaların tikilməsinə ehtiyac olduğunu söylədi.

İLHAM ƏLİYEV: Burada nə qədər Qarabağ müharibəsi əlili var?

BƏXTİYAR İSMAYILOV: Daşkəsən rayonunda 38 nəfərdir.

İLHAM ƏLİYEV: Onların ev şəraiti yaxşı deyil?

BƏXTİYAR İSMAYILOV: Xeyr.

İLHAM ƏLİYEV: Yavaş-yavaş həll edərik. İndi bütün rayonlarda şəhid ailələri, Qarabağ əlilləri üçün yaşayış binaları tikilir və daha da çox tikiləcəkdir. Bizim iqtisadi imkanlarımız artır. İlk növbədə, biz ehtiyacı olan insanların həyat səviyyəsini yaxşılaşdırmalıyıq. Xüsusilə, Qarabağda vuruşan və sağlamlığını itirmiş insanların həyat səviyyəsini yaxşılaşdırmaq hər bir vəzifəli şəxsin borcu olmalıdır. O cümlədən şəhid ailələrinə qayğı. Düzdür, bu evlər, bu şərait həlak olmuş insanları qaytarmaz. Amma heç olmasa, sizin dərdinizi bir balaca yüngülləşdirir. Ona görə bu siyasət Azərbaycanda aparılır. Bütün rayonlarda bu siyasət davam edəcəkdir. Ona görə də siz arxayın olun, belə binalar çox tikiləcəkdir.

Sizi bir daha təbrik edirəm. Arzu edirəm ki, bu gözəl evdə xoşbəxt yaşayasınız. Siz çox böyük çətinliklər çəkmisiniz, əlil olmusunuz, doğmalarınızı itirmisiniz. Ona görə gərək bütün icra nümayəndələri sizə qayğı göstərsinlər.

İcra hakimiyyətinin başçısı da burada yaxşı işlər görür. Görürsünüz ki, Daşkəsəndə qısa müddətdə böyük dəyişikliklər olubdur.

MURTUZƏLİ MUSTAFAYEV: Cənab Prezident, hələ indiyədək Daşkəsən rayonuna belə icra nümayəndəsi gəlməmişdir. Göndərdiyiniz kadra görə çox sağ olun. Bütün sakinlər adından Sizə dərin minnətdarlığımızı bildiririk. Sizin göstərişləriniz uğurla icra edilir. Daşkəsən camaatının 85 faizi işsizlikdən qurtarıbdır. İndi normal şəraitdə yaşayırıq. Sizə çox minnətdarıq. Hazırda başqa rayonlardan gəlib Daşkəsəndə işləyirlər. Vaxtilə bizim camaat buradan Şəmkirə, Bakıya, başqa yerlərə çörək dalınca gedirdi. Bəli, Sizin sayənizdə çörək tapmışıq. Günümüz çox yaxşı keçir.

İLHAM ƏLİYEV: Düz deyirsiniz, bundan sonra buraya başqa rayonlardan işləməyə gələcəklər. İndi böyük kombinat işə başlayır. Burada minlərlə insan işləyəcəkdir. Zavodlar olacaq, infrastruktur yaradılır, yol çəkilir. Bilmirəm, siz təzə yolla getmisiniz, yoxsa yox, çox yüksək səviyyədədir.

MURTUZƏLİ MUSTAFAYEV: Bəli, getmişik. Cənab Prezident, ilk dəfədir Daşkəsən rayonuna bu cür yol çəkilibdir. Heç SSRİ-nin vaxtında da belə yol olmayıbdır.

İLHAM ƏLİYEV: Düzdür, heç vaxt olmayıbdır. Amma indi ən yüksək səviyyədədir. Ona görə də Daşkəsən rayonu irəliyə gedəcəkdir. Artıq burada gözəl işlər görülür, şəhər abadlaşır. İndi işıq, qaz problemi də həll olunur.

Elektrik enerjisi ilə təminat necədir?

MURTUZƏLİ MUSTAFAYEV: Yaxşıdır, problem yoxdur. Əvvəllər çətinlik olurdu, amma indi yoxdur.

İLHAM ƏLİYEV: İndi biz Azərbaycanda 6 elektrik stansiyası tikirik. Nə üçün? Ona görə ki, hər yerdə işıq olsun. Ən ucqar kənddə də, ən uzaqda yerləşən yerdə də işıq olmalıdır. Daşkəsən də belə yerlərdən biridir. Azərbaycanın başqa rayonlarından fərqli olaraq, ucqar rayondur. Özü də buraya yol ancaq Gəncədəndir. Ona görə prinsipcə belə rayonların, yəni əsas magistral yollardan kənarda yerləşən rayonların inkişafına daha da böyük diqqət göstərilməlidir. Çünki mərkəzdə yerləşən rayonlarda iş daha çoxdur, gediş-gəliş var, ticarət daha yaxşı gedir. Amma ucqar yerlərdə imkanlar o qədər də geniş deyildir. Ona görə ilk növbədə diqqət bu rayonlara göstərilməldir.

Biz Lerikə, Yardımlıya, Xınalığa, indi Daşkəsənə yol çəkdik. Nə üçün? İnsanlar rahat gedib-gəlsinlər, yaxşı yaşasınlar. Ona görə bu bizim planlarımızdır və siz də bunu görürsünüz ki, burada qısa müddətdə çox böyük dəyişikliklər olubdur. Bundan sonra da olacaq ki, insanlar yaxşı yaşasınlar.

TAHİR KƏRİMOV: Cənab Prezident, Sizin rayonların inkişafı, insanların yaxşı yaşaması üçün qarşıya qoyduğunuz hər bir tapşırığı bundan sonra da ləyaqətlə yerinə yetirməyə çalışacağıq.

BƏXTİYAR İSMAYILOV: Cənab Prezident, rayon rəhbərliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə qayğı göstərilir.

İLHAM ƏLİYEV: Hər bir vəzifəli şəxs xalqa xidmət etməlidir. Prezident kimi mən də öz borcumu bunda görürəm. Mən xalqa xidmət etmək üçün işləyirəm.

MURTUZƏLİ MUSTAFAYEV: Xalq Sizin arxanızdadır, Sizi dəstəkləyir, Sizə minnətdarıq. Bütün şəhid ailələri Sizin daxili və xarici siyasətinizi dəstəkləyir.

BƏXTİYAR İSMAYILOV: Cənab Prezident, Daşkəsən rayonu xoşunuza gəldimi?

İLHAM ƏLİYEV: Çox. Mən birinci dəfədir Daşkəsənə gəlirəm. Çox gözəl, səfalı məkandır. Dağlar, yollar, çaylar, - yolun kənarı ilə də çay axır, - çox gözəl mənzərədir. Şəhərin mərkəzi də çox müasirdir. Amma düzdür, köhnə şəkillərə baxanda mən bir az təəccübləndim və dedim ki, belə olmaz. Rayon son altı ay ərzində görkəmini tamamilə dəyişdi. Bütün binalar rənglənir, yeni binalar tikilir, təmir olunur, küçələr asfaltlanır, işıq dirəkləri qoyulur. Burada abadlıq var.

MURTUZƏLİ MUSTAFAYEV: Cənab Prezident, Daşkəsən sanki, Londondur. Qəribə səslənsə də, əvvəlki vəziyyətə baxdıqda, indi Londona bənzətmək olar. Bu, qısa müddətdə Sizin köməyinizlə olmuşdur.

İLHAM ƏLİYEV: Amma Londonda belə gözəl dağlar, belə təmiz hava yoxdur.

BƏXTİYAR İSMAYILOV: Cənab Prezident, Sizdən bir xahişimiz də var. Rayonumuzdan olan Qarabağ müharibəsi əlilləri uzun müddətdir avtomobil növbəsindədirlər. İndiyədək Daşkəsəndən bir nəfər də avtomobil almayıbdır.

İLHAM ƏLİYEV: Almayıb?

TAHİR KƏRİMOV: Cənab Prezident, əmək və əhalinin sosial müdafiəsi naziri ilə danışmışam.

İLHAM ƏLİYEV: Mənim adımdan deyin, tezliklə təşkil edib göndərsin.

BƏXTİYAR İSMAYILOV: Cənab Prezident, çox sağ olun.

X X X

Prezident İlham Əliyev yeni mənzillərin sahiblərini bir daha təbrik etdi.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 1-də Gədəbəy rayonuna gəlmişdir. Dövlətimizin başçısı əvvəlcə Heydər parkının və ulu öndərin abidəsinin açılışında iştirak etdi, rayon ictimaiyyətinin nümayəndələri qarşısında nitq söylədi.

Sonra Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətinin Gədəbəy yatağı məhsullarının geoloji sərgisinə, Gədəbəy İdman Kompleksinə baxdı, əsasən ruslar yaşayan Slavyanka kəndində rus icmasının nümayəndələri ilə görüşdü, burada Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən orta məktəb binasında inşaat işlərinin gedişi ilə tanış oldu.

X X X

Həmin gün Gədəbəydən Şəmkir rayonuna gələn Prezident İlham Əliyev ulu öndərin abidəsi önünə gül qoydu, Heydər Əliyev muzeyinin açılışında iştirak etdi.

Dövlətimizin başçısı sonra Şəmkir Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimində nitq söylədi, Şəmkir-Qazax avtomobil yolunun açılışı mərasimində iştirak etdi, akademik Zərifə xanım Əliyevanın adını daşıyan parka gələrək, görkəmli oftalmoloq alimin abidəsi önünə gül dəstəsi qoydu.

Prezident İlham Əliyev həmin gün Şəmkir quşçuluq fabriki, Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunmuş Füzuli qəsəbə orta məktəbi ilə də tanış oldu.

(Dövlətimizin başçısının Gədəbəy və Şəmkir rayonlarına səfəri barədə materiallar qəzetin növbəti nömrələrində dərc ediləcəkdir).

AZƏRTAC
2006, 1 noyabr

Gədəbəy

2006, 1 noyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Gədəbəy rayonuna səfəri
- Gədəbəy filiz yatağı nümunələrindən ibarət sərgi ilə tanışlıq
- Gədəbəydə idmanın inkişafı üçün gözəl şərait yaradılmışdır
- Slavyanka kəndində görüşlər
- Ulu öndərin abidəsini ziyarət və Heydər Parkı ilə tanışlıq: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Azərbaycan Prezidenti İlham Əliyevin Gədəbəy rayonuna səfəri
(1 noyabr 2006-cı il)

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Gədəbəy rayonuna gəlmişdir.

Prezident İlham Əliyev müstəqil Azərbaycanın tarixində Gədəbəyə səfər edən ilk dövlət başçısı olmuşdur.

Prezident İlham Əliyev əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, sonra rayon ictimaiyyətinin nümayəndələri qarşısında nitq söylədi.

Dövlətimizin başçısı "Azərbaycan Beynəlxalq Mədən Əməliyyat" şirkətinin Gədəbəy yatağı məhsullarının sərgisinə və idman kompleksinə baxdı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Gədəbəy rayonunun Slavyanka kəndində məskunlaşan rus icmasının nümayəndələri ilə görüşdülər, Heydər Əliyev Fondu tərəfindən bu kənddə tikilən orta məktəbdə inşaaat işlərinin gedişi ilə maraqlandılar.

AZƏRTAC
2006, 2 noyabr

Gədəbəy filiz yatağı nümunələrindən ibarət sərgi ilə tanışlıq
(1 noyabr 2006-cı il)

Prezident İlham Əliyev noyabrın 1-də Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətinin Gədəbəy filiz yatağı nümunələrindən ibarət sərgisi ilə tanış olmuşdur.

Şirkətin baş direktoru Qorden Luis dövlətimizin başçısına sərgidə nümayiş etdirilən filiz nümunələri və yatağın işlənilməsi layihələri barədə məlumat verdi. XIX əsrin ikinci yarısında Almaniyanın Siemens qardaşları firması Gədəbəy ərazisində yerləşən mis yataqları bazasında iri misəritmə zavodları yaratmışdılar. XX əsrin əvvəllərinədək bu zavodlarda min tonlarla mis əridilmişdi. Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti yeni yataqların axtarışına 2005-ci ilin fevralından başlamışdır. Hazırda burada 100-dən artıq işçi çalışır və gələcəkdə onların sayı daha da artacaqdır. Gədəbəy rayonu müxtəlif faydalı qazıntılarla zəngindir. Kəşfiyyat-qazma işlərində ən müasir texnologiyalardan istifadə edilir.

Prezident İlham Əliyev ərazini seyr etdi, yatağın iş planı, filiz nümunələri ilə tanış oldu, aparılan kəşfiyyat-qazma proseslərini əks etdirən fotoşəkillərə baxdı.

Dövlətimizin başçısına Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti adından minerallardan ibarət hədiyyə təqdim olundu.

AZƏRTAC
2006, 2 noyabr

Gədəbəydə idmanın inkişafı üçün gözəl şərait yaradılmışdır
(1 noyabr 2006-cı il)

Noyabrın 1-də Prezident İlham Əliyev Gənclər və İdman Nazirliyi tərəfindən tikilmiş və yeni istifadəyə verilmiş Gədəbəy İdman Kompleksi ilə tanış olmuşdur.

İdmançılar dövlətimizin başçısını və xanımını səmimiyyətlə qarşıladılar, onlara gül dəstələri təqdim etdilər.

Kompleksdə idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün gözəl şərait yaradılmışdır və burada respublika əhəmiyyətli yarışlar keçirmək mümkündür. Açıq havada futbol, mini futbol, basketbol, voleybol meydançaları da tikilmişdir. Gələcəkdə qış idman növləri üzrə qurğuların yaradılması da nəzərdə tutulmuşdur. Bütün bunlar ucqar dağ rayonu olan Gədəbəydə bədən tərbiyəsi və idmanın inkişafına güclü təkan verəcəkdir.

Dövlətimizin başçısı geniş idman zalında kiçik yaşlı cüdoçuların və stolüstü tennisçilərin məşqlərinə tamaşa etdi. Balaca cüdoçular Tamerlan Hüseynov və Rüfət Quliyev öz məharətlərini nümayiş etdirdilər. Rayonda müxtəlif yaş qrupları üzrə futbol komandaları da yaradılmışdır.

Prezident İlham Əliyev futbol meydançasını da gəzdi, topa zərbə endirdi. Gədəbəydə idmanın inkişafı üçün yaradılmış şəraiti yüksək qiymətləndirən dövlət başçısı ölkəmizdə gənc nəslin sağlam böyüməsinə bundan sonra da qayğı göstəriləcəyini bildirdi.

AZƏRTAC
2006, 2 noyabr

Slavyanka kəndində görüşlər
(1 noyabr 2006-cı il)

Xəbər verdiyimiz kimi, noyabrın 1-də Prezident İlham Əliyev Gədəbəy rayonunun əhalisi əsasən ruslardan ibarət olan Slavyanka kəndində olmuşdur.

Rus icmasının nümayəndələri dövlət başçısını və xanımını böyük mehribanlıqla, duz-çörəklə qarşıladılar, onlara gül dəstələri təqdim etdilər.

Prezidentlə görüşə qonşu İvanovka və Saratovka kəndlərinin sakinləri də Slavyankaya gəlmişdilər.

Slavyankanın ağsaqqalı İvan Popov və kəndin digər sakinləri Azərbaycan dövlətinin başçısını səmimiyyətlə salamlayaraq, regionların, o cümlədən ucqar kəndlərin inkişafına daim diqqət yetirdiyinə görə ona minnətdarlıq etdilər.

Prezident İLHAM ƏLİYEV mehribanlıqla qarşılandığına görə kənd sakinlərinə təşəkkür edərək dedi:

- Azərbaycan burada yaşayanların hamısının Vətənidir. Milliyyətindən, dinindən asılı olmayaraq, hamı qardaşımızdır. Bu, Azərbaycanın uğurlu inkişafının təminatıdır. Əlbəttə ki, Azərbaycanda uzun illərdən, onilliklərdən, əsrlərdən bəri yaşayan ruslar da ölkəmizin layiqli vətəndaşlarıdır. Onlar keçmişdə olduğu kimi, indi də Azərbaycanın inkişafına çox böyük töhfə verirlər.

İVAN POPOV: Mən özüm haqqımda belə deyəcəyəm. Otuz il tarlaçılıq briqadiri işləmişəm. Bizim nəsil mərhum atanız Heydər Əliyeviçi yaxşı tanıyır və sevirdi. İş elə gətirmişdi ki, mənim briqadam rayonda tez-tez birinci olurdu. Bir dəfə o, mənə "Volqa" avtomobili hədiyyə edilməsi barədə göstəriş verdi. Yəni Əliyevlə biz çoxdan tanış idik, qiyabi olsa da, hər halda, tanış idik.

Mənim mərhum valideynlərim televizora baxmırdılar, amma Heydər Əliyeviç çıxış edəndə mütləq onu dinləyirdilər. Çıxışa əvvəldən axıradək baxırdılar, ertəsi gün təkrar göstərildikdə, yenə də ekranın qarşısında əyləşirdilər.

X X X

Prezident İlham Əliyev və xanımı sonra kəndin sakini Mariya Vasilenkovanın qonağı oldular, onun yaşayış şəraiti, təsərrüfat fəaliyyəti ilə maraqlandılar. Sonra elə buradaca, çay süfrəsi arxasında kənd sakinləri ilə səmimi söhbət oldu.

4 minə yaxın əhalisi olan kəndin sakinləri adından dövlət başçısına əmin-amanlıq və uğurlar arzusu ilə dini kitab – Bibliya təqdim edildi.

Çay süfrəsi arxasında söhbət zamanı Slavyanka sakini NADEJDA İSMAYILOVA dövlətimizin başçısına bu yerlərdə hansı kənd təsərrüfatı bitkiləri yetişdirilməsindən danışaraq dedi:

- Bizə torpaq payı verdilər. Kartof, buğda əkib-becəririk, imkanı olanlar arpa əkir. Məhsulumuzu satırıq.

İLHAM ƏLİYEV: Normal qiymətə alırlar?

NADEJDA İSMAYILOVA: Yaxşıdır, şikayətlənmirik.

İLHAM ƏLİYEV: Qazancınız bəs edirmi? Bəs sizdə kənd təsərrüfatı texnikası sarıdan vəziyyət necədir?

NADEJDA İSMAYILOVA: Bizdə kolxozdan qalan texnika var.

İLHAM ƏLİYEV: Təzəsi yoxdur?

NADEJDA İSMAYILOVA: Təzəsi də var. Bu yaxınlarda veriblər.

İLHAM ƏLİYEV: İndi yaradılan "Aqrolizinq" vasitəsilə alınan yeni texnika varmı?

NADEJDA İSMAYILOVA: Bəli, təzə texnika da var – traktor və toxumsəpən, kartofyığan maşınlar. Gübrə gətirirlər, satırlar. Qiyməti də münasibdir.

İLHAM ƏLİYEV: Başlıcası odur ki, texnika, gübrə olsun, satış qaydaya salınsın. Təsərrüfatda qalan hər şey özünüzündür?

NADEJDA İSMAYILOVA: Bəli, özümüzündür. Məsələn, bu moruğu özümüz yetişdirmişik.

İLHAM ƏLİYEV: Bazardan heç nə almırsınız?

NADEJDA İSMAYILOVA: Xeyr. Yalnız inəyi olmayanlar alırlar. Bu il meyvəmiz olmadı, ağaclar çiçəkləyəndə şaxta vurdu.

İLHAM ƏLİYEV: Yəni, sizdə natural təsərrüfatdır. İnək saxlayırsınız, süd, yağ, taxıl, çörək də öz məhsulunuzdur.

NADEJDA İSMAYILOVA: Çörək bişirməyənlər onu satın alırlar. Çuğundur da satırıq.

İLHAM ƏLİYEV: Çuğundur da? Çuğundur əkirsiniz?

NADEJDA İSMAYILOVA: Az əkirdik.

İLHAM ƏLİYEV: Əkmirdiniz, çünki satmağa yer yox idi. İndi isə İmişlidə zavod tikmişik, orada çuğundura böyük tələbat var. İndi bir çox rayonlarda çuğundur əkirlər. Onu dərhal alıb, zavoda aparırlar.

Müxtəlif millətlərin nümayəndələrinin yaşadıqları bəzi ölkələrdə problemlər var, bizdə isə yoxdur. Dövlət səviyyəsində də belədir və hər bir yerdə də belə olmalıdır. Biz hamımız bir ailəyik.

MARİYA VASİLENKOVA: Nə qədərdir burada yaşayırıq, həmişə bir ailə kimi olmuşuq. Bizdə işdə də, məktəbdə də heç vaxt elə olmayıb ki, desinlər, o azərbaycanlıdır, bu rusdur.

İLHAM ƏLİYEV: İndi də belədir və Azərbaycanda heç vaxt başqa cür olmayacaqdır. Burada hamı rahat yaşayır.

MARİYA VASİLENKOVA: Siz buraya hər il gəlin. Çox şad olarıq.

VALENTİNA HÜSEYNOVA: Əgər bilsəydilər ki, Heydər Əliyeviç hakimiyyətə qayıdacaq, ruslardan heç biri köçüb getməzdi. Çıxıb gedənlər isə indi çox təəssüflənirlər.

QALİNA ƏLİYEVA: 1990-cı illər çox ağır illər idi, xüsusən də ona görə ki, bizim rayon sərhəd bölgəsidir. Heydər Əliyeviçə, Sizə çox minnətdarıq ki, hər yerdə qayda-qanun yaradılmışdır.

İLHAM ƏLİYEV: Əvvəla, əlbəttə, onda müharibə gedirdi. İkincisi, hakimiyyətdə olan Xalq Cəbhəsinin adamları ölkəni, əslində, uçuruma, dağılmağa doğru aparırdılar. Onlar bir ildə nəinki iqtisadiyyatı dağıtdılar, ölkəni, əslində, hərc-mərcliyə sürüklədilər, həm də Azərbaycanın həmişə məhz fəxr etdiyi millətlərarası həmrəyliyə çox böyük ziyan vurdular. İqtisadiyyatı, fabrikləri bərpa etmək olar, amma əmin-amanlığı, xoş münasibətləri, etimadı bərpa etmək çətindir. Odur ki, əgər Heydər Əliyev hakimiyyətə bir il gec gəlsəydi, nə olacağını, ümumiyyətlə, təsəvvür etmək çətindir. Lakin o, qayıdan kimi bütün bunlara son qoydu. Ölkə on il ərzində məhz belə inkişaf etdi, indi də üç ildir bu cür inkişaf edir. Əminəm ki, bu siyasət Azərbaycanda əbədi olacaqdır. Xəttimiz əbədi olacaq, ona görə də heç kim narahatlıq keçirməməlidir.

Əksinə, indi eşidirəm ki, əvvəllər çıxıb gedənlərin bəziləri geri qayıdırlar. Bu proses gedəcəkdir. Çünki Azərbaycanda iqtisadi vəziyyət yaxşılaşdıqca, daha çox iş yeri olduqca, daha çox əməkhaqqı verildikcə adamlar geri qayıdacaqlar. Niyə də qayıtmasınlar? Burada bərəkətli torpaq, təmiz hava, belə təbiət, kənd təsərrüfatı var.

Əlbəttə, kömək etmək lazımdır. Buna görə də "Aqrolizinq" yaratmışıq ki, kəndlilərə texnika, gübrə, kredit verək. Bunlar hamısı son illər yaranmışdır və ona görədir ki, kənd təsərrüfatı ilə məşğul olan insanlar daha yaxşı yaşaya bilsinlər. Onda ölkə də inkişaf edəcəkdir. Bu olmasa, camaat kənddən getməyə başlayacaq, kimisi şəhərə, kimisi başqa ölkəyə. Onda nə baş verəcək? Ölkə necə inkişaf edəcək?

NADEJDA İSMAYILOVA: Çox sağ olun, kəndimizdə yeni məktəb də tikilir.

İLHAM ƏLİYEV: Burada məktəb tikilir?

KAMRAN RZAZADƏ: (İcra hakimiyyətinin başçısı): Bəli, Heydər Əliyev Fondunun xətti ilə 260 şagird yerlik məktəb tikilir. İnşaat işləri artıq başa çatmaq üzrədir.

İLHAM ƏLİYEV: Bəlkə gedək, baxaq?

QALİNA ƏLİYEVA: Bizim Saratovkada da yeni məktəb korpusunun tikiləcəyini vəd edirlər. Çox sağ olun. Artıq təmir işləri görülmüşdür. Məktəbimizdə rus bölməsi genişlənir, əvvəl uşaq az idi, indi isə artır.

İLHAM ƏLİYEV: Kəndiniz böyükdür?

QALİNA ƏLİYEVA: 2000 nəfər əhalisi var.

KAMRAN RZAZADƏ: Saratovkada Heydər Əliyev Fondunun xətti ilə məktəb üçün 100 şagird yerlik əlavə binanın tikintisi planlaşdırılmışdır.

İLHAM ƏLİYEV: Bütün bu işləri qaydaya salmaq lazımdır. Azərbaycanda 3 il ərzində 700-dən çox məktəb tikilmişdir. O cümlədən, Gədəbəydə də çox tikilmişdir. Uşaqlar yaxşı şəraitdə oxumalıdırlar. Müəllimlər də yaxşı şəraitdə işləməlidirlər. Ümumiyyətlə, təkcə məktəblərdə deyil, hər yerdə - həm kəndlərdə, həm də şəhərlərdə yaxşı şərait olmalıdır. Yol da olmalıdır, işıq da, qaz da. Mənə dedilər ki, Saratovkada qaz yoxdur. Ancaq orada heç vaxt qaz olmamışdır. Sovet dövründə də olmamışdır. Ona görə də mən tapşırıq verəcəyəm ki, "Azəriqaz" məsələyə baxsın və müvafiq qərar qəbul etsin. Mən şəhərlərə, rayonlara, kəndlərə gedirəm ki, insanların ehtiyaclarını öyrənim. İndi gəlmişəm, siz dediniz, deməli, tədbir

görüləcəkdir. Gərək insanları narahat edən bütün məsələlər həll olunsun. İndi yaxşıdır, insanları narahat edən məsələlər getdikcə azalır. Çünki yollar salınır, məktəblər tikilir, iş var, texnika ayrılır və bundan sonra daha çox ayrılacaqdır.

Kənd təsərrüfatı ilə məşğul olmaq sərfəlidir, məhsulu yığıb satırsan. Problem yoxdur və əlbəttə, pul da qazanırsan. Bəs insanlar kəndlərdə necə yaşayırlar? Bütün dünyada belə yaşayırlar. Buna görə də mütləq işıq, qaz, su lazımdır. Taxılı özünüz yetişdirirsiniz.

Dövlət öz tərəfindən hər şeyi etməlidir, özəl sektor da öz tərəfindən hər şeyi etməlidir - zavod, fabrik, emal müəssisələri tikməlidir. Mən artıq dedim ki, şəkər zavodu tikilmişdir. İndi Azərbaycanın bütün rayonlarında şəkər çuğunduru əkir və şəkər istehsalı üçün oraya aparırlar. Biz artıq şəkəri xaricdən gətirməyəcəyik, özümüz istehsal edəcəyik. Kəndli isə şəkər çuğunduru əkəcək. Əgər o, şəkər çuğundurunu əkirsə və bu heç kimə lazım deyilsə, o, bir daha əkməyəcəkdir. Məhsulu kiməsə satmaq lazımdır...

LUİZA YEVQRAFOVA: Mən Buryatiyadan valideynlərimin yanına qonaq gəlmişəm. Xoşbəxtlik nəsib oldu ki, Sizinlə də görüşdüm.

İLHAM ƏLİYEV: Buryatiyada vəziyyət necədir?

LUİZA YEVQRAFOVA: Orada artıq qışdır. Əlbəttə, hər yerdə yaşamaq olar. Rus atalar sözündə deyildiyi kimi, "biz olmayan hər yer yaxşıdır".

İLHAM ƏLİYEV: Siz oraya necə gedib çıxmısınız?

LUİZA YEVQRAFOVA: Sevimli ərimlə.

İVAN POPOV: Hamımız başa düşürük ki, bizim başlıca problemimiz Dağlıq Qarabağ məsələsidir. Lakin həyat öz axarı ilə gedir, yaşamaq lazımdır. İmkan daxilində bizə kömək edin.

İLHAM ƏLİYEV: Mən artıq tapşırıq vermişəm və biz bu məsələni həll edəcəyik. İnsanları narahat edən məsələyə diqqət başlıca işdir. Siz Saratovkada qaz problemindən danışırsınız, onu həll etmək lazımdır. Əgər başqa narahatçılıq olsaydı, onu da deyərdiniz. İşıq var, yol çəkilir, yeri gəlmişkən, indi mən Şəmkirdən Gədəbəyə yol çəkilməsi barədə tapşırıq vermişəm. Müasir, asfalt döşənmiş yol olacaq, Avropadakı kimi. Məktəblər tikilir və sair. Qaz problemi narahat edirsə, onu həll etmək lazımdır.

Ölkəmiz möhkəmlənir, iqtisadiyyatımız möhkəmlənir. Bu imkanlar olanda hər şeyi həll etmək mümkündür, başlıcası odur ki, insanlarımız yaxşı yaşasınlar, kənd yerlərində rahatlıqla öz işləri, təsərrüfatları ilə məşğul olsunlar, şəhərlərdə fabriklər işləsin ki, iş olsun. Onda hər şey yaxşı olacaq. İnsanlara və rəhbərliyə nə lazımdır? Sakit həyat. Televizor vasitəsilə yəqin görürsünüz ki, başqa şəhərlərdə və ölkələrdə nələr baş verir, insanları müxtəlif əlamətlərə görə necə sıxışdırırlar. Bizdə bu, yoxdur və heç vaxt olmayacaqdır. Çünki milliyyətindən, dinindən, dilindən asılı olmayaraq, biz hamımız bir ailəyik. Düşünürəm ki, bu baxımdan Azərbaycan nümunə ola bilər.

NADEJDA İSMAYILOVA: Bu yəqin ona görə belədir ki, bizim Prezidentimiz yaxşı, çox gözəl doğma bir insandır. Ona görə də biz sakit və yaxşı yaşayırıq.

İLHAM ƏLİYEV: Başlıcası budur ki, xalq yaxşı yaşasın. Qonaqpərvərliyə görə çox sağ olun. Sizinlə görüşməyimə çox şad oldum. Bir də gələcəyəm, Saratovkaya gələcəyəm.

OLQA MALTSEVA: Mən Ermənistandan, Krasnoselsk rayonundan qaçqınam.

İLHAM ƏLİYEV: Buraya gəlməkdə düz iş görmüsünüz. Ermənistanda ümumiyyətlə heç bir başqa millət yaşamır, orada əhalinin 99 faizi ermənilərdir. Dünyada ikinci belə ölkə yoxdur.

OLQA MALTSEVA: Sizin atanıza minnətdaram, Sizə təşəkkür edirəm, bizi burada yaxşı qarşıladılar.

İLHAM ƏLİYEV: Burada xoşbəxt yaşayın. Dünyada az ölkə tapılar ki, orada yalnız bir millət yaşasın. Onlardan biri də Ermənistandır. Orada başqa millət, sadəcə, yaşaya bilmir. Kimini zorla qovurlar, kimini sıxışdırıb çıxarırlar. Yeri gəlmişkən, özləri də köçüb gedirlər, əhalinin yarısı köçüb getmişdir. Belə şərait həm çətindir, həm də düzgün deyil, bu, ölkəni zəiflədir. Ona görə də biz Azərbaycanda ölkəmizin məhz çoxmillətliliyi ilə fəxr edirik.

LUİZA YEVQRAFOVA: Mən Buryatiyada Azərbaycan dilini eşidəndə çox sevindim, düşündüm ki, özümüzünkülərdir.

İLHAM ƏLİYEV: Sağ olun, salamat qalın.

X X X

Kənd sakinləri rus xalq mahnıları oxudular, sonra dövlətimizin başçısı və xanımı ilə xatirə şəkli çəkdirdilər.

X X X

Rus icmasının nümayəndələri ilə görüşdən sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Slavyanka beynəlmiləl orta məktəbinin binasında tikinti işlərinin gedişi ilə tanış oldular.

260 yerlik məktəb binasının tikintisinə bu ilin avqustundan başlanmışdır. 30-dan çox yerli sakinin gördüyü inşaat işlərinin növbəti mərhələsi artıq başa çatmaq üzrədir. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin ikinci mərhələsinə əsasən məktəb binası bu ilin sonunadək hazır olacaqdır.

Dövlətimizin başçısı tikintinin getdiyi ərazini gəzdi, işlərin qısa vaxt ərzində və yüksək keyfiyyətlə başa çatdırılması barədə müvafiq tapşırıqlarını verdi.

Bununla da Azərbaycan Prezidenti İlham Əliyevin Gədəbəy rayonuna səfəri başa çatdı.

AZƏRTAC
2006, 2 noyabr

Ulu öndərin abidəsini ziyarət və Heydər Parkı ilə tanışlıq

(1 noyabr 2006-cı il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 1-də Gədəbəy rayonunda olmuşdur. Rayon mərkəzinə toplaşan minlərlə sakin dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla, əsil bayram-əhval ruhiyyəsi ilə, gül-çiçəklə qarşıladılar.

Prezident İlham Əliyev Heydər Parkında ucaldılmış ulu öndərin abidəsini ziyarət etdi. Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular və parka tamaşa etdilər. Müəllifi xalq rəssamı Natiq Əliyev olan abidənin hündürlüyü postamentlə birlikdə 6 metrdir. 5 hektar ərazisi olan parkda sakinlərin istirahəti üçün lazımi şərait yaradılmışdır.

Sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri qarşısında nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz bacılar və qardaşlar!

Əziz gədəbəylilər!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz hörmət və məhəbbətimi bildirirəm.

Mən ilk dəfədir ki, Gədəbəy rayonundayam. Çoxdan gəlmək istəyirdim, planlaşdırırdım və bu gün buradayam, sizinlə birlikdəyəm. Mən çox şadam ki, Azərbaycanın bütün yerlərində olduğu kimi, Gədəbəydə də sürətli inkişaf gedir, abadlıq-quruculuq işləri gedir, məktəb tikintisi geniş vüsət alıbdır. Çox istəyirəm ki, rayonun infrastrukturu yeniləşsin, müasirləşsin.

Gədəbəyin çox gözəl təbiəti, çox gözəl iqlimi var. Burada turizmin inkişafı üçün çox böyük işlər görmək olar. Mən hesab edirəm ki, əgər biz bu məsələlər üzərində birlikdə, səmərəli işləsək, qısa müddət ərzində bu gözəl diyar turistlər üçün də çox cəlbedici ola bilər. Bütövlükdə, rayonun hərtərəfli inkişafı üçün bütün işlər görülür. Müvafiq sərəncamlar verilmişdir, Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramında xüsusi tapşırıqlar öz əksini tapmışdır. Beləliklə, rayonun inkişafı ilə bağlı işlər ardıcıl və məqsədyönlü şəkildə aparılır.

İndi Azərbaycanın hər bir yerində sürətli inkişaf var. Yeni iş yerləri yaradılır, yeni müəssisələr, fabriklər açılır və insanların həyat səviyyəsi yaxşılaşır. İş yerlərinin açılması, bir tərəfdən, ölkə iqtisadiyyatının hərtərəfli inkişafına kömək edir, digər tərəfdən, insanların həyat səviyyəsini yaxşılaşdırır. Son 3 il ərzində Azərbaycanda təxminən 500 min yeni iş yeri açılmışdır. Bu, bizə imkan verir ki, ölkə iqtisadiyyatı sürətlə inkişaf etsin. Azərbaycanda büdcə gəlirləri artır, sosial məsələlər öz həllini tapır, maaşlar, pensiyalar artır. Beləliklə, insanlar da yaxşı yaşamağa başlayır, iqtisadiyyat da inkişaf edir. Regionların sosial-iqtisadi inkişafı proqramının əsas məqsədi də məhz budur – ölkəmizi hərtərəfli inkişaf etdirmək. Bunu etmək üçün bizim imkanlarımız var və proqramlarımız var.

İmkanlarımız da getdikcə artır. Ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanda geniş neft-qaz əməliyyatları başlanmışdır. 10 ildən artıqdır ki, bu proses sürətlə gedir və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyətə başlaması onun məntiqi nəticəsidir. Bundan sonra Azərbaycanın iqtisadi inkişafı çox yüksək sürətlə gedəcəkdir. İndi də belədir, bizim iqtisadiyyatımız dünyada analoqu olmayan sürətlə inkişaf edir. Dünyada bu göstəriciyə görə Azərbaycan birinci yerdədir. Biz istəyirik ki, həyat səviyyəsi baxımından da Azərbaycan dünyada birinci yerdə olsun. Biz istəyirik ki, Azərbaycanda işsizlik, yoxsulluq aradan qaldırılsın. Bütün səylərimizi bu istiqamətə yönəltmişik. Çünki belə olarsa, onda Azərbaycanın bütün məsələləri öz həllini tapa bilər.

Qlobal məsələlər öz həllini tapır, iqtisadiyyatın ümumi inkişafı bizi qane edir, eyni zamanda, hər bir rayonun inkişafına da böyük diqqət göstərilir. Ona görə rayonlara səfərlər edərkən, həm vəziyyətlə tanış oluram, həm də müvafiq göstərişlər verirəm. Göstərişlər nəticəsində konkret proqramlar müəyyən olunur və icrasına başlanır. Bütün sahələrdə bu proqramlar var.

Mən qeyd etdim, son illər ərzində Gədəbəy rayonunda məktəb tikintisi çox sürətlə gedir. Siz də bunu bilirsiniz. Bu, Azərbaycanda çox böyük problemdir. Çünki məktəb binalarının tam əksəriyyəti köhnəlmiş vəziyyətdədir. Bəziləri yararsız vəziyyətdədir və uşaqlar çox çətin şəraitdə oxuyurlar. Müəllimlər də çox çətin şəraitdə işləyirlər. Bunu aradan qaldırmaq üçün indi Azərbaycanın hər yerində geniş məktəb tikintisi aparılır. Son 3 il ərzində 700-dən çox məktəb tikilibdir. Növbəti illərdə məktəb tikintisi daha da genişlənəcəkdir. Bu tikinti həm dövlət xətti ilə, həm də Heydər Əliyev Fondunun təşəbbüsü ilə aparılır.

Azərbaycanda xəstəxana tikintisi sürətlə getməlidir. Regionlarda artıq müasir xəstəxanalar inşa olunur. Bu bölgədə - həm Gəncədə, həm də Qazaxda yeni müasir, bütün standartlara cavab verən müalicə-diaqnostika mərkəzləri tikilir. Bu bölgədə yaşayan insanların yaxşı tibbi xidmət almaq üçün artıq Bakıya getməsinə ehtiyac olmayacaqdır. Bu yaxınlarda Gəncədə, Qazaxda açılacaq xəstəxanalar bütün bölgə əhalisinə xidmət göstərəcəkdir. Ancaq bu, işimizin birinci mərhələsidir. İkinci mərhələdə hər bir rayon mərkəzində müasir xəstəxana və tibb mərkəzi açılacaqdır ki, insanlar ən yüksək tibbi xidmət ala bilsinlər.

Pensiyalar, maaşlar, minimum əməkhaqqı artırılır. Müəllimlərin, səhiyyə işçilərinin, digər kateqoriyadan olan insanların əməkhaqqı artırılır və son 3 il ərzində dəfələrlə artırılıbdır. Düzdür, bu, bizi indi tam qane edə bilməz. Çünki büdcədən maliyyələşən təşkilatlarda işləyənlərin əməkhaqqısı hələ aşağıdır. Ancaq biz nail olacağıq ki, bu əməkhaqqı insanların bütün tələbatını ödəyə bilsin.

Ölkənin hərtərəfli inkişafı üçün sahibkarlığın inkişafının da böyük əhəmiyyəti var. Bu məsələyə də çox böyük diqqət göstərilir. Sahibkarların fəaliyyəti üçün lazımi şərait yaradılır, kreditlər ayrılır. Hər il fermerlərə, kənd təsərrüfatı ilə məşğul olanlara, emal müəssisələri yaratmaq istəyənlərə 100 milyon dollar səviyyəsində kreditlər verilir. Sahibkarlıq vasitəsilə ölkəmizdə işsizlik də, yoxsulluq da aradan qaldırılacaqdır. Yaradılan "Aqrolizinq" Səhmdar Cəmiyyəti xüsusilə kənd təsərrüfatı ilə məşğul olanlar üçün nəzərdə tutulubdur. Azərbaycan əhalisinin, demək olar ki, yarısı kəndlərdə yaşayır. Gədəbəy rayonunda da kənd təsərrüfatı iqtisadiyyatın əsas istiqamətidir. "Aqrolizinq"in möhkəmlənməsi və geniş fəaliyyətə başlaması Azərbaycanda kənd təsərrüfatının inkişafına böyük təkan verəcəkdir. Bizim çox gözəl imkanlarımız var, çox gözəl təbii şəraitimiz – iqlimimiz, torpağımız var. Sadəcə olaraq, müasir, yeni texnika, gübrələr alınmalı, kəndlilərə icarəyə verilməlidir. Beləliklə, məhsul istehsalı daha da sürətlə artacaqdır.

Azərbaycan özünü əsas kənd təsərrüfatı məhsulları, o cümlədən əsas ərzaq məhsulları ilə təmin etməlidir. Əfsuslar olsun ki, biz hələlik buna nail ola bilməmişik, ərzaq məhsullarının böyük əksəriyyəti xaricdən gətirilir. Ancaq son illər ərzində artıq bu nisbət yerli istehsalçıların xeyrinə dəyişir. Bütün bölgələrdə yeni fabriklər açılır, yeni zavodlar açılır. Bu, həm yeni iş yeri, həm də yerli istehsal deməkdir, idxalı əvəzləmək, vergilərin çoxalması deməkdir. Bütün bunlar biri-birilə çox bağlıdır. Ona görə bizim diqqət yetirdiyimiz məsələlər, demək olar ki, ölkə qarşısında duran bütün sahələri əhatə edir.

Qlobal məsələlər. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi və fəaliyyətə başlaması Azərbaycan siyasətinin təntənəsidir. Bu yaxınlarda qaz kəməri istismara veriləcəkdir. Digər önəmli, qlobal əhəmiyyət daşıyan məsələlər öz həllini tapır.

Eyni zamanda, hər bir kəndin məsələsi də diqqət mərkəzində olmalıdır. Bunu etmək üçün, əlbəttə, ancaq gözəl proqramlar qəbul etmək, yaxud da qərarlar vermək kifayət etməz. Bütün aidiyyəti qurumlar səmərəli işləməlidir. Qərarlar verilməlidir və yerlərdə icra nümayəndələri onları ləyaqətlə yerinə yetirməlidir. Yalnız o təqdirdə biz istədiyimizə nail ola bilərik. İstədiymiz də çox aydın və çox açıqdır.

Biz istəyirik ki, güclü ölkə yaransın. Biz istəyirik ki, Azərbaycanın mövqeləri daha da möhkəmlənsin və bölgədə gedən bütün proseslərdə Azərbaycan fəal iştirak etsin. Bu, indi də var. Bu gün biz bölgədə liderlik mövqelərimizi möhkəmləndiririk. Ancaq mən istəyirəm ki, daha da möhkəm olsun. Azərbaycan nəinki bölgədə gedən proseslərdə, geniş mənada, bizim qitədə gedən proseslərdə öz sözünü deyə bilsin. Bu gün bu, belədir. Həm coğrafi mövqeyimiz, həm siyasi əhəmiyyətimiz, eyni zamanda, təbii sərvətlərimizin olması və onların artıq dünya bazarlarına çıxarılması Azərbaycanın önəmini qat-qat artırır. Bu, ölkənin hərtərəfli inkişafına yaxşı xidmət göstərəcəkdir. O cümlədən, daxili siyasət də Azərbaycanın inkişafına yönəldilibdir. İctimai-siyasi asayişin qorunması, sabitliyin qorunması əsas məsələlərdir. Biz görürük, harada sabitlik pozulursa, bütün işlər də tamamilə pozulur, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, ölkədə xoşagəlməz proseslər başlayır, asayiş pozulur, xaos yaranır. Ondan sonra bu xaosun nəticələrini aradan qaldırmağa başlayırlar.

Azərbaycan öz tarixində, 1990-cı illərin əvvəllərində bu acı məqamları yaşamışdır. Ölkə faktik olaraq dağılırdı. Ölkədə gedən proseslər Azərbaycanın parçalanmasına gətirib çıxarırdı, faktik olaraq, bizim müstəqilliyimizə son qoya bilərdi. Ulu öndər Heydər Əliyevin müdrikliyi, cəsarəti və siyasəti, xalqın onu dəstəkləməsi Azərbaycanı o bəlalardan qurtardı və 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan öz inkişaf dövrünü yaşayır. Biz bu inkişaf dövrünü əbədi, dönməz etmişik. Bu inkişaf dövrü Azərbaycan xalqına, onun rifah halının yaxşılaşmasına xidmət edir. Ölkəmizin rahat şəraitdə, sabitlik şəraitində yaşamasına xidmət edir. Azərbaycanda çox gözəl ictimai-siyasi ab-hava var. Xalqla iqtidar arasında birlik var. Bizim bütün proqramlarımız xalq tərəfindən dəstəklənir və məhz bunun nəticəsində uğurla icra edilir.

Əlbəttə, mən heç şübhə etmirəm ki, Azərbaycanın gələcək inkişafı uğurlu olacaqdır. Bunu etmək üçün bütün imkanlarımız var. Siyasi iradə, xalqla iqtidar arasında birlik var, iqtisadi potensial, təbii ehtiyatlar var, insanların intellektual potensialı var. Bütün bunlar hər bir ölkənin uğurlu inkişafını şərtləndirən amillərdir.

Biz bunların hamısını Gədəbəy rayonunun timsalında da görürük.

Rayonun gələcək inkişafı, infrastrukturun yeniləşməsi üçün əlavə tədbirlər görüləcəkdir. Mən çıxışımın əvvəlində dedim, ilk dəfərdir Gədəbəydəyəm və gördüm ki, Şəmkirdən Gədəbəyə gələn yol bizi qane edə bilməz, standartlara uyğun deyildir. Bu gün burada Nəqliyyat Nazirliyinə tapşırıq verirəm ki, layihə hazırlasınlar və Şəmkir-Gədəbəy yolunun əsaslı təmirini təşkil etsinlər.

İndi Azərbaycanda yeni çəkilən yollar ən yüksək standartlara cavab verir. O cümlədən Gəncə-Qazax avtomobil yolu yenidən tikilibdir. Bakı-Qazax avtomobil yolu tikilir. Şəmkir-Gədəbəy avtomobil yolu tikiləndən, müasir səviyyəyə gətiriləndən sonra insanlar buradan maşınla Şəmkirə, oradan istər Bakı istiqamətinə, istərsə də Qazax istiqamətinə rahat gedəcəklər. İnsanların rahatlığı birinci məsələdir və biz buna nail olacağıq.

Əziz dostlar, mən sizi bir daha ürəkdən salamlayıram. Əminəm ki, Gədəbəy rayonunun inkişafı bundan sonra da uğurlu olacaqdır. Bu, bizim hamımızdan - həm dövlətdən, həm yerli nümayəndələrdən, həm də burada yaşayan insanlardan asılıdır. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

(Dövlətimizin başçısının nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə alqışlarla qarşılandı).

X X X

Sonra Prezident İlham Əliyev sakinlərlə görüşüb hal-əhval tutdu, onların qayğı və problemləri ilə maraqlandı.

Dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirən gədəbəylilər ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini yada saldılar və ölkənin ümumi inkişafına, o cümlədən Gədəbəy rayonuna göstərdiyi qayğıya görə Prezidentə təşəkkür etdilər, gələcək işlərində ona uğurlar arzuladılar.

Prezident Gədəbəyin "Xalq aşıqları" ansamblının ifasını dinlədi. Aşıqlar dövlətimizin başçısına həsr etdikləri mahnı ifa etdilər.

Onlar mədəniyyətimizə, muğamımıza göstərdikləri diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə və YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya ürəkdən təşəkkür etdilər.

Dövlətimizin başçısı el sənətkarlarına minnətdarlığını bildirdi.

Prezident Gədəbəyin "Xalq aşıqları" ansamblının ifasını da dinlədi.

Tanınmış el aşığı, ansamblın rəhbəri İSFƏNDİYAR RÜSTƏMOV dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, bu qədim torpağa xoş gəlmisiniz. Sizinlə ilk dəfə Təbrizdə görüşmüşdük.

İLHAM ƏLİYEV: Yadımdadır, Təbrizdə konsulluğun açılışı zamanı.

İSFƏNDİYAR RÜSTƏMOV: Bəli. Cənab Prezident, ürəyim çox döyünürdü ki, qardaşım oğlu, – mən Heydər müəllimin diqqət göstərdiyi saz-söz ustadıyam, Allah ona qəni-qəni rəhmət etsin, - görəsən, bizi yad edəcəkmi. Çoxdan söz gəzirdi ki, hörmətli Prezident İlham Əliyev Gədəbəyə gələcəkdir. Biz bu gün arzumuza çatdıq. Gördüyünüz bu ansambla Heydər Əliyev 1981-ci ildə "Xalq aşıqları" adı vermişdir. Ansamblın 40 yaşı tamam oldu. Noyabrın 9-da Mədəniyyət və Turizm Nazirliyinin icazəsi ilə ansamblın 40 yaşını qeyd edəcəyik. Bundan əlavə, mənim də 70 yaşım tamam olur. Ulu öndərimizin Bakıda tikdirdiyi o sarayın açılışında Heydər Əliyevin təklifi ilə mənim ansamblım da iştirak etmişdir. Biz həmin sarayda Aşıq Alının, Aşıq Ələsgərin yubileylərini, Dədə Qorqudun 1300 illiyini birlikdə keçirmişik. Amma indi istəyirəm ki, mənim 70 illiyim həmin sarayda keçirilsin. Sizin orada iştirak etməyiniz mənim arzumdur. Yubiley bu yaxınlarda keçiriləcəkdir. Yəqin ki, Prezidentimiz sənətkarı yada salacaqdır.

Möhtərəm Prezident, Mehriban xanıma da təşəkkür edirik. Onun mədəniyyətimizə, muğamımıza göstərdiyi qayğı bizi çox sevindirir. Çox istərdik ki, muğam sənətini yüksək zirvələrə qaldırdığı kimi, bizim qədim ozan sənətinə də öz qayğısını göstərsin.

X X X

Dövlətimizin başçısı el sənətkarını təbrik etdi, ona minnətdarlığını bildirdi.

AZƏRTAC
2006, 2 noyabr

Goranboy

2005, 19 may

- Azərbaycan Prezidenti İlham Əliyevin Goranboya səfəri
- Rayon ağsaqqalları ilə görüs
- Tarix muzeyi ilə tanışlıq
- Heydər Əliyev parkında gəzinti
- Rəsm qalereyası ilə tanışlıq
- Yağlı boya zavodu ilə tanışlıq
- Goranboy gips zavodunun təməli qoyuldı
- Rayon bazarı ilə tanışlıq
- "Oplas" yüksək keyfiyyətli məhsul istehsal edir
- Heydər əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Goranboy rayonundakı Rəsul Atakişiyev adına internat məktəbində olmuşdur
- Goranboyda mərkəzi stadionun açılışı: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Azərbaycan Prezidenti İlham Əliyevin Goranboya səfəri
Ümummilli lider Heydər əliyevin abidəsini ziyarət
(19 may 2005-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Goranboy rayonunda olmuşdur.

Böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşılanan Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək gül qoydular.

Buraya toplaşan minlərlə sakin dahi şəxsiyyətin ideyalarına daim sadiq qalacaqlarını, onun arzularının gerçəkləşməsinin ölkəmizə daha böyük uğurlar gətirəcəyini vurğuladılar. Xalqımızın müdrik oğlunun xatirəsini əziz tutan goranboylular ulu öndərin anadan olmasının 82-ci ildönümü ərəfəsində rayon mərkəzində onun qranit heykəlini ucaltdıqlarını bildirdilər.

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 1.

Rayon ağsaqqalları ilə görüs
(19 may 2005-ci il)

Prezident İlham Əliyev sonra rayon ağsaqqallar evinə gəldi.

Burada keçirilən görüşü rayon ağsaqqallar şurasının sədri **Kərəm İBRAHİMOV** açaraq dedi:

- Hörmətli Prezident!

Siz qədim oğuz yurdu Goranboy torpağına ikinci dəfə xoş gəlmisiniz. Azərbaycan xalqının ümummilli lideri, bizim hörmətli atamız Heydər Əliyev Goranboyu və goranboyluları çox sevirdi. Ona görə üç dəfə - 1978, 1982 və 2002-ci illərdə Sizinlə birlikdə Goranboya gəldi. Onun hər bir gəlişinin rayonumuzun iqtisadi inkişafına, tikintisinə, abadlığına çox böyük təsiri olmuşdur. Goranboy Heydər Əliyevin, - Allah ona rəhmət eləsin, - sayəsində bu səviyyəyə gəlmişdir və daha da inkişaf edir.

Azərbaycanın iqtisadi yüksəlişinə, regionların sosial-iqtisadi inkişafına dair qərarlarınızın, imzaladığınız sənədlərdə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi gələcəyimiz üçün yaxşı zəmin yaradır.

Sizin tez-tez regionlara getməyiniz bizdə böyük ümid yaradır və istər respublika daxilində, istərsə də xarici ölkələrdəki tədbirlərdə çıxışlarınızda, Azərbaycanın iqtisadi potensialının güclənməsi, gələcəkdə respublikamızın zəngin dövlətə çevriləcəyi barədə inamla söylədiyiniz fikirlər iftixar doğurur. Yeni iş yerlərinin yaranması, qazanılan nailiyyətlər bizi sevindirir. Bizim ən böyük arzumuz Qarabağ məsələsinin həllidir. Sizin cəsarətli addımlarınız bizdə böyük ümid yaradır.

Hörmətli İlham müəllim, bu gün yağış yağmasının rəmzi mənası var. Goranboy həmişə sudan əziyyət çəkən rayon olmuşdur. Bu rəmzi məna odur ki, baharın bu gözəl çağında yağış altında buraya gəlməyiniz gələcəkdə Goranboy torpağına kanal çəkilməsinin vacibliyini Sizin yadınıza salır.

Mən bütün ağsaqqallar adından Sizə bildirmək istəyirəm ki, goranboylular Heydər Əliyevi necə sevirdilərsə, Sizi də elə sevirlər. Həmişə Sizin ideyalarınız ətrafında birləşmişlər və gələcəkdə də Sizin arxanızla gedəcəklər. Biz Sizə böyük ümid bəsləyirik. Sizin hər bir çıxışınız, məzmunlu fikirləriniz qəlbimizdə qürur doğurur. Allah-Taala Sizə bu yolda yar olsun! Sizə bütün goranboylular adından uğurlar arzulayıram.

Azərbaycan Prezidenti İlham ƏLİYEV təşəkkür edərək dedi:

- Deməliyəm ki, Heydər Əliyev də goranboyluları çox sevirdi, mən də goranboylu- ları çox sevirəm. Bu sevginin əlaməti olaraq mən bu gün buraya gəlmişəm, sizin qo- nağınızam.

Mən 2002-ci ilin o gününü çox yaxşı xatırlayıram. O görüş çox səmimi keçdi. Biz Gəncədən qayıdırdıq. Yadımdadır ki, xalqımızın lideri Heydər Əliyev Goranboy- da görülən işlərlə əlaqədar öz fikirlərini, razılığını bildirmiş və demişdi ki, Goranboy çox sürətlə inkişaf edir. Xatırlayıram ki, o vaxt icra hakimiyyətinin başçısını da çox tərifləmişdi. Sonra aramızda olan söhbətdə də bunu qeyd etdi. O vaxt Gəncənin vəziyyəti o qədər də ürəkaçan deyildi. Demək olar ki, Gəncədə inkişaf getmirdi. Gəncədən buraya gələrək, vəziyyəti tam başqa cür görəndə, o, çox sevinmişdi.

Mən çox şadam ki, burada gedən proseslər davam edir, rayon inkişaf edir. Quruculuq, abadlıq işləri gedir. Regionların sosial-iqtisadi inkişaf proqramı da burada öz həllini tapır. Bu gün burada gedəcəyim bəzi müəssisələr artıq işə başlayıbdır, bəzilərinin isə təməli qoyulacaqdır. Bu o deməkdir ki, Azərbaycan inkişaf edir. Azərbaycanın regionlarının inkişafı bizim üçün ən prioritet məsələlərdən biridir. Gərək Azərbaycanın hər bir yerində şərait yaxşı olsun, insanlar daha yaxşı yaşasınlar, gözəl şərait yaradılsın, abadlıq, quruculuq işləri getsin Biz bu işləri görürük.

İndi Azərbaycanın hər bir yerində inkişaf göz qabağındadır. Mən çalışıram ki, bunu daha da sürətləndirək. Çalışıram ki, sahibkarlıq, fer- merlik daha da sürətlə inkişaf etsin. Yəqin bilirsiniz ki, bu yaxınlarda "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin yaradılması bu istiqamətdə atılmış çox mühüm addımdır. Onun vasitəsilə böyük həcmdə kənd təsərrüfatı texnikası gətiriləcək və rayonlara paylanacaqdır. İndi texnikanın gətirilməsi prosesi başlamalıdır ki, kənddə işləyən insanlar əziyyət çəkməsinlər. Mənim məqsədim budur ki, Azərbaycanın hər bir bölgəsi, hər bir vətəndaşı ölkədə gedən inkişaf proseslərindən bəhrələnsin, daha yaxşı, rahat yaşasın, sülh, sabitlik, asayiş olsun və ölkəmiz daha da zənginləşsin.

Mən hər dəfə bölgələrə gedəndə, hansısa bir yenilik, inkişaf görəndə çox sevinirəm. Bu gün səhərdən Gəncədə idim. Orada tikilən böyük aeroportun layihəsi ilə tanış oldum, sonra başqa görüşlər keçirdim. İstədim ki, sizin də yanınıza gəlim, görüşüm, öz hörmətimi sizə bildirim.

Çox sağ olun.

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 1.

Tarix muzeyi ilə tanışlıq

(19 may 2005-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev sonra rayon mərkəzindəki tarix muzeyinə gəldi.

İcra hakimiyyətinin başçısı Novruz Novruzov ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 82-ci ildönümü günlərində açılmış və 3 minədək eksponatı olan muzeyin yayılmasına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kədərinin tikintisini aparan Beynəlxalq Əməliyyat Şirkətinin maliyyə dəstəyini razılıqla vurğuladı.

Muzeyin əməkdaşları dvlətimizin başçısına burada toplanmış materiallar barədə ətraflı məlumat verdilər, ulu öndər Heydər Əliyevin tariximizə, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə daim böyük qayğı göstərdiyini vurğula- dılar. Bu baxımdan rayonlarda tarix-diyarşünaslıq muzeylərinin fəaliyyət göstərməsi çox əhəmiyyətlidir.

Prezident İlham Əliyev muzeyin qədim eksponatlarına, o cümlədən arxeoloji qazıntılar zamanı tapılmış əşyalara, habelə müasir dövrümüzə, ümummilli liderimiz Heydər Əliyevin Goranboya, xarici ölkələrə səfərlərinə aid guşələrə baxdı.

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 1.

Heydər Əliyev parkında gəzinti
(19 may 2005-ci il)

Dövlətimizin başçısı İlham Əliyev daha sonra Heydər Əliyev parkını gəz di. Rayon mədəniyyət evinin uşaq rəqs və mahnı kollektivləri, aşıqlar Prezi denti və onun xanımını musiqi ilə qarşıladılar, maraqlı konsert proqramı ilə çıxış etdilər. "Gənc Heydərçilər" Azərbaycan, xalqımızın ümummilli lideri haqqında şeirlər söylədilər. Prezident İlham Əliyev və Mehriban Əliyeva onla ra dərin minnətdarlıq etdilər və xatirə şəkli çəkdirdilər.

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 1.

Rəsm qalereyası ilə tanışlıq
(19 may 2005-ci il)

Mayın 19-da Prezident İlham Əliyev rayonun rəsm qalereyası ilə tanış oldu, burada saxlanılan yüzlərlə əl işinə, o cümlədən məktəbli Kəmalə Qasımovanın ötən il Səttar Bəhlulzadə adına Sərgi Salonunda nümayiş etdirilən əsərlərindən ibarət sərgiyə baxdı.

Dövlətimizin başçısına məlumat verildi ki, uşaq və gənclərdə rəssamlığa böyük həvəs var, respublika myaslı müsabiqələrdə yer tuturlar. Onların rəngkarlıq, qrafika, portret və digər janrlarda çəkdikləri rəsmlər maraq doğurur. Burada yeniyetmələrə tikiş və toxuma sənəti də öyrədilir.

Prezident İlham Əliyev gənclərin yaradıcılığını yüksək qiymətləndirdi, nümayiş etdirilən əsərlərin onda xoş təəssürat yaratdığını bildirərək dedi kı, Azərbaycanda istedadlı gənclərə həmişə qayğı göstəriləcəkdir.

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 1.

Yağlı boya zavodu ilə tanışlıq

(19 may 2005-ci il)

Maytn 19-da Prezident İlham Əliyev Goranboyda fəaliyyət göstərən yağlı boya zavodunda da oldu.

Dövlətimizin başçısını səmimiyyətlə qarşılayan zavodun işçiləri bildirdilər ki, 2002-ci ildən işləyən müəssisədə 25 çeşiddə boya, mismar, məftil tor və metlax istehsal olunur. Yerli iş adamlarına məxsus zavodda 25 nəfər işləyir və onların əməkhaqqı 400-450 min manatdır.

Prezident ilham Əliye, məhsulların hazırlanmas proseslərini izlədi, texnik avadanlıqla, ixrac olunar, məhsulların keyfiyyəti ilə mə- raqlandı, görülən işləri yüsək qiymətləndirdi.

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 2.

Goranboy gips zavodunun təməli qoyuldı

(19 may 2005-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev Goranboya səfərinin sonunda gips zavodunun təməlinin qoyulması mərasimində iştirak etdi. Mərasimə toplaşanlar dövlətimizin başçısını mehribanlıqla qarşıladılar.

Prezident İlham Əliyev zavodun layihəsi ilə tanış oldu. Respublikamızın rəhbərinə məlumat verildi ki, tikintiyə 50 nəfər cəlb olunmuşdur. Gələn ilin martında istifadəyə veriləcək zavodda işçilər 120- 250 dollar əməkhaqqı alacaqlar. Müəssisənin işə düşməsi regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsinə kiçik bir töhfə olacaqdır.

Prezident İlham Əliyev fəhlələrlə səmimi görüşdü, zavodun bünövrəsinə beton tökdü, müəssisənin xeyirli və uğurlu olmasını arzuladı.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev Gəncəyə və Goranboya səfəri ilə bağlı jurnalistlərə müsahibə verdi.

SUAL: Cənab Prezident, Gəncə və Goranboyda müəyyən məsələlərdə Sizi qane edən və etməyən məqamlar hansılardır? Ümumiyyətlə, bu bölgələrdə inkişaf necədir?

CAVAB: Bəli, vəziyyət məni qane edir. Gəncədə vəziyyət çox yaxşıdır, işlər gedir. Görürsünüz ki, Gəncə günbəgün gözəlləşir, şəhər abadlaşır, yeni müəssisələr yaradılır. O cümlədən Goranboy rayonunda da istehsal sahələrinin açılması, fəaliyyətə başlaması yaxşı göstəricidir. Yəni bizim regional inkişaf proqramımız icra olunur və bu, çox sevindirici haldır. Məsələn, burada istehsal olunan bütün mallar, qabdan tutmuş xammala qədər Azərbaycanda istifadə edilir.

SUAL: Cənab Prezident, qarşıdan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılış mərasimi gəlir. Ümumiyyətlə, hesab etmək olar ki, Bakı-Tbi- lisi-Ceyhanla bağlı bütün təhlükələr artıq arxada qaldı. Kəmər istifadəyə verildikdən sonra onun qorunması ilə bağlı hansısa təhlükə ola bilərmi?

CAVAB: Mən şübhə etmirdim ki, biz Bakı-Tbilisi-Cey- han layihəsini uğurla başa çatdıracağıq. On ildir, Azərbaycan öz neft strategiyasını həyata keçirdikcə, bu hadisə yaxınlaşırdı və artıq reallığa çevrilir. Mən heç bir təhlükə gözləmirəm. Hesab edirəm ki, bütün təhlükələr arxada qalıb. Bilirsiniz ki, keçmiş illərdə müəyyən çətinliklər var idi, süni maneələr var idi. Ölkə daxilində və ölkənin xaricində bu layihəyə qarşı güclü müqavimət var idi. Hətta xoşagəlməz hallar da baş veribdir. Amma bütün bunlar arxada qalıb və hesab edirəm, hamı bilir ki, artıq bunun qarşısını almaq mümkün deyildir.

Bundan sonra əsas vəzifəmiz ondan ibarətdir ki, bu kəmər lazımi səviyyədə qorunsun. Bilirsiniz ki, Azərbaycanda bu kəmərin mühafizəsi ilə bağlı heç vaxt problem, xoşagəlməz hadisə olmamışdır və biz bu barədə heç bir narahatlıq hissi keçirmirik. Yaxşı olardı ki, başqa tranzit ölkələrdə də vəziyyət bu cür olsun.

Mən şübhə etmirəm, müvafiq hökumətlər əlindən gələr edəcəklər ki, bu kəmərin təhlükəsizliyi təmin olunsun.

SUAL: Cənab Prezident Ermənistan prezidenti ilə axırıncı danışıqlardan sonra Mə bir rəsmi açıqlama oldu ki, artıq Ermənistan tərəfi rayonların qaytarılmasına razılıq veribdir. Sadəcə olaraq, zamar problemi var. Ümumiyyətlə belə bir nikbinliyə əsas varmıt CAVAB: Yox, belə bir nikbinliyə hələ ki, əsas yoxdu- Söhbət ondan gedir ki, bizir mövqeyimiz dəyişməz olarac qalır. O da bundan ibarətd ki, bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır, işğal olunmuş torpaqlar qaytarılmalıdır Mən Varşavada zirvə görüşündəki çıxışımda bunu bir daha 3eyd etdim. Bizim tərəfimiz- ən ediləcək ən böyük güzəşt | Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə zəmanət və dünyada mövcud olan ən yüksək muxtariyyət statusunun verilməsidir.

Əlbəttə ki, danışıqlar çətin gedir. Əgər belə olmasaydı, artıq çoxdan saziş imzalanardı. Bu, asan məsələ olsaydı, çoxdan öz həllini tapardı. Amma mən hesab edirəm ki, hər bir addım bizi sülh sazişinin bağlanmasına yaxınlaşdırır. Ona görə mən danışıqlar prosesinə müsbət baxıram. Hesab edirəm ki, əgər ehtiyac olarsa bu proses daha da sürətləndirilməlidir. Əgər hər iki tərəf həqiqətən, səmimi şəkildə bu razılaşmanı istəyirsə, biz müəyyən nəticəyə gələ bilərik. Amma bizim mövqeyimizdə heç bir dəyişiklik olmayıb və olmayacaq da.

SUAL: Cənab Prezident, qarşıdan mayın 28-i gə"r- Xalq Cümhuriyyəti ilə bağlı Prezident Heydər Əliyevin fərmanı olmuşdu. Amma onun yerinə yetirilməsində hələ bir irəliləyiş görünmür. Bu istiqamətdə

Sizin hansısa tapşırıqlarınız olacaqmı? Türkiyədə Məmməd Əmin Rəsulzadənin qəbrinin yeri dəyişdirilib, onun cənazəsinin qalıq- ı larinin Azərbaycana gətiril- l məsi məsələsi barədə nə deyərdiniz? »

CAVAB: Haradasa, 7-8 ay bundan əvvəl abidənin layihəsi mənə göstərilmişdi. Sözün düzü, məni qane etmədi. Çünki o layihə heç bir şeyi əks etdirmirdi, rəmzi xarakter daşıyırdı. Mən təklif etdim ki, bunun üzərində yenidən işlə- nilsin və gözəl bir təklif irəli sürülsün. İndi eşitdiyimə və bildiyimə görə, bu istiqamətdə iş gedir. Layihə hazır olan kimi təqdim olunacaq və biz buna baxacağıq.

Sağ olun.

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 2.

Rayon bazarı ilə tanışlıq

(19 may 2005-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev Goranboyun mərkəzində yeni tikilən bazara da baş çəkdi, inşaat işləri ilə maraqlandı.

Yerli iş adamı tərəfindən tikilən bazarda onlarca yeni iş yeri açılacaq, rayon sakinləri məhsullarını burada satmaq imkanı qazanacaqlar.

Dövlətimizin başçısı sahibkarlığın inkişafı üçün dövlət tərəfindən bundan sonra da hər cür kömək göstəriləcəyini vurğulaya- raq dedi ki, biz iş adamlarına verilən kreditlərin həcmini artıracağıq. Bölgələr inkişaf etməlidir. Əlbəttə, sahibkarların öz vəsaiti də mühüm rol oynayır. Amma böyük işlərə kredit lazımdır.

Rayon icra hakimiyyətinin başçısı Novruz Novruzov Goranboyda 20 dəyirmanın fəaliyyət göstərdiyini, taxılla bağlı heç bir problemin olmadığını, keçən il 50 min ton məhsul yığıldığını bildirərək dedi ki, bu il daha çox məhsul gözlənilir. Taxılın bazarı var, satılır. Pambıqçılıq da inkişaf edir, iki özəl zavodumuz vardır. Bu il 3 min hektar sahədə pambıq əkilmişdir. Keçən il isə 1500 hektar idi. Bir hektar pambıq əkib-becərmək iki daimi iş yeri deməkdir. Meyvəçilik də inkişaf etdirilir. Bir iş adamı 400 hektar nar bağı salmışdır və zavod tikir. Heyvandarlığın və tərəvəzçiliyin dirçəldilməsi üçün tədbirlər görülür. Rayon sakinləri Rusiyaya da məhsul aparırlar.

Prezident İlham Əliyev Goranboyda süd və konserv zavodlarının işə salınması, yerli məhsulların xarici bazarlara çıxarılması üçün şəraitin yaradılması, sahibkarlığın inkişafına mane olan problemlərin aradan qaldırılması və digər məsələlərlə bağlı müvafiq orqanlara tapşırıq və göstərişlər verdi.

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 2.

“Oplas” yüksək keyfiyyətli məhsul istehsal edir
(19 may 2005-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev "Oplas" Məhdud Məsuliyyətli Cəmiyyətin istehsal sahələri ilə də tanış oldu, burada hazırlanan məhsulların keyfiyyəti ilə maraqlandı.

Məlumat verildi ki, Türkiyə-Azərbaycan birgə müəssisəsi olan "Oplas"da 20 nəfər çalışır. Əsasən lambrin, içməli su, kanalizasiya boruları və onların aksessuarları istehsal olunur. Yerli və xarici bazarlara müasir standartlara cavab verən 20 adda məhsul çıxarılır. Gələcəkdə istehsal sahələrini genişləndirmək və yeni iş yerləri açmaq üçün planlar hazırlanmışdır.

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 2.

Heydər əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Goranboy rayonundakı Rəsul Atakişiyev adına internat məktəbində olmuşdur

(19 may 2005-ci il)

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mayın 19-da, Azərbaycan Prezidenti İlham Əliyevin Goranboy rayonuna səfəri çərçivəsində buradakı Rəsul Atakişiyev adına internat əsas məktəbində olmuşdur.

Ulu öndərimizin adını daşıyan Fond fəaliyyət göstərdiyi bir il ərzində uşaq evləri və internat məktəblərində müasir tələblərə cavab verən şəraitin yaradılması, bütün cəmiyyətimizin diqqət yetirməli olduğu problemlərin həlli üçün məqsədyönlü jş aparır. Bütün bunlardan xəbərdar olan məktəbin kollektivi Mehriban xanım Əliyevanı öz doğmaları kimi qarşıladı. Məktəblə tanışlıq zamanı Heydər Əliyev Fondunun prezidentinə məlumat verildi ki, bu təlim-tərbiyə ocağı ötən il Avropa Birliyinin vəsaiti hesabına əsaslı təmir olunmuş, yeni yeməkxana tikilmişdir. Mehriban xanım sinif otaqlannı gəzərək, dərs prosesini izlədi, uşaqların necə qidalanması ilə maraqlandı. Buradakı şəraitdən razılığını bildirən Mehriban xanım məktəbə kompüter dəstləri bağışlayacağına söz verdi.

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 2.

Goranboyda mərkəzi stadionun açılışı

(19 may 2005-ci il)

Mayın 19-da Prezident İlham Əliyev Goranboy mərkəzi stadionunun təntənəli açılışı münasibətlə keçirilən mərasimdə iştirak etdi.

Azərbaycan dövlətinin başçısı əvvəlcə stadionla tanış oldu, idmançıların nümunəvi çıxışlarına baxdı. Prezidentə məlumat verildi ki, rayonun daxili imkanları hesabına inşa olunan bu stadionda yarışları 1500 tamaşaçı izləyə bilər. Rayonda bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirilir, futbol, voleybol, basketbol və digər növlər üzrə komandalar yaradılır.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli idmançılar!

Sizin hamınızı ürəkdən salamlayıram. Mən bu gün sizin yanınıza gəlmişəm. Çox şadam ki, biz yenidən birlikdəyik.

Üç il bundan əvvəl, 2002-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev Goranboy rayonunda olanda burada görülən işlərlə yaxından maraqlandı və çox razı qaldı. Bu gün də mən görürəm ki, Goranboy inkişaf edir. Burada yeni müəssisələr yaranır, abadlıq işləri gedir, rayonda ictimai-siyasi vəziyyət çox yaxşıdır, əhval-ruhiyyə yaxşıdır. Baxmayaraq ki, hava bir az imkan vermir ki, daha da yaxından ünsiyyətdə olaq, amma bununla belə, burada yığışmış insanlar bir daha öz duyğularını, öz hisslərini ifadə edirlər.

Mən çox şadam ki, Azərbaycanın bütün bölgələri, o cümlədən Goranboy da inkişaf edir. Goranboy Azərbaycanın qədim torpağıdır, tarixi yerdir. Biz hamımız çalışmalıyıq ki, burada quruculuq, abadlıq işləri daha da sürətlə getsin. Regional inkişaf proqramı burada icra olunur və proqram çərçivəsində nəzərdə tutulmuş bütün tədbirlər yerinə yetiriləcəkdir. Mən bu gün icra hakimiyyətinin başçısı ilə söhbətimdə qeyd elədim ki, burada mövcud olan bütün problemlər, məsələlər öz həllini tapmalıdır. Bəzi problemlər yerindəcə həll oluna bilər, bəzilərini isə biz Bakıda həll edəcəyik. İcra hakimiyyətinin başçısı mənə rəsmi məktubla müraciət edəcək və bütün məsələlər öz həllini tapmalıdır.

Mən bundan sonra da Azərbaycanın hər bir bölgəsinə kömək göstərəcəyəm. Mən istəyirəm ki, Azərbaycanın bölgələri inkişaf etsin. Hər bir rayon inkişaf etsin, insanlar daha yaxşı yaşasınlar. Paytaxtla rayonlar arasında fərq azalsın və bəlkə də bir gün tamamilə aradan götürülsün. Yoxsulluq aradan götürülsün, işsizliyə son qoyulsun. Sülh olsun, əmin-amanlıq olsun, rifah olsun, insanlar yaxşı yaşasınlar, uşaqlarımız yaxşı tərbiyə alsınlar. İdmançılarımız Azərbaycanın bayrağını daim yüksəklərdə tutsunlar, Azərbaycanın idman şöhrətini ucaltsınlar.

Bir sözlə, biz hamımız istəyirik ki, ölkəmiz öz mövqelərini daha da gücləndirsin. Dünyada öz yerini möhkəmləndirsin, regionda öz liderlik mövqelərini saxlasın. Bunu etmək üçün hər bir imkan var, bütün şərait var. İqtisadi inkişaf sürətlə gedir. Bu il Azərbaycan iqtisadi inkişafın sürəti baxımından dünyada birinci ölkə olacaqdır.

Bu yaxınlarda istismara verəcəyimiz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində ölkəmizin iqtisadiyyatının, infrastrukturun, bölgələrin inkişafına böyük imkan yaranacaqdır. Mən şübhə etmirəm ki, yaxın zamanlarda Azərbaycan zəngin dövlətə çevriləcəkdir. Azərbaycanın hər bir vətəndaşı bu fürsətdən istifadə etməlidir, bu imkanlardan bəhrələnməlidir. Bunu etmək üçün gərək hamımız - həm hökumət, yerlərdə icra orqanları, həm sahibkarlar, həm də vətəndaşlar birlikdə çalışaq. Bizim məqsədimiz, amalımız birdir. Doğma Vətənimizi daha da gücləndirmək, Azərbaycanın mövqelərini möhkəmləndirməkdir.

Əlbəttə, bizim qarşımızda duran ən başlıca vəzifə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz buna çalışırıq, bütün imkanlardan istifadə edirik. Siyasi, diplomatik və sair addımlar atılır və son zamanlar müşahidə olunan mənzərə onu göstərir ki, Azərbaycanın haqq səsi eşidilir. Azərbaycanın mövqeyi dəstəklənir və beynəlxalq ictimaiyyət də bunu artıq açıq-aydın dərk edir və ən önəmlisi də odur ki, bu mövqeyi qəbul edir. Biz bu səyləri davam etdirəcək və bütün beynəlxalq tədbirlərdə, beynəlxalq təşkilatlarda, ikitərəfli danışıqlarda öz mövqeyimizdən çəkilməyəcəyik. Çünki bizim mövqeyimiz ədalətlidir və beynəlxalq hüquq normalarına əsaslanır.

Amma eyni zamanda, biz onu da bilməliyik ki, yalnız güclü ölkə öz istədiyinə nail ola, öz maraqlarını təmin edə bilər. Ona görə biz güclü olmalıyıq, heç kimin yardımına arxalanmamalıyıq, heç kimin köməyinə ümid etməməliyik. Bizim gücümüz var. Azərbaycan xalqı güclü xalqdır. Azərbaycan torpağı zəngin torpaqdır. Bizim çox güclü kadr potensialımız, təbii ehtiyatlarımız var. Vətənpərvərlik var. Bütün bu amilləri səfərbər edərək, biz gərək güclənək.

Buna görə də bizim iqtisadi inkişaf proqramlarımız həyata keçirilir, regional proqramlar həyata keçirilir, Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilir. Bütün bunlar Azərbaycanı gücləndirəcək, Azərbaycanda güclü iqtisadi potensial yaradacaq və nəticədə bizim ölkəmiz bölgədə daha da güclü olacaqdır.

Biz ordu quruculuğuna da böyük diqqət göstəririk və bunu davam etdirəcəyik. Bu il orduya ayrılan xərclər 36 faiz artıbdır. Bu yaxınlarda büdcəyə yeni dəyişikliklər ediləcəkdir. Mən göstəriş vermişəm ki, ordu xərclərinə yenidən baxılsın və lazımi səviyyədə artırılsın. Biz ordumuzu daha da gücləndirməliyik və düşmənlər bilməlidirlər ki, Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri istənilən vaxt yerinə yetirə bilər.

Bir sözlə, Azərbaycan uğurla inkişaf edəcəkdir. Bunun üçün gərək biz bir olaq. Cəmiyyətdə birlik olmalıdır. Bizim bir məqsədimiz, bir amalımız var: torpaqlarımızı qaytarmaq, ərazi bütölüyümüzü bərpa etmək və Azərbaycan xalqını daha yaxşı şəraitlə təmin etmək.

Mən sizin hamınıza bütün bu işlərdə uğurlar arzulayıram. Arzu edirəm ki, Goranboy rayonu daha da gözəlləşsin, abadlaşsın, burada quruculuq işləri daha da sürətlə getsin. Mən burada görülən işlərdən çox razıyam. Tanışam, bilirəm ki, işlər burada yaxşı gedir. Yerli icra orqanları da işləyir. Sizi Milli Məclisdə təmsil edən deputat çox gözəl işləyir. Bir sözlə, burada gedən proseslər məni çox qane edir. Ona görə mən bu gün gəlmişəm ki, sizinlə birlikdə olam və sizə öz dərin məhəbbətimi, dərin hörmətimi ifadə edim. Sizi əmin edim ki, mən Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün, iqtisadi potensialının güclənməsi üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm, həmişə sizinlə birlikdə olacağam. Bizim gələcəkdə görəcəyimiz işlər imkan verəcək ki, Azərbaycan daha da möhkəmlənsin, qüdrətli olsun, müstəqilliyimiz əbədi, dönməz olsun.

Sizi bir daha salamlayıram, bağrıma basıram. Sağ olun, təşəkkür edirəm.

Sonra Prezident İlham Əliyev idmançılarla səmimi görüşüb söhbət etdi. Goranboy gəncləri respublika əhəmiyyətli və beynəlxalq yarışlarda iştirak etmək arzusu ilə yaşadıqlarını, bunun üçün belə stadionların, idman meydançalarının, olimpiya komplekslərinin yaradılmasının əhəmiyyətindən danışdılar, ölkəmizdə idmana göstərilən qayğıya, idmançılara yaradılmış şəraitə görə minnətdarlıq etdilər. Dövlətimizin başçısı idmançılarla xatirə şəkli çəkdirdi.

(Dövlətimizin başçısının nitqi diqqətlə dinlənildi və alqışlarla qarşılandı)

Azərbaycan.- 2005.- 21 may.- №115.- S. 1-2.

Xanlar (Göygöl)

2008, 4 mart

- Azərbaycan Prezidenti İlham Əliyev Xanlar rayonuna gəlmişdir: Xanlar şəhərində ümummilli lider Heydər Əliyevin abidəsinin açılış mərasimi: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi
- Şəhid İbrahim Hüseynov adına məktəb müasir tipli təhsil ocağıdır
- Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yaşayış binası istifadəyə verilmişdir
- "Xanlar Aqrar-Sənaye" ASC fəaliyyətini genişləndirir
- Xanlar rayon Mərkəzi Xəstəxanasının tikintisi davam edir
- Dövlətimizin başçısı rayonun yeni Zod kəndinin sakinləri ilə görüşmüşdür

Azərbaycan Prezidenti İlham Əliyev Xanlar rayonuna gəlmişdir
Xanlar şəhərində ümummilli lider Heydər Əliyevin abidəsinin açılış mərasimi
(4 mart 2008-ci il)

AzərTAc-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev martın 4-də Xanlar rayonuna gəlmişdir.

Rayonun minlərlə sakini dövlətimizin başçısını böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladı.

Əvvəlcə rayon mərkəzində ulu öndər Heydər Əliyevin abidəsinin açılışı oldu. Prezident İlham Əliyev heykəlin üzərindən ağ örtüyü götürdü, abidənin önünə gül dəstəsi qoydu. Postamentlə birlikdə hündürlüyü 9,5 metr olan heykəl qranitdən hazırlanmışdır. Ətrafdakı 3 hektar ərazi də abadlaşdırılmış, istirahət üçün gözəl şərait yaradılmışdır. Burada gül kolları əkilmiş, yaraşıqlı fəvvarələr quraşdırılmış, daş plitələr döşənmişdir. Sonra burada abidənin açılışı münasibətilə rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə təntənəli mərasim keçirildi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Əziz dostlar!

Bu gün biz ulu öndər Heydər Əliyevin abidəsinin açılışına

toplaşmışıq. Bu çox əlamətdar bir hadisədir. Ulu öndər bütün dövrlərdə, Azərbaycana rəhbərlik etdiyi illərdə öz xalqına sədaqətlə xidmət etmişdir. Hamımız yaxşı xatırlayırıq ki, 1970-80-ci illərdə Azərbaycanın inkişafında onun çox böyük rolu olmuşdur. O vaxtadək Azərbaycan başqa müttəfiq respublikalarla müqayisədə ən ağır vəziyyətdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycanda o vaxt aparılan islahatlar ölkəmizin bugünkü inkişafına möhkəm zəmin yaratmışdır. Çünki o illərdə yaradılmış sənaye müəssisələri, inkişaf etmiş kənd təsərrüfatı, tikilmiş sosial obyektlər bu gün də Azərbaycanın hərtərəfli inkişafı üçün öz rolunu oynamaqdadır. Müstəqil Azərbaycanın rəhbəri kimi yenə də Azərbaycanı ən çətin vəziyyətdən çıxaran məhz ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Onun rəhbərlik etdiyi dövrlərdə Azərbaycan daim inkişaf etmiş, o, Azərbaycanda olmadığı dövrdə isə ölkə böyük fəlakətlərlə üzləşmişdir. Məhz o illərdə - 1980-ci illərin sonu və 90-cı illərin əvvəllərində Azərbaycanın gələcək inkişafı sual altında idi. Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılandan bir ay sonra ermənilər Dağlıq Qarabağda separatçı hərəkətlərə başlamışdılar. Azərbaycana qarşı təcavüz başlanmışdı və faktik olaraq, Azərbaycan torpaqları işğal altına düşmüşdür. Məhz o illərdə bu işğalın əsası qoyulmuşdur. Azərbaycanın o vaxtkı və Sovet İttifaqının rəhbərliyi erməni qəsbkarları ilə birlikdə Azərbaycan üçün bu çətin şəraiti yaratmışdılar.

Ancaq 1993-cü ildən sonra, yenə də ulu öndər Azərbaycana qayıtdıqdan sonra vəziyyət tamamilə dəyişmişdir və bu gün Azərbaycan uğurla inkişaf edir. 1993-2003-cü illər Azərbaycan dövlətçiliyi üçün həlledici illər olmuşdur. Məhz o illərdə Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirə bilmişdir, Azərbaycanda bütün xoşagəlməz hadisələrə, anarxiya və hərc-mərcliyə son qoyulmuş, sabitlik yaranmışdır. Azərbaycan inkişaf etməyə başlamışdır və bu onillik ölkəmizin bugünkü həyatında çox mühüm rol oynamışdır. Bu gün Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir və Azərbaycanı xoşbəxt gələcəyə aparır. Bu gün Azərbaycanda davam etdirilən siyasi və iqtisadi islahatlar ölkəmizin hərtərəfli inkişafına şərait yaradır. Azərbaycan iqtisadi artım baxımından dünyada birinci ölkədir. Dörd il ərzində biz bu birinciliyi qoruyub saxlaya bilmişik. Özü də dünya miqyasında. Azərbaycan iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə artır və Azərbaycan vətəndaşları bu nailiyyətlərin bəhrəsini gündəlik həyatlarında görməyə başlamışlar. Bu, çox vacibdir. Çünki bizim bütün iqtisadi siyasətimiz, aparılan islahatlar bir məqsədə yönəlibdir ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, bütün problemlər, sosial məsələlər həllini tapsın və ölkəmiz güclənsin.

Bildiyiniz kimi, dörd ildən artıqdır ki, ölkəmizdə regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı icra olunur. Bu yaxınlarda biz proqramın dörd illik yekunlarını müzakirə etdik və bir daha gördük ki, bu illər ərzində bölgələrdə çox böyük inkişaf olmuşdur. 650 mindən çox yeni iş yerinin açılması, yüzlərlə yeni müəssisənin yaradılması, Azərbaycan bölgələrində infrastrukturun yeniləşməsi və yaradılması, elektrik stansiyalarının tikilməsi, qaz xətlərinin çəkilməsi – bütün bunlar regionların inkişafına xidmət göstərir. Bütün bunlar imkan verir ki, Azərbaycanın bütün bölgələrində insanlar daha da yaxşı yaşasınlar.

Biz bundan sonra da bu siyasəti davam etdirəcəyik. Azərbaycanın qarşısında duran vəzifələr uğurla icra edilir, bizim bütün proqramlarımız həyatda öz əksini tapır. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının ölkəmizin hərtərəfli inkişafında çox böyük rolu olmuşdur. Bu proqramın icrası nəticəsində ölkəmizin qeyri-neft sektoru inkişaf edir, bölgələrdə müasir şərait yaradılır və yaradılacaqdır.

Biz uğurlu neft siyasətimizdən istifadə edərək, siyasi və iqtisadi islahatları davam etdirərək elə şərait yaradırıq ki, gələcəkdə Azərbaycan iqtisadiyyatı neft amilindən asılı olmasın. Şübhəsiz ki, bu gün Azərbaycanın inkişafında neft-qaz sahəsi çox böyük rol oynayır. Bu sahədə də əldə edilmiş bütün uğurlar ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə mümkün olmuşdur. Məhz onun təşəbbüsü ilə 1994-cü ildə xarici şirkətlərlə ilk neft müqaviləsi imzalandıqdan sonra Azərbaycan bu sahədə böyük uğurlara nail ola bilmişdir. O vaxt vəziyyət indiki kimi deyildi. Azərbaycan cəmi 3 il idi ki, müstəqil dövlət idi və torpaqlarımız işğal altında idi. Ölkədə hələ vətəndaş müharibəsinin acı nəticələri yaşanırdı, Azərbaycana vəsait qoymaq istəyən xarici şirkətlərin sayı çox məhdud idi, Azərbaycan çox riskli bir ölkə sayılırdı. Daxili imkanlarımız da, demək olar ki, yox idi. Büdcə çox aşağı səviyyədə, xəzinə isə boş idi. O şəraitdə böyük enerji şirkətlərini Azərbaycana cəlb etmək, onları inandırmaq ki, Azərbaycan investisiyalar üçün əlverişli iqtisadi imkanlara malikdir – bu, böyük müdriklik və cəsarət tələb edirdi. Çünki neft müqavilələrinin imzalanması çox ağır geosiyasi şəraitdə baş verirdi.

Bu gün isə Azərbaycan qarşıda duran bütün enerji vəzifələrini uğurla icra edibdir və biz tarixi nailiyyətlərə çatmışıq. Neft-qaz kəmərləri işə salınmışdır. Azərbaycanda böyük miqdarda neft-qaz hasil edilir, ixrac olunur və beləliklə, ölkə zənginləşir. Uğurlu neft-qaz siyasətimiz, iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı, sahibkarlığa həm siyasi və mənəvi, həm də maddi dəstək, kreditlərin ayrılması - bütün bu amillər Azərbaycanın hərtərəfli inkişafına şərait yaradır. Təsadüfi deyil ki, biz dörd il ərzində iqtisadi artım sürətinə görə dünyada birinci yerdəyik. Dörd ildə iqtisadiyyatımız, demək olar ki, 2 dəfə artmışdır və bu meyil davam edir.

Bu dörd il ərzində büdcə xərclərimiz böyük həcmdə artmışdır. Bu gün Azərbaycanın dövlət büdcəsi 12 milyard dollardır. Dörd il bundan əvvəl bu rəqəm 1 milyard 200 milyon idi. Yəni büdcəmiz 10 dəfə artıbdır, xərclərimiz on dəfə artıbdır və bundan səmərəli istifadə edirik və Azərbaycanda müasir infrastruktur yaradılır. Elektrik stansiyaları tikilir, avtomobil yolları, qaz xətləri çəkilir, xəstəxanalar, məktəblər inşa olunur, sosial infrastruktura aid olan digər məsələlər həll edilir. Eyni zamanda vətəndaşlarımızın sosial təminatı yaxşılaşır, minimum əmək haqqı, minimum pensiyalar ildə iki dəfə artırılır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Yanvarın 1-dən minimum əmək haqqı və minimum pensiya 60 manata qaldırılmışdır və bu il yenə də biz buna baxacağıq. Mən göstəriş vermişəm ki, yenidən biz bu məsələyə baxaq və maaşlar, pensiyalar artırılmalıdır. Düzdür, artım çox böyükdür, amma hələ ki, bizi tam qane edə bilməz. Çünki mən istəyirəm ki, Azərbaycan vətəndaşları yaxşı yaşasınlar, aldıqları maaşlar, pensiyalar onların bütün tələbatını ödəsin. Əlbəttə ki, özəl sektorda fəaliyyət göstərənlər özlərini sosial baxımdan daha yaxşı müdafiə olunmuş hesab edirlər, yəni onların dolanışığı özlərinin fəaliyyətindən asılıdır. Nəzərə alsaq ki, Azərbaycanda bizneslə məşğul olmaq üçün çox gözəl şərait yaradılmışdır və dövlət tərəfindən bütün lazımi tədbirlər görülür. Eyni zamanda, sahibkarlara ildə 100 milyon manata yaxın məbləğdə kreditlər verilir, kənd təsərrüfatı texnikası verilir. Demək olar ki, sahibkarlıqla məşğul olanlar özlərini yaxşı təmin edə bilirlər. Nəzərə alsaq ki, Azərbaycan iqtisadiyyatının 80 faizi özəl sektorda formalaşıb, deyə bilərik ki, özəl sektorda işləyənlərin sayı kifayət qədər çoxdur. Ancaq büdcə təşkilatlarında işləyənlərin sosial müdafiəsi məsələləri, əlbəttə ki, diqqət mərkəzində olmalıdır və o insanlara dövlət qayğısı bundan sonra da davam etdiriləcək, onların iş şəraiti yaxşılaşdırılacaq, əmək haqları artırılacaqdır.

Siz bilirsiniz və Xanlar rayonunun timsalında da biz bunu görürük ki, indi Azərbaycanda məktəb tikintisi nə qədər geniş vüsət almışdır. Hər yerdə, demək olar ki, hər kənddə yeni məktəblər tikilir. Nə üçün biz bunu edirik? İlk növbədə, ona görə ki, bizim gələcəyimiz olan uşaqlarımız yaxşı şəraitdə oxusunlar. Oxumaq üçün onların bütün şəraiti olsun və gələcəkdə Azərbaycan üçün bilikli gənc nəsil yetişsin. Digər tərəfdən, o məktəblərdə təkcə uşaqlar oxumur, həm də müəllimlər işləyirlər. Müəllimlər uşaqlara bilik öyrədir, onları tərbiyə edirlər, demək, bizim gələcəyimizi formalaşdırırlar. Ona görə müəllimlərin əməyi çox yüksək qiymətləndirilməlidir. Onların həm əmək haqları artırılmalıdır və artırılır, həm də iş şəraiti yaxşılaşmalıdır. Biz bunu edirik və bundan sonra da edəcəyik. Son dörd il ərzində Azərbaycanda 1200-dən çox məktəb tikilmişdir. Nəzərə alsaq ki, bütün dövrlərdə Azərbaycanda 4500 məktəb tikilmişdir, bu, misli görünməmiş bir nəticədir. Bu il də 200-dən çox məktəb, əlavə korpuslar tikiləcək və təmir olunacaqdır.

Beləliklə, təhsillə - ibtidai və orta təhsillə bağlı olan məsələləri, bu sahədə maddi-texniki bazanın yaradılması məsələlərini biz yaxın 2-3 ildə həll edəcəyik.

Bütövlükdə, sosial məsələlərə diqqət həmişə yüksək olmuşdur. Bunu biz büdcə xərclərində də görə bilərik. Büdcəmiz sosialyönümlüdür, eyni zamanda, investisiyayönümlüdür və artan imkanlarımız, maliyyə imkanlarımız, əlbəttə ki, bizim qarşımızda yeni imkanlar açır. Azərbaycan güclü ölkəyə çevrilir. Bizim hamımızın məqsədi odur ki, Azərbaycan güclü dövlət olsun, Azərbaycan vətəndaşları yaxşı yaşasınlar. Azərbaycan öz siyasi və iqtisadi maraqlarını tam şəkildə təmin edə bilsin və bölgədə çox möhkəm mövqelərə malik olsun. Biz bunu artıq görürük. Artıq Azərbaycan yerləşdiyi bölgədə söz sahibidir. Biz böyük layihələrin, böyük işlərin təşəbbüskarıyıq. Bütün regional layihələrdə, regional əməkdaşlıq məsələlərində fəal iştirak edirik. Bir çox hallarda bu əməkdaşlığın inkişafı üçün təşəbbüslər göstəririk və bizim rolumuz həm bölgədə, həm də dünyada yüksək dərəcədə qiymətləndirilir və bölgədə lider dövlət kimi Azərbaycanın mövqeləri günü-gündən möhkəmlənir. Bunun müxtəlif amilləri var və onların hamısını sadalamaq çox vaxt aparar. Başlıcası ondan ibarətdir ki, Azərbaycanda xalqla iqtidar arasında birlik var, qarşılıqlı hörmət var, inam var. Bütün proqramlarımız xalq tərəfindən dəstəklənir və bu, bizə əlavə güc verir, əlavə imkanlar yaradır. Ölkəmizdə çox gözəl ictimai-siyasi vəziyyət mövcuddur, sabitlik, əmin-amanlıq var, insanlar normal şəraitdə yaşayır, çalışırlar.

Azərbaycan enerji baxımından həm bölgə üçün, həm dünya üçün əvəzolunmaz ölkəyə çevrilir. Bu, bizə əlavə maddi imkanlar yaradır, həm də siyasi gücümüzü artırır. Bildiyiniz kimi, indiki zamanda enerji məsələləri dünyanın gündəliyində birinci yerlərdədir. Yeni etibarlı enerji daşıyışçıları, neft-qaz hasil və nəql edən ölkə kimi Azərbaycan, əlbəttə ki, öz imkanlarını genişləndirir. Biz bütün bu amillərdən məharətlə istifadə edirik ki, ölkəmizi daha da gücləndirək, onun qarşısında duran bütün vəzifələri icra edək. Dünyada bizim müttəfiqlərimizin sayı getdikcə artır, genişlənir. Biz bütün əməkdaşlıq məsələlərində çox böyük iradə göstəririk. Biz əməkdaşlığa açığıq, nə qədər çox dost ölkə qazansaq, beynəlxalq mövqelərimiz də bir o qədər möhkəmlənəcəkdir.

Bir sözlə, Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır. Sadəcə, istəyirəm ki, bu inkişaf daha da sürətlə getsin. Sadəcə istəyirəm ki, həll olunmamış məsələlər tezliklə öz həllini tapsın. İnsanları hələ narahat edən, onlara əziyyət verən məsələlər aradan qaldırılsın. Bu sahədə qəbul olunmuş və gələcəkdə qəbul edəcəyimiz proqramlar imkan verəcək ki, hər bir məsələ öz həllini tapsın. Regionların inkişafı proqramının yekunlarının müzakirəsi zamanı mən göstəriş vermişəm ki, növbəti beşillik üçün yeni proqram hazırlansın. Birinci proqram, demək olar ki, artıq icra edilibdir, proqramda nəzərdə tutulan məsələlərin 98 faizi ya tam həll olunub, yaxud da qismən həll edilib və qarşıda hələ bir il vaxt var, həll olunacaqdır. Növbəti beşillik üçün yeni regional inkişaf proqramının hazırlanmasına artıq başlanmışdır. Bütün yerli icra orqanlarına göstərişlər verilmişdir ki, onlar mərkəzə bütün məlumatları təqdim etsinlər: rayonda, hansı kənddə, harada problem var, harada nə çatışmır, harada nə təmir olunmalıdır, harada nə tikilməlidir. Bu göstərişləri bütün icra hakimiyyəti başçılarına vermişik. Onlar da bu məlumatların əsas hissəsini mərkəzə göndərmişlər. İndi bu məsələlər təhlil olunur. Bu günə qədər həll olunmamış bütün məsələlər növbəti proqrama daxil ediləcəkdir. Növbəti beş ildə - 2009-2013-cü illərdə regionlarda bütün məsələlər həll olunacaqdır.

Həyat yerində durmur. Əlbəttə ki, qarşımıza yeni məsələlər çıxır və biz bunları həll etməyə qadirik. Bizim güclü iradəmiz, peşəkar mütəxəssislərimiz var və artıq maddi imkanlarımız var. O imkanlar ki, biz onları özümüz yaratmışıq. O imkanlar ki, onlar göydən düşməyib, biz öz gücümüzlə yaratmışıq. Bəzən bizim işlərimizə kölgə salmaq istəyənlər deyirlər ki, bəli, Azərbaycanda neft var, qaz var, ona görə Azərbaycan elə uğurla inkişaf edir. Çox ölkələrdə neft və qaz var. Başqa ölkələrdə başqa təbii sərvətlər var. İndi bütün ölkələrin tarixinə nəzər salsaq, - həm bizim bölgədə, həm də ki, başqa yerlərdə, - görərik ki, hər bir ölkənin iqtisadiyyatı hansısa bir təbii sərvətə əsaslanır. Bəzi hallarda bu, neft-qaz olur, bəzi hallarda kənd təsərrüfatı məhsulları olur, digər təbii sərvətlər olur. Bu, təbiidir. Dünyanın inkişafı bu təbii sərvətlər əsasında gedir. Enerji olmasa, inkişaf ola bilməz, bu, hər bir ölkə üçün təbiidir. Azərbaycanın, bizim uğurumuz ondan ibarətdir ki, öz təbii sərvətlərimizə sahib olmuşuq. Azərbaycan xalqı buna sahib olub və öz təbii sərvətlərini uğurla işlədir. Bütün neft-qaz layihələrində Azərbaycan mütəxəssisləri fəal iştirak edirlər. Bizim həyata keçirdiyimiz bütün layihələrə daha çox xarici investorlar tərəfindən vəsait qoyulur. Ancaq artıq bir neçə aydan sonra Azərbaycan çıxarılan neftin 80 faizinin sahibinə çevriləcəkdir. Başqa ölkələrdə buna bəlkə 50-60 il vaxt lazımdır. Yəni Azərbaycanın nefti və qazı xalqımızın inkişafına xidmət göstərir. Biz bu imkanlardan səmərəli istifadə edib su kəmərləri, qaz xətləri çəkirik, məktəblər, xəstəxanalar tikirik. Bütün bu əsas maliyyə imkanlarımızın mənbəyi məhz bizim təbii sərvətlərimiz və onlardan səmərəli istifadə etməyimizdir. Biz çətin, ağır geosiyasi şəraitdə neft kəmərləri tikmişik. Xəzər dənizini Qara dənizlə

birləşdirmişik. Xəzər dənizini ilk dəfə olaraq Aralıq dənizi ilə birləşdirmişik. Bunlar asan məsələlər deyildir. Sadəcə olaraq, texniki, yaxud da ki, kommersiya məsələləri deyildir. Çox böyük siyasi müdriklik, siyasi fəaliyyət, diplomatik səylər tələb edirdi və biz bunlara nail ola bilmişik. Mən şübhə etmirəm ki, bundan sonra bizim qarşımızda həll olunmamış problem qalmayacaqdır.

Bizim hamımızı narahat edən yeganə məsələ Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmamasıdır. Bu məsələnin həll olunmaması ondan irəli gəlir ki, Azərbaycan öz prinsipial mövqeyindən dönmür və dönməyəcəkdir. Bizim prinsipial mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır, ədalətə əsaslanır və mən inanıram ki, bizim mövqeyimiz son nəticədə torpaqlarımızın azad olunmasına gətirib çıxaracaqdır. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir və münaqişə yalnız bu əsasda öz həllini tapa bilər. Heç vaxt separatist qüvvələrə heç bir güzəşt olmayacaq, biz heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına imkan verməyəcəyik, bu, heç vaxt baş tutmayacaqdır. Ermənistanda bunu nə qədər tez başa düşsələr, onlar üçün bir o qədər yaxşı olacaqdır. Mən bəyan edirəm ki, Azərbaycan bundan sonra da öz prinsipial mövqeyində qalacaq və münaqişəni ancaq və ancaq bizim ərazi bütövlüyümüz çərçivəsində həll edəcəyik. Biz hələ ki, danışıqlara sadiqik, hələ ki, bəzi ümidlərimiz var. Ancaq bununla bərabər, siz onu da bilirsiniz ki, biz hərbi gücümüzü artırırıq. Bəzi hallarda beynəlxalq təşkilatlar bizi tənqid etməyə çalışırlar ki, Azərbaycan ordu quruculuğuna nə üçün bu qədər vəsait ayırır. Birincisi, bu, bizim işimizdir və heç kimə dəxli yoxdur. Biz kasıb olanda, imkanlarımız olmayanda gəlib bizə əl tutan olmamışdır ki, indi, imkanımız olanda bizə məsləhət verməyə çalışırlar ki, bu vəsaitdən harada istifadə edək. Biz bu vəsaitdən hər yerə istifadə edirik. Həm məktəb tikirik, xəstəxana tikirik, yol çəkirik, elektrik stansiyaları tikirik və həm də ordumuzu gücləndiririk və gücləndirəcəyik. Bizim artan ordu potensialımız danışıqların tezliklə başa çatmasına xidmət göstərir. Çünki işğalçı tərəf bilir və aydın dərk edir ki, artıq Azərbaycan o Azərbaycan deyil ki, onun torpaqlarını işğal etmək mümkün olsun. İndi Azərbaycan çox güclü hərbi potensiala malikdir, bu potensial ildən-ilə artırılır və artırılacaqdır. Belə olan halda, bizimlə ultimatum dili ilə danışmaq heç kimə fayda gətirməz. Azərbaycan həm iqtisadi cəhətdən, siyasi cəhətdən və həm də hərbi cəhətdən güclü ölkədir və bu güc daha da artacaqdır.

Əziz dostlar, mən sizin hamınızı bir daha salamlamaq istəyirəm. Mən çox şadam ki, Xanlar rayonuna gəlmişəm. Bilirəm ki, rayonda inkişaf gedir, abadlıq-quruculuq işləri gedir. Rayonun çox böyük potensialı var və mən əminəm ki, bu potensialdan biz hamımız səmərəli şəkildə istifadə edəcəyik. Rayonda həm sənaye müəssisələri yaranır, həm də xəstəxana tikilir, - bu yaxınlarda o, istifadəyə veriləcək - gözəl məktəblər tikilir, yollar salınır. Yəni rayonun inkişafı üçün bütün şərait yaradılır. Sadəcə olaraq, biz hamımız elə etməliyik ki, qarşıda duran bütün məsələləri daha da qısa müddət ərzində həll edək və Xanlar rayonu inkişaf etsin və çiçəklənsin. Mən bunu arzulayıram. Sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

Sonra rayon ağsaqqalı Umud Tanrıverdiyev çıxış etdi.

Rayon ağsaqqalı Umud Tanrıverdiyevin çıxışı

-Hörmətli cənab Prezident!

Siz Prezident kimi ilk dəfə bizim rayona təşrif buyurmusunuz. Sizin gəlişiniz Xanlar rayonu əhalisinin hədsiz sevincinə səbəb olmuşdur.

Sizin regionlara səfərlərinizi diqqətlə izləyirik. Əhali ilə, sadə adamlarla səmimi ünsiyyətinizi görmüşük. Ulu öndərimiz Heydər Əliyev iki dəfə bizim rayona gəlmişdi. Xidməti işimlə əlaqədar olaraq mən onu müşayiət edən adamların arasında olmuşam və onu yaxından izləmişəm. Nə qədər sadə insan idi, zəhmət adamlarının necə qayğısına qalırdı. Bu gün demək istəyirəm ki, Siz onun işlərinin hamısının gözəl davamçısısınız.

Hörmətli Prezident, Xanlar Azərbaycanın qərb zonasının dilbər guşələrindən biridir. Siz bunu yaxşı bilirsiniz. Xanlarda istər iqtisadiyyatın inkişafı, istərsə də başqa məsələlər barədə dəqiq məlumatınız var. Ancaq mən burada camaatın qarşısında bir şeyi demək istəyirəm.

Keçən il Bozdağ kəndi təbii fəlakətə uğradı. Torpaq sürüşməsi nəticəsində kənd yasa batmışdı. Biz bilmirdik kimə müraciət edək, necə edək. Yalnız Sizin Sərəncamınızla ayırdığınız vəsait və gündəlik nəzarətiniz sayəsində dağıntılar bərpa olundu, yeni məktəb tikildi. İndi hamı Sizə minnətdarlığını bildirir və Sizə dua edir.

Hörmətli Prezident, biz xanlarlılar heç vaxt yaddan çıxarmarıq ki, Siz bizim rayon üçün nələr etmisiniz. Hamısı, inkişafımız da göz qabağındadır.

Hörmətli Prezident, bir məsələni də demək istəyirəm. Qarşıdan seçkilər gəlir. Camaatın içində olan bir adam kimi deyirəm ki, bu seçkilərdə bizim yalnız bir, alternativsiz namizədimiz var, o da Sizsiniz. Ona görə mən ürəklə deyirəm ki, seçkilərdə yüz faiz biz Prezidentimizə - İlham Əliyevə səs verəcəyik.

Biz bu seçkilərdə birlikdə göstərəcəyik ki, demokratiya necə olur, seçki necə olur və Prezident necə olmalıdır. O da yenə bizim İlham Əliyevdir.

Hörmətli Prezident, rayonumuza gələcəyinizi bir neçə gün bundan əvvəl eşitdik. Oturduq məsləhətləşdik, fikirləşdik ki, biz Prezidentdən nə xahiş edək, nə istəyək. Sonra gördük ki, işığımız var, suyumuz var, qazımız var, güzəranımız yaxşılaşır, iş yerləri açılır. Gənclər artıq başqa yerlərdən buraya qayıdırlar. Daha xahiş ediləsi bir şey qalmadı. Dedik, onda arzu edək ki, Prezident bundan sonra uzun illər, ömürlük bizə rəhbərlik etsin. Camaatın bu arzusunu Sizə çatdırıram.

Hörmətli Prezident, mən bir məsələni deməyə bilmərəm. Ermənistanda keçirilən seçkilərdən sonrakı hadisələri izləyirik. Biz görürük ki, orada nə hadisələr baş verir. Məşhur erməni şairi Çarens var idi. Onun bir fikri hələ də məni düşündürür. Çox gözəl deyirdi. Deyirdi ki, bizim millətin bəlası orasındadır ki, ana bətnində saxtakarlıq öyrənirik. Həmin bu saxtakar millət çalışır ki, seçki keçirsin, indi o ölkə qan ağlayır. Belə insanlarla necə qonşuluq edə bilərik. Bir də ki, onlar bizim qonşumuz olmayıb, onları bizə qonşu gətiriblər. Hörmətli Prezidentimiz çıxışında İrəvan mahalı, İrəvan xanlığı barədə deyib.

Hörmətli Prezident, Sizə uzun ömür, cansağlığı arzulayırıq, xanlarlılar həmişə Sizi gözləyəcəklər. Sağ olun.

X X X

Prezident İlham Əliyev mərasimdən sonra icra hakimiyyətinin binası ilə, habelə rayonun sosial-iqtisadi göstəricilərini və aparılan quruculuq işlərini əks etdirən stendlə tanış oldu. Bildirildi ki, icra hakimiyyətinin binası yenidən qurulmuşdur. Binanın tikintisinə 1985-ci ildə başlanmış, lakin yarımçıq qalmışdı, 1990-cı illərin əvvəllərində isə baxımsızlıq ucbatından tamamilə dağıdılmışdı. 2006-cı ildə binada əsaslı yenidənqurma işləri aparılmışdır. Əvvəllər ayrı-ayrı köhnə evlərdə yerləşən dövlət idarə və təşkilatları da bu altımərtəbəli binaya köçürülmüşdür.

Məlumat verildi ki, Xanlarda kanalizasiya xətti yox idi. Son bir il ərzində 18 kilometrədək kanalizasiya xətti çəkilmiş, içməli su problemi də tamamilə həll olunmuşdur.

AZƏRTAC
2008, 4 mart

Şəhid İbrahim Hüseynov adına məktəb müasir tipli təhsil ocağıdır

(4 mart 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev martın 4-də Xanlar şəhərində şəhid İbrahim Hüseynov adına 1 nömrəli orta məktəbdə olmuşdur.

1965-ci ildə tikilmiş və qəza vəziyyətində olduğuna görə sökülərək, Dövlət Neft Şirkətinin vəsaiti hesabına inşa edilmiş 3 mərtəbəli məktəb binası 800 şagird yerlikdir. 2007-ci ilin sentyabrında istifadəyə verilmiş məktəbdə 40 sinif otağı, kitabxana, kompyuter otağı, yeməkxana, laboratoriya, idman salonu, mərkəzləşdirilmiş istilik sistemi var. 670 şagirdin təhsil aldığı məktəbdə 100 nəfər müəllim çalışır. Keçən il məktəbi bitirən 34 şagirddən 11-i ali məktəblərə daxil olmuşdur.

Prezident İlham Əliyev kitabxana, kompyuter otağı və idman salonu ilə tanış oldu. Bildirildi ki, kitabxanada 17 min kitab, o cümlədən 6 min nüsxə dərslik və vəsait var.

Dövlətimizin başçısı məktəbdə yaradılmış şəraiti yüksək qiymətləndirdi, ölkəmizdə təhsilə böyük diqqət və qayğı göstərildiyini, gələcəkdə bütün bölgələrdə belə müasir orta təhsil müəssisələrinin tikintisinin davam etdiriləcəyini bildirdi.

AZƏRTAC
2008, 4 mart

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yaşayış binası istifadəyə verilmişdir

(4 mart 2008-ci il)

Martın 4-də Xanlar rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 16 mənzilli yaşayış binası istifadəyə verilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir.

Dövlət başçısının tapşırığı ilə tikilmiş ikimərtəbəli, dörd bloklu binada 8 ikiotaqlı, 8 üçotaqlı mənzil vardır.

Prezident İlham Əliyev mənzillərin orderlərini sahiblərinə təqdim etdi.

Şəhid ailəsinin üzvü, hərbçi ESMİRAL İSMAYILOVA dövlətimizin başçısına təşəkkür edərək dedi:

- Cənab Prezident, Sizi buradakı Qarabağ müharibəsi əlilləri və şəhid ailələri adından salamlayıram. 1988-ci ildən 1994-cü ilə qədər Azərbaycan çox ağrılı, acılı günlərini yaşadı. Bu, bizim də həyatımızdan yan keçmədi. Mənim həyat yoldaşım İsmayıl Zəlimxan oğlu İsmayılov Qarabağ uğrunda gedən döyüşlərdə şəhid oldu. Hazırda mənim iki övladım var. Onlardan biri Azərbaycan ordusunun hava hücumundan müdafiə qüvvələrində xidmət edir. Mən özüm də hərbçiyəm. 15 ildir Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edirəm və öz şərəfli peşəmdən qürur duyuram.

Cənab Prezident, Sizin hərtərəfli qayğınızla əhatə olunmuşuq. Ona görə də şəhid ailəsi olmağımızı nə uşaqlarım, nə də mən hiss etməmişik. Sizə dərin minnətdarlığımızı bildiririk. Siz çıxışlarınızda tez-tez vurğulayırsınız ki, Azərbaycan nəyin bahasına olursa-olsun torpaqlarını erməni işğalçılarından azad edəcəkdir. Bəli, indi bizim güclü, nizami ordumuz var. Biz ümidvarıq ki, torpaqlarımız erməni işğalçılarından azad olunacaq və o gün uzaqda deyildir. Bizim ordumuz, Silahlı Qüvvələrimiz Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini, müstəqilliyini qorumağa qadirdir. Belə güclü ordumuz olduğuna, həmişə hərbçilərə kömək etdiyinizə görə Sizə hərbçilər adından minnətdarlığımı bildirirəm. Bizə göstərdiyiniz diqqətə görə bütün şəhid ailələri və Qarabağ müharibəsi əlilləri adından Sizə dərin minnətdarlığımı bildirirəm. Allah Sizi üstümüzdən əskik etməsin. Ümidimiz, güman yerimiz, iman yerimiz Sizsiniz. Bizim yeganə Prezidentimiz sizsiniz. Cənab Prezident, Sizin alternativiniz yoxdur. Sağ olun.

Prezident İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

-Çox sağ olun. Sizi ürəkdən salamlayıram.

Siz qeyd etdiyiniz kimi, ordu quruculuğuna çox böyük diqqət göstərilir. Ordumuz güclənir, möhkəmlənir. Biz hərbçilərin sosial məsələlərinin həlli üçün də çalışırıq. Əlbəttə, indiki Azərbaycan ordusu bölgədə, Cənubi Qafqazda ən güclü ordudur. Biz buna böyük dərəcədə maddi-texniki bazanın möhkəmləndirilməsi və peşəkarlığın artırılması sayəsində nail ola bilmişik. Ancaq bu proses hələ davam edəcək və davam etməlidir. Biz müharibə şəraitində yaşayırıq, torpaqlarımız işğal altındadır. Ona görə təbiidir ki, biz, ilk növbədə, ordu quruculuğu ilə məşğul olmalıyıq. Azərbaycanın dövlət büdcəsində orduya ayrılan xərclər birinci yerdədir. Bu, belə də olmalıdır və ildən-ilə daha da artırılacaqdır. Ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə hazırdır.

Biz istəyirik ki, münaqişəni sülh yolu ilə həll edək. Biz istəmirik ki, müharibə olsun. Müharibə nə olduğunu siz hamıdan yaxşı bilirsiniz. Siz Vətən uğrunda, doğma ölkəmizin müstəqilliyi uğrunda yaxınlarınızı itirmisiniz, sağlamlığınızı itirmisiniz. Azərbaycanın müstəqilliyini qazanması da o ərəfəyə düşübdür. Hələ müstəqillik əldə etməzdən əvvəl biz münaqişədə idik və bizə qarşı təcavüz başlamışdı. İndi hamımız yaxşı xatırlayırıq, müstəqilliyimizin ilk illəri çox ağır keçibdir. Demək olar ki, Azərbaycanda o vaxt peşəkar, mütəşəkkil ordu yox idi, sadəcə olaraq, könüllülər, vətənpərvər insanlar doğma torpaqları müdafiə etmək üçün döyüşə göndərilmişdilər və müxtəlif amillərə görə Azərbaycan torpaqları işğal altına düşdü. Əlbəttə, Azərbaycanın o vaxtkı rəhbərliyinin bu işlərdə birbaşa günahları var. Beynəlxalq vəziyyət də başqa cür idi. Azərbaycan da zəif bir ölkə idi. Müstəqillik əldə edəndə bizim, demək olar ki, iqtisadi gücümüz yox idi, siyasi gücümüz yox idi. Azərbaycana o vaxt rəhbərlik edən insanlar Azərbaycan xalqının taleyini düşünmürdülər, özlərini düşünürdülər, başqa ölkələrin təsiri altında idilər. Müstəqil siyasət aparmaq iqtidarında deyildilər. Milləti, dövləti, xalqı yox, öz gələcəyini, öz rahatlığını düşünürdülər. Bu, 1991-ci ildə də belə idi. 1992-ci ildə də belə idi və 1993-cü ilin iyun ayına qədər də belə idi. Siz yaxşı bilirsiniz ki, bundan sonra, ulu öndər Heydər Əliyev rəhbərliyə gələndən sonra çox uğurlu hərbi əməliyyatlar aparılmış, torpaqlarımızın bir hissəsi qaytarılmışdır. Ancaq o vaxt Azərbaycanın hərbi gücü və iqtisadi gücü imkan vermirdi ki, müharibə davam etsin. Bu, reallıq idi. O vaxt müharibə dayanmalı idi

ki, biz güc toplayaq, möhkəmlənək, güclənək və daha da güclü mövqedən çıxış edək. Elə də oldu. 1993-2003-cü illər inkişaf illəri oldu. Bu il, 2008-ci ildə biz artıq orduya 1 milyard 300 milyon dollar pul xərcləyirik. Gələcək illərdə daha da çox olacaqdır. Texnika, təyyarələr, silah-sursat alırıq, nə lazımdır edirik ki, torpaqlarımızı hərb yolu ilə azad edilməsinə hər an hazır olaq və biz də buna hazırıq. Sadəcə olaraq, danışıqlar prosesində müəyyən ümidlər olduğuna görə, biz hələ ki, bu prosesə sadiqik və çalışacağıq ki, bunu sülh yolu ilə həll edək. Ancaq bunu sülh yolu ilə o vaxt həll etmək mümkündür ki, biz güclü orduya malik olaq. Düşmən biləndə ki, - əslində, bilir, - Azərbaycan ordusu güclüdür, o vaxt danışıqlar prosesində də, necə deyərlər, özünü normal çərçivəyə sığışdıracaqdır.

Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bütün dünya birliyi bunu dəstəkləyir, beynəlxalq hüquq normaları bunu diktə edir. Beynəxalq hüquq normaları da hər bir ölkə üçün mütləq həqiqət olmalıdır. Baxmayaraq, Ermənistan hələ ki, bu normalara məhəl qoymur, amma vaxt gələcək, reallıqla və beynəlxalq hüquqla razılaşmalı olacaqdır. Ancaq yenə də deyirəm, istədiyimizə nail olmaq üçün, ədaləti bərpa etmək üçün təkcə danışıqlar kifayət deyildir. Bizim danışıqlara hazır olmağımız kifayət deyil, diplomatik səylər kifayət deyildir. Güc olmalıdır. Siz görürsünüz, dünyada nələr baş verir. Güc olan yerdə hər şey həll olunur. Əfsuslar olsun ki, bu, belədir. Biz bunu arzulamırdıq ki, bəzi hallarda dünyada beynəlxalq normalar pozulur, ədalətsiz qərarlar qəbul edilir. Əslində, bu qərarlar dünya nizamına da təsir göstərir. Ancaq güc həlledici amildir. Biz də bu gücü toplayırıq və toplayacağıq. Azərbaycanın inkişafı, iqtisadi islahatlar – bütün görülən işlər bu məqsədi güdür.

Mən sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, bu evdə yaxşı şəraitdə yaşayasınız. Siz buna layiqsiniz. Yenə də deyirəm, doğmalarınızı, sağlamlığınızı itirmisiniz. Əgər Azərbaycan dövləti sizin həyatınızı bir balaca yüngülləşdiribsə, mən hesab edirəm ki, bu, yaxşı haldır. Azərbaycan dövləti ona sədaqətlə xidmət etmiş insanlara qayğı göstərməyi davam etdirəcəkdir.

Bilirsiniz ki, sosial müavinətlər də artırılır və artırılacaqdır. Sizin sosial məsələləriniz həllini tapacaqdır. Xanlar rayonunda sizin kimi insanlar var, çoxdur. Hələ ki, 16 mənzil tikilib istifadəyə verilibdir. Gələcəkdə yeni evlər tikiləcək ki, sizin kimi insanların vəziyyətini yaxşılaşdıraq.

X X X

Sonra Prezident İlham Əliyev mənzillərlə tanış oldu. Dövlət başçısının adından hər bir mənzilə soyuducu və televizor hədiyyə olunmuşdur. Mənzillərdə yaşayış üçün hər cür şərait yaradılıb, mebel dəstləri qoyulub, bina istilik sistemi ilə, qazla təchiz edilibdir. Yaxın vaxtlarda telefon xətləri də çəkiləcəkdir.

AZƏRTAC
2008, 4 mart

“Xanlar Aqrar-Sənaye” ASC fəaliyyətini genişləndirir

(4 mart 2008-ci il)

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev martın 4-də “Xanlar aqrar-sənaye” Açıq Səhmdar Cəmiyyətinə gəlmişdir.

Burada dövlətimizin başçısını böyük səmimiyyətlə və ehtiramla qarşıladılar.

Prezident İlham Əliyev əvvəlcə müəssisənin sxematik planı ilə tanış oldu, keçmişini və bu gününü əks etdirən fotoşəkillərə baxdı. Prezidentə məlumat verildi ki, bu müəssisə 1860-cı ildə alman kolonistləri - Forer qardaşları tərəfindən tikilmişdi. Dövlətimizin başçısı düyməni basıb, sexi işə saldı, məhsulun istehsalı və qablaşdırılması proseslərini izlədi.

Müəssisə uzun fasilədən sonra, 2006-cı ildə keçmiş “Xanlar aqrar-sənaye” kombinatının bazasında yaradılmışdır. İtaliyadan gətirilmiş avadanlıq quraşdırılmış, istehsal gücü saatda 6 min butulka olan araq süzmə, 3 min butulka olan şərab sexləri və istehsal gücü sutkada 500 dekalitr olan konyak spirtli sexi yenidən qurularaq işə salınmışdır. Polşa və Rusiya şirkətləri ilə müqavilə bağlanaraq, 3 milyon ədəd butulka sifariş olunmuşdur. Fransa, İtaliya və digər Avropa ölkələri ilə danışıqlar aparılır.

Bu yaxınlarda isə Türkiyə və İtaliyanın birgə istehsalı olan “Erensan” qazanları quraşdırılmış, laboratoriya tamamilə yenidən qurularaq, müasir avadanlıqla təchiz olunmuşdur. Hazırda müəssisədə 380 nəfər işləyir, gələn il onların sayı 1500 nəfərə çatdırılacaqdır. Orta aylıq əmək haqqı 220-250 manatdır. Zavod ildə 25 min ton üzüm qəbul etmək gücünə malikdir. Özünün 305 hektar üzüm bağı var, bunun 100 hektarı təzə salınmışdır.

Dövlətimizin başçısı müxtəlif çeşidli hazır məhsullara, o cümlədən ixraca göndərilən məhsulların nümunələrinə baxdı. Sonra Prezident İlham Əliyev üzüm qəbulu məntəqəsi, sexlərlə tanış oldu. Dərinliyi 15 metr olan və təbii havalandırma sisteminə malik zirzəmidə çəlləklərdə saxlanılan məhsullara baxdı. Ölkəmizdə belə müəssisələrin olmasının zəruriliyini bildirən dövlətimizin başçısı bu cür potensial imkanlara malik zavodun məhsullarının xarici bazarlara Azərbaycan markası altında çıxarılmasını yüksək dəyərləndirdi.

AZƏRTAC
2008, 4 mart

Xanlar rayon Mərkəzi Xəstəxanasının tikintisi davam edir

(4 mart 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev martın 4-də Xanlar rayonu Mərkəzi Xəstəxanasının tikintisinin baş planı ilə tanış olmuşdur.

Bu xəstəxana Dövlət proqramına əsasən, Səhiyyə Nazirliyinin sifarişi ilə "Terminal İ.T" müəssisəsi tərəfindən tikilir.

Prezident İlham Əliyev xəstəxananın baş planına və fotolayihəsinə baxdı. Tikintisinə 2006-cı ilin dekabrında başlanmış xəstəxana 2009-cu ilin əvvəlində istifadəyə veriləcəkdir. Ümumi ərazisi 3 hektardır. Burada poliklinika, uşaq və qadın məsləhətxanası da yerləşəcəkdir. Təsərrüfat korpusu, qazanxana, su hovuzu, avtomobil dayanacağı da olacaqdır. 180 çarpayılıq xəstəxanada 95 tibb işçisi fəaliyyət göstərəcəkdir.

Prezident İlham Əliyev binanın xarici görünüşünün müasirliyinə diqqət yetirməyin və tikinti işlərinin yüksək keyfiyyətlə aparılmasının zəruriliyini vurğuladı. Bildirdi ki, Azərbaycanda hər bir səhiyyə obyekti ən yüksək standartlara cavab verməlidir.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev martın 4-də, Xanlar rayonuna səfərinin sonunda Yeni Zod kəndinə gedərək, Ermənistandan didərgin düşmüş və burada məskunlaşmış soydaşlarımızla görüşdü, onların yaşayış şəraiti ilə tanış oldu, qayğı və problemləri ilə maraqlandı.

Bununla da Prezident İlham Əliyevin regionlara növbəti səfəri başa çatdı.

AZƏRTAC
2008, 4 mart

Dövlətimizin başçısı rayonun yeni Zod kəndinin sakinləri ilə görüşmüşdür

(4 mart 2008-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev martın 4-də, Xanlar rayonuna səfərinin sonunda Yeni Zod kəndinə gedərək, Ermənistandan didərgin düşmüş qaçqınlarla və Kəlbəcər rayonundan olan məcburi köçkünlərlə görüşmüş, onların yaşayış şəraiti ilə tanış olmuş, qayğı və problemləri ilə maraqlanmışdır.

Kənd sakinləri dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladılar.

İkinci qrup Qarabağ müharibəsi əlili, "Azərbaycan Bayrağı" ordenli EMİN ORUCOV Prezidenti salamlayaraq dedi:

- Möhtərəm cənab Prezident, Kəpəzin ətəyində yerləşən Xanlar rayonunun ucqar kəndinin camaatı adından Sizə "Xoş gəlmisiniz!" deyirəm. Siz, doğrudan da, bu gün bir daha sübut etdiniz ki, hər bir azərbaycanlının, hər bir vətəndaşın Prezidentisiniz. Siz bunu bir daha təsdiqlədiniz. Siz bizim Prezidentimizsiniz və ömürlük Prezidentimiz olaraq qalacaqsınız. Ümidvaram ki, qarşıdan gələn seçkilərdə yenə Siz bizim Prezidentimiz olacaqsınız.

Cənab Prezident, mən də Qarabağ müharibəsi əliliyəm, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmiş və sol ayağımı itirmişəm. Sinəmdə gördüyünüz "Azərbaycan Bayrağı" ordeni ilə məhz ümummilli liderimiz Heydər Əliyev tərəfindən təltif edilmişəm və bundan şərəf duyuram. Mənə qismət oldu ki, 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevlə görüşdüm və bu gün də Sizinlə görüşdüm.

Cənab Prezident, Siz dediyiniz kimi, sabitlik olan yerdə inkişaf güclü olur. Ona görə də ümidvaram ki, Siz öz siyasətinizlə torpaqlarımızı geri qaytaracaq, ərazi bütövlüyümüzü təmin edəcəksiniz. Əgər bu, siyasətlə olmasa, Qarabağ müharibəsi əlilləri, müharibə iştirakçıları adından Sizə söz verirəm ki, bir əmrinizlə mənfur düşmənləri öz ərazilərinə kimi qovacaq, işğal olunmuş torpaqlarımızdan çıxaracağıq.

Xoş gəlmisiniz, Sizə bir daha təşəkkür edirik. Ümidvaram ki, Siz hər gəlişinizlə biz sadə insanları həmişə belə sevindirəcəksiniz.

Prezident İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

-Çox sağ olun. Mən bu gün sizinlə görüşməyə gəlmişəm. Mən səhərdən Xanlarda idim, orada bir neçə tədbirlər keçirdik. Yaxşı da tədbirlər oldu. O cümlədən, Qarabağ müharibəsi əlilləri, şəhid ailələri üçün yeni tikilmiş binanın orderlərini təqdim etdim. Başqa tədbirlər də var idi. İstədim ki, gəlim sizinlə də görüşüm.

Siz etnik təmizləmə siyasətinə məruz qalmış insanlarsınız. Erməni təcavüzkarları tərəfindən Azərbaycana, azərbaycanlılara qarşı aparılan siyasət belə vəziyyətə gətirib çıxarıb ki, bizim torpaqlarımız işğal altındadır. Burada – Yeni Zod kəndində həm Ermənistandan olan soydaşlarımız, həm də Kəlbəcərdən olan köçkünlərimiz məskunlaşıblar. Mən istəyirəm ki, sizin həyatınız yaxşı olsun, siz yaxşı yaşayasınız. Azərbaycanın hər bir yerində inkişaf, əmin-amanlıq olsun, sülh və tərəqqi olsun. Bunu etmək üçün biz hamımız çalışmalıyıq və ilk növbədə, dövlət strukturları, dövlət orqanları insanlara diqqət qayğı göstərməli, sizin problemlərinizlə məşğul olmalıdırlar. İndi ölkəmizin hər bir yerində bu inkişaf var. İş yerləri açılır, yeni yollar salınır, yeni müəssisələr işə düşür.

Kənd yerlərindəki insanların yaxşı yaşaması üçün də tədbirlər görülür və görülməlidir. Kreditlər verilir, sahibkarlığın inkişafı üçün vəsait ayrılır, kənd təsərrüfatı texnikası ilə təmin olunurlar, digər tədbirlər görülür. Ona görə mən gəldim sizinlə görüşüm, soruşum ki, sizin üçün nə etməliyik, sizə nə lazımdır? Siz mənə deyəsiniz ki, bu kənddə daha da yaxşı yaşamaq üçün nə işlər görülməlidir və mən də bu problemləri həll edim. Çünki mənim bölgələrə səfərlərimin əsas məqsədi bundan ibarətdir ki, gedim, vəziyyətlə tanış olum, çatışmayan məsələləri həll edək. Elə edək ki, Azərbaycanda bütün insanlar yaxşı yaşasınlar.

Siz ucqar kənddə yaşayırsınız və əlbəttə, ucqar dağ kəndlərinin öz problemləri var. Ona görə gəlmişəm həm sizə öz hörmətimi bildirim, həm də soruşum ki, mən sizin üçün nə etməliyəm. Onu deyin, mən də həll edəcəyəm.

AKİF HÜSEYNOV (kənd icra nümayəndəsinin müavini, ağsaqqal): Hörmətli Prezident, çox sağ olun. Kənd ağsaqqalı kimi mən də Sizə və xanımınıza ictimaiyyət adından "Xoş gəlmisiniz!" deyirəm.

Burada yaşayanların əksəriyyəti, 90 faizi 1988-ci ildə Ermənistandan gələn qaçqınlardır, qalanı isə məcburi köçkünlərdir. Sizin qayğınız sayəsində artıq bütün problemlər getdikcə öz həllini tapır. Əminik ki,

bundan sonra daha yaxşı olacaqdır. Söz veririk ki, biz həmişə Sizinlə olacağıq. Qarşıdan prezident seçkiləri gəlir. Sizi yekdilliklə özümüzə yenidən Prezident seçəcəyik və bizim əbədi Prezidentimiz Siz olacaqsınız. Ümidvarıq ki, gələcəkdə bizim bütün problemlərimiz həll olunacaq və Azərbaycanın bu gözəl, dilbər guşəsində Sizin sayənizdə daha yaxşı yaşayacağıq. Sağ olun.

İLHAM ƏLİYEV: Siz Ermənistanın hansı rayonundan gəlmisiniz?

AKİF HÜSEYNOV: Göyçə mahalından, Basarkeçər rayonundan gəlmişik.

İLHAM ƏLİYEV: Neçənci ildə gəlmisiniz?

AKİF HÜSEYNOV: 1988-ci ildə gəlmişik, 1990-cı ildən burada məskunlaşmışıq.

İLHAM ƏLİYEV: 1988-ci ildə, yəni orada, Ermənistanda sizə qarşı təcavüz başlayandan sonra.

AKİF HÜSEYNOV: Bəli.

İLHAM ƏLİYEV: Sizi oradan qovdular. Əslində, ora bizim öz torpaqlarımızdır, Azərbaycan torpaqlarıdır.

AKİF HÜSEYNOV: Bəli, bizim torpaqlarımızdır. Söz veririk ki, gələcəkdə o torpaqlara qayıdacağıq.

İLHAM ƏLİYEV: Siz artıq 20 ildir burada yaşayırsınız.

AKİF HÜSEYNOV: Bəli.

İLHAM ƏLİYEV: Burada yaşayış necədir?

AKİF HÜSEYNOV: Cənab Prezident, yaşayış yaxşıdır. Rayonumuzda, o cümlədən kəndlərimizdə güclü abadlıq-quruculuq işləri gedir. Bu ərazidə yaşayan bütün vətəndaşların hamısı islahatla əlaqədar torpaqla təmin olunubdur. Mal-qara saxlayırıq, heyvandarlıqla məşğul oluruq.

İLHAM ƏLİYEV: Texnika necə, çatır, çatmır? Sizə "Aqrolizinq"dən bir şey verirlər, yoxsa yox? Deyin, bilim.

AKİF HÜSEYNOV: Bəli, texnika çatır, hər şey daha da yaxşı olacaq.

İLHAM ƏLİYEV: Bir neçə il bundan əvvəl mən "Aqrolizinq" şirkəti yaratdım ki, dövlət xaricdən texnika alıb, - indi Azərbaycanın özündə də istehsal etməyə başlayıblar, az icarə haqqı ilə - fermerlərə, kəndlilərə paylasın və onlar bundan istifadə etsinlər. Bilirsiniz, indi regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının birinci mərhələsi başa çatmaq üzrədir. Gələn ilin fevralında 5 il olacaq və bu müddət ərzində, demək olar ki, proqram tamamilə icra ediləcəkdir. Ancaq növbəti illər üçün yeni proqram hazırlanır. Ona görə mən bütün icra orqanlarına göstəriş vermişəm ki, bütün kəndlərin, hər bir kəndin problemi mənə deyilməlidir, göndərilməlidir ki, biz onu proqrama salaq. Ona görə mən bilirəm, siz bəzi problemləri burada deməyə bir az çəkinirsiniz. Ancaq ümid edirəm ki, sizi narahat edən, çatışmayan məsələlər mənə göndəriləcəkdir. Çünki hər bir kəndin problemi həll edildiyi təqdirdə, demək olar ki, ölkənin hər bir problemi həll olunacaqdır. Onsuz da böyük layihələr icra edilir, böyük investisiyalar qoyulur. Elektrik stansiyaları elektrik xətləri tikilir, magistral yollar, qaz xətləri çəkilir.

Yəqin ki, indi burada qaz yoxdur.

AKİF HÜSEYNOV: Vaxtilə çəkilmiş qaz xətləri var. Hacıkəndə kimi qaz gəlir. Artıq layihəyə salınıb, kəndə qaz veriləcəkdir.

İLHAM ƏLİYEV: Layihəyə salınıb?

ARİF SEYİDOV (Xanlar Rayon İcra Hakimiyyətinin başçısı): Cənab Prezident, qaz xətti Aşıqlı kəndinə kimi gəlir. Hacıkənddən bu tərəfə çəkilməlidir.

İLHAM ƏLİYEV: Bu tərəfə də çəkməliyik.

AKİF HÜSEYNOV: Cənab Prezident, qaz gəlsə, yaxşı olacaq, meşələrimizin qırılmasının qarşısı alınacaqdır.

İLHAM ƏLİYEV: İndi bizim ölkədə əhalinin 80 faizi qazla təmin olunur. Ancaq o da həqiqətdir ki, Bakı şəhəri, Sumqayıt, Gəncə - bunlar tam şəkildə təmin edilir. 80 faiz o demək deyil ki, hər bir kənd təmin olunur. 20 faiz təmin edilmir. Biz bunu etməliyik. Özü də indi qaz var, hasilatı artırırıq. Ona görə ən ucqar kəndlərə də xətlər çəkilməlidir və biz bunu etməliyik. Belə olan halda, ekologiya da qorunacaq, meşələr də qırılmayacaq, insanlar da rahat yaşayacaqlar.

İndi bölgələrdə əsas problemlərdən biri içməli sudur. Bütün rayonlarda bu problem var, mən bilirəm. İndi bunun həlli üçün biz xüsusi proqram hazırlayacağıq.

Ümid edirəm ki, elektrik enerjisi ilə bağlı burada problem olmayacaqdır.

KƏND SAKİNLƏRİ: Problem yoxdur.

İLHAM ƏLİYEV: Əvvəllər fasilələr var idi. İndi ola bilsin ki, gecə vaxtı var. Bəzi hallarda qəzalar olur, hava şəraiti pisləşir. Amma bütövlükdə, biz bu problemi həll etmişik. Qaz probleminin 80 faizini həll

etmişik, qalan hissəsini də həll edəcəyik. Amma içməli su problemi çox ciddidir. Ona görə xüsusi proqram hazırlanır və bütün rayonlara içməli su veriləcəkdir. Buna bir neçə il vaxt lazımdır. Mən ümid edirəm, biz iki-üç ilə bunu etməliyik. Qalan işlər də sahibkarlığın inkişafından asılıdır.

Əlbəttə, siz burada kənd təsərrüfatı ilə məşğulsunuz. Kənd təsərrüfatı ilə məşğul olmaq üçün də imkan var. İndi kreditlər verilir, gələcəkdə daha da çox veriləcəkdir. Hər halda, mən istəyirəm Azərbaycanda elə bir yer qalmasın ki, orada ciddi problem olsun. Problem onsuz da hər ölkədə var. Ən inkişaf etmiş ölkəyə də baxanda görürsən ki, orada da yoxsulluq, işsizlik və ədalətsizlik var. Amma biz yoxsulluğu azaldırıq, 16 faizə endirmişik, işsizliyi azaltmışıq. İndi bu ətraf bölgələrdə, yəqin Xanlarda da iş tapmaq o qədər də böyük problem deyil. O qədər tikinti gedir, yeni müəssisələr açılır ki, işləmək istəyən özünə iş tapar.

Əlbəttə ki, infrastruktur layihələri ölkəmizin hərtərəfli inkişafı üçün lazımdır. Kənd yerlərində yaşayanların, əlbəttə ki, öz problemləri var, öz xüsusiyyətləri var. Xüsusilə dağ kəndlərində və biz bunları həll edəcəyik.

Görürəm ki, mənə heç bir problem barədə demək istəmirsiniz. Amma mən yenə də araşdıracağam.

AKİF HÜSEYNOV: Cənab Prezident, ona görə demirik ki, Sizin tərəfinizdən hər şey həll olunacaqdır.

EMİN ORUCOV: Cənab Prezident, icazə verin, burada, Kəpəzin qoynunda Sizinlə xatirə şəkli çəkdirək.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva kənd sakinləri ilə xatirə şəkli çəkdirdilər.

AZƏRTAC
2008, 5 mart

Qazax

2004, 15 iyun

- Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin qərb bölgəsinə səfəri: Qazax rayonunda səmimi görüşlər
- Səməd Vurğun poeziya evi ilə tanışlıq
- Olimpiya İdman Kompleksinin tikintisi üçün ayrılmış sahə ilə tanışlıq
- Qazax şəhərindəki Heydər parkında görüş: Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

2005, 11 oktyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Qazax rayonuna səfəri
- Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması mərasimi
- Qazax rayonunun sakinləri ilə görüş: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi
- Heydər Əliyev parkı ilə tanışlıq
- Qazax şəhərində körpünün açılışı
- Qazax Olimpiya İdman Kompleksinin tikintisi ilə tanışlıq
- Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Qazax rayonunda zona müşavirəsi: Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi
- Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi
- Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev respublikamızın şimal-qərb sərhədlərinin mühafizəsi ilə tanış olmuşdur

2007, 30 may

- Azərbaycan Prezidenti İlham Əliyevin qərb bölgəsinə səfəri: Qazax
- Daş Salahlı kəndində sement zavodunun təməli qoyulmuşdur
- Daş Salahlı Bentonit emalı zavodunun birinci mərhələsi işə salınmışdır
- Qazax Müalicə-Diaqnostika Mərkəzi ətraf rayonlarin sakinlərinə də xidmət edəcəkdir
- İsmayil Şixlı adına park qazaxlıların yeni istirahət guşəsidir
- "Dədə Qorqud" abidə kompleksini ziyarət
- "Mütəfəkkirlər bağı" ilə tanışlıq
- Qazax Olimpiya-İdman Kompleksinin açılışı: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

2008, 24 sentyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Qazax, Ağstafa və Tovuz rayonlarına səfəri: Qazaxda Ulu Öndərin abidəsini ziyarət
- Heydər Əliyev Elm Mərkəzində Ulu Öndərin zəngin irsi ilə bağlı araşdırmalar aparılacaqdır
- Qazaxda Müalicə-Diaqnostika Mərkəzi istifadəyə verilmişdir
- Rayon ictimaiyyətinin nümayəndələri ilə görüş
- Qazaxda Dövlət Rəsm Qalereyası açılmışdır

Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin qərb bölgəsinə səfəri
Qazax rayonunda səmimi görüşlər
(15 iyun 2004-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstana dövlət səfərini başa çatdırdıqdan sonra, iyunun 15-də günün ikinci yarısında Qazax rayonuna gəlmişdir.

Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Azərbaycan-Gürcüstan sərhədində Qazax ictimaiyyətinin nümayəndələri, rəsmi şəxslər xüsusi ehtiramla qarşıladılar.

Yol boyu kəndlərin sakinləri respublikamızın rəhbərini hərarətlə, "İlham!", "İlham!" nidaları ilə salamlayır, xoş arzularını ifadə edirdilər.

AZƏRTAC
2004, 17 iyun

Səməd Vurğun poeziya evi ilə tanışlıq
(15 iyun 2004-ci il)

Prezident İlham Əliyev Qazax rayonunun Yuxarı Salahlı kəndində unudulmaz xalq şairi Səməd Vurğun Poeziya evini ziyarət etdi. Dövlətimizin başçısına bildirildi ki, Səməd Vurğunun Bakıdakı ev-muzeyinin filialı olan Poeziya evi 1976-cı ildən fəaliyyət göstərir. Ümummilli liderimiz Heydər Əliyev 1979-cu ildə Poeziya evində olmuş, buranın zənginləşdirilməsi üçün konkret tapşırıqlar vermişdi. İndi burada Heydər Əliyev guşəsi də var.

Prezident İlham Əliyev ekspozisiyaya tamaşa etdi, tövsiyələrini söylədi, Azərbaycan poeziyası klassikinin özünün oxuduğu şerlərin maqnitofon yazısına qulaq asdı. Azərbaycan Prezidenti fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Dahi Azərbaycan şairi Səməd Vurğunun yaradıcılığı Poeziya evinin ekspozisiyasında öz əksini tapır.

Ekspozisiya ilə böyük maraqla tanış oldum. Səməd Vurğunun əsərləri öz aktuallığını itirmir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Səməd Vurğun Poeziya evinin əməkdaşlarına uğurlar arzulayıram.

Azərbaycan Respublikasının
Prezidenti İlham Əliyev
15.06.2004-cü il."

AZƏRTAC
2004, 17 iyun

Olimpiya İdman Kompleksinin tikintisi üçün ayrılmış sahə ilə tanışlıq
(15 iyun 2004-ci il)

Prezident İlham Əliyev sonra Qazax rayonunda Olimpiya İdman Kompleksinin tikintisi üçün ayrılmış sahəyə gəldi.

Layihənin baş memarı Famil Ağayev ölkəmizin rəhbərinə futbol meydanının, tennis kortlarının və mehmanxananın da daxil olduğu kompleksin baş planı barədə məlumat verdi. Kompleksin regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində tikintisinə bir ay ərzində başlamaq və onu gələn il başa çatdırmaq nəzərdə tutulmuşdur.

AZƏRTAC
2004, 17 iyun

Qazax şəhərindəki Heydər parkında görüş

(15 iyun 2004-ci il)

Qazax şəhərindəki Heydər parkında Prezident İlham Əliyevin yerli sakinlərlə görüşü oldu. Buraya toplaşmış minlərlə insan Azərbaycan rəhbərini səmimiyyətlə, sürəkli alqışlarla qarşıladı.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Əziz qazaxlılar!

Sizi ürəkdən salamlayıram. Mən sizi Milli Qurtuluş günü münasibətilə ürəkdən təbrik edirəm. On bir il bundan əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdı. Məhz onun hakimiyyətə qayıdışından sonra Azərbaycanda müharibəyə, qardaş qarşıdurmasına son qoyuldu. Ölkədə sülh, əmin-amanlıq yarandı, böyük işlər görüldü, iqtisadiyyat inkişaf etdi. Bu son 10-11 il ərzində ölkəmiz çox sürətlə inkişaf etməyə başlamışdır.

Siz bilirsiniz ki, bu yaxınlarda qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı artıq icra olunur, həyata keçirilir. Bu proqram çərçivəsində bu bölgədə, Qazax rayonunda da böyük işlər görüləcəkdir. Yeni iş yerləri açılacaqdır. Bilirsiniz ki, mənim siyasətimin əsas istiqamətlərindən biri də odur ki, bütün rayonlarda yeni iş yerləri açılsın, yeni istehsal sahələri yaransın, camaat, insanlarımız daha da yaxşı yaşasınlar. Mən çox şadam ki, bu istiqamətdə işlər görülür. Sizə onu da bəyan etmək istəyirəm ki, Azərbaycan Milli Olimpiya Komitəsi Qazaxda müasir Olimpiya İdman Kompleksinin tikilməsinə başlayacaqdır. Tikinti işlərinə bu yaxınlarda başlanacaqdır. Əminəm ki, burada gözəl, müasir idman kompleksi tikiləcək və siz də bundan istifadə edəcəksiniz.

Qazax Azərbaycanın gözəl guşələrindən biridir. Burada çox zəhmətkeş, vətənpərvər insanlar yaşayır. Siz sərhəddə yaşayırsınız. Bilirsiniz ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ən ağrılı məsələsidir, Azərbaycan üçün həll olunmalı ən mühüm problemdir. Biz çalışırıq bunu həll edək. Amma, eyni zamanda, ordumuzu da gücləndiririk. Orduya lazımi kömək, dəstək göstəririk. Azərbaycanın iqtisadi potensialı gücləndikcə, ordumuz da güclənəcəkdir. Sizə deyə bilərəm ki, bu gün ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir.

Mən bu gün Gürcüstandan qayıdıram. Gürcüstana çox səmərəli səfərim olub, gözəl danışıqlarım olubdur. Eyni zamanda, azərbaycanlıların məskunlaşdığı Borçalıda da yerli camaatla görüşüm olubdur. Mən oraya Gürcüstanın Prezidenti ilə birlikdə getmişdim. Əminəm ki, oradakı soydaşlarımız bundan sonra daha da yaxşı yaşayacaqlar. Onların problemləri öz həllini daha sürətlə tapacaqdır.

Azərbaycan inkişaf dövrünü yaşayır. Azərbaycanın hər bir yeri, hər bir rayonu, hər bir bölgəsi inkişaf etməlidir. Əminəm ki, növbəti beş il ərzində qarşımızda duran bütün vəzifələri yerinə yetirəcəyik. Mən verdiyim bütün vədlərə sadiqəm. Heç şübhə etmirəm ki, nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapacaqdır.

Mən seçkiqabağı çıxışlarımın birində bildirmişdim, - əfsuslar olsun ki, istədiyim bütün yerlərdə ola bilməmişdim, vaxt imkan vermirdi, - söz vermişdim ki, ola bilmədiyim rayonlara, şəhərlərə seçkilərdən sonra gələcəyəm. Mən bu sözümə sadiqəm və bu gün sizinlə görüşə gəlmişəm. Bu fürsətdən istifadə edib bütün seçicilərə, Heydər Əliyev siyasətinə səs verdiyinizə görə sizə öz dərin minnətdarlığımı bildirirəm.

Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır. Bu Qurtuluş günü Azərbaycanın inkişaf dövrünün başlanğıcı idi. 11 il bundan əvvəl Azərbaycan yol ayrıcında idi. Hansı yollarla inkişaf edəcəkdi, qarşımıza hansı məsələlər çıxacaqdı. Heç kim onu bilə bilməzdi. Amma baxın, 10-11 ildən sonra Azərbaycanda dünyanın ən böyük layihəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa edilir. Qaz kəməri çəkiləcəkdir. Bütün bu layihələr Azərbaycana xoşbəxt gələcək, firavan həyat gətirəcəkdir. Azərbaycanın Prezidenti kimi mən çalışacağam ki, hər bir vətəndaş, hər bir şəxs bu böyük layihələrdən, Azərbaycanda gedən inkişafdan bəhrələnsin. Bu, mənim vəzifəmdir, mənim borcumdur. Mən də bu vəzifəni ləyaqətlə yerinə yetirəcəyəm.

Sizi bir daha ürəkdən salamlayıram. Buraya, bu görüşə gəldiyinizə görə sizə öz dərin minnətdarlığımı bildirirəm. Sizi öpürəm, qucaqlayıram, bağrıma basıram.

Yaşasın qazaxlılar!

Azərbaycan Prezidenti İlham Əliyev sonra Qazax şəhər stadionuna gəldi, idmançıların nümunəvi çıxışlarına baxdı. Pəhləvan İsrafil Məmmədovun hünəri xüsusilə maraq doğurdu. Dövlətimizin başçısı

Azərbaycan çempionatının yüksək liqasına vəsiqə qazanmış "Göyəzən" futbol komandasının üzvləri ilə də görüşdü, idmançılarla xatirə şəkli çəkdirdi. 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirməsi isə stadiona toplaşanların hərarətli alqışlarına səbəb oldu.

Respublikamızın rəhbəri "Azərxalça" İstehsalat Birliyinin Qazax xalça sexi ilə də yaxından tanış oldu.

Birliyin baş direktoru, xalq rəssamı Kamil Əliyev Azərbaycan Prezidentinə sexin fəaliyyəti barədə məlumat verdi, hazırda 60 nəfərin çalışdığı bu istehsal sahəsinin gələcəkdə genişləndiriləcəyini bildirdi. O, İçərişəhərdəki xalça evinin yenidənqurulmasının və burada Azərbaycan xalçaçılıq məktəbinin əsaslı şəkildə təbliği üçün lazımi şəraitin yaradılmasının vacibliyini də söylədi.

Prezident İlham Əliyev bununla bağlı konkret tapşırıqlar verdi.

Dövlətimizin başçısına xatirə olaraq gözəl çeşnili nəfis Qazax xalçası hədiyyə edildi.

AZƏRTAC
2004, 17 iyun

Azərbaycan Prezidenti İlham Əliyevin Qazax rayonuna səfəri
(11 oktyabr 2005-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Qazax rayonunda səfərdə olmuşdur.

Dövlətimizin başçısını rayonun mərkəzində on minlərlə sakin böyük məhəbbətlə, hörmətlə qarşıladı. Onların əllərində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin portretləri, ümummilli liderimizin müdrik kəlamları yazılmış transparantlar, Prezidenti salamlayan şüarlar, Azərbaycanın dövlət bayraqları var idi.

Prezident İlham Əliyev sakinlərə yaxınlaşaraq, hal-əhval tutdu, onların qayğı və problemləri ilə maraqlandı.

AZƏRTAC
2005, 12 oktyabr

Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması mərasimi

(11 oktyabr 2005-ci il)

Oktyabrın 11-də Qazax şəhərində Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması münasibətilə mərasim keçirilmişdir. Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı mərkəzin baş planı ilə yaxından tanış oldu. Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev məlumat verərək bildirdi ki, rayonun mərkəzində, Ağstafaçayın sahilində yerləşəcək bu səhiyyə ocağı gələn ilin iyul ayınadək istifadəyə tam hazır olacaqdır. Layihənin smeta dəyəri 5 milyon dollardır. Üçmərtəbəli binanın birinci mərtəbəsində əsasən stasionar, dializ bölməsi və yeməkxana olacaqdır. İkinci mərtəbədə daxili funksional diaqnostika, təcili yardım, qəbul bölmələri, həkim otaqları, şüa diaqnostikası, üçüncü mərtəbədə isə cərrahiyyə, reanimasiya şöbəsi və palatalar yerləşəcəkdir. Su çənləri, nasos stansiyası, istilik mərkəzi, elektrik yardımçı stansiyası quraşdırılacaq, istirahət zonası və avtomobillər üçün dayanacaq da yaradılacaqdır. Ümumiyyətlə, Prezidentin göstərişinə əsasən, ilkin mərhələdə 10 bölgədə bu cür müalicə-diaqnostika mərkəzləri tikiləcəkdir.

Dövlətimizin başçısı tikinti işlərinin vaxtında və keyfiyyətlə başa çatdırılması, binanın xarici görünüşünün milli memarlıq üslubunda və yaraşıqlı olması barədə tövsiyələrini verdi, bu mərkəzin ətraf rayonların, eləcə də qonşu Gürcüstanda yaşayan soydaşlarımızın müalicə və müayinəsi üçün faydalı olacağını bildirdi, öz xeyir-duasını verdi.

Prezident İlham Əliyev müalicə-diaqnostika mərkəzinin bünövrəsinə içərisində yazılı kağız olan gilizi atdı və ilk beton qarışığını tökdü.

AZƏRTAC
2005, 12 oktyabr

Qazax rayonunun sakinləri ilə görüş

(11 oktyabr 2005-ci il)

Oktyabrın 11-də Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması mərasimindən sonra Prezident İlham Əliyevin Qazax rayonunun sakinləri ilə görüşü olmuşdur.

Görüşü rayon ağsaqqallar şurasının sədri Xanqulu Süleymanov açdı.

Rayon ağsaqqalı Xanqulu Süleymanovun çıxışı

-Zati aliləri, hörmətli Prezidentimiz!

Biz ümummilli liderimiz Heydər Əliyevin ideyalarına sadiqliyimizi nümayiş etdirərək, Sizin Qazax bölgəsinə gəlməyinizi çoxdan arzulayırdıq. Bu gün Qazax torpağına gəlməyinizlə əlaqədar Sizi rayon rəhbərliyi, ağsaqqalları, əmək və müharibə veteranları adından səmimi qəlbdən salamlayır, Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Hörmətli cənab Prezident!

Sizin Azərbaycan xalqının böyük əksəriyyətinin səs verməsi yolu ilə Prezident seçilməyinizin iki ili tamam olur. Bu müddətdə Azərbaycanın ayrı-ayrı bölgələrinə səfəriniz nəticəsində görülmüş böyük işlərin hamısı göz qabağındadır. Bu işlərin hamısı, xüsusilə yeni iş yerlərinin açılması Azərbaycan xalqının rifahının daha da yaxşılaşmasına xidmət edir. Hörmətli Prezident, ümummilli liderimiz Heydər Əliyevin varisi və onun siyasətini davam etdirən dövlət başçısı kimi Sizə iki il müddətində Azərbaycanın ayrı-ayrı bölgələrində gördüyünüz işlərə görə minnətdarlığımızı bildiririk. Sizə cansağlığı, uzun ömür diləməklə bərabər, öz işinizdə müvəffəqiyyət arzulayırıq.

Sizin işiniz çox çətindir. O işlərin öhdəsindən gəlmək asan deyildir. Sizin qızıl vaxtınızı almaq istəmirəm. Ümummilli liderimiz Heydər Əliyevin işinin davamçısı kimi Sizə, ətrafınızda olan ayrı-ayrı nazirlərə, yoldaşlara uzun ömür, cansağlığı, uğurlar arzulayıram.

Hörmətli Prezident!

Bilirsiniz ki, unudulmaz Heydər Əliyev Qazax rayonuna dəfələrlə gəlmişdir. Heydər Əliyevin gəlişi hər vaxt Azərbaycan xalqının ürəyincə olmuş, Qazax camaatı həmişə onu sevmiş, həmişə dəstəkləmişdir. İndi də Qazax camaatı Azərbaycan Respublikasının Prezidenti kimi, Heydər Əliyevin siyasətinin davamçısı kimi Sizə möhkəm arxadır, Sizi dəstəkləyir. Əmin edirik ki, Azərbaycan xalqının gələcəyi naminə gördüyünüz işlərdə Sizinlə bir yerdə olacağıq.

Hörmətli Prezident, Qazax rayonuna bir ildən artıqdır təyin etdiyiniz icra hakimiyyəti başçısının bu müddətdə Sizin göstərişiniz, tələbiniz əsasında rayonda gördüyü işlər göz qabağındadır. Körpü tamamilə yenidən qurulmuşdur. 1898-ci ildə əsası qoyulmuş körpünü dörd il idi ki, sel aparmışdı. Lakin icra hakimiyyəti başçısının təkidi, cəsarətli işi və Qazax camaatının imkanlı adamlarının köməyi nəticəsində indi görəcəyiniz nəhəng bir körpü salındı. Bunların hamısı Sizin Qazax rayonuna göstərdiyiniz diqqətin bariz nümunəsidir.

Hazırda təməlini qoyduğunuz diaqnostika mərkəzinin tikilməsi də Sizin diqqətiniz, qayğınızın nəticəsidir. Bu mərkəzin açılması nəinki Qazax əhalisinin, eyni zamanda, qonşu rayonların və qardaş Gürcüstanda yaşayan azərbaycanlıların ehtiyacını ödəyəcəkdir. Ona görə Sizə deyirik ki, canınız sağ olsun. Gələcəkdə böyük işinizdə, Azərbaycanın xeyri, Azərbaycanın gələcəyi naminə gördüyünüz işlərdə Sizə müvəffəqiyyətlər, uzun ömür, cansağlığı arzulayırıq.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Əziz qazaxlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz hörmət və məhəbbətimi ifadə edirəm.

Bu gün çox əlamətdar bir gündür. Qazaxda yeni, müasir müalicə-diaqnostika mərkəzinin təməli qoyuldu. Bu çox gözəl hadisədir. Yeni, müasir tibb ocağı yaxın zamanlarda qazaxlıların sərəncamına

veriləcəkdir. Azərbaycanda gedən inkişaf, quruculuq, abadlıq işləri ölkəmizi hərtərəfli inkişaf etdirir. Ancaq ümumi iqtisadi uğurlarla yanaşı, gündəlik məsələləri də həll etməliyik. İnsanların daim təmasda olduqları müəssisələr, tibb ocaqları, məktəblər ən yüksək səviyyədə tikilməlidir. Tikiləcək bu müalicə-diaqnostika mərkəzi də əhaliyə ən yüksək səviyyədə tibbi xidmət göstərəcəkdir. Burada müayinə üçün gözəl şərait olacaq, müasir avadanlıq quraşdırılacaqdır. Cərrahiyyə şöbəsi yaradılacaq, reanimasiya şöbəsi və bir sözlə, bütün lazımi şərait olacaqdır.

Əlbəttə, biz istəmirik ki, kimsə xəstələnsin. İstəyirik ki, insanlarımız sağlam olsun. Amma bu, həyatdır. Adam da xəstə olanda bilməlidir ki, ona ən yüksək səviyyədə tibbi yardım göstərilə bilər. Burada deyildi ki, bu, eyni zamanda, region üçün bir mərkəzdir. Qərb regionunda yaşayan bütün insanlar bu mərkəzdən istifadə edə biləcəklər. Eyni zamanda, Gürcüstanda yaşayan soydaşlarımız da. Gələcəkdə isə Azərbaycanın hər bir rayonunda buna bənzər gözəl tibbi mərkəz yaradılacaqdır.

Çox sevindirici haldır ki, Azərbaycan iqtisadiyyatının aparıcı sektoru olan neft sektoru və Azərbaycan Dövlət Neft Şirkəti artıq bu gözəl təşəbbüsə başlamışdır. Azərbaycanın müxtəlif yerlərində gözəl tibb ocaqları yaradılır.

Bilirsiniz ki, bu bölgədən Azərbaycan neftini dünya bazarlarına apacaq Bakı-Tbilisi-Ceyhan neft kəməri keçir. Biz sabah Gürcüstanda kəmərin növbəti mərhələsinin istifadəyə verilməsini qeyd edəcəyik. Çox əlamətdar haldır ki, Azərbaycan nefti artıq Azərbaycan xalqına gözəl xidmət edir. Həm büdcəmiz artır, iqtisadi imkanlarımız yaxşılaşır, eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkəti sosial məsələlərə böyük diqqət göstərir. Bu onu göstərir ki, ölkəmiz hərtərəfli inkişaf edir. Həm iqtisadi inkişaf, makroiqtisadi sabitlik var, Azərbaycanda müsbət proseslər gedir, eyni zamanda, sosial sahəyə diqqət artırılır.

Sosial sahə bizim üçün prioritet sahədir. Bizim bütün iqtisadi layihələrimiz, regionların sosial-iqtisadi inkişaf proqramı, digər iqtisadi təşəbbüslərimiz məhz bu məqsədə xidmət edir ki, sosial sahədə gözəl irəliləyiş olsun. Məktəblər tikilsin, xəstəxanalar tikilsin, digər sosial infrastruktur yaransın və insanlarımıza xidmət etsin. Bu məsələyə çox böyük diqqət göstərilir.

Bilirsiniz ki, regionların sosial-iqtisadi inkişafı proqramı mənim fəaliyyətimdə prioritet əhəmiyyət daşıyır. Azərbaycanın bölgələrində olarkən vəziyyətlə, proqramın icrası ilə tanış oluram. Bu səfərlərin sonunda zona müşavirələri keçirilir və konkret göstərişlər verilir. Bu dəfə də biz burada müşavirə keçirəcək və bölgənin ümumi problemlərini müzakirə edəcəyik.

Azərbaycan sürətlə inkişaf edir, iqtisadi artım göz qabağındadır, maaşlar, pensiyalar artırılır. Amma bu, bizi hələ ki, qane etmir. Baxmayaraq ki, son illər ərzində mimimum əmək haqqı üç dəfə qalxıb, amma yenə də istənilən səviyyədə deyildir. Biz istəyirik ki, Azərbaycanda yoxsul adam olmasın, işsiz adam olmasın. Ancaq bunu etmək üçün gərək güclü iqtisadiyyat olsun, iqtisadi potensial yaransın. Əgər bu yoxdursa, heç bir sosial layihə, maaşların qaldırılması mümkün olmayacaqdır. Ona görə bütün səylərimiz iqtisadi inkişafa yönəldilibdir.

Baxın, bir neçə il bundan əvvəl Azərbaycanın büdcəsi 1 milyard dollardan aşağı idi. Gələn ilin büdcə xərclərimiz 4 milyard dollara çatır. Bu onu göstərir ki, Azərbaycanda aparılmış və davam etdirilən iqtisadi islahatlar öz bəhrəsini verir. Son iki il ərzində Azərbaycanda 300 min yeni iş yeri açılıbdır. Bu, o deməkdir ki, 300 min ailə yeni imkanlar əldə edib, yeni şərait yaranıbdır. Mən əminəm ki, əgər bu meyillər davam edərsə, yaxın zamanlarda Azərbaycan iqtisadi cəhətdən çox qüdrətli ölkəyə çevriləcəkdir.

Qazax rayonu Azərbaycanın paytaxtdan ən uzaqda yerləşən rayonlarından biridir. Ona görə bu rayona xüsusi diqqət, xüsusi qayğı göstərilməlidir. Bir il bundan əvvəl mən burada olarkən Olimpiya kompleksinin tikilməsi haqqında göstəriş verdim. Bu gün mənə tikinti barədə məlumat verildi və özüm də gedib baxacağam. Tikinti işləri uğurla gedir və yaxın zamanlarda Olimpiya kompleksi istismara veriləcəkdir. Bundan gənclər, rayon sakinləri istifadə edəcək, həm idmanla məşğul olacaqlar, həm də öz sağlamlıqlarını möhkəmləndirəcəklər. Bu gün təməlini qoyduğumuz müalicə-diaqnostika mərkəzi də bu məqsədə xidmət edir. Mən istəyirəm ki, bu rayonda daha çox müəssisə açılsın, iş yeri açılsın, infrastruktur yaransın ki, camaat burada yaxşı yaşasın.

Bizi narahat edən ən əsas problemlərdən biri - elektrik enerjisi ilə təchizat məsələsi də öz həllini tapır. Bu il və gələn il quraşdırılacaq yeni elektrik stansiyaları, demək olar ki, 2006-cı ilin sonuna qədər Azərbaycanda bu problemi tamamilə həll edəcəkdir. Ondan sonra yeni müəssisələrin yaranması, yeni iş yerlərinin yaranması daha da sürətlə gedəcəkdir. Çünki hər bir inkişafın əsasında ölkənin enerji sistemi durur.

Bizim xoşbəxtliyimiz ondadır ki, Azərbaycanda çox böyük təbii ehtiyatlar var. Ancaq təbii ehtiyatlar insana və ölkəyə o vaxt xeyir gətirir ki, onlar yerin altından çıxarılır və dünya bazarlarına

çatdırılır. Mən bu gün çox xoşbəxtəm ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmış uğurlu neft strategiyamız həyata keçirilir. Bakı-Tbilisi-Ceyhan neft kəməri yaxın zamanlarda istismara veriləcək və bu, ölkəmizə çox böyük həcmdə valyuta gətirəcəkdir. Belə olan halda, Azərbaycanda iqtisadi imkanlar çoxaldıqca, əlbəttə, bütün məsələlər öz həllini tapacaqdır. Maaşlar, pensiyalar, tələbələrin təqaüdləri daha da çox qaldırılacaq, yeni infrastrukturun yaranması daha sürətlə gedəcəkdir.

İndi Azərbaycanda yeni yollar salınır. Misal üçün, bu bölgədə də Bakını Qazaxla birləşdirən yeni, müasir avtomobil yolu salınır və ilyarım, iki ildən sonra tamamilə istismara veriləcəkdir. Yeni qaz xətləri, su kəmərləri çəkilir, elektrik stansiyaları tikilir. Bütün bunları etmək üçün əlbəttə ki, maddi imkanlar lazımdır. Bu maddi imkanları biz hamımız birlikdə yaratmalıyıq.

Bizim uğurlu siyasətimiz məqsədyönlü şəkildə apardığımız siyasi və iqtisadi islahatlarla, iqtisadi potensialın möhkəmlənməsi və əlbəttə, yerlərdə bizim qərarlarımızın düzgün icra olunması ilə bağlıdır. Sonuncu çox vacib məsələdir. Çünki biz mərkəzdə nə qədər çalışsaq da, əgər yerlərdə iş getmirsə, heç bir qərar, heç bir göstəriş fayda verməz. Ona görə yerlərdə olan vəziyyətlə mən şəxsən tanış oluram. Mənim bölgələrə səfərlərimin əsas məqsədi məhz bundan ibarətdir. Şəxsən görməliyəm, tanış olmalıyam, problem varsa, onun həlli yolları tapılmalı, dərhal aradan qaldırılmalıdır.

Azərbaycanda iqtisadi inkişaf sürəti hazırda dünyada ən yüksək sürətdir. Bunu Beynəlxalq Valyuta Fondu deyir. Yəni iqtisadi islahatlar uğurla aparılır. Eyni zamanda, siyasi islahatlar da aparılır. Azərbaycanda siyasi proseslərin normal məcrada inkişaf etməsi bizim hamımız üçün çox vacibdir.

Qarşıdan parlament seçkiləri gəlir. Siz də görürsünüz, hamı da görür ki, hər bir namizəd üçün eyni şərait yaradılıbdır. Hər bir namizəd sərbəst şəkildə qeydiyyatdan keçib və bu gün öz seçki kampaniyasını aparır. Bunu həm dövlət televiziyasında, həm də ictimai televiziyada, özəl televiziya kanallarında görmək olar. Hər bir deputatlığa namizəd öz seçiciləri ilə sərbəst şəkildə görüşlər keçirir, öz platforması haqqında məlumat verir. Yəqin hansısa vədlər verir və çalışır ki, potensial seçiciləri öz tərəfinə çəksin. Bu, normal siyasi prosesdir. Hər bir normal demokratik ölkədə seçkilər məhz bu cür keçirilir. Azərbaycan da dünya birliyinə, Avropa strukturlarına inteqrasiya etdikcə, əlbəttə, bu proseslərə fəal qoşulur.

Bu gün Azərbaycanda bütün azadlıqlar mövcuddur. Ancaq eyni zamanda, qanun-qayda da var. Azərbaycanda Konstitusiyada təsbit olunmuş bütün azadlıqlar, hüquqlar qorunur. Eyni zamanda, hər bir vətəndaş da məsuliyyətini hiss etməlidir. Heç kimə imkan verilməyəcək ki, qanunu pozsun. Heç kimə imkan verilməyəcək ki, hansısa müstəsna güzəştlərə malik olsun. Hamı necə, başqası da elə. Seçkilər hamı üçün açıqdır. Baxın görün, ilk dəfədir ki, Azərbaycanda parlament seçkilərində 2 mindən artıq namizəd qeydiyyatdan keçmişdir. Bu nəyi göstərir? Onu göstərir ki, qeydiyyat zamanı heç kimə heç bir problem yaradılmamışdır və yaradılmamalıdır. Kim deputat seçilmək istəyirsə, öz namizədliyini qeydə aldırıb və bu gün kampaniya aparır. Əgər kimsə bu gözəl, demokratik ab-havadan, bu şəraitdən, bu gözəl imkanlardan öz çirkin məqsədləri üçün istifadə etmək istəyirsə, kimsə seçkiqabağı vəziyyətdən istifadə edib ölkəmizdə hökm sürən sabitliyi pozmaq istəyirsə, buna imkan verilməyəcəkdir. Azərbaycan güclü dövlətdir. Biz hüquqi dövlət qururuq. Qanunun aliliyi bizim üçün başlıca şərtdir və heç kimə, heç bir şəxsə, heç bir qüvvəyə imkan verilməyəcək ki, qayda-qanunu pozsun, qeyri-qanuni hərəkətlər etsin, yaxud da polisə hücum etsin.

Mən bir daha deyirəm, Azərbaycanda normal demokratik proses gedir, siyasi proses gedir, ölkəmiz dünya birliyinə inteqrasiya edir. Seçki kampaniyası uğurla gedir. Ancaq eyni zamanda, hamı bilməlidir ki, qanun var. Ən başlıca şərt budur. Mən şübhə etmirəm ki, noyabrın 6-da Azərbaycan xalqı öz iradəsini ifadə edəcəkdir. İndi seçim etmək üçün böyük imkanlar var. Əgər, hər bir namizəd deputat seçilmək istəyirsə getsin, seçicilərlə görüşsün, televiziyanın imkanlarından istifadə edib öz proqramını bəyan etsin, qanunla təsdiq edilmiş yerlərdə mitinqlər keçirsin, görüşlər keçirsin və çalışsın ki, deputat seçilsin.

Mən şübhə etmirəm ki, Azərbaycan xalqı öz seçimini edəcək və noyabrın 6-da seçiləcək millət vəkilləri Azərbaycan xalqının rifah halının yaxşılaşmasına töhfə verəcəklər. Əsas budur. Xalq kimi seçməlidir? O insanı seçməlidir ki, o, sabah xalqla birlikdə olacaqdır. O insanı seçməlidir ki, sabah o, kəndə, qəsəbəyə, rayona kömək göstərəcəkdir. Əgər kimsə beş ildən bir meydana çıxırsa, mənə səs verin deyirsə, əlbəttə, o insanların seçilmə şansları çox aşağıdır. Seçilmək üçün, etibar qazanmaq üçün, xalqın məhəbbətini qazanmaq üçün gərək daim xalqla birlikdə olasan, xalqın qayğıları ilə yaşayasan, xalq üçün yaşayasan, yaradasan, qurasan. Amma əgər kimsə, sadəcə olaraq, seçkilərdən-seçkilərə gəlir və deyirsə ki, mənə səs ver, əlbəttə, Azərbaycan xalqı müdrik xalqdır, öz qərarını verəcəkdir.

Əziz bacılar və qardaşlar!

Mən bu gün yenidən Qazaxda olmağımdan çox böyük məmnunluq hissi keçirirəm. Mən çox istəyirəm ki, Qazax rayonu daha da sürətlə inkişaf etsin. Ona görə, burada tibb ocaqları, idman kompleksləri, digər lazımi infrastruktur yaradılmalıdır və yaradılacaqdır. Gələcəkdə başqa layihələr də olacaq, işlərimiz daha böyük sürətlə gedəcəkdir. Çünki imkanlarımız artacaqdır. Əgər cəmi iki il ərzində 300 min yeni iş yeri yaranıbsa, əgər iki il ərzində büdcəmiz 1 milyard dollardan 4 milyard dollara qalxıbsa, deməli, biz düz yoldayıq. Deməli, bizim siyasətimiz həyatda öz əksini tapır. İnsanların əmək haqları ildən-ilə, hər 6 aydan bir artır. Bu, artıq ənənəyə çevrilibdir, artıq bəziləri buna öyrəşibdir. Bu da normaldır.

Mən istəyirəm ki, Azərbaycanda yoxsul adam olmasın, kasıb adam olmasın, işsiz adam olmasın, hamı yaxşı yaşasın. Bunu etmək üçün də hər cür imkan var. Gözəl diyarımız, ölkəmiz, gözəl iqlimimiz, təbiətimiz, istedadlı insanlarımız, zəngin, təbii ehtiyatlarımız var. Azərbaycanın əlverişli coğrafi vəziyyəti var, bölgədəki nəqliyyat dəhlizlərinin, demək olar ki, hamısı buradan keçir. Siyasi iradə, xalqla iqtidar arasında birlik var. Bunlar olan halda, biz mütləq və mütləq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirməliyik və çevirəcəyik. Mənim məqsədim budur.

Mən bu fikirlərlə, bu amalla iki il bundan əvvəl prezident seçkilərinə qoşulmuşdum. Mənim iki illik fəaliyyətim onu göstərir ki, nəyi demişəmsə, onu da etmişəm, bəlkə ondan da artıq etmişəm. Sizə söz verirəm ki, bundan sonra da öz əməyimi Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə sərf edəcəyəm.

Sizə bir daha cansağlığı, uzun ömür arzulayıram. Sağ olun.

AZƏRTAC
2005, 12 oktyabr

Heydər Əliyev parkı ilə tanışlıq
(11 oktyabr 2005-ci il)

Prezident İlham Əliyev rayon sakinləri ilə görüşdən sonra Qazax şəhərindəki Heydər Əliyev parkına gəldi.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin parkda ucaldılmış qranit abidəsi önünə gül dəstəsi qoydu. 5 hektardan çox ərazini əhatə edən və şəhərin mənzərəli guşəsində, Ağstafaçayın sahilində yerləşən, sakinlərin rahatlığı üçün hər cür şərait yaradılmış bu park bir neçə ay ərzində salınmışdır. Dörd ay əvvəl sakinlərin istifadəsinə verilmiş parkda müxtəlif növ ağaclar və gül kolları əkilmişdir.

Prezident İlham Əliyev respublikamızda ilk dəfə bu parkda yaradılmış və ulu öndərimizin xidmətlərini əks etdirən foto-kompüter köşkü ilə yaxından tanış oldu. Köşkün üzərindəki lövhədə bu sözlər yazılmışdır: "Bu yüksək texnologiyalı informasiya köşkü Azərbaycan xalqının ümummilli lideri, dahi Prezident Heydər Əliyevin uca xatirəsinə ithaf olunur. Bu köşk vasitəsilə siz onun həyat yolu və fəaliyyəti haqqında dolğun informasiya ala bilərsiniz. Köşk internet şəbəkəsinə qoşulmuşdur. Siz həmçinin dünya informasiya mənbələrinə də daxil ola bilərsiniz. Əlavə olaraq, bu köşk vasitəsilə siz rayon icra hakimiyyətinin başçısına elektron poçt vasitəsilə öz təkliflərinizi və fikirlərinizi yaza bilərsiniz".

Prezident İlham Əliyev parkda görülən işləri yüksək qiymətləndirdi, informasiya köşkündən sakinlərin necə istifadə etmələri ilə maraqlandı, əhalinin bu cür köşklər vasitəsilə ulu öndərin fəaliyyətinə dair daha geniş məlumat ala biləcəklərini vurğuladı.

AZƏRTAC
2005, 12 oktyabr

Qazax şəhərində körpünün açılışı
(11 oktyabr 2005-ci il)

Prezident İlham Əliyev oktyabrın 11-də, Heydər Əliyev parkı ilə tanışlıqdan sonra Ağstafaçay üzərində salınmış, Qazax şəhərinin hər iki hissəsini birləşdirən körpünün təntənəli açılışı mərasimində iştirak etmişdir.

Nəqliyyat naziri Ziya Məmmədov tikinti işləri barədə ətraflı məlumat verdi ki, yeni körpünün uzunluğu 114 metrdən çox, eni isə 14 metrdir. Əvvəllər burada olan körpü 1898-ci ildə salınmış, 2001-ci ilədək heç bir təmir işləri aparılmamışdı. Həmin ildə bu körpü güclü sel nəticəsində dağılmışdı. Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq, bu körpünün tikintisi daxili investisiya proqramına salınmışdı. Ən azı 100 ildən çox ömrü olacaq yeni körpü möhkəm təməllər üzərində tikilmişdir. Azərbaycanın digər bölgələrində də bu cür körpülər inşa edilir. İndiyədək 28 körpü istifadəyə verilmiş, birinin tikinisi başa çatmaqdadır.

Prezident İlham Əliyev körpünün texniki göstəricilərini əks etdirən baş planla tanış oldu, Azərbaycanı Gürcüstan sərhədi ilə birləşdirən İpək yolunun üzərində yerləşən və bərbad vəziyyətə düşmüş körpünün də yenidən qurulması üçün müvafiq göstəriş və tapşırıqlarını verdi. Bildirdi ki, gələn ilin investisiya proqramında da yeni körpülərin tikilməsi nəzərdə tutulmuşdur. Ümumiyyətlə, istismar müddətini başa vurmuş bütün körpülər yenidən tikilməlidir.

Dövlətimizin başçısı tikinti işlərini 5 ay müddətində yerinə yetirən "Gəncəkörpütikinti" özəl şirkətinın inşaatçıları ilə görüşdü, onların iş sistemi, əmək haqqı ilə maraqlandı. Prezidentə məlumat verildi ki, burada çalışanlar ayda 800 min manatdan 1,5 milyon manata qədər əmək haqqı almışlar.

Prezident İlham Əliyev körpünün rəmzi açılışını bildirən qırmızı lenti kəsdi.

Nəqliyyat naziri Ziya Məmmədov dedi ki, cənab Prezident, ümummilli liderimiz Heydər Əliyev bu qayçı vasitəsilə bir neçə mühüm obyektin açılışında lenti kəsmişdir. Xatirə olaraq bu qayçını Sizə təqdim etmək istəyirik.

Dövlətimizin başçısı təşəkkürünü bildirərək dedi ki, hələ bundan sonra çoxlu sayda belə gözəl obyektlərin, körpülərin istifadəyə verilməsi münasibətilə lentlər kəsiləcəkdir. Bu qayçını saxlayın ki, gələcəkdə bizə hələ çox lazım olacaqdır.

Azərbaycan Prezidenti körpünü piyada keçdi, buraya toplaşan sakinlərlə görüşərək onları təbrik etdi.

Razılıqlarını böyük sevinclə ifadə edən qazaxlılar, ulu öndər Heydər Əliyevin nəcib siyasətini, xeyirxah işlərini uğurla davam etdirən Prezident İlham Əliyevə təşəkkürlərini bildirərək dedilər ki, sevinirik ki, xalqın qayğısına qalınır. Körpünün möhkəmliyi də ümid verir ki, Ağstafaçayda suyun səviyyəsinin artması daha heç bir təhlükə törətməyəcəkdir.

Prezident İlham Əliyev bundan sonra da əhalinin yaşayış səviyyəsinin, rahatlığının və sosial rifahının yaxşılaşması üçün mühüm tədbirlər görüləcəyini diqqətə çatdırdı.

AZƏRTAC
2005, 12 oktyabr

Qazax Olimpiya İdman Kompleksinin tikintisi ilə tanışlıq

(11 oktyabr 2005-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev Qazağa səfəri çərçivəsində əsası bir il əvvəl qoyulmuş Olimpiya İdman Kompleksinin tikintisinin gedişi ilə tanış olmuşdur. Dövlətimizin başçısını kompleksin qarşısında rayon idmançıları hörmətlə qarşıladılar.

Sərbəst güləş üzrə Azərbaycan yığma komandasının üzvü, Avropa və dünya birinciliyinin mükafatçısı Firdovsi Umudov dövlətimzin başçısı ilə çəkdirdiyi fotoşəkli Prezident İlham Əliyevə təqdim edərək dedi:

-Cənab Prezident, Sizin keçən dəfə Qazağa gəlişiniz biz idmançılarda da ruh yüksəkliyi yaratdı. Yeniyetmələrimiz, gənclərimiz Avropa səviyyəli yarışlarda mükafatlar qazandılar. "Göyəzən" güləş klubu açmışıq, yaxşı fəaliyyət göstərir və nailiyyətlərimizi bundan sonra da davam etdirəcəyik. Qazandığımız uğurlara görə ümummilli liderimiz Heydər Əliyevə və Sizə borcluyuq. Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra nailiyyətlərimiz artmağa başladı. Vaxtilə məşqləri belə komplekslərdə yox, klublarda, mədəniyyət saraylarında edirdik. İndi şükür Allaha, yetirmələrimiz uğurlarını artıracaqlar. Rayon rəhbərliyi, iş adamları da diqqət və qayğı göstərirlər.

Prezident İlham Əliyev idmançılarla görüşdü, onlara göstərilən diqqət və qayğının bundan sonra da artırılacağını bildirdi, problemləri ilə maraqlandı. Bu kompleks hazır olandan sonra Qazaxda idmana marağın artacağına, yerli idmançıların daha böyük uğurlar qazanacaqlarına, ölkəmizin şərəfini uca tutacaqlarına əminliyini vurğuladı.

Dövlətimizin başçısı idmançılarla xatirə şəkli çəkdirdi.

"Xəzər" Gənclər Elmi-Texniki Yaradıcılıq Mərkəzinin rəhbəri Akim Bədəlov tikinti işləri barədə məlumat verərək bildirdi ki, kompleksin ətrafına bir və ikimərtəbəli 16 kottec, motel tipli mehmanxana da tikiləcək, beləliklə, gələcəkdə burada istirahət zonası da yaradılacaq və turizm üçün gözəl şərait imkanları olacaqdır. Kompleksdə futbol meydançaları, idman oyunları salonu, tennis kortları, digər idman qurğuları, Avropa standartlarına uyğun üzgüçülük hovuzu, məşq otaqları tikiləcəkdir. İşlərin xeyli hissəsi görülmüş, Almaniyadan, Türkiyədən lazımi avadanlıq və ləvazimat gətirilmişdir.

Prezident İlham Əliyev tikinti işlərini aparan şirkətin əməkdaşlarına təşəkkür etdi, bu obyektlərin istifadəyə verilməsinin əhalinin, xüsusən gənc nəslin sağlamlığına kömək edəcəyini, idmana marağın daha da artmasına səbəb olacağını söylədi. Bildirdi ki, Azərbaycanın bölgələrində Olimpiya komplekslərinin tikilməsi bundan sonra da davam etdiriləcəkdir.

Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, eyni zamanda, bəzi tövsiyələrini söyləyərək dedi: Motel tipli mehmanxana mütləq lazımdır. Qazaxda olan mehmanxana da yəqin yaxşı vəziyyətdə deyildir. Görülən hər bir iş dünya standartlarına cavab verməlidir. Çünki Qazax İpək yolunun üstündə yerləşir, qonaqlar olacaq, gəlib-gedənlər var. Burada konfransların, görüşlərin keçirilməsi üçün də lazımi salonların tikilməsi zəruridir. Gələcəkdə tələbat daha da çoxalacaqdır. Məsələn, indi Bakıdakı mehmanxanalarda yer yoxdur. Nə qədər tikilir, yenə də yer yoxdur. Gələcəkdə axın daha da çoxalacaqdır. İndi rayonlarda sürətli abadlıq, tikinti, quruculuq işləri gedir, qonaqlar çox olacaq, başqa rayonlardan gələnlər olacaqdır.

Çalışın ki, kompleksi nəzərdə tutulduğu kimi, iyulun 15-dək təhvil verin. Çox böyük obyektdir. Burada idman yarışları, digər tədbirlər keçiriləcək, konsertlər veriləcəkdir. Təkcə idmançılar yox, rayon sakinləri də gələcəklər. İdman kompleksi kimi yaranır, amma əslində, burada turizm və sairə üçün də şərait olacaqdır. Bir ildən sonra burada gözəl bir saray olacaqdır. Sizə uğurlar arzulayıram. Sağ olun.

X X X

Qazax rayonuna səfərin sonunda Prezident İlham Əliyevin sədrliyi ilə Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarının sosial-iqtisadi inkişafına və problemlərinə həsr olunmuş zona müşavirəsi keçirildi.

(Müşavirə barədə geniş hesabat qəzetin növbəti nömrəsində dərc olunacaqdır).

AZƏRTAC
2005, 12 oktyabr

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Qazax rayonunda zona müşavirəsi
(11 oktyabr 2005-ci il)

Xəbər verdiyimiz kimi, oktyabrın 11-də Qazax Rayonu İcra Hakimiyyətinin binasında Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarının sosial-iqtisadi inkişafına və problemlərinə həsr olunmuş zona müşavirəsi keçirilmişdir.

Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.

Azərbaycan Prezidenti İlham Əliyevin
giriş nitqi

-Regionların inkişafı proqramı uğurla icra edilir. Bildiyiniz kimi, müxtəlif yerlərdə, rayonlarda olarkən vəziyyətlə şəxsən tanış oluram, gedən işlərlə maraqlanıram və görürəm ki, bütövlükdə, nəzərdə tutulmuş proqramlar yerinə yetirilir. Bu, çox müsbət haldır. Çünki regionların inkişafı bizə imkan verəcək ki, Azərbaycan hərtərəfli inkişaf etsin.

Bizim çox gözəl iqtisadi göstəricilərimiz vardır. İqtisadiyyat çox yüksək sürətlə inkişaf edir. Bir müddətdən sonra üçüncü rübün yekunları müzakirə olunacaqdır. İlkin məlumatlara əsasən demək olar ki, 9 ay ərzində Azərbaycan iqtisadiyyatı 20 faiz artıbdır. Sənaye potensialı təxminən 26 faiz artıbdır. Əgər dünyanın istənilən ölkəsi ilə müqayisə etsək, görərik ki, bu, dünyada mövcud olan ən yüksək inkişaf sürətidir. Əlbəttə, bu bizə imkan verir ki, qarşımızda duran bütün vəzifələri uğurla icra edək, infrastrukturun yaradılmasında böyük işlər görək.

Maaşlar, pensiyalar, sosial müavinətlər artırılır. Gələn ilin büdcəsi artıq parlamentə göndərilib və yaxın zamanlarda müzakirə olunacaqdır. Bizim təklifimiz, hökumətin təklifi belədir ki, büdcə xərcləri təxminən 4 milyard dollara bərabər olsun. Nəzərə alsaq ki, iki-üç il bundan əvvəl bizim büdcəmiz 1 milyard dollar idi, bu, çox böyük nailiyyətdir, böyük uğurdur. Gələn ilin büdcəsi böyük sıçrayışdır. Böyük büdcə böyük xərclər deməkdir, böyük işlərin görülməsi deməkdir, sosial infrastrukturun inkişafı, qaz kəmərlərinin, su kəmərlərinin çəkilişi deməkdir.

Təbii ki, ümumi büdcə artdıqca, bölgələrə ayrılan vəsait də artmalıdır. Bildiyiniz kimi, keçən il qəbul etdiyimiz regionların inkişafı proqramı da bütün bu işləri özündə əks etdirir. O, real proqramdır. Bu proqramda heç bir şüar, heç bir başqa niyyət yoxdur. Orada hər bir iqtisadi zona üçün, hər bir rayon üçün real, konkret işlər öz əksini tapıbdır.

Bu gün səhər Gəncədə idim, orada vəziyyətlə tanış olurdum, işlər yaxşı gedir. Bu gün Qazaxa gəlmişəm. Bildiyiniz kimi, burada yeni, müasir müalicə-diaqnostika mərkəzinin təməli qoyuldu. Bu mərkəz bütün ətraf rayonlara da xidmət göstərəcəkdir. Gürcüstanda yaşayan soydaşlarımız da bu gözəl imkanlardan istifadə edə bilərlər.

Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da sabitlik bizim inkişafımızın başlıca şərtidir. İnsanların əhval-ruhiyyəsi də məni qane edir. Mən bunu bölgələrə etdiyim bütün səfərlərdə görürəm, hiss edirəm. Bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və bəyənilir. Bu da onu göstərir ki, bizim uğurlu fəaliyyətimiz, qarşımıza qoyduğumuz proqramların həyatda öz əksini tapması Azərbaycanda çox gözəl ab-hava yaradır.

Bu gün isə konkret məsələləri müzakirə edəcəyik. Əlbəttə, regional inkişaf proqramında bütün əsas istiqamətlər öz əksini tapıbdır. Amma bunu dəfələrlə bəyan etmişəm ki, hər bir məsələni nəzərdə tutmaq mümkün deyildir. Ona görə biz gərək konkret məsələlər haqqında fikir mübadiləsi aparaq. Siz görülən işlər haqqında məruzə edəcəksiniz. Hansı məsələ həll olunmalıdır, hansı məsələ bəlkə də regional inkişaf proqramında öz əksini tapmamışdır, yaxud da o vaxt mövcud deyildi, indi yaranıbdır - biz bu gün bu barədə danışacağıq.

X X X

Sonra icra hakimiyyəti başçılarının məlumatları dinlənildi

.

X X X

Qazax Rayonu İcra Hakimiyyətinin başçısı RAUF HÜSEYNOV regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı çərçivəsində rayonda son dərəcə mühüm tədbirlər görüldüyünü, yerli sahibkarlığın inkişafı nəticəsində yeni iş yerlərinin açıldığını, əhalinin sosial rifahının dinamik şəkildə yüksəldiyini söylədi. Vətəndaşların şikayətlərinə diqqətlə yanaşıldığını bildirən icra hakimiyyətinin başçısı dedi ki, ötən dövr ərzində şikayətlər xeyli azalmışdır. 2004-cü ildə işlə təminatla bağlı 209 müraciət olmuşdur. Bu ilin doqquz ayında isə bu rəqəm 99-a enmişdir.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV Qazax rayonunun digər sosial problemləri ilə də maraqlandı:

- Sizə hansısa əlavə kömək lazımdırmı, yaxud hansısa bir problem varmı ki, özünüz həll edə bilmirsiniz? Yaxud həlli üçün mərkəzdən göstəriş verilməli, qərar qəbul edilməli olan problem var?

RAUF HÜSEYNOV: Cənab Prezident, bayaq yol problemi ilə bağlı çox düzgün qeyd etdiniz. Rayon mərkəzinin yol problemini həll edəcəyik, iş gedir. Çox əfsuslar olsun ki, Sizin gəlişinizə çatdıra bilmədik. Amma çox yaxın vaxtda biz rayon mərkəzinin yol problemini həll edəcəyik. Regionlara olan bu qayğını hamı hiss edir, "Kaspian servis" şirkəti çoxmərtəbəli ev tikmək üçün müraciət etmişdir. Məktubları var, onlar bizdən yer istəyiblər. yəqin ki, Heydər Əliyev parkına yaxın ərazidə onlara yer veriləcək və yaxın vaxtlarda tikintiyə başlanacaqdır.

İLHAM ƏLİYEV: Əgər çoxmərtəbəli evlər tikmək istəyən varsa, demək, inkişaf gedir. İndi bizdə, ancaq Bakıda çoxmərtəbəli evlər tikilir. Bu gün gördüm, artıq Gəncədə də başlanıbdır. 7 mərtəbəli, çoxmərtəbəli ev tikilir. Artıq bu onu göstərir ki, regionlar da sürətlə inkişaf edir. Çünki hər bir inkişafın öz əlamətləri var. Tikinti onun, necə deyərlər, ən bariz nümunəsidir, yaxud da əlamətidir. Əgər sizdə də bu proses başlanırsa, bunu ancaq dəstəkləmək lazımdır. Amma baxın ki, yeni binalar gözəl zövqlə tikilsin. Mən keçən dəfə Sabirabadda bu barədə öz fikirlərimi dedim. Bu, sizə də aiddir. Baxın, rayonlarda səliqə-sahman yaradın, heç kimin istifadə etmədiyi yararsız binaları, əyri-üyrü daxmaları sökün. Dəmir-dümürlər, əgər istifadə olunmursa, paslanmış hasarlar götürülməlidir ki, təmizlik olsun, gözəllik olsun. Əlbəttə, hər yeni tikilən binaya bu yanaşma tətbiq olunmalıdır.

Tovuz Rayonu İcra Hakimiyyətinin başçısı HƏMİD BAĞIROV çıxışında ölkəmizdə iqtisadi inkişafın yüksək sürətinin Tovuz rayonunda da aydın şəkildə hiss edildiyini konkret rəqəmlərlə diqqətə çatdırdı. Bütün bunların yoxsulluğun azaldılmasına, işsizliyin aradan qaldırılmasına və əhalinin həyat şəraitinin yaxşılaşmasına xidmət etdiyini bildirdi. O dedi ki, Prezidentin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycandakı inkişafa uyğun olaraq, rayonumuzda da müəyyən nəticələr əldə olunmuşdur. Cari ilin oktyabrınadək 8700 yeni iş yeri açılmışdır. Bundan 3300-ü daimi iş yeridir.

H.Bağırov rayonda abadlıq və quruculuq işlərinin, tikinti və kənd təsərrüfatı məhsulları istehsalının durmadan artdığını və sosial-iqtisadi resurslardan maksimum səmərəli istifadə edildiyini bildirdi.

Şəmkir Rayonu İcra Hakimiyyətinin başçısı NAZİM VEYSOV da rayonda yeni istehsal sahələrinin yaradılması ilə bağlı ardıcıl tədbirlər görüldüyünü, yeni iş yerlərinin açıldığını, özəl sektorun, azad sahibkarlığın intensiv inkişaf etdiyini, nəticədə keyfiyyətli yerli məhsullar istehsalına nail olunduğunu, kənd təsərrüfatı sektorunda da böyük uğurlar əldə edildiyini söylədi.

Ağstafa Rayonu İcra Hakimiyyətinin başçısı CÜMŞÜD MUSAYEV regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının icrası sayəsində qazanılan nəticələri sadaladı, rayonda təhsil, səhiyyə, mədəniyyət, idman və digər sosial sahələrdəki inkişafı, istehsal sahələrinin yaradılması və genişləndirilməsindəki uğurları xatırlatdı, elektrik enerjisi və su problemlərinin aradan qaldırılması üçün tədbirlər görüldüyünü bildirdi.

Sonra çıxış edən Gədəbəy Rayonu İcra hakimiyyətinin başçısı KAMRAN RZAZADƏ ölkədəki yüksəlişin Gədəbəydə də iqtisadi inkişafla müşayiət olunduğunu dedi. O, Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində Gədəbəyin ən ucqar kəndlərinin birində də 100 yerlik yeni məktəb binasının yüksək standartlara uyğun şəkildə tikilib istifadəyə verildiyini xüsusi vurğuladı.

Rayonların ayrı-ayrılıqda mövcud sosial-iqtisadi vəziyyəti ilə bağlı göstəricilərini dinləyən Azərbaycan Prezidenti İlham Əliyev müşavirəyə yekun vurdu

Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

- İndi sadalanan problemlər, demək olar ki, Azərbaycanın hər bir yerində, hər bir bölgəsində, hər bir rayonunda var. Müxtəlif vaxtlarda keçirdiyim zona müşavirələri onu göstərir ki, demək olar, hər bir rayonda eyni problemlər mövcuddur. Əlbəttə, biz çalışacağıq ki, bunları tezliklə həll edək və bu müşavirədən sonra xüsusi sərəncam hazırlanacaq və icra olunacaqdır. Burada qaldırılmış bütün məsələlər sərəncamda öz əksini tapacaqdır. Vəsait də nəzərdə tutulacaq ki, məsələlər həll edilsin.

Hər bir məsələ həll oluna bilər. Bunu etmək üçün bir neçə amil lazımdır. İlk növbədə, maddi imkan və işlərin düzgün aparılması lazımdır. İndi Azərbaycanda maddi imkan güclənir. Bayaq dediyim kimi, bizim büdcəmiz artır və sonrakı illərdə daha da kəskin şəkildə artacaqdır. Çünki hələ biz Bakı-Tbilisi-Ceyhan neft kəmərini istismara verməmişik. Kəmər istismara veriləndən sonra bizim maliyyə imkanlarımız kəskin surətdə artacaqdır. Amma indi də imkanlarımız kifayət qədərdir. Biz gərək bunlardan səmərəli istifadə edək və vəsaiti qaldırdığınız problemlərin həllinə yönəldək. Bundan məqsədyönlü şəkildə və səmərəli istifadə etməliyik.

Əsas problemlərimiz su, kanalizasiya, suvarma problemidir. Artıq göstərişlər verilibdir ki, bütün rayonlarda bu problemlər təhlil olunsun, təkliflər paketi hazırlansın və biz praktiki işlərə keçək.

Son müddət ərzində elektrik enerjisi ilə təchizat yaxşılaşıbdır. Məndə olan məlumata görə, rayonların əksəriyyətində fasilələr ya ümumiyyətlə yoxdur, ya da qısa müddət ərzində olur. İndi əsas məqsəd ondan ibarətdir ki, qış aylarında gərginlik yaranmasın. Bunu etmək üçün, bildiyiniz kimi, kiçikhəcmli modul elektrik stansiyaları alınır. Bu ilin sonuna qədər cənub bölgəsində 90 meqavat gücündə stansiyalar quraşdırılacaqdır. Gələn il isə bu stansiyalar Azərbaycanın müxtəlif yerlərində olacaqdır. Belə olan halda, Mingəçevirdəki DRES - bizim ən böyük stansiyamız elektrik enerjisinin böyük hissəsini qərb bölgələrinə ötürəcək və işıqla təminat kəskin şəkildə yaxşılaşacaqdır.

Ancaq eyni zamanda, biz ötürücü xətlərə də fikir verməliyik. Çünki biz bu gücü yaradırıq, elektrik stansiyalarının tikintisi nəzərdə tutulur. Amma ötürücü xətlərdə problemlər var. O xətlərdə bir balaca nasazlıq olan kimi, təchizatda da problem yaranır.

Yolların tikintisi çox vacibdir. Əgər biz bölgədə infrastrukturu, sənaye potensialını, turizm potensialını inkişaf etdirmək istəyiriksə, - burada səsləndi ki, turizm üçün də gözəl şərait var, - mütləq və mütləq yollar çəkilməlidir. Bakını Qazaxla birləşdirən magistral müasir İpək yolu layihəsi çərçivəsində çəkilir. Təxminən ilyarım, iki il ərzində bu yol tamamilə istismara veriləcəkdir. İndi hissə-hissə istismara verilir. Bakı-Qazax-Gürcüstan sərhədinədək tikiləcəkdir.

Ancaq eyni zamanda, rayondaxili yollara və kənd yollarına fikir verilməlidir. İlk növbədə, siz buna diqqət göstərməlisiniz. Amma onu da bilirik ki, maliyyə vəsaiti olmayan yerdə bunu etmək mümkün deyildir. Ona görə sizə deyirəm, mən göstəriş verəcəyəm ki, hər bir rayona indiki pulla 1 milyard 500 milyon manat vəsait ayrılsın. Siz də bundan səmərəli istifadə edin. Mən bilirəm ki, bu, bütün, yaxud da əksər kənd yollarının yüksək səviyyədə yaradılması üçün kifayətdir. Yusif Hümbətova tapşırıram ki, nəzarət etsin. Siz də harada nə yol çəkilirsə, onun fotoşəkilləri ilə birlikdə vaxtaşırı hesabat verin, biz də bilək ki, bu pul haraya xərclənir. Elə etməlisiniz ki, qısa müddət ərzində bu puldan səmərəli istifadə edilsin. Əgər o vəsaitdən səmərəli istifadə etsəniz, digər işlərə, abadlıq-quruculuq işlərinə də ayıra bilərsiniz. Gərək biz bütün şəhərlərimizi yeniləşdirək, abadlaşdıraq, gözəl, yaraşıqlı binalar tikək, köhnə, uçuq binaları təmir etdirək ki, ümumi görüntünü pozan eybəcər binalardan gərək, necə deyərlər, xilas olaq.

"Aqrolizinq" səhmdar cəmiyyətinin təşkili kənd təsərrüfatının inkişafında böyük dönüş yaradacaqdır. Bildiyiniz kimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatında islahat aparılmışdır. Kəndlilər demək olar ki, bütün vergilərdən azad edilmişlər, torpaq kəndlilərə paylanmışdır. Bu gün də burada rəqəmlər səsləndi, kənd təsərrüfatı məhsullarının istehsalı dəfələrlə artmışdır. Bu, taxılçılıqda, heyvandarlıqda, bütün başqa sahələrdə özünü göstərir. Ancaq indiki zəmanədə yeni mərhələnin başlanması zəruridir. O da ondan ibarətdir ki, kəndlilərə kredit verilməlidir, texnika və gübrə verilməlidir. Hər üç məsələ öz həllini tapır.

Kreditlərin verilməsi üçün gələn ilin büdcəsində 80 milyon dollar vəsait nəzərdə tutulubdur. Əsas vəsait kənd təsərrüfatına və emal sənayesinə gedir. Gübrənin alınması üçün "Aqrolizinq"ə göstəriş verilibdir. Kənd təsərrüfatı texnikasının alınması prosesi başlamışdır. Bu il 100 milyard manat, gələn il 150 milyard manat dəyərində texnika alınacaqdır. Bütün bölgələrdə "Aqrolizinq"in dayaq məntəqələri

yaranacaq və bu texnika icarə yolu ilə kəndlilərə veriləcəkdir. Gələn illər lazım olarsa, biz daha böyük vəsait ayırarıq. Çünki bizim gələcəkdə ciddi maliyyə problemlərimiz olmamalıdır.

Azərbaycan əhalisinin təxminən yarısı kənd yerlərində yaşayır. "Aqrolizinq"in yaranması kənd təsərrüfatına çox güclü təkan verəcəkdir. Siz də öz tərəfinizdən bu işləri tənzimləyin, bu işlərə rəhbərlik edin, fermerlərə, sahibkarlara kömək göstərin. Çalışın ki, onların şəraiti yaxşılaşsın və Azərbaycanda güclü sahibkarlar sinfi yaransın.

Ərizə və şikayətlərə də daim diqqət göstərmək lazımdır. Mən bu gün bunu qeyd etdim. Mənim rayonlara bütün səfərlərimdə xüsusi insanlar, köməkçilərim görüşlərdən sonra qalır, ərizələri yığırlar. Ondan sonra o ərizələr təhlil olunur və həmin ərizələrdə göstərilən konkret məsələlər həll edilir. Bu gün siz də qeyd etdiniz ki, şikayət xarakterli məktublar azalır. Əsasən maddi yardım, ev şəraitinin yaxşılaşdırılması, insanların müalicə məsələləri barədə xahişlərdir. Amma biz gərək buna da diqqət göstərək. Çox sevindirici haldır ki, şikayət xarakterli məktublar, demək olar, kəskin şəkildə azalıbdır. Bu onu göstərir ki, işlər yaxşı gedir, ədalətsizlik aradan qaldırılır, yerlərdə, bölgələrdə işləyən məmurlar da öz vəzifə borcunu yerinə yetirirlər.

Bu gün Qazaxda təməli qoyulan müalicə-diaqnostika mərkəzinin istifadəyə verilməsi də ərizələrin bir hissəsinin azalmasına gətirib çıxaracaqdır. Çünki burada çox gözəl müasir avadanlıq, şərait, pulsuz xidmət olacaqdır. Bu, özəl xəstəxana deyil, - özəl xəstəxanalar da lazımdır, müxtəlif rayonlarda inşa edilir, dövlət xəstəxanası olacaqdır. Çox təcrübəli həkimlər işləyəcək, yüzlərlə insan işləyəcək, ən müasir tibbi xidmət göstəriləcəkdir.

İndi bizim imkanlarımız artır, Heydər Əliyevin neft strategiyası uğurla icra olunur. Biz əsas diqqəti sosial sahəyə - məktəblərin, xəstəxanaların tikintisinə, digər sosial infrastrukturun yaranmasına yönəltməliyik ki, Azərbaycan xalqı, bizim vətəndaşlarımız müsbət dəyişiklikləri öz gündəlik həyatında hiss etsinlər.

Makroiqtisadi vəziyyət çox yaxşıdır. Bunu hamı bilir. Beynəlxalq Valyuta Fondu bunu bəyan edir. Azərbaycan dünyada makroiqtisadi göstəricilərinə görə birinci ölkədir. Ölkəmizdə ümumi daxili məhsul 20 faiz artıbdır. İnkişaf etmiş ölkələrdə bu, heç vaxt 2-3 faizi keçmir.

Düzdür, inkişaf etmiş ölkələrdə imkanlar artıq tükənir. Bu ölkələrdə iqtisadiyyat indi elə bir səviyyədədir ki, böyük bir addıma imkan yoxdur. Ancaq gəlin, bölgəmizdəki ölkələrin, bizimlə bərabər şəraitdə olan, yaxud da Sovet İttifaqı dağılandan sonra müstəqilliyini əldə etmiş ölkələrin iqtisadi göstəricilərinə nəzər salaq. Mən heç bir müqayisə aparmaq istəmirəm və biz heç vaxt öz işimizi müqayisə prinsipi əsasında qurmamışıq. Biz sadəcə, öz işimizi görürük, heç bir başqa ölkənin işinə qarışmırıq. Amma əgər müqayisə etsək görərik ki, Azərbaycan ən qabaqcıl yerlərdədir. Bu, çox mühümdür, bizim iqtisadi inkişafımızın uğurlu olmasından xəbər verir. Ancaq eyni zamanda, hər bir vətəndaş da gündəlik həyatda müsbət dəyişiklikləri görməlidir. Onun tibbi xidməti daha da yaxşı olmalıdır, uşağının oxuduğu məktəbdə istilik sistemi, gözəl avadanlıq, şərait olmalıdır, yaxşı yolları, kənd yolları, işığı, suyu, qazı olmalıdır. Bu, insanların təbii tələbatıdır. Biz də gərək bunu təmin edək.

Düzdür, bunu etmək çətindir. Çünki 1990-cı illərin əvvəllərində Azərbaycanın üzləşdiyi o ağır problemlər ölkəmizə böyük zərbələr endirdi. Bu yaxınlarda demişdim ki, biz ancaq 2005-ci ildə 1990-cı ilin iqtisadi potensialının səviyyəsinə yüksələ bildik. Nəyə görə? Çünki 1980-ci illərin sonları - 1990-cı illərin əvvəllərində Azərbaycana rəhbərlik etmiş xəyanətkar, riyakar, bacarıqsız, səriştəsiz rəhbərlər ölkəni iflic vəziyyətinə salmışdılar. Ölkə dağılırdı, xaos, anarxiya, iqtisadi tənəzzül baş alıb gedirdi. Uzun illər lazım oldu ki, Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi islahatlar aparılsın. Bu gün də onlar davam etdirilir. 15 il lazım oldu ki, biz 1990-cı ilin səviyyəsinə gəlib çataq. Belə çıxır ki, bu 15 il itirilibdir. Əgər 1990-cı illərin əvvəllərində Azərbaycana bu zərbələr vurulmasaydı, o ağılsız iqtisadi siyasət aparılmasaydı, təcrübəsiz, küçədən gələn insanlar Azərbaycana rəhbərlik etməsəydi, belə olmazdı. Bu müddətdə Azərbaycan nə qədər irəliyə gedə bilərdi. Amma küçədən gəlmiş, meydanlarda qışqıran adamlar gəlib Baş nazir, parlament sədri oldular. Bütün nazirliklərə heç bir savadı, təcrübəsi olmayan, dünyagörüşü, mədəniyyəti olmayan adamlar rəhbərlik etməyə gəldi və təbii ki, ölkə dağıldı. Xalqımızın müdrikliyi ondadır ki, öz liderinə üz tutdu, Heydər Əliyevi dəvət etdi və biz bu çətin vəziyyətdən çıxdıq.

Bu səbəblərə görə də indi insanların dediyim təbii tələbatı ilə bağlı məsələləri birdən-birə həll etmək çətindir. Çünki işıq sistemini bərpa etmək üçün milyardlarla investisiya lazımdır. Bunun üçün də gərək hansısa bir məhsul istehsal olunsun ki, çoxlu gəlir gətirsin. İndi bizim imkanımız var. Biz yüzlərlə elektrik stansiyasının tikintisinə milyon dollar dəyərində pul qoyuruq. Başqa imkanımız da var, xarici maliyyə qurumları bizə inanırlar və kredit ayırırlar. Əvəllər bizə nə üçün heç kim kredit vermirdi? Çünki əmin

deyildilər ki, Azərbaycanın gələcəyi necə olacaqdır. İndi Azərbaycan üçün, bizim üçün kredit almaq problem deyildir.

Əksinə, bəzi maliyyə qurumları, xarici banklar bizdən xahiş edirlər ki, kredit götürək. Biz isə fikirləşirik ki, götürək, götürməyək. Əgər götürürüksə, hansı şərtlərlə, nəyə görə. Çünki inam var ki, Azərbaycanın uzunmüddətli inkişaf perspektivləri mövcuddur. İnam var ki, Azərbaycan əgər son 10-12 il ərzində belə sürətlə inkişaf edibsə, bu inkişaf davam edəcəkdir. İnam var ki, Azərbaycan rəhbərliyi qarşıda duran bütün vəzifələri bundan sonra da ləyaqətlə yerinə yetirəcəkdir.

Energetika sisteminin bərpası, qaz təchizatının yaxşılaşması, su, kanalizasiya, suvarma sisteminin təkmilləşdirilməsi, yolların salınması indi prioritet məsələlərdir. Bunlar çoxlu vəsait, böyük iş görülməsini tələb edir. Biz bunu təmin edəcəyik. Bəzi hallarda yerlərdə olan məsələlərin həlli böyük vəsait tələb etmir. Harada ki, tələb edir, biz o vəsaiti verəcəyik. Mən sizə bu gün dedim, 1,5 milyard manat kifayətdir ki, siz kənd yollarını bəlkə də artıqlamasilə sahmana salasınız. Sonra başqa məsələ meydana çıxanda, onu da həll edəcəyik. Amma yerlərdə elə məsələlər var ki, böyük vəsait, yaxud da, necə deyərlər, böyük işgüzarlıq yox, sadəcə, diqqət, qayğı tələb edir. Gərək məsələyə biganə yanaşılmasın və məsələ öz həllini tapsın. Xüsusilə insanlarla ünsiyyətdə.

Bizim güc mənbəyimiz xalqımızdır. Biz böyük vəzifələr tuturuq. Prezident vəzifəsi, icra hakimiyyəti başçısı vəzifəsi - böyük vəzifələrdir, böyük məsuliyyətdir. Mən ölkəyə rəhbərlik edirəm, siz rayonlara rəhbərlik edirsiniz və bütün məsuliyyəti öz çiyinlərimizdə daşıyırıq. Çalışmalıyıq ki, gündəlik həyatda insanları narahat edən məsələləri həll edək və yaradaq, quraq, tikək, abadlaşdıraq. Mənim iş prinsiplərim bunlardır. Bu, Heydər Əliyevin iş prinsipləridir, onun qoyduğu yoldur. Bu gün onun siyasəti bütün sahələrdə - Azərbaycanın iqtisadi inkişaf strategiyasında, siyasi müstəvidə, xarici siyasətdə, ordu quruculuğunda, sosial məsələlərin həllində davam etdirilir. Haraya baxsanız görərsiniz ki, inkişaf var, irəliləyiş var. Mən istəyirəm ki, bu, daha da yüksək sürətlə getsin. İqtisadi potensialın güclənməsi isə bunun üçün başlıca amildir.

Eyni zamanda, iqtisadi inkişaf ancaq sabitlik olan yerlərdə mümkündür. Dünya təcrübəsi də, inkişaf etmiş ölkələrin təcrübəsi də bunu göstərir. Harada çaxnaşma varsa, sabitlik yoxdur, özbaşınalıq varsa, heç vaxt orada nə inkişaf var, tərəqqi var, nə də rifah var. Ancaq ziddiyyətlər, toqquşmalar və bəlalar var.

Azərbaycan bu bölgədə sabitlik məkanıdır, əmin-amanlıq məkanıdır. Bu sabitliyi bizə ərməğan edən ulu öndər Heydər Əliyevdir. Biz də bunu qoruyuruq, saxlayırıq, möhkəmləndiririk, qanun çərçivəsində, Konstitusiya çərivəsində Azərbaycanın normal, demokratik inkişafını təmin edirik.

Ölkədə siyasi proseslərin normal məcrada inkişaf etməsi də çox önəmlidir. Bu baxımdan qarşıdan gələn parlament seçkiləri də əhəmiyyət kəsb edir. Ona görə yox ki, parlament seçkiləri Azərbaycanda hakimiyyət məsələsini həll edir. Xeyr, Azərbaycan Prezident respublikasıdır. Burada bütün səlahiyyətlər və hakimiyyət Prezidentin əlindədir. Ona görə ki, parlament seçkiləri hər bir ölkənin demokratik inkişafı üçün vacib hadisədir və prosesdir. Biz də elə etməliyik ki, seçkilər şəffaf keçsin, ədalətli keçsin. Azərbaycan xalqı istənilən namizədə səs versin.

Hesab edirəm ki, bu vaxta qədər seçki kampaniyası müsbət gedir, qeydiyyat məsələsində heç bir problem olmadı. Təşviqat, təbliğat kampaniyası da rahat, azad şəraitdə gedir. Bilirsiniz ki, həm dövlət televiziyası, həm də ictimai televiziya, özəl kanallar bütün namizədlərə imkan yaradır ki, öz proqramları ilə çıxış etsinlər. Vacibdir ki, seçkilər günü də qanun pozuntusu olmasın və seçkilər normal keçsin.

Yerli icra orqanları da bu işlərə müdaxilə etməməlidir. Mən bunu dəfələrlə demişəm, bu gün sizə də deyirəm. Siz o proseslərdən kənarda qalmalısınız, heç bir namizədə təzyiq göstərməməlisiniz, heç bir ayrı-seçkiliyə yol verməməlisiniz. Bütün namizədlərə eyni şərait yaradılmalıdır. Bilirəm ki, hər bir rayonda mitinqlərin, əhali ilə görüşlərin keçirilməsi üçün də müvafiq yerlər ayrılıbdır. Siyasi əqidəsindən asılı olmayaraq, bütün namizədlər eyni yerlərdə öz görüşlərini qapalı və açıq şəkildə keçirməlidirlər. Qayda-qanun hamı üçün eyni olmalıdır.

Deyə bilərəm ki, Azərbaycanın bölgələrində seçki kampaniyası ilə əlaqədar heç bir problem yoxdur. Bütün namizədlər müəyyən edilmiş yerlərdə görüşlər də keçirirlər, mitinqlər də keçirirlər və kampaniya çox ədalətli və qanunauyğun şəkildə gedir. Ancaq Bakıda son zamanlar bəzi siyasi qüvvələr tərəfindən qanunsuz mitinqlər keçirmək cəhdi, əlbəttə, müsbət hal kimi qəbul oluna bilməz. Bunun da səbəbi aydındır, heç kimə sirr deyildir.

Bilirsiniz ki, Bakıda "Qələbə" kinoteatrı qarşısındakı meydan Azərbaycanda seçkiqabağı mitinqlərin keçirilməsi üçün ayrılmış bir yerdir. Orada Prezident Heydər Əliyev öz seçkiqabağı mitinqlərini keçirmişdir. Mən parlament və prezident seçkiləri ərəfəsində mitinqlər keçirmişəm. 2003-cü il prezident

seçkilərində bütün namizədlər və siyasi birliklər mitinqlərini orada keçirmişlər. Heç kimdə problem yaranmamışdır ki, həmin meydan bu işə yararlı deyildir. İndi nə olub? Seçki kampaniyası başlanılan gündən bu meydanda heç bir problemsiz, heç bir toqquşmasız mitinqlər keçirilirdi. Amma bu, kiməsə sərf etmir. Kimsə istəyir ki, vəziyyəti gərginləşdirsin. Sən demə, indi bu meydan bunlara darısqallıq edir. Nə olub, 2003-cü ildə Qələbə meydanı məqbul idi, indi yox?! Nə olub, bəlkə meydan balacalaşdı? Məqsəd aydındır.

Məqsəd Azərbaycanda gərginlik yaratmaq, toqquşma yaratmaq, telekameranın qarşısında özünü qurban kimi göstərmək, döyülməkdir. Ancaq o insanları qeyri-qanuni yollara təhrik edənlərin özləri döyülmür, özləri nədənsə qanunsuz mitinqlərdə iştirak etmirlər. Pis olmazdı, bir gün onlar da kabinetdə, "Mersedes"də oturmasınlar, o insanları göndərdikləri yerə özləri getsin, qanunsuz mitinqlərdə iştirak etsinlər. Ondan sonra görsünlər ki, bu, nədir. Biz bu cür mitinqlərə imkan verməyəcəyik . Azərbaycan dövləti qanunlar əsasında işləyir. Konstitusiya da Əsas Qanundur. Harada nəzərdə tutulubsa, orada da mitinq keçiriləcəkdir. Qanunsuz heç bir hərəkətə yol verilməyəcəkdir. Son hadisələr onu göstərir ki, Azərbaycan dövlətinə, rəhbərliyinə heç vaxt, heç kim tərəfindən heç bir təzyiq göstərilə bilməz. Biz möhkəm dayanmışıq. Öz fəaliyyətimizi qanun çərçivəsində, Konstitusiya çərçivəsində qururuq, xalqın dəstəyinə arxalanırıq. Belə olan halda, müəyyən edilmiş yerlərdə mitinqlərin keçirilməsi mümkün olacaqdır.

Yenə də bu məsələyə qayıtmaq istəyirəm ki, heç bir rayonda buna oxşar problem yoxdur. Sizin rayonlarınızda mitinqlər keçirilir, namizədlər seçicilərlə görüşürlər. Heç kimə problem yaratmırlar. Mən qadağan etmişəm. Ona görə, Bakıda da gərək hamı başa düşsün ki, qayda-qanun olmalıdır, özbaşınalıq dövrü getdi, bitdi. Hərc-mərclik dövrü bitdi, anarxiya dövrü bitdi, bir daha qayıtmayacaqdır. Azərbaycanda qayda-qanun olacaqdır. Ancaq yenə də deyirəm, çalışmalısınız ki, siyasi əqidəsindən, mənsubiyyətindən asılı olmayaraq, bütün namizədlərə eyni şərait yaradılsın.

Parlament seçkiləri də bir prosesdir, bir hadisədir. Əminəm ki, seçkilərdən sonra Azərbaycan demokratik inkişaf baxımından daha da sürətlə inkişaf edəcəkdir. Qarşımızda böyük planlar, proqramlar var. Biz ölkəmizi çox inamla idarə edirik. Ölkəmizin iqtisadi potensialı güclənir. Dünya birliyində bizim rolumuz, yerimiz möhkəmlənir. Digər ölkələrlə münasibətlər möhkəmlənir, inteqrasiya məsələləri öz həllini tapır, transmilli layihələr bizim iştirakımızla həyata keçirilir. Əlbəttə, gələcəkdə gözəl imkanlardan istifadə edib, ölkəmizi daha da inkişaf etdirəcəyik. Bunu etmək üçün biz hamımız yaxşı işləməliyik, məsuliyyətli işləməliyik. Hərə öz işi ilə məşğul olmalıdır, öz vəzifə borcunu ləyaqətlə icra etməlidir.

Yerlərdə sizin fəaliyyətinizdən də çox şey asılıdır. Siz mənim nümayəndələrimsiniz və sizin bütövlükdə fəaliyyətiniz əsasında yerlərdə insanlar iqtidar haqqında rəy, fikir formalaşdırırlar. Ona görə gərək siz də öz işinizə məsuliyyətlə yanaşasınız. Gərək həm rayonların iqtisadi potensialının inkişafı ilə bağlı məsələlərdə, eyni zamanda insanlara ünsiyyətdə diqqətli olasınız. Çalışasınız ki, problemlər öz həllini tapsın. Harada gücünüz çatmırsa, yaxud da imkan yoxdursa, mənə, Nazirlər Kabinetinə müraciət edin.

Bilirsiniz ki, mənim siyasətimin əsas prioritetlərindən biri regional inkişaf proqramıdır. Ona görə tez-tez rayonlara səfərə çıxıram, vəziyyətlə tanış oluram. Bilin ki, qaldırdığınız və qaldıracağınız bütün məsələlərə diqqətlə yanaşacağam və həllinə kömək edəcəyəm. Ona görə, sizə uğurlar arzulayıram, yaxşı işləyin. Sağ olun.

AZƏRTAC
2005, 13 oktyabr

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev respublikamızın şimal-qərb sərhədlərinin mühafizəsi ilə tanış olmuşdur

(11 oktyabr 2005-ci il)

AZƏRTAC xəbər verir ki, Gəncəyə və Qazağa səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti, Ali baş komandan İlham Əliyev ölkəmizin şimal-qərb sərhədlərinin mühafizəsi ilə tanış olmuşdur.

Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının Komandanı general-leytenant Elçin Quliyev Ali baş komandana şəxsi heyətin baxışa hazır olması barədə raport verdi.

General-leytenant Elçin Quliyev Prezident İlham Əliyevə Azərbaycanın dövlət sərhədlərinin etibarlı şəkildə qorunması, sərhəd xidmətinin ən müasir standartlar səviyyəsində təkmilləşdirilməsi üçün həyata keçirilən ardıcıl və kompleks tədbirlər, eyni zamanda, burada şəxsi heyət üçün yaradılmış şərait barədə ətraflı məlumat verdi.

Prezident İlham Əliyev Azərbaycanın sərhəd xidmətinin inkişafı üçün silsilə tədbirlərin görüldüyünü vurğuladı, şəxsi heyətə yaradılan şəraitdən razı qaldığını söylədi.

Sonra səhra yeməkxanasına gələn Ali baş komandan sərhədçilər üçün hazırlanan yeməklərdən dadaraq, bəyəndiyini bildirdi.

Qonşu ölkələrlə sərhədlərin qorunmasının etibarlılığının daha da gücləndirilməsi üçün həyata keçirilən tədbirlərin genişlənəcəyini vurğulayan Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin fəaliyyətinin getdikcə yüksəlməsindən razılığını bildirdi, müvafiq tapşırıqlar verdi, şəxsi heyətə xoş arzularını çatdırdı.

AZƏRTAC
2005, 13 oktyabr

Azərbaycan Prezidenti İlham Əliyevin qərb bölgəsinə səfəri
Qazax
(30 may 2007-ci il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Qazax rayonuna səfərə gəlmişdir.

Prezident İlham Əliyev əvvəlcə Heydər parkında ümummilli liderimizin abidəsini ziyarət etdi, xanımı Mehriban Əliyeva ilə birlikdə abidə önünə gül dəstəsi qoydu, parkı gəzdi. Dövlətimizin başçısına parkın ərazisinin genişləndiriləcəyi barədə məlumat verildi və bildirildi ki, burada müasir texnoloji avadanlığa malik informasiya köşkü yaradılmışdır. Bu köşk vasitəsilə insanlar ulu öndər Heydər Əliyevin həyat yolu, fəaliyyəti haqqında dolğun informasiya ala bilirlər. Köşk internet şəbəkəsinə qoşulmuşdur və dünya informasiya mənbələrinə daxil olmaq mümkündür. Vətəndaşlar öz irad və təkliflərini elektron poçt vasitəsilə rayon icra hakimiyyətinə çatdıra bilərlər. Qazaxlılar burada ulu öndərin 1998-ci ildə prezident seçkiləri ərəfəsində rayona səfəri zamanı ictimaiyyətlə görüşdə söylədiyi nitqi də dinləyə bilirlər.

Dövlətimizin başçısı parkın ətrafından axan Ağstafa çayını seyr etdi və burada xanımı ilə birlikdə xatirə şəkli çəkdirdi.

AZƏRTAC
2007, 30 may

Daş Salahlı kəndində sement zavodunun təməli qoyulmuşdur
(30 may 2007-ci il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, mayın 30-da Qazax rayonunun Daş Salahlı kəndində sement zavodunun təməli qoyulmuşdur.

İnşaatçılar mərasimə gələn Prezident İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladılar.

Prezidentə məlumat verildi ki, "Akkord" şirkətlər qrupu tərəfindən inşa olunan zavod bölgəni tam təmin edəcək və işə düşdükdən sonra qərb bölgəsinə sement idxalı azalacaqdır. Qonşu Gürcüstana da məhsul ixrac etmək mümkün olacaqdır. Müəssisədə quraşdırma işlərini Çin və Avstriya mütəxəssisləri görəcəklər. Çinin "Çun-Xao" Sintezial beynəlxalq şirkəti dünyanın 22 ölkəsində belə zavod inşa etmişdir. Azərbaycanda inşa olunan zavod sayca 24-cüdür. Tikintidə yerli işçilər də çalışacaq, zavod işə düşdükdən sonra isə burada 300-dən çox adam daimi işlə təmin olunacaqdır.

Prezident İlham Əliyev gilizi təmələ qoydu və beton qarışığı tökdü, inşaatçılara işlərində uğurlar arzuladı.

Zavod gündə 2500 ton məhsul istehsal edəcəkdir. Xammal Qaymaqlı, Daş Salahlı, Ağköynək və Kəmərli kəndlərindəki yataqlardan gətiriləcəkdir. Zavodun tikintisi ilə əlaqədar bu kəndlərdən 150 hektar topraq sahəsi "Akkord" şirkətlər qrupunun balansına verilmişdir. Smeta dəyəri 49,5 milyon ABŞ dolları olan zavodun 2008-ci ilin avqustunda istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

AZƏRTAC
2007, 30 may

Daş Salahlı Bentonit emalı zavodunun birinci mərhələsi işə salınmışdır

(30 may 2007-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev mayın 30-da Daş Salahlı kəndində inşa olunan Bentonit emalı zavoduna gəldi. Dövlətimizin başçısını burada böyük hörmətlə qarşıladılar.

"Azrosprominvest" Azərbaycan-Rusiya birgə müəssisəsinin bu zavodu "Daş Salahlı Bentonit" Açıq Səhmdar Cəmiyyətinin müəssisəsinin bazasında yaradılmışdır. Daş Salahlı bentonit müəssisəsinin əsası ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. O vaxt SSRİ-nin bu məhsula olan tələbatını, əsasən, bu mədən təmin edirdi və müxtəlif ünvanlara ildə 800 min ton məhsul göndərilirdi. SSRİ-nin süqutundan sonra isə fəaliyyətini dayandırmışdı. Bu müəssisəyə ikinci həyat Prezident İlham Əliyev tərəfindən verilmişdir. Hazırda burada 83 milyon ton xammal ehtiyatı vardır. "Şimal" karxanası gələcək nəsillər üçün qorunub saxlanılacaqdır. "Gəmi" və "Mərkəzi" karxanaları isə 25 illiyə istifadəyə veriləcəkdir. Həmin müddətdə gündə 25 min ton məhsul istehsal olunub ixrac ediləcəkdir. Əsas bazar Rusiya olacaqdır. Bu tipli müəssisə Türkmənistan və Gürcüstanda da vardır. Bu il Rusiyaya 70 min ton məhsul satılacaqdır.

Prezident İlham Əliyev "Azrosprominvest" birgə müəssisəsinin göstəriciləri ilə də tanış oldu. Bildirildi ki, "Azrosprominvest" Rusiyanın "Bentonit" Elm-İstehsalat Birliyi və Azərbaycanın "Daş Salahlı Bentonit" Səhmdar Cəmiyyəti arasında bağlanmış icarə müqaviləsi əsasında yaradılmışdır. Müəssisənin əsas məqsədi metallurgiya, neft, qaz, ətriyyat, maşınqayırma və digər sənaye sahələrində istifadə olunan yüksək keyfiyyətli bentonit gili emal etmək və Avropa bazarında layiqli mövqe tutmaqdır. Müəssisənin elan olunmuş nizamnamə fondu 12 milyon ABŞ dollarıdır, o cümlədən Rusiya tərəfindən birbaşa investisiyaları 6 milyon ABŞ dolları təşkil edəcəkdir. Hazırda sərf olunan birbaşa investisiyaların məbləği 2,9 milyon ABŞ dolları təşkil edir.

Zavodun inşasında ən müasir texnologiya tətbiq olunacaq, avadanlıq Almaniya, Rusiya, Ukraynadan gətiriləcəkdir.

Hazırda zavodda 120 nəfər çalışır. 2008-ci ilin mayında tam istifadəyə veriləndən sonra 250 nəfər işlə təmin ediləcəkdir. İşçilər gündə bir dəfə pulsuz yeməklə təmin olunur, zavoda məxsus nəqliyyat vasitəsilə işdən evə çatdırılırlar. İşçilərin ixtisasının artırılması üçün mütəmadi kurslar təşkil edilir. Bu zavod dünyada analoqu olmayan yeganə profilli müəssisədir.

Prezident İlham Əliyev zavodun birinci mərhələsinin işə düşməsini bildirən düyməni basdı və müəssisə işə düşdü. Dövlətimizin başçısı kollektivə öz xeyir-duasını verdi və gələcək fəaliyyətlərində uğurlar arzuladı.

AZƏRTAC
2007, 30 may

Qazax Müalicə-Diaqnostika Mərkəzi ətraf rayonların sakinlərinə də xidmət edəcəkdir

(30 may 2007-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev mayın 30-da Qazax Müalicə-Diaqnostika Mərkəzinin tikintisi ilə tanış olmuşdur.

Mərkəzin ümumi tikinti sahəsi 6 min kvadratmetrdir. Üçmərtəbəli bina bu ilin avqust-sentyabr aylarında tam istifadəyə veriləcəkdir.

Təməli 2005-ci il oktyabrın 11-də Prezident İlham Əliyev tərəfindən qoyulmuş mərkəzin birinci mərtəbəsində funksional diaqnostika, təcili yardım şöbələri, ikinci mərtəbədə dializ şöbəsi və stasionar, üçüncü mərtəbədə isə cərrahiyyə-əməliyyat bloku yerləşəcəkdir. Mərkəzin avtomobil dayanacağı, nasos stansiyası, istilik mərkəzi, yardımçı elektrik stansiyası olacaqdır.

Prezident İlham Əliyev tikinti işlərinin gedişi ilə tanış oldu, tövsiyə və tapşırıqlarını verdi. Dövlətimizin başçısı dedi ki, bu mərkəz ən müasir tələblərə cavab verməlidir, xarici görünüşü də yüksək səviyyədə olmalıdır. Tam istifadəyə veriləndən sonra xəstələr əziyyət çəkib Bakıya və digər şəhərlərə getməyəcəklər, burada istənilən müalicəni ala biləcəklər. Hətta qonşu Gürcüstanda yaşayan azərbaycanlılar da bu mərkəzin xidmətindən istifadə edə biləcəklər.

AZƏRTAC
2007, 30 may

İsmayil Şixlı adına park qazaxlıların yeni istirahət guşəsidir

(30 may 2007-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev mayın 30-da Qazax şəhərinin mərkəzində - Heydər Əliyev prospektində xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan parkın və ədibin abidəsinin açılışında iştirak etmişdir.

Prezident İlham Əliyev abidənin üzərindən ağ örtüyü götürdü. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Abidənin və parkın inşasına 2006-cı ildə başlanılmışdır. 1,2 hektar sahəni əhatə edən parkda görkəmli ədibin qranit postament üzərində 4,2 metr hündürlüyündə heykəli qoyulmuşdur.

Azərbaycan Yazıçılar Birliyi Qazax bölməsinin rəhbəri Barat Vüsal xalq yazıçısı İsmayıl Şıxlının yaradıcılığından, görkəmli ictimai xadim kimi fəaliyyətindən söhbət açdı, onun Azərbaycanın müstəqilliyi yolunda xidmətlərini xatırlatdı. O, ulu öndər Heydər Əliyevin ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinə diqqət və qayğısını xüsusi vurğuladı, onların yubileylərinin keçirilməsini, xatirələrinin əbədiləşdirilməsinin ölkə ictimaiyyəti tərəfindən razılıqla qarşılandığını bildirdi.

İsmayıl Şıxlının oğlu Elçin Şıxlı Prezident İlham Əliyevə təşəkkür edərək dedi ki, onun Qazax rayonuna, sərhəd bölgəsinə səfəri insanlarda böyük ruh yüksəkliyi doğurur.

Prezident İlham Əliyev Azərbaycan dilinin, tarixinin qorunmasında Heydər Əliyevin xidmətlərini xatırlatdı, ədiblərin bu sahədə fəaliyyətlərini yüksək qiymətləndirdi və dedi ki, onların yaradıcılığına yüksək qiymət verilməlidir. Azərbaycanda bu ənənə Heydər Əliyev dövründən sonra davam etdirilmişdir. Lakin 1990-cı illərin əvvəllərində bu sahəyə diqqət yetirilməmiş, əksinə, bir çox mədəniyyət ocaqlarının bağlanmasına qərar verilmişdir. Lakin ulu öndər əvvəlki ənənəni bərpa edərək, Azərbaycanın ədəbiyyat, mədəniyyət xadimlərinə daim böyük diqqət və qayğı göstərmişdir. Bu ənənə bundan sonra da davam edəcəkdir.

Prezident İlham Əliyev xalq yazıçısı İsmayıl Şıxlının Milli Məclisdəki fəaliyyətini xatırlatdı, onun adına parkın salınmasını və burada abidəsinin qoyulmasını ədibin yaradıcılığına verilən yüksək qiymət, xatirəsinə göstərilən ehtiram kimi dəyərləndirdi.

AZƏRTAC
2007, 30 may

“Dədə Qorqud” abidə kompleksini ziyarət
(30 may 2007-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev mayın 30-da Qazax şəhərində “Dədə Qorqud” abidə kompleksini ziyarət etmişdir.

Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi ilə əlaqədar ulu öndər Heydər Əliyevin 1999-cu il 21 fevral tarixli Sərəncamına əsasən, Qazax şəhərinin şərq girəcəyində “Dədə Qorqud” meydanı salınmışdır. 2005-ci ildə meydan tamamilə yenidən qurulmuşdur və 5 min kvadratmetr sahəni əhatə edir. Meydanda Dədə Qorqudun 9 metr hündürlüyündə heykəli qoyulmuşdur və dastanın 12 boyunu əks etdirən kompozisiyalarla birlikdə yaraşıqlı kompleks yaranmışdır.

Burada ulu öndərin “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyinin bu gün üçün də, gələcək nəsillər üçün də, dünya üçün də böyük əhəmiyyəti vardır” kəlamı yazılmış lövhə də vurulmuşdur.

Prezident İlham Əliyev bu ulu dastanla bağlı qədim Qazax torpağında belə abidə kompleksinin yaradılmasını tariximizin bugünkü və gələcək nəsillərə olduğu kimi çatdırılması baxımından çox əhəmiyyətli olduğunu vurğuladı, eyni zamanda onun şəhərə xüsusi yaraşıq verdiyini bildirdi.

Sonra Qazax aşıqları Prezident İlham Əliyevin və xanımının gəlişi şərəfinə el havaları ifa etdilər.

Daha sonra dövlətimizin başçısına Qazağın rəmzi sayılan Dilboz atı hədiyyə olundu. Dilboz atı (Qazax atı da deyilir) Azərbaycanda XVIII əsrin sonu - XIX əsrin əvvəllərində yetişdirilmiş cinsdir. Bu atların boz rəngli yaxşı minik tipi vaxtilə Dilbazilər nəslinin ilxısında çox yayıldığına görə ona Dilboz (Dilbazi) atı adı verilmişdir. Prezident İlham Əliyev və Mehriban xanım atın yanında xatirə şəkli çəkdirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Qazağa səfərini başa çatdıraraq Tovuz rayonuna yola düşdü.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev mayın 30-da Qazax rayonundan Tovuz rayonuna gəlmişdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək gül qoydular.

Dövlətimizin başçısı sonra şəhərdə tikiləcək yeni obyektlərin və giriş alaqapının layihəsi ilə tanış oldu, Tovuz Olimpiya İdman Kompleksinin təməlinin qoyulması mərasimində iştirak etdi.

Mərasimi Tovuz rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalov açdı. Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

Təməlqoyma mərasimi başa çatdıqdan sonra dövlətimizin başçısı “Heydər Əliyev seyrəngahı”nı gəzdi, Tovuz rayonunun Aşağı Ayıblı kənd məktəbi üçün 1776 şagird yerlik binanın tikintisi ilə yaxından tanış oldu.

Prezident İlham Əliyev elə həmin gün, mayın 30-da Tovuzdan Gəncə şəhərinə gəldi.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Gəncənin baş meydanında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoydular.

Prezident İlham Əliyev sonra Gəncənin qədim qapılarının ilkin şəkildə bərpası üçün görülən işlərlə tanış oldu, habelə Cəfər Cabbarlı adına 6 nömrəli orta məktəbin təmiri ilə maraqlandı.

Bununla da Azərbaycan Prezidenti İlham Əliyevin Qərb bölgəsinə səfəri başa çatdı. Dövlətimizin başçısı mayın 30-da axşam Bakıya qayıtdı.

AZƏRTAC
2007, 30 may

“Mütəfəkkirlər bağı” ilə tanışlıq

(30 may 2007-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev mayın 30-da Qazax şəhərinin mərkəzində yerləşən “Mütəfəkkirlər bağı” ilə də tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, Qazax rayonunun ədəbiyyat, incəsənət, elm və hərbi sahədə görkəmli şəxsiyyətlərinin xatirəsinə salınmış bağ 2 hektar sahəni əhatə edir. Bağın giriş hissəsində xalq şairi Səməd Vurğunun heykəli, baş hissəsində isə Molla Pənah Vaqifin və Molla Vəli Vidadinin heykəlləri ucaldılmışdır. Bağda Azərbaycanın xalq yazıçıları Mehdi Hüseynin, İsmayıl Şıxlının, Yusif Səmədoğlunun, xalq şairləri Osman Sarıvəllinin, Mirvarid Dilbazinin, Cənubi Qafqazda ilk pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi Əhməd Seyidovun, ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbovun, ilk artilleriya generalı Əlağa Şıxlinskinin, ilk topoqrafiya generalı İbrahim ağa Vəkilovun, İtaliyanın milli qəhrəmanı Tahir İsayevin, saz havalarının mahir ifaçısı, ustad Ədalət Nəsibovun və akademik Teymur Bünyadovun büstləri qoyulmuşdur. 2005-ci ilin iyununda açılmış bağda milli ornamentli rəngli fəvvarələr kompleksi də yaradılmışdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva büstlərə bir-bir tamaşa etdilər.

Prezident İlham Əliyev bu cür parkların və bağların başqa yerlərdə də salınmasının zəruriliyini vurğuladı, Qazaxda görülən abadlıq-quruculuq işlərini yüksək qiymətləndirdi.

AZƏRTAC
2007, 30 may

Qazax Olimpiya-İdman Kompleksinin açılışı

(30 may 2007-ci il)

AzərTAc-ın müxbirləri xəbər verirlər ki, mayın 30-da Qazax şəhərində Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi və buraya toplaşmış idmançılarla görüşdü.

Sonra dövlətimizin başçısı kompleksin ərazisini gəzdi, yeni idman qurğusu ilə tanış oldu. Məlumat verildi ki, burada idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün hər şərait yaradılmışdır. Burada təkcə yerli əhəmiyyətli deyil, beynəlxalq səviyyəli yarışların keçirilməsi üçün də imkan vardır. Ətraf yaşıllaşdırılmış, bəzək kolları əkilmişdir. Təməli 2005-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə qoyulmuş kompleksin ərazisi 15 hektardır. 1000 nəfərlik tamaşaçı yeri olan böyük idman salonundan əlavə, kompleksdə 4 məşq meydançası, 5 kiçik salon, ortülü hovuz, tennis kortları, mehmanxana, 6 ədəd ikimərtəbəli və 10 ədəd birmərtəbəli kotteclər, minifutbol meydançası vardır. Xarici qonaqların yüksək səviyyədə qəbulu üçün də hər cür şərait yaradılmışdır.

Prezident İlham Əliyev bütün bunlarla tanış oldu, yüksək səviyyədə inşa olunmuş bu obyektlərin rayon üçün böyük əhəmiyyəti olduğunu bildirdi.

Kompleksdə "Güc" muzeyi də fəaliyyət göstərir. Bu muzeyin məqsədi xaricdən gələn qonaqları rayon əhalisinin məişətdə istifadə etdiyi əşyalarla, eləcə də məşhur Qazax xalçaları və xalça məmulatı ilə tanış etməkdir.

Prezident İlham Əliyev muzeyin eksponatlarına baxdı.

Kompleksdə ümummilli lider Heydər Əliyevin büstü qoyulmuş, Azərbaycan, o cümlədən Qazax idmançılarının beynəlxalq və respublika səviyyəli yarışlardakı uğurlarını əks etdirən guşə yaradılmışdır. Sonra kompleksin açılışına həsr olunmuş mərasim keçirildi.

Mərasimi Qazax Rayonu İcra Hakimiyyətinin başçısı Rauf Hüseynov açdı.

Qazax rayonu icra hakimiyyətinin başçısı Rauf Hüseynovun çıxışı

-Möhtərəm cənab Prezident,

Hörmətli mərasim iştirakçıları!

Bu gün qədim Qazax torpağına gəlişiniz rayonun həyatında əlamətdar bir hadisədir. Üçüncü dəfədir ki, dövlət başçısı qazaxlıların görüşünə gəlir. İcazə verin, Sizə Qazağın bütün sakinlərinin salamlarını çatdırım.

Möhtərəm cənab Prezident, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Qazağa üç dəfə səfər etmişdi. Onun rayonumuza hər səfəri Qazağın sosial-iqtisadi dirçəlişinə güclü təkan vermişdir. Bu, ulu öndərin Qazağa və qazaxlılara məhəbbətinin əyani təzahürü idi. Böyük Heydər Əliyevin Qazağa göstərdiyi diqqət və qayğı bu gün Sizin tərəfinizdən davam etdirilir. Bu qayğını hər bir qazaxlı, rayonun hər bir sakini hiss edir və buna görə də Sizə minnətdardırlar. Bu gün açılışına toplaşdığımız müasir və möhtəşəm Olimpiya İdman Kompleksi bu qayğının əyani təzahürüdür.

Möhtərəm cənab Prezident, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1998-ci ildə Qazaxda olarkən demişdir: "Əziz qazaxlılar, siz burada Azərbaycanın ön cərgəsində, ən ucqar nöqtəsində durmusunuz. Həm torpağınızı qoruyursunuz, həm də Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız".

Dahi Prezident tərəfindən Qazağa və onun sakinlərinə verilən bu böyük qiymət qəlbimizi qürur hissi ilə doldurmuşdur.

Möhtərəm cənab Prezident, Ramana qəsəbəsi yaxınlığında məcburi köçkün ailələri üçün salınmış yeni qəsəbənin açılış mərasimində dediyiniz "biz öz ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik" sözləri biz qazaxlıların da ürəyincədir. Qazax sakinləri həmişə Sizin arxanızda mərd-mərdanə dayanıb və torpaqlarımızın azad olunmasına, ərazi bütövlüyümüzün bərpa edilməsinə hər an hazırdırlar.

Möhtərəm cənab Prezident, Sizin rayonumuza hər bir gəlişiniz regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramının uğurlu icrasına etibarlı zəmin yaradır. İcazə verin, fürsətdən istifadə edərək, Sizə bu barədə qısa məlumat verim.

Ötən dövr ərzində rayonda "Zili" xalçaçılıq müəssisəsinin, konserv zavodunun, "Şahnigar" Məhdud Məsuliyyətli Cəmiyyətinin, Bentonit gil kombinatının fəaliyyəti bərpa edilmişdir. Yeni istehsal

sahələri olan "İmperial" şirkəti, mişar daşı karxanası, "Damla" süfrə suyu istehsal edən müəssisə, tökmə və daşyonma sexləri yaradılmışdır. Son üç ildə rayonda 3990 yeni iş yeri yaradılmışdır ki, bunlardan da 2402-si daimidir. Bu, Sizin sahibkarlığın inkişafına göstərdiyiniz böyük qayğının təzahürüdür.

Sizin tapşırığınızla, respublikanın bütün bölgələrində olduğu kimi, Qazaxda da abadlıq-quruculuq işləri geniş vüsət almışdır. 6,9 kilometrlik şəhərdaxili yollara asfalt salınmışdır. 50 min kvadratmetr sahəyə üzlük plitə döşənilir. Küçələrdə yeni işıqlandırma sistemləri quraşdırılmışdır. Heydər Əliyev adına park yenidən qurulmuş, ulu öndərin qranit heykəli ucaldılmışdır. Bu, qədirbilən qazaxlıların ümummilli liderin əziz xatirəsinə böyük məhəbbət və ehtiramının təzahürüdür.

Ötən müddət ərzində şəhərin mərkəzində "Mütəfəkkirlər bağı", Ana və uşaq parkı, Dədə Qorqud abidə kompleksi yaradılmış, İsmayıl Şıxlı adına park salınmış və orada görkəmli yazıçının abidəsi ucaldılmışdır. Səməd Vurğun Poeziya evi və Qazax Dövlət Rəsm Qalereyası müasir standartlara uyğun olaraq əsaslı təmir edilmişdir. Bu da Sizin qazaxlılara olan diqqətinizin nümunəsidir.

Möhtərəm cənab Prezident, ölkəmizdə sağlam və savadlı gənc nəslin yetişdirilməsini təmin etmək məqsədi ilə Sizin tapşırığınızla bütün bölgələrdə, o cümlədən Qazaxda təhsil müəssisələri, diaqnostika və müalicə mərkəzləri, idman qurğuları inşa olunur. Bütün bunlar xalqımızın, millətimizin sağlam genefonda malik olmasına etibarlı zəmin yaradır.

Son üç ildə rayonumuzda 1060 şagird yerlik üç yeni məktəb binası istifadəyə verilmiş, üç məktəbdə 380 yerlik yeni sinif otaqları inşa olunmuş, 12 məktəb əsaslı təmir edilmişdir. Məktəblərin ikisi Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində tikilmişdir. İki yeni məktəb binasının tikintisində isə işlər uğurla davam etdirilir. Biz qazaxlılar buna görə Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildiririk. Bütün bunlar Qazax rayonunda təhsil sisteminin daha da yaxşılaşmasına və gənc nəslin təlim-tərbiyəsinə göstərilən qayğının bariz nümunəsidir.

Hazırda rayonda müasir tipli diaqnostika mərkəzinin tikintisi də uğurla davam etdirilir.

Möhtərəm cənab Prezident, 2004-cü ildə rayonumuzda olarkən, Siz qazaxlı gənclərin arzusunu nəzərə alaraq, rayonda Olimpiya İdman Kompleksinin tikintisinə kömək edəcəyinizi bildirmişdiniz. Çox sevinirik ki, Siz bizim bu arzumuzu reallaşdırdınız. Bu yüksək qayğıya görə, Sizə bir daha rayonumuzun bütün sakinlərinin təşəkkürünü və dərin minnətdarlığını çatdırıram.

Möhtərəm cənab Prezident, əmin ola bilərsiniz ki, Vətənimizin tərəqqisi, xoş, nurlu sabahı, xalqımızın firavan və xoşbəxt həyatı naminə gördüyünüz bütün işlərdə biz qazaxlılar Sizinlə olacağıq, fəaliyyətinizi daim dəstəkləyəcəyik. Biz Azərbaycanın xoşbəxt gələcəyinə inanırıq və bu gələcəyi böyük Heydər Əliyevin parlaq ideyaları və Sizin adınızla bağlayırıq.

Güləş üzrə dünya kubokunun qalibi Firdovsi Umudovun çıxışı

-Möhtərəm cənab Prezident,

Hörmətli mərasim iştirakçıları.

Bu gün biz çox əlamətdar və tarixi anlar yaşayırıq. Sizin rayonumuza hər gəlişiniz biz gənclər üçün əsl bayrama çevrilir. Qazax Olimpiya İdman Kompleksinin açılışında iştirakıma və Sizin qarşınızda çıxış etdiyimə görə, böyük qürur hissi keçirirəm.

Bu Olimpiya İdman Kompleksi biz idmançılara Sizin ən dəyərli hədiyyənizdir. Ölkəmizdə idmanın inkişafı, idmanda əldə olunan nailiyyətlər ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimizin əvəzsiz, qayğıkeş münasibəti nəticəsində Azərbaycanda idmanın bütün sahələrində güclü inkişaf başlamışdır və bu gün də davam etməkdədir.

Azərbaycanda idmanın və bədən tərbiyəsinin inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə Sizin tərəfinizdən yüksək qayğı göstərilir. Həyata keçirilən kompleks tədbirlər nəticəsində Azərbaycan idmançıları dünya və Avropa çempionatlarında, müxtəlif beynəlxalq yarışlarda ölkəmizin idman şərəfini layiqincə qoruyaraq, yüksək nəticələr əldə etmiş və Azərbaycan ən mötəbər yarışların keçirildiyi məkana çevrilmişdir. Azərbaycan idmanının qazandığı uğurlarda qazaxlı idmançıların da payı vardır. Onlar müxtəlif beynəlxalq turnirlərdə uğurla çıxış etmiş, Azərbaycanın bayrağını yüksəklərə qaldırmış, Vətənə qələbə ilə qayıtmışlar. Belə möhtəşəm və gözəl kompleksin bizim istifadəmizə verilməsi isə məsuliyyətimizi qat-qat artırır. Əminəm ki, Sizin göstərdiyiniz bu diqqət və qayğı sayəsində idmançılarımız yarışlara daha yaxşı hazırlaşacaq və gələcək Olimpiya oyunlarından, dünya və Avropa çempionatlarından doğma Azərbaycanımıza yüksək mükafatlar və medallarla dönəcəklər.

Sərbəst güləş üzrə Azərbaycan yığma komandasının məşqçisi kimi, üzərimə böyük məsuliyyət götürərək Sizə söz verirəm: Yetişdirdiyim idmançıların zəfər səsləri dünyanın bütün ölkələrindən gələcək

və Qarabağ qələbəsi ilə həmahəng səslənəcəkdir. Azərbaycan gənclərinin sağlam və möhkəm olması, dünya idman məkanında həmişə zirvələrə qalxmaq yolunda göstərdiyiniz əvəzolunmaz qayğı buna tam imkan verir.

Əziz Prezidentimiz, bu gün istifadəyə verilən möhtəşəm olimpiya kompleksinin açılışında biz gənclərə göstərdiyiniz bu qayğıya görə Sizə dərin minnətdarlığımızı, səmimi təşəkkürümüzü çatdırırıq. Sizi əmin edirik ki, ulu öndərimiz Heydər Əliyevin "bədən tərbiyəsi və idmanı ümumxalq hərəkatına çevirməliyik" tarixi tapşırığının həyata keçirilməsi və bizim üçün yaradılmış bu gözəl şəraitdən istifadə edərək, Azərbaycan idmanının şöhrətinin gündən-günə artırılması üçün daim, yorulmadan çalışacağıq.

X X X

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

-Əziz qazaxlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Qazax Olimpiya İdman Kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, bu gözəl Olimpiya kompleksində idmançılar çox uğurla çıxış edəcəklər. Gənc idmançılar burada məşqlər edəcək, Qazax sakinləri idmanla məşğul olacaqlar. Həm idmanla məşğul olmaq, həm də dincəlmək, asudə vaxt keçirmək üçün burada bütün imkanlar var. Bu, olimpiya kompleksidir, idman, istirahət, turizm mərkəzidir. Burada gözəl üzgüçülük hovuzu, gözəl idman salonları, məşq otaqları, mehmanxana, kotteclər tikilibdir, çox böyük ərazisi var. Əminəm ki, qazaxlıların istifadəsinə verilən bu kompleks uzun illər ərzində xidmət göstərəcək və sakinlər buradan çox səmərəli şəkildə istifadə edəcəklər.

Mən xatırlayıram, iki il bundan əvvəl burada kompleksin tikintisi ilə tanış olurdum, görürdüm ki, iş gedir. O vaxt göstəriş vermişdim ki, kompleks dünyanın ən yüksək standartlarına uyğun şəkildə tikilsin, burada ən müasir avadanlıq quraşdırılsın. Dünyada hansı ən qabaqcıl texnologiya, hansı ən müasir avadanlıq, tikinti materialları varsa, burada tətbiq olunsun. Mən çox şadam ki, bu gözəl kompleks dünyanın ən yüksək standartlarına cavab verir. Azərbaycanda belə komplekslərin tikintisi bundan sonra da davam etdiriləcəkdir.

Azərbaycanda idmanın maddi-texniki bazasının möhkəmlənməsi üçün çox böyük işlər görülür. Qazax Olimpiya kompleksi Azərbaycanın müxtəlif bölgələrində tikilən 11-ci böyük olimpiya mərkəzidir. Bundan əlavə, Bakıda müxtəlif idman qurğuları - Heydər Əliyev adına İdman-Konsert Kompleksi əsaslı təmir olunub, bulvarda yerləşən İdman sarayı təmir edilib, Mingəçevirdə avarçəkmə bazası yenidən qurulur. Federasiyaların xətti ilə müxtəlif idman salonları tikilir. Yəni, Azərbaycanda idmanla məşğul olmaq üçün çox gözəl şərait var və mən əminəm ki, gələcək illərdə bizim ardıcıl, məqsədyönlü siyasətimiz nəticəsində Azərbaycanın hər bir yerində ən müasir idman qurğuları tikiləcəkdir. Deyə bilərəm ki, hazırda Azərbaycanın müxtəlif şəhər və rayonlarında 20 olimpiya kompleksi ya tikilir, yaxud da ki, onların tikintisi üçün hazırlıq işləri görülür. Bu, çox böyük quruculuq işləridir. Biz buna çox böyük investisiya qoyuruq. Amma biz bu investisiyaları insanların sağlamlığına qoyuruq, uşaqların idmanla məşğul olmasına qoyuruq. Bu investisiyaları Azərbaycanın gələcəyinə qoyuruq. Çünki idmanla məşğul olan insanlar, uşaqlar həm fiziki cəhətdən güclü olurlar, eyni zamanda, mənəvi cəhətdən də çox möhkəm, saf olurlar.

Biz də gələcək nəslimizi bu cür yetişdirməliyik. Onlar fiziki cəhətdən güclü, vətənpərvər olmalıdırlar və mənəvi cəhətdən Azərbaycan xalqına xas olan ən yüksək xüsusiyyətlərə malik olmalıdırlar. Hər bir cəmiyyətin həyatında idmanın çox böyük rolu vardır. İdman həm ölkənin şöhrətini ucaldan bir sahədir, həm insanları fiziki cəhətdən sağlam edən sahədir, eyni zamanda, sosial sahədir. Bütün bu amillər idmanı ən cəlbedici və hər bir ölkədə çox mühüm yer tutan sahəyə çevirir. Mən çox şadam ki, Azərbaycanda idmana münasibət ən yüksək səviyyədədir. Dövlət xətti ilə bu münasibət göz qabağındadır. Azərbaycanda müxtəlif idman qurumları - Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman federasiyaları, cəmiyyətləri bir komanda şəklində fəaliyyət göstərirlər. Bir nöqtəyə vururlar ki, bu da Azərbaycanda idmanın güclənməsi, olimpiya hərəkatının yayılmasıdır.

Mən çox şadam ki, Azərbaycanda idmanın maddi-texniki bazasının möhkəmlənməsi ilə bərabər, idmançılarımız beynəlxalq yarışlarda da çox gözəl nəticələr göstərirlər. Hər il idmançılarımız beynəlxalq yarışlarda yüzlərlə qızıl, gümüş, bürünc medallar qazanırlar. Dünya, Avropa çempionatlarında Azərbaycanın bayrağı qaldırılır, dövlət himni səslənir, Azərbaycanın idman şöhrəti yüksəlir. Müstəqil ölkə kimi bizim Olimpiya oyunlarında iştirakımız da çox uğurlu olubdur. Sidney və Afina Yay Olimpiya oyunlarında Azərbaycan idmançıları səkkiz medal qazanmışlar. Bu, çox böyük göstəricidir, çox böyük nailiyyətdir. Təsadüfi deyil ki, beynəlxalq olimpiya qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyır, bizim fəaliyyətimizi çox yüksək qiymətləndirir və Azərbaycanda idmana olan münasibəti başqa ölkələrə də örnək, nümunə kimi göstərirlər. Bu da ondan irəli gəlir ki, Azərbaycanda dövlət səviyyəsində idmana çox böyük dəstək var, əməli, praktik işlər görülür. Azərbaycan Milli Olimpiya Komitəsi çox fəaldır və beynəlxalq idman, olimpiya qurumları ilə də bizim əməkdaşlığımız çox səmərəlidir və uğurludur. Bu yaxınlarda, keçən ay Masallıda Olimpiya mərkəzinin açılışında Avropa Olimpiya Komitəsinin prezidenti iştirak edərkən demişdir ki, Azərbaycanda idman sahəsində çox böyük işlər görülür.

Biz çalışırıq ki, Azərbaycanda müxtəlif beynəlxalq yarışlar da keçirilsin. Gələn ay Bakıda bədii gimnastika üzrə Avropa çempionatı keçiriləcəkdir. Ondan sonra, bu il Bakıda güləşin bütün növləri üzrə dünya çempionatı keçiriləcəkdir. Bu onu göstərir ki, bizə çox böyük inam var, etimad var və beynəlxalq qurumlar bilir ki, Azərbaycanda istənilən yarış ən yüksək səviyyədə keçiriləcəkdir. İndi təkcə Bakıda deyil, Azərbaycanın müxtəlif bölgələrində də ən mötəbər beynəlxalq yarışların keçirilməsi mümkündür. Mən bu gün bu komplekslə tanış olarkən göstəriş verdim ki, burada müxtəlif idman növləri üzrə həm Azərbaycan çempionatları keçirilsin və həm də beynəlxalq yarışlar keçirilsin. Bunu etmək üçün bütün imkanlar var. Beynəlxalq idman qurumları ilə bizim səmərəli əməkdaşlığımız, əlbəttə ki, Azərbaycanda idman hərəkatını daha da gücləndirir.

Bildiyiniz kimi, artıq bu sahədə bizim çox gözəl təcrübəmiz var. Növbəti addımımız da Azərbaycanın həm idman sahəsinə olan diqqətdir, eyni zamanda, Azərbaycanın ümumilikdə potensialını göstərir. Bu addım da ondan ibarətdir ki, bu yaxınlarda biz 2016-cı ildə Yay Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsi haqqında Beynəlxalq Olimpiya Komitəsinə müraciət etmişik. Bu, Azərbaycanın çox böyük iqtisadi və siyasi potensialı olan ölkə kimi göstərilməsidir. Biz artıq bəyan edirik ki, biz bunu etməyə hazırıq. İqtisadi potensialımız buna imkan verir, Azərbaycanda idman infrastrukturu yaradılıb və o vaxta qədər daha da möhkəmlənəcəkdir. Azərbaycanı idman ölkəsi kimi tanıyan beynəlxalq qurumlar əlbəttə ki, bizə çox böyük diqqətlə yanaşırlar.Mən əminəm ki, Azərbaycanın gələcək uğurlu inkişafı idman sahəsində də daha böyük uğurlara gətirib çıxaracaqdır.

Gələn il Çində Olimpiya oyunları keçiriləcək və bizim idmançılarımız da bu oyunlara hazırlaşırlar. Təlim-məşq toplanışları da çox vacibdir və yüksək səviyyədə keçirilməlidir. Bir daha demək istəyirəm ki, bu toplanışların istənilən bölgədə keçirilməsi mümkündür.

Bir sözlə, idman həm insanı fiziki cəhətdən gücləndirir, həm mənəvi cəhətdən, həm də gənc nəslə imkan yaradır ki, öz fiziki sağlamlığını möhkəmləndirsin, asudə vaxtını səmərəli keçirsin. İdman sağlamlıqdır. Bizə isə sağlam millət lazımdır, sağlam, yeni gənc nəsil lazımdır. Bilikli, savadlı, bütün dünyada gedən proseslərə bələd olan, gözəl təhsil alan, öz biliyi, savadı ilə Azərbaycanın gələcək inkişafına töhfə verəcək gənc nəsil lazımdır, vətənpərvər gənc nəsil lazımdır. Biz müharibə şəraitində yaşayırıq və əlbəttə, həmişə hazır olmalıyıq ki, torpaqlarımızı istənilən yolla, hərb yolu ilə azad edək. Bunu etmək üçün hazırlıq çox güclü olmalıdır və uşaqlar vətənpərvərlik ruhunda böyüməlidir. Qazax rayonu da ön cəbhədədir, Ermənistanla həmsərhəddir. Qazaxlılar öz doğma torpaqlarını həmişə rəşadətlə qorumuşlar. Müharibədə çox böyük itkilər vermişlər, ancaq Azərbaycanın ərazi bütövlüyünü qorumuşlar, öz sərhədlərini qorumuşlar. İmkan verməmişlər ki, düşmən öz çirkin niyyətlərini burada həyata keçirsin. Halbuki, belə niyyətlər var idi. Qazaxlılar həmişə çox böyük məharətlə, böyük cəsarətlə doğma torpağımızın keşiyində durmuşlar. Azərbaycan xalqı bunu bilir və çox yüksək qiymətləndirir. Bu gün rayonun inkişafında gedən müsbət proseslər məni çox sevindirir. Qazağın iqtisadi potensialı güclənir, icra hakimiyyəti başçısının çıxışında səslənən rəqəmlər bunu əyani şəkildə göstərir. Burada böyük infrastruktur layihələri həyata keçirilir. Yol infrastrukturu yeniləşir. Bakı-Qazax avtomobil yolu tikilir və yəqin ki, bu yaxınlarda ən müasir, ən gözəl standartlara uyğun şəkildə istifadəyə veriləcəkdir. Gözəl olimpiya kompleksi tikilmişdir. Bildiyiniz kimi, bir müddət bundan əvvəl mənim göstərişimlə Qazaxda böyük Müalicə-Diaqnostika Mərkəzinin tikintisinə başlanmışdır və artıq qurtarmaq üzrədir. Bu da rayonun inkişafına çox böyük töhfədir. İnsanlar orada gözəl müalicə olunacaqlar, tibbi müayinədən keçəcəklər. Ağır xəstələr, böyrək çatışmazlığından əziyyət çəkən xəstələr, həftədə 2-3 dəfə Bakıya getməyə məcbur idilər.

Onlar burada keyfiyyətli müalicə alacaqlar və bu mərkəz insanların sağlamlığına çox böyük dəstək olacaqdır.

Körpülər tikilir, məktəblər tikilir, müəssisələr, fabriklər işə başlayır, iş yerləri açılır. Yəni bütün ölkədə gedən proseslər Qazaxda da gedir və Qazaxın siması dəyişir. Mən Qazaxda dəfələrlə olmuşam və bu gün buraya gələrkən bu gözəl dəyişiklikləri gördüm. Yeni parklar salınır, küçələr abadlaşır, çox gözəl xiyabanlar salınır, binalar tikilir. Budur Azərbaycanın bugünkü reallıqları, budur bizim siyasətimizin əməli, praktik nəticələri.

Bizim siyasətimiz görülən real işlərdir, həll olunan məsələlərdir. İnvestisiya qoyuluşu, sosial məsələlərin həlli, quruculuq, abadlıq işləri, inkişafdır. Azərbaycanın ümumi inkişafı çox sürətlə gedir. Qazax rayonu da çox sürətlə inkişaf edir. Biz iqtisadi inkişaf baxımından ən dinamik və sürətlə inkişaf edən ölkəyik. Azərbaycanda elə sahə yoxdur ki, orada inkişaf olmasın, gözəl zavodlar, fabriklər, məktəblər, xəstəxanalar, idman qurğuları tikilir, aeroportlar tikilir, muzeylər, teatrlar bərpa edilir, yollar salınır. Azərbaycan indi inkişaf dövrünü yaşayır. Biz həmişə onu da yadda saxlamalıyıq ki, bu gözəl imkanları bizə ulu öndərin siyasəti yaratdı. Məhz onun Azərbaycana rəhbərliyə qayıdışından sonra bütün xoşagəlməz meyillər artıq keçmişdə qaldı və ölkə uğurla inkişaf etməyə başladı. İqtisadi islahatlar, siyasi islahatlar, quruculuq-abadlıq işləri, neft strategiyamız bu gün bizə imkan verir ki, bütün məsələlər öz həllini tapsın və belə gözəl komplekslərin tikintisi də mümkün olsun. Bundan sonra Azərbaycanın qarşısında çox üfüqlər açılır, çox gözəl perspektivlər var. Biz bilirik ki, haraya gedirik, məqsədimiz nədir. Məqsədimiz müasir güclü dövlət yaratmaqdır. İqtisadi cəhətdən güclü dövlət yaratmaq, sosial rifah cəmiyyəti qurmaqdır. İnsanları narahat edən bütün məsələləri həll etmək, azad cəmiyyət yaratmaqdır ki, insanlar rahat, gözəl yaşasınlar, rifah içində yaşasınlar. Mənim də məqsədim budur və bu məqsədə doğru biz uğurla gedirik. Bütün Azərbaycan xalqı indi quruculuq işləri ilə məşğuldur. Bütün Azərbaycan xalqı ölkəmizin inkişafında fəal iştirak edir, o cümlədən qazaxlılar da.

Mən bu gözəl gündə bir daha demək istəyirəm ki, indiyədək görülən işlər çox sevindiricidir. Bizim çox böyük planlarımız var. İldən-ilə ölkəmiz daha da güclənəcək, bütün sahələrdə inkişaf gedəcək və Azərbaycan qüdrətli dövlətə çevriləcəkdir.

Əziz bacılar və qardaşlar, çox sevinirəm ki, bu gün yenidən Qazaxdayam. Çox sevinirəm ki, olduqca gözəl əsər yaradılmışdır. Qazaxlılar da bundan istifadə edəcəklər. Çox sevinirəm ki, Qazax şəhərində, qədim Azərbaycan torpağında gözəl quruculuq, abadlıq işləri gedir. Bu münasibətlə mən sizi bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Arzu edirəm ki, həyatınızda hər şey yaxşı olsun. Arzu edirəm ki, həmişə sevinc içində yaşayasınız, həmişə əmin-amanlıq, sabitlik olsun, ölkəmiz çiçəklənsin, inkişaf etsin, Azərbaycan xalqı irəliyə getsin.

X X X

Sonra idmançıların nümunəvi çıxışları və incəsənət ustalarının iştirakı ilə konsert oldu.

(Dövlətimizin başçısının nitqi diqqətlə dinlənildi və alqışlarla qarşılandı).

AZƏRTAC
2007, 30 may

Azərbaycan Prezidenti İlham Əliyevin Qazax, Ağstafa və Tovuz rayonlarına səfəri
Qazaxda Ulu Öndərin abidəsini ziyarət
(24 sentyabr 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də qərb bölgəsinə səfərə getmişdir.

Əvvəlcə Qazax şəhərinə gələn dövlətimizin başçısı Heydər parkında ümummilli liderin abidəsini ziyarət edərək gül dəstəsi qoydu.

Prezident parkda aparılmış abadlıq-quruculuq işləri ilə də tanış oldu. Məlumat verildi ki, Heydər Əliyev elm mərkəzinin də yerləşdiyi parkda genişləndirmə işləri aparılmış, yaşıllıq zolağı salınmış, dekorativ kollar və güllər əkilmişdir. İndi bura qazaxlıların sevimli istirahət yerlərindən biridir.

AZƏRTAC
2008, 24 sentyabr

Heydər Əliyev Elm Mərkəzində Ulu Öndərin zəngin irsi ilə bağlı araşdırmalar aparılacaqdır
(24 sentyabr 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, sentyabrın 24-də Qazax şəhərində Heydər Əliyev Elm Mərkəzinin açılışı olmuşdur.

Prezident İlham Əliyev açılışı bildirən rəmzi lenti kəsdi.

Original formalı geniş binada ümummilli liderin həyat və fəaliyyətini əks etdirən böyük ekspozisiya salonu vardır. Qazaxlılar xalqımızın dahi oğlunun, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun xatirəsini əziz tuturlar. Hələ ötən əsrin 70-ci illərində Heydər Əliyevin Qazaxa səfərləri bu rayonun həyatında silinməz izlər buraxmışdır. Mərkəzdə o dövrdən yadigar olan fotolar, habelə ümummilli liderin 1998-ci ildə prezident seçkiləri ərəfəsində rayona səfərlərini və ictimaiyyətlə görüşlərini əks etdirən fotoşəkillər böyük maraq doğurur.

Mərkəzdə dünyada çox az sayda ölkədə olan, yalnız əlin toxunması ilə idarə edilən Ubiq'Window sistemi qurulmuşdur. Bu qurğunun köməyi ilə fotoşəkillər, video görüntülər və mətnlər vasitəsilə ulu öndərin həyat və fəaliyyəti barədə məlumat almaq mümkündür.

Mərkəzdə kitabxana, kompyuter kursları da yaradılmışdır. Burada elmi araşdırmalar da aparılacaq, gənclər ulu öndərin zəngin irsini öyrənəcəklər.

Mərkəzdə Qafqazda yeganə olan planetari qurulmuşdur. Onun yerləşdiyi salon kürə formalıdır. Salonun tam 180 dərəcə səthi ekran rolunu oynayır. Xüsusi qurğu vasitəsilə həmin ekranda qalaktikalar, günəş sistemi, planetlər və sair göstərilir.

Prezident İlham Əliyev fotoşəkillərə və eksponatlara, ekranda nümayiş etdirilən səma cisimlərinə baxdı. Dövlətimizin başçısı Elm Mərkəzindəki funksional əlaqə studiyasında bir neçə rayon məktəbləri ilə monitor vasitəsilə birbaşa əlaqəyə girdi:

-Salam uşaqlar, necəsiniz?

UŞAQLAR: Salam. Yaxşıyıq.

İLHAM ƏLİYEV: Mən sizi salamlayıram və yeni dərs ilinin başlanması münasibətilə sizi təbrik edirəm.

UŞAQLAR: Cənab Prezident, çox sağ olun, təşəkkür edirik.

İLHAM ƏLİYEV: Siz yaxşı oxumalısınız, peşəkar olmalısınız, savadlı, bilikli olmalısınız. Azərbaycanın gələcəyi sizinlə bağlı olacaqdır. Azərbaycanda təhsilin səviyyəsinin qaldırılması üçün dövlət çox işlər görür. Yeni məktəblər tikilir, təhsilin keyfiyyəti artır. Artıq burada ən müasir informasiya-kommunikasiya texnologiyaları tətbiq olunur. Mən çox şadam ki, bu gün Qazaxda, Heydər Əliyev Elm Mərkəzində belə gözəl avadanlıq qurulubdur və 9 məktəbdə eyni avadanlıq var. Biz bir-birimizi görürük, söhbət edirik. Mən çox şadam ki, Azərbaycanda bu sahədə çox böyük işlər görülür.

Bütün uşaqlar kompyuteri, yeni texnologiyaları bilməlidirlər və bütün müasir, mütərəqqi təcrübə Azərbaycanda tətbiq olunmalıdır. İlk növbədə, təhsil sahəsində. Çünki təhsilin səviyyəsindən ölkənin gələcəyi asılıdır. Mən bu gün sizə uğurlar arzulayıram. Arzu edirəm ki, siz yaxşı oxuyasınız və böyüyəndə Azərbaycan üçün çox dəyərli vətəndaşlar olasınız.

RAUF HÜSEYNOV (Qazax rayon İcra hakimiyyətinin başçısı): Cənab Prezident, şagirdlər Sizə öz suallarını çatdırmaq istəyirlər.

ŞAGİRD: Möhtərəm cənab Prezident, şairlər diyarı Qazax mahalına xoş gəlmisiniz. İlk növbədə, rayonumuza təşrif buyurduğunuza və "Vətən sərhəddən başlayır" prinsipinə sadiq qalıb, sərhəd rayonlarının, eləcə də Qazaxın abadlaşdırılmasına, yeni məktəblərin tikintisinə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Bu gün məktəbimizin şagirdləri adından demək istəyirəm ki, əvvəllər orta məktəbi əla qiymətlərlə başa vuran şagirdlərə qızıl və gümüş medallar verilərdi. O ənənənin bərpa olunması mümkündürmü?

İLHAM ƏLİYEV: Bilirsiniz, keçmişdə müxtəlif ənənələr olmuşdur. Biz bütün ənənələrə gərək bugünkü Azərbaycanın reallığına nə dərəcədə cavab verib-verməmək baxımından yanaşaq. Əlbəttə ki, məktəbdə yaxşı qiymətlərlə oxuyan şagirdlər daha da böyük üstünlüklərə malik olmalıdırlar. Bildiyiniz kimi, indi Milli Məclisdə Təhsil haqqında Qanun müzakirə olunur. Düzdür, bu müzakirə çox uzandı. Amma geniş müzakirə aparılır və yəqin ki, lazım olan bütün tədbirlər bu Qanunda öz əksini tapacaqdır.

Mən çox istəyirəm ki, məktəblərdə oxuyan şagirdlər çox bilikli olsunlar və onların ibtidai və orta təhsili yüksək səviyyədə olsun ki, gələcəkdə müxtəlif sahələrdə çox uğurla işləsinlər. Hər bir gənc öz doğulduğu rayonun inkişafına da öz töhfəsini versin. Son illər ərzində Qazax rayonunda da çox böyük işlər

görülüb və yeni müəssisələr açılıbdır. Keçən il çox gözəl Olimpiya Kompleksi açılmışdır, onun açılışında bərabər iştirak etmişdik. Bu gün, bir neçə dəqiqədən sonra müasir Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak edəcəyəm. Yəni həm tibbi xidmət, həm təhsil, həm infrastruktur, həm də yeni müəssisələr, yeni iş yerləri – Azərbaycanın bütün rayonları bax bu istiqamətdə inkişaf edir. Biz məsələlərə kompleks şəkildə yanaşırıq. Əlbəttə ki, təhsil məsələlərinin ön planda olması Azərbaycanın dövlət siyasətinin təzahürüdür. Bizim gələcək bütün uğurlarımız bugünkü gənclərin fəaliyyətindən asılıdır.

Mən sizi bir daha həm salamlayıram, həm də yeni dərs ilinin başlanması münasibətilə təbrik edirəm. Sizə bir daha tövsiyə edirəm ki, yaxşı oxuyasınız və bilikli mütəxəssislər olasınız. Sağ olun.

ŞAGİRDLƏR: Cənab Prezident, təşəkkür edirik.

Sonra dövlətimizin başçısı Elm Mərkəzinin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

AZƏRTAC
2008, 24 sentyabr

Qazaxda Müalicə-Diaqnostika Mərkəzi istifadəyə verilmişdir

(24 sentyabr 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, sentyabrın 24-də Qazaxda Müalicə-Diaqnostika Mərkəzinin açılışı olmuşdur.

Tibb işçiləri mərasimdə iştirak etmək üçün buraya gələn Prezident İlham Əliyevi səmimiyyətlə qarşıladılar.

Dövlətimizin başçısı mərkəzin işçilərinə müraciətlə dedi:

-Qazax Müalicə-Diaqnostika Mərkəzinin açılışı münasibətilə sizi təbrik edirəm. İndi iştirak edəcək və baxacağam, amma bilirəm ki, burada ən gözəl avadanlıq quraşdırılıb, ən gözəl şərait var. Həm xarici görünüşü gözəldir, həm də avadanlığı, bütün təchizatı ən müasir standartlara uyğundur. Yəni burada ən yüksək tibbi xidmət almaq mümkündür və əminəm ki, bizim insanlarımız bu sağlamlıq ocağından istifadə edəcəklər. Həkimlər də onlara yaxşı baxmalı, yaxşı xidmət göstərməlidirlər. Əminəm ki, belə gözəl şəraitdə işləmək də çox xoş olacaqdır.

Tibb işçiləri ölkəmizin Prezidentə təşəkkürlərini bildirdilər.

Sonra dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, mərkəzlə tanış oldu.

Təməli 2005-ci ilin oktyabrında, Prezidentin Qazaxa səfəri zamanı qoyulan bu mərkəz Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilmişdir. Dövlətimizin başçısı ötən il bu rayona səfəri zamanı tikinti işlərinin gedişi ilə maraqlanmış, müvafiq tapşırıq və tövsiyələrini vermişdi.

Ümumi sahəsi 9500 kvadratmetr olan yaraşıqlı üçmərtəbəli bina iki hektarlıq ərazidə yerləşir. Həyətdə geniş yaşıllıq zolağı salınmış, xəstələrin istirahəti üçün lazımi şərait yaradılmışdır. Binanın birinci mərtəbəsində təcili yardım, hemodializ, şüa-diaqnostika, kompyuter tomoqrafiyası şöbələri yerləşir.

Şüa-diaqnostika şöbəsi ilə yaxından tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, mərkəzdə quraşdırılan bütün tibb aparatları, avadanlıq xaricdə istehsal olunmuşdur. Bunlar xəstələrin daha müasir üsullarla müayinəsinə imkan verəcək, onların müalicə üçün paytaxta və başqa yerlərə getməsinə ehtiyac qalmayacaqdır.

Dövlətimizin başçısı ikinci mərtəbədə yerləşən palatalarda yaradılan şəraitlə də tanış oldu, üçüncü mərtəbədəki cərrahiyyə blokuna baxdı. Burada ən müasir avadanlıq quraşdırılmışdır. Reanimasiya və terapiya şöbələri də bu mərtəbədə yerləşir. Müalicə-Diaqnostika Mərkəzinin ayrıca patoloji anatomiya korpusu, 40 nəfərlik yeməkxanası da vardır. Mərkəzdə 270-ə yaxın tibbi heyət çalışacaqdır. Qazax Müalicə-Diaqnostika Mərkəzinin xidmətindən təkcə bu bölgənin sakinləri deyil, qonşu Gürcüstanda yaşayan azərbaycanlılar da istifadə edə biləcəklər.

Yeni müalicə ocağında yaradılan şəraiti yüksək qiymətləndirən Prezident İlham Əliyev tibb işçilərini bir daha təbrik etdi, onlarla xatirə şəkli çəkdirdi.

Dövlətimizin başçısı Azərbaycanda səhiyyə göstərilən qayğının bundan sonra da davam etdiriləcəyini vurğulayaraq bir daha dedi ki, mərkəz yüksək dünya standartlarına cavab verir. Binanın həm xarici görünüşü gözəldir, həm də ən müasir avadanlıq, bütün şərait var. Bu, belə də olmalıdır. Hər bir rayonda belə gözəl binalar, xəstəxanalar olmalıdır.

AZƏRTAC
2008, 24 sentyabr

Rayon ictimaiyyətinin nümayəndələri ilə görüş
(24 sentyabr 2008-ci il)

Sentyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Elm Mərkəzinin qarşısındakı parkda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Azərbaycan Yazıçılar Birliyi Qazax bölməsinin rəhbəri şair BARAT VÜSAL dövlətimizin başçısını salamlayaraq dedi:

- Cənab Prezident, bu gün Qazaxda geniş quruculuq işləri, sürətli inkişaf, yeniləşmə gedir. Bu, bizi çox sevindirir və qarşısında dayandığımız, açılışında iştirak etdiyiniz Heydər Əliyev Elm Mərkəzi, eləcə də bu gün açılışı olacaq Müalicə-Diaqnostika Mərkəzi buna sübutdur. Bundan əvvəl Qazaxda Olimpiya İdman Kompleksi istifadəyə verilmiş, çoxlu işçi qüvvəsi tələb olunan sement zavodu tikilmiş, xalqın istirahət yerinə çevrilmiş Heydər Əliyev parkı, Mütəfəkkirlər parkı salınmış, tariximizə məhəbbətin nişanəsi olan Dədə Qorqud abidə kompleksi yaradılmışdır. Bu, nəyi göstərir?! Onu göstərir ki, ulu öndərimiz Heydər Əliyevin xətti uğurla davam etdirilir. Bu, bizi çox sevindirir.

Hörmətli Prezident, Sizin belə bir sözünüz var: "Biz gərək bütün şəhərlərimizi yeniləşdirək". Siz yeniləşməni sevirsiniz, yeniləşmə, yeniləşmə, daim yeniləşmə Sizin amalınızdır. Bu gün Qazaxda gedən yeniləşmə də bunu sübut edir. Sizin Qazax haqqında çox maraqlı fikirləriniz var. Onlardan birini xatırlatmaq istəyirəm: "Qazax Azərbaycanın paytaxtdan uzaq ən ucqar rayonlarından biridir. Ona görə də oraya xüsusi diqqət və qayğı göstərilməlidir". Biz qazaxlılar bunu hər dəqiqə, hər an hiss edirik. Qazaxda böyük yeniləşmə, inkişaf gedir. Ölkədə maliyyə kapitalı insan kapitalına çevrilir. Həqiqətən də, inkişafın yolu budur. Dünya praktikası da bunu göstərir.

Onu da deyim ki, Sizin silahdaşınız, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, xalqımızın sevimlisi Mehriban xanım Əliyeva da çox böyük işlər görür. Biz minnətdarlığımızı buradan ona çatdırırıq. Yeni məktəblərin açılmasında, səhiyyə ocaqlarının tikilməsində, ümumiyyətlə, Azərbaycanda gedən abadlıq və quruculuq işlərində bir silahdaş, məsləkdaş kimi onun Sizin yanınızda olmasını çox bəyənirik.

Ulu öndər rayonumuza çox böyük diqqət və qayğı ilə yanaşırdı, insanlara yüksək qiymət verirdi. Ulu öndər Qazaxı necə sevirdisə, Siz də elə sevirsiniz.

Bu gün dünyanın hər yerində Azərbaycan bayrağı dalğalanır, ölkədə sabitlik hökm sürür, dinamik inkişaf var, iqtisadiyyatımız sürətlə inkişaf edir, ölkənin müdafiə qabiliyyəti artır. Buna hər birimiz sevinirik. Sağ olun.

İLHAM ƏLİYEV: Mən sizi ürəkdən salamlayıram. Yenidən Qazaxda olmağımdan da çox şadam. Hər dəfə buraya gələndə, yenilikləri görəndə mən çox sevinirəm. Siz düz söyləyirsiniz, mənim istəyim odur ki, bütün ölkəmiz yeniləşsin, müasirləşsin, ancaq öz tarixi simasını saxlamaq şərti ilə. Biz Qazaxın timsalında bunları görürük. Mən son beş il ərzində beşinci dəfədir Qazaxdayam. Hər dəfə gələndə yeniliklər görürəm. Bax, indi açılışında iştirak edəcəyimiz yeni müasir Müalicə-Diaqnostika Mərkəzi ən yüksək dünya standartlarına cavab verir. Yəni dünyada, ən inkişaf etmiş ölkələrdə, şəhərlərdə hansı avadanlıq varsa, burada da var. Rayonun parkları, binaları, körpüləri, Olimpiya İdman Kompleksi, yəni bütün bunlar rayonun inkişafına, insanların daha da yaxşı yaşamasına xidmət göstərir. Həm iqtisadi məsələlər həll olunur, iş yerləri açılır, həm sosial məsələlər həllini tapır – məktəb, xəstəxanalar tikilir və sair, həm də gözəllik, abadlıq yaradılır. Siz də bu yeri yaxşı xatırlayırsınız, mən də yaxşı xatırlayıram. İlk dəfə on il bundan əvvəl burada olmuşam. Görürsünüz, necə gözəl park yaradılıbdır. Əvvəl park yaradıldı, ondan sonra ulu öndərin abidəsi qoyuldu, bu dəfə də Elm Mərkəzinin açılışında iştirak edirik. Burada quraşdırılan texnika Azərbaycanın başqa heç bir yerində yoxdur. Siz onu bilirsiniz.

Azərbaycanın uğurlu inkişafı bax, bu yolla getməlidir və bu yolla gedir: hər bir rayonun inkişafı, hər bir kəndin abadlaşması. Əlbəttə, mən o sözləri yaxşı xatırlayıram, paytaxtdan uzaqda yerləşən rayonlara ən böyük diqqət göstərilməlidir, xüsusilə sərhəd rayonlarına. Qazax həm sərhəd rayonudur, həm də Bakıdan ən uzaqda yerləşən rayondur. Burada abadlıq, quruculuq, inkişaf sürətlə gedəndə, o deməkdir ki, bu, bütün Azərbaycanı əhatə edir. Hər bir rayonda özünə məxsus olan inkişaf var. Hər bir rayonda xüsusi proqramlar var və regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının icrası, demək olar ki, başa çatıbdır. Beşillik proqram başa çatıbdır. Orada nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapıbdır. Növbəti beş il üçün yeni proqram hazırlanacaq və orada daha geniş işlər nəzərdə tutulur.

İndi Qazaxı Bakı ilə birləşdirən avtomobil yolunun, demək olar ki, böyük hissəsi tikilib, az hissə qalıbdır. Yəni bütün bunlar rayonun inkişafına, hər bir vətəndaşın yaxşı yaşamasına xidmət göstərir. Bizim

vətəndaşlar bu gün yaxşı yaşamalıdır. Bilirsiniz ki, keçmişdə, Sovet İttifaqı zamanında deyirdilər ki, gəlin əziyyət çəkək, nə vaxtsa parlaq gələcək olacaqdır. Əlbəttə, biz öz strategiyamızı uzunmüddətli əsaslarla qurmuşuq və növbəti illərdə, 5-10 ildən sonra nə baş verəcək, onu bilirik. Ancaq mən istəyirəm ki, Azərbaycan vətəndaşları bu gün yaxşı yaşasınlar. Bax, bu gün gözəl tibbi xidmətdən istifadə etsinlər, uşaqlar yaxşı məktəblərdə oxusunlar, insanlar yaxşı işlə təmin olunsunlar, yaxşı maaş alsınlar. Bütün bu istiqamətlərdə bizim proqramlarımız var və onların təməlində iqtisadi islahatlar durur. Çünki bu olmasa, bunların heç birini etmək mümkün olmayacaqdı.

Əgər vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən neft strategiyası həyata keçirilməyə başlamasaydı, indi Neft Şirkətinin imkanı olmayacaqdı ki, belə gözəl bina tiksin, avadanlıqla təchiz etsin. Yəni bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Bizim bugünkü uğurlarımızın təməli 10-15 il bundan əvvəl qoyulmuşdur. Biz, sadəcə olaraq, yeni çağırışlara hazır olmaqla bu siyasəti davam etdiririk və Azərbaycanın hər bir bölgəsini müasirləşdiririk. İnfrastruktur, sosial, iqtisadi, sənaye və humanitar məsələlərin həlli – bütün bunlar kompleks şəkildə, əlbəttə, ölkənin uğurlu inkişafını təmin edəcəkdir. Bütün bunlara nail olmaq üçün ölkədə sabitlik, əmin-amanlıq necə varsa, elə də davam edəcəkdir. Xüsusilə indiki zəmanədə dünyada gedən proseslər artıq əvvəlki illərdən daha fərqlidir. Dünyada beynəlxalq davranış qaydaları bəzi hallarda pozulur. Beynəlxalq hüquq normalarına əməl edilmir. Yəni biz növbəti bir tarixi mərhələyə qədəm qoyuruq. Biz möhkəm olmalıyıq - həm müdafiə gücümüz, həm sabitlik, həm də inkişaf.

Azərbaycan özünü təmin edən ölkədir, başqa ölkələrin yardımından asılı deyildir. İstər iqtisadi baxımdan, istərsə də siyasi baxımdan biz müstəqil siyasət aparırıq, Azərbaycan xalqının iradəsinə əsaslanaraq müstəqil siyasət aparırıq. Müstəqil siyasət ən düzgün siyasətdir. Çünki bu siyasət öz xalqının maraqlarına xidmət göstərir. Belə olan halda, ölkə daha da güclənir. Bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Bunu həm biz deyirik, həm də bütün beynəlxalq maliyyə qurumları və sair deyir. Dörd il ərzində biz iqtisadi inkişaf baxımından birinci yerdəyik. Bu, böyük məsələdir. Biz, sadəcə, artıq buna bir növ öyrəşmişik. Hamıya da elə gəlir ki, belə də olmalıdır. Amma belə olmaya da bilərdi. Bugünkü reallıqların təməlində, bir daha deyirəm ki, 10-15 il bundan əvvəl başlanmış islahatlar və indiki uğurlu inkişafımız, konkret proqramlar və xalqla iqtidar arasında birliyin olması dayanır. Bütün bu amillər birlikdə bugünkü inkişafı təmin edir. Biz Qazax rayonunun timsalında bunu görürük. Rayon necə gözəlləşir, abadlaşır, burada necə gözəl binalar tikilir. Mən şübhə etmirəm ki, növbəti illərdə biz bu siyasətlə ölkəmizi daha da hərtərəfli inkişaf etdirəcəyik.

Mən bu işlərdə sizə və bütün qazaxlılara uğurlar arzulayıram və biz görüşəcəyik.

X X X

Azərbaycanın güləş üzrə yeniyetmələrdən ibarət yığma komandasının baş məşqçisi Firdovsi Umudov idmançılara yaradılan şəraitə görə dövlətimizin başçısına təşəkkür etdi və bildirdi ki, rəhbərlik etdiyi komanda Avropa çempionatına hazırlıq prosesini Qazax Olimpiya İdman Kompleksində keçmişdir. Bu da bölgələrdə idmanın inkişaf səviyyəsindən xəbər verir.

Sonra Prezident İlham Əliyevə rayon ictimaiyyəti adından xatirə hədiyyəsi, Qazaxda görülən abadlıq-quruculuq işlərini əks etdirən fotoalbom hədiyyə olundu.

AZƏRTAC
2008, 24 sentyabr

Qazaxda Dövlət Rəsm Qalereyası açılmışdır
(24 sentyabr 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də Qazax Dövlət Rəsm Qalereyasının açılışında iştirak etmişdir.

Burada Azərbaycan rəssamlarının 373 əsəri toplanmışdır. Rəsm qalereyasının əsası 1986-cı ildə qoyulsa da, binada yalnız bu il yenidənqurma işləri aparılmışdır. İndi o, şəhərin yaraşıqlı memarlıq nümunələrindən birinə çevrilmişdir.

Qalereya ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, hazırda sərgi salonunda 62 rəsm əsəri nümayiş etdirilir. Onların bir qismi Rəssamlar İttifaqının hədiyyəsidir. Tanınmış yerli fırça ustaları Nəcməddin Hüseynovun və Alyoş Abdullayevin əsərləri qalereyanın qiymətli eksponatlarından sayılır. Azərbaycanın xalq rəssamı Toğrul Nərimanbəyovun əsərinin isə ekspozisiyada xüsusi yeri var. Qalereyada uşaq rəsm dərnəyi də fəaliyyət göstərir.

X X X

Bununla da Azərbaycan Prezidentinin Qazaxa səfəri başa çatdı.

AZƏRTAC
2008, 24 sentyabr

Samux

2008, 3 mart

- Azərbaycan Prezidenti İlham Əliyevin Samux və Xanlar rayonlarına səfəri: "Samux şəhidləri" abidə kompleksini və Heydər Əliyevin abidəsini ziyarət
- İctimaiyyətin nümayəndələri ilə görüş
- Heydər Əliyev muzeyi ilə tanışlıq
- Şahmat məktəbinin açılışı
- "Az-Rus Dostluq" ASC-nin məhsulları MDB ölkələrinə də ixrac edilir
- "Universal NAA" MMC-nin ərzaq və meyvə-tərəvəz anbarları müasir tələblərə cavab verir

Azərbaycan Prezidenti İlham Əliyevin Samux və Xanlar rayonlarına səfəri
"Samux şəhidləri" abidə kompleksini və Heydər Əliyevin abidəsini ziyarət
(3 mart 2008-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Naftalan şəhərindən Samux rayonuna gəlmişdir.

Dövlətimizin başçısı əvvəlcə Heydər Əliyev parkına gələrək, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş samuxluların xatirəsinə tikilmiş "Samux şəhidləri" abidə kompleksinin önünə gül dəstəsi qoydu. Əbədi məşəlin alovlandığı kompleksdə qara mərmər üzərində 106 şəhidin adı həkk olunmuşdur.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin abidəsini ziyarət edərək, gül dəstələri qoydular.

5,3 hektar sahəsi olan parkda 200-dən çox müxtəlif növ ağac, gül kolları əkilmişdir. Parkın ən görkəmli yerində ulu öndərin əzəmətli, 8,5 metr hündürlükdə qranit abidəsi qoyulmuşdur.

Parkın mərkəzində müasir üslubda fəvvarə quraşdırılmışdır. İstirahət guşəsində Gənclik mərkəzi yaradılmışdır.

AZƏRTAC
2008, 4 mart

İctimaiyyətin nümayəndələri ilə görüş
(3 mart 2008-ci il)

Martın 3-də Prezident İlham Əliyev parkla tanışlıqdan sonra burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb səmimi söhbət etmişdir.

Nəbiağalı qəsəbə orta məktəbinin müəllimi QƏRİB MƏMMƏDOV Prezident İlham Əliyevi rayona gəlişi münasibətilə salamlayaraq dedi:

- Cənab Prezident, Samux rayonuna "Xoş gəlmisiniz!" Samux camaatının Sizə böyük inamı var! Biz inanırıq ki, Siz bütün məsələləri - həm siyasi, həm iqtisadi, həm də sosial məsələləri həll edəcəksiniz. Allah qoysa, o gün olsun ki, biz Qarabağı da azad edək, Sizinlə bir yerdə qələbəni bayram edək. Sizə daha böyük uğurlar arzulayıram. Bütün Samux camaatının, ictimaiyyətinin xoş arzularını Sizə çatdırıram.

Mehriban xanım, siz də "Xoş gəlmisiniz!" İcazə verin, sizi qarşıdan gələn 8 Mart qadınlar günü münasibətilə ağsaqqal müəllim kimi ürəkdən təbrik edim.

İLHAM ƏLİYEV: Sağ olun, mən də sizi ürəkdən salamlayırım. Bu gün buraya gəlmişəm ki, görüm işlər necə gedir, uğurlar necədir, hansı məsələlər həll olunmalıdır. Bütövlükdə, Azərbaycanın bütün bölgələrində işlər yaxşı gedir. O cümlədən də Samux rayonunda. Mənə məlumat verildi ki, burada işıq problemi həll olunubdur. Təbii qazın verilməsi məsələsi həll edilir. Yeni kəmər çəkilibdir. İş yerləri açılır, yeni müəssisələr, zavodlar, fabriklər - bütün bunlar həm rayonu, həm də ki, Azərbaycanı inkişaf etdirir. Bizim regionlarımızda çox böyük potensial, böyük imkanlar var. Biz gərək onlardan maksimum dərəcədə faydalanaq, səmərəli şəkildə istifadə edək. Elə edək ki, insanların həyat səviyyəsi günü-gündən yaxşılaşsın. Samuxda da işlər yaxşı gedir və insanları narahat edən məsələlər gələcəkdə öz həllini tapacaqdır. İndi demək olar ki, ölkəmizdə elektrik enerjisi problemi həll edilib, qazın verilməsi məsələsi həll olunur. Bu vaxta qədər qazlaşdırılmayan rayonlara qaz xətləri çəkilir.

İndi qarşımızda duran əsas vəzifə və məsələ əhalini içməli su ilə təmin etməkdir. Bu problem, demək olar ki, bütün rayonlarda var. O cümlədən Bakıda da var. Bakının tələbatını ödəmək üçün böyük boru kəməri çəkilir. Rayonlarda isə proqram hazırlanır və yəqin ki, yaxın zamanlarda lazımi göstərişlər veriləcəkdir. Biz içməli su, kanalizasiya və meliorasiya məsələlərini həll etsək, demək olar ki, əsas infrastruktur məsələləri öz həllini tapacaqdır. Yollar, elektrik stansiyaları, qaz xətləri - bütün bunlar insanların normal yaşaması üçündür. İş yerləri açılır. Mən bilirəm ki, burada böyük istehsal sahələri yaradılıb və orada işləyən insanlar yaxşı maaş alırlar. İşsizlik, demək olar ki, aradan qaldırılır. Mən bilirəm, işləmək istəyən iş tapar. İndi nə qədər imkanlar var, nə qədər inşaat işləri gedir, nə qədər müəssisələr, fabriklər yaradılıbdır. 600 mindən çox yeni iş yeri yaradılıb və növbəti illərdə işsizlik tamamilə aradan qaldırılacaqdır. İstisna olunmur ki, gələcəkdə xaricdən Azərbaycana işləmək üçün insanlar gələcəklər. Artıq bunun ilkin əlamətlərini biz görürük və artıq var. Mən bu məqsədlə bir müddət bundan əvvəl miqrasiya xidməti yaratdım.

Yəni xaricdən gələn işçi qüvvəsi Azərbaycanda qeydiyyata düşsün və biz bu prosesi tənzimləyək.

Azərbaycanın qarşısında çox gözəl perspektivlər, imkanlar var, ölkəmiz güclənir, möhkəmlənir. Gərək bütün rayonlar, kəndlər inkişaf etsin. Regionların sosial-iqtisadi inkişafına dair növbəti Dövlət proqramı hər bir kəndin problemini həll edəcəkdir. Yerli icra orqanları da bunu bilir, o proqramda hər bir məsələ öz həllini tapacaq, insanları narahat edən məsələ qalmayacaqdır. Bizim imkanımız var, gücümüz, maliyyə resurslarımız var, büdcəmiz ildən-ilə artır.

Sizə də mən öz səmimi duyğularımı ifadə etmək istəyirəm və ilk dəfədir ki, Samux rayonuna gəlmişəm. İstəyirəm ki, burada hər şey yaxşı olsun, yaxşı yaşayasınız.

QƏRİB MƏMMƏDOV: Çox sağ olun, Siz bizim Prezidentimizsiniz və əbədi Prezidentimiz olacaqsınız. Deputatımız da yaxşı işlər görür.

İLHAM ƏLİYEV: Valeh Ələsgərov yaxşı işləyir. Həm deputatlar, həm də icra nümayəndələri bir komanda kimi işləməlidir. Bu, Azərbaycanda var. Həm deputat öz vəzifə borcunu yerinə yetirməlidir, həm icra hakimiyyəti başçısı, həm də Prezident. Biz hamımız ona görə işləyirik ki, xalqa xidmət edək. Bu, əsas məsələdir. Biz xalq üçün işləməliyik və işləyirik. Bu, böyük bir məsuliyyətdir. Hər bir vəzifəli şəxsin məsuliyyəti bundan ibarətdir. O adamı ki, onu xalq seçib və yaxud xalq tərəfindən seçilmiş Prezident onu təyin edib, o, xalqa xidmət etməlidir. Deputatı siz seçmisiniz, inam göstərmisiniz və mən bilirəm ki, o, rayonda böyük işlər görübdür. İcra hakimiyyətinin başçısını mən təyin etmişəm. Siz mənə bu səlahiyyəti vermisiniz və ondan tələb edirəm ki, yaxşı işləsin. Mənim bildiyimə görə, yaxşı işləyir. İnsanların problemləri ilə məşğul olmalıdır. Ona görə o təyin edilibdir. Bilməlidir ki, hansı problem var, harada

çatışmayan məsələ var, ədalətsizlik var, nəyi etmək olar, nəyi yerli orqanlar edə bilər, nəyi dövlət etməlidir. Belə olsa, işlər yaxşı gedəcəkdir. Çünki bizim bütün sahələri əhatə edən proqramlarımız var. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı var, sənayeləşmə proqramı var. Gəncədə mən dünya miqyaslı zavodların təməlini qoydum. Onlar 2-3 ildən sonra işə düşəcək və minlərlə insan işləyəcək və 100 milyonlarla dollarlıq məhsul ixrac olunacaqdır. Təhsil proqramımız var, bütün rayonlarda, o cümlədən Samux rayonunda məktəblər tikilir. Bəli, həm dövlət xətti ilə, həm də Heydər Əliyev Fondunun dəstəyi ilə. Heydər Əliyev Fondu bu təşəbbüsü qaldırmışdır. Bir müddət bundan əvvəl biz də bu təşəbbüsə qoşulduq və həm indi dövlət xətti ilə, həm Heydər Əliyev Fondunun xətti ilə işlər görülür.

Burada idmançıları görürəm. İdman sahəsində proqram var, bütün bölgələrdə müasir idman kompleksləri tikilir. Səhiyyə sahəsində proqram var, xəstəxanalar tikilir. Ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün böyük proqram qəbul etmişik. Nəqliyyat proqramı var. Bakıdan Gürcüstan, İran və Rusiya sərhədinə qədər yeni avtomobil yolları çəkilir. Eyni zamanda şəhərlərarası yollar çəkilir. Hər bir sahədə bu proqramlar var və onların maddi əsası var. Elə deyil ki, gözəl ideya kimi bəyan etdik və yaxud da şüar kimi qaldı kağızda. Yox. Nəyi yazmışıqsa, onu da edirik. Bunun üçün, əlbəttə ki, dövlət orqanları çalışmalıdır, yerli icra orqanları, fəallar, deputatlar, ağsaqqallar və cavanlar çalışmalıdırlar. Bax, bu yolla ölkəmiz irəli getməlidir və belə də gedəcəkdir.

Bu gün Azərbaycan bölgədə ən qabaqcıl ölkədir. Bunu biz də bilirik, beynəlxalq qurumlar və başqa ölkələr də etiraf edirlər. Nəyin hesabına buna nail olmuşuq? Öz gücümüzün hesabına. Kim bizə kömək edir? Başqa keçmiş sovet respublikalarından fərqli olaraq, müstəqilliyimizin ilk illərindən biz heç kimdən ciddi yardım almamışıq. Bizim qonşularımıza daha çox yardım etmişlər, nəinki bizə. İndi də belədir. Bunun səbəbləri var. İstəmirəm bu barədə danışım, hamı bilir nə üçün. Amma bizə heç lazım da deyil. Lazım gələndə, biz özümüz kiməsə kömək edə bilərik və edirik. Biz ancaq öz gücümüzə, Azərbaycan xalqının iradəsinə, dövlət siyasətinə, müstəqilliyimizə və müstəqillik hüquqlarımıza istinad etməliyik. Biz müstəqil xalq kimi, dövlət kimi inkişaf edirik və dünyada Azərbaycan kimi inkişaf edən ikinci ölkə yoxdur. Bir il yox, dörd il ərzində! Dörd ildə iqtisadiyyat iki dəfə artıb. Heç bir yerdə bu yoxdur və tarixdə də olmayıbdır. Bu, reallıqdır. İqtisadi islahatlar, siyasi islahatlar, sosial məsələlərin həlli artıq elə həddə çatıbdır ki, indi onlar görülübdür. Siyasəti başlayanda, hansısa iqtisadi proqramı başlayanda, bir müddət lazımdır ki, o işlər görülsün. Bu gün şəhərlərin abadlaşmasında, qaz xətlərinin çəkilməsində, məktəblərin tikintisində bunu görürük. Elə etməliyik ki, bu yüksək sürət azalmasın, bu sürətlə irəliyə gedək və insanları narahat edən bütün problemləri həll edək. Bu işdə hamımız birlikdə olmalıyıq, bir nöqtəyə vurmalıyıq və belə də olacaqdır.

VİLYAM HACIYEV (rayon icra hakimiyyətinin başçısı):

- Cənab Prezident, çox sağ olun! Öz minnətdarlığımızı bildiririk. İcazə verin, samuxlular sizinlə xatirə şəkli çəkdirsinlər.

Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə xatirə şəkli çəkdirdi.

AZƏRTAC
2008, 4 mart

Heydər Əliyev muzeyi ilə tanışlıq
(3 mart 2008-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Samux rayonunun mərkəzində Heydər Əliyev muzeyi ilə tanış olmuşdur.

2007-ci ildə istifadəyə verilmiş və sahəsi 160 kvadratmetr olan muzey ekspozisiya və konfrans salonlarından, üç xidməti otaqdan ibarətdir. Ekspozisiya salonunda Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotoşəkillər toplanmış, kompyuter avadanlığı qoyulmuşdur.

Binanın arxasında 700 kvadratmetr sahədə xiyaban salınmışdır.

Prezident İlham Əliyev muzeydə ulu öndərin həyat və fəaliyyəti ilə bağlı filmə baxdı, xatirə kitabına ürək sözlərini yazdı.

Dövlətimizin başçısı rayonun dünənini və bu gününü əks etdirən fotostendlə, eləcə də Samuxun qaz təchizatının sxemi və rayon ərazisindən keçən Şəmkir maşın kanalının baş planı ilə tanış oldu.

Prezidentə məlumat verildi ki, artıq rayona qaz verilir və əhalinin bu sarıdan ciddi problemi yoxdur.

AZƏRTAC
2008, 4 mart

Şahmat məktəbinin açılışı

(3 mart 2008-ci il)

Prezident İlham Əliyev martın 3-də, Samux rayon mərkəzində Şahmat məktəbinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısını binanın önündə məktəblilər hərarətlə qarşıladılar. Prezident İlham Əliyev məktəbin rəmzi açılışını bildirən lenti kəsdi. 2007-ci ildə tikilib istifadəyə verilən bu məktəbdə təcrübəli müəllimlərin köməyi ilə 60-a yaxın uşaq qədim oyunun sirlərinə yiyələnəcəkdir.

Məktəbdə ulu öndərin və Prezident İlham Əliyevin Azərbaycan idmanına göstərdiyi qayğını əks etdirən fotoguşələr yaradılmışdır.

Dövlətimizin başçısı gənc şahmatçıların oyununu izlədi və onlara uğurlar arzuladı.

AZƏRTAC
2008, 4 mart

"Az-Rus Dostluq" ASC-nin məhsulları MDB ölkələrinə də ixrac edilir

(3 mart 2008-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Samux rayonunda "Az-Rus Dostluq" Açıq Səhmdar Cəmiyyətində olmuşdur.

Burada dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyevə məlumat verildi ki, 2002-ci ildən fəaliyyət göstərən müəssisənin 40 hektar sahəsi var. Tikinti işlərinə 3 milyon manat investisiya qoyulmuşdur. Tərəvəz məhsulları yetişdirilən istixana kombinatının 19 hektar əkin sahəsi var. Hazırda onun 7 hektarından istifadə olunur, ildə 600 ton pomidor və xiyar istehsal edilir. Bu məhsullar respublikanın şəhər və rayonlarına göndərilir, habelə MDB ölkələrinə ixrac olunur. Hazırda burada 600 nəfər işçi çalışır və gələcəkdə onların sayının 1000 nəfərə çatdırılması planlaşdırılır. Orta aylıq əmək haqqı 350 manat təşkil edir.

Dövlətimizin başçısı kombinatın fəaliyyətini əks etdirən fotostendə, məhsul və şitil yetişdirilən sahələrə baxdı, işçilərlə görüşdü. Müəssisənin kollektivi ölkədə yeni istehsal sahələrinin yaradılmasına görə Prezidentə minnətdarlıqlarını bildirdilər.

Prezident İlham Əliyev istixana şəraitində məhsul becərməyin çətinliyini vurğulayaraq, kollektivin əmək haqqının yüksək olmasının zəruriliyini bildirdi və keyfiyyətli məhsul yetişdirməyi tövsiyə etdi.

AZƏRTAC
2008, 4 mart

“Universal NAA” MMC-nin ərzaq və meyvə-tərəvəz anbarları müasir tələblərə cavab verir
(3 mart 2008-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Samuxda “Universal NAA” Məhdud Məsuliyyətli Cəmiyyətinin ərzaq və meyvə-tərəvəz saxlanılan anbarları ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, burada 25 min ton məhsul saxlamaq mümkündür. Müasir avadanlıq quraşdırılmış, kameralarda xüsusi soyutma sistemləri vasitəsilə istənilən temperaturu yaratmaq olur.

Prezident İlham Əliyev belə anbarlara ehtiyac duyulduğunu, hazırda ölkədə ərzaq təminatı ilə bağlı heç bir problemin olmadığını vurğuladı.

Dövlətimizin başçısı anbarların işə düşməsini bildirən düyməni basdı.

Bununla da Prezident İlham Əliyevin Samux rayonuna səfəri başa çatdı.

AZƏRTAC
2008, 4 mart

Şəmkir

2004, 15 iyun

- Şəmkirlilər ən çətin dövrlərdə Azərbaycan dövlətçiliyinə arxa-dayaq olmuşlar: Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

2006, 1 noyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Şəmkir rayonuna səfəri: Şəmkir şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət
- Heydər Əliyev Muzeyinin açılışı
- Şəmkir-Qazax avtomobil yolunun açılışı
- Akademik Zərifə xanım Əliyevanın abidəsini ziyarət
- "Şəmkir Quşçuluq" fabriki istifadəyə verilmişdir
- Füzuli qəsəbəsindəki orta məktəblə tanışlıq
- Şəmkirdə Olimpiya İdman Kompleksinin təməli qoyulmuşdur: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Şəmkirlilər ən çətin dövrlərdə Azərbaycan dövlətçiliyinə arxa-dayaq olmuşlar

(15 iyun 2004-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 15-də Tovuzdan Şəmkir rayonuna gəldi.

Prezident İlham Əliyev əvvəlcə şəhər stadionuna gəldi. İcra hakimiyyətinin başçısı Aslan Aslanov rayon idmançılarının nailiyyətlərindən danışdı. Sonra Azərbaycan rəhbəri futbol meydanı ilə tanış oldu.

Prezident İlham Əliyev rayon sakinləri qarşısında çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Əziz şəmkirlilər!

Əziz bacılar və qardaşlar!

Sizi ürəkdən salamlayıram. Bu gün gözəl bayramdır - Milli Qurtuluş bayramıdır. Biz bu bayramı birlikdə qeyd edirik.

Mən bu bayramı bu gün səhər Gürcüstanda yaşayan soydaşlarımızla birlikdə qeyd etməyə başladım. Mən çox şadam ki, orada yaşayan azərbaycanlılarla görüşüm olubdur və bu görüş çox gözəl keçibdir. Ondan sonra bu bayramı Qazaxda, Ağstafada, Tovuzda, indi də Şəmkirdə sizinlə birlikdə keçirirəm. Doğrudan da, bu, böyük bayramdır. Xalqımızın ümummilli lideri Heydər Əliyev on bir il bundan əvvəl xalqın tələbi ilə Azərbaycana hakimiyyətə qayıtmışdır. Məhz o dövrdən sonra Azərbaycan bütün sahələrdə uğurla inkişaf etməyə başlamışdır. Azərbaycanda demokratik cəmiyyət yaranmışdır. Azərbaycan dünya birliyinə layiqli üzv olmuşdur. Ümummilli liderimiz, Ali baş komandan Heydər Əliyevin bilavasitə rəhbərliyi nəticəsində Azərbaycanda güclü ordu yaradılmışdır. Bu ordu qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir.

Neft strategiyası uğurla davam edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa edilir. Demək olar ki, işlərin böyük əksəriyyəti görülübdür. Bu kəmər istismara veriləndən sonra Azərbaycana böyük həcmdə maliyyə axını gələcəkdir. Bu bizə imkan verəcək ki, ölkəmizi hərtərəfli inkişaf etdirək, mövcud olan sosial problemləri həll edək. Ümumiyyətlə, Azərbaycanı gücləndirək, Azərbaycanı qüdrətli dövlətə çevirək.

Bu 10-11 il ərzində bütün sahələrdə böyük işlər görülübdür. İndi Azərbaycan öz inkişaf dövrünü yaşayır. Azərbaycanda regional inkişaf Proqramı həyata keçirilir və mən çox şadam ki, qısa müddət ərzində böyük həcmdə iş yerləri açılıbdır. İş yerlərinin açılması bizim prioritet məsələmizdir. Bütün bölgələrdə, hər bir qəsəbədə, kənddə insanlar gərək işlə təmin olunsunlar. İşsizlik aradan qaldırılmalıdır. Yoxsulluq aradan qaldırılmalıdır. Mən əminəm ki, biz qarşımızda duran bütün məqsədlərə çatacağıq.

Mən seçkilərdən əvvəl Şəmkirdə olmuşdum, şəmkirlilərlə görüşmüşdüm. Mən o görüşü çox yaxşı xatırlayıram. O gözəl sözləri, mənə olan ümidləri xatırlayıram. Mən çalışıram ki, bütün ümidləri doğruldum. Çalışıram ki, öz fəaliyyətimlə, əməyimlə doğma xalqımıza ləyaqətlə xidmət edim.

Əziz şəmkirlilər, mən sizi bir daha ürəkdən salamlayıram. Siz bütün dövrlərdə Azərbaycanın dövlətçiliyinə xidmət etmisiniz. Azərbaycanımızın, dövlətimizin müstəqilliyini gücləndirmisiniz. Azərbaycanın ən çətin dövrlərində şəmkirlilər Azərbaycan dövlətçiliyinə dayaq, arxa olmuşlar. Bunu bütün Azərbaycan bilməlidir. Burada yaşayan insanlar çox zəhmətkeş, əməksevər, vətənpərvər insanlardır. Mən sizə öz dərin hörmətimi, dərin məhəbbətimi bildirirəm.

Mən indi bu şəhərdən keçərkən gördüm ki, müxtəlif yerlərdə tikinti gedir. Bu, uğurun ən başlıca şərtidir, amilidir. Harada tikinti, yaradıcılıq, quruculuq, abadlıq işləri gedirsə, o bölgə inkişaf edir. Bu məni çox sevindirir. Çox istəyirəm ki, gözəl, böyük zövqlə yeni binalar tikilsin, müəssisələr tikilsin. Belə idman obyektləri tikilsin.

Bilirsiniz ki, mən idmana artıq yeddi ildir ki, rəhbərlik edirəm və çox şadam ki, idman sürətlə inkişaf edir. Son dövrdə futbolda da dönüş yaranıbdır. Azərbaycanın milli futbol komandası artıq çox uğurla çıxış edir, qələbələr qazanır. Çox güclü komandalarla yüksək səviyyədə oynayır. Bu, onu göstərir ki, iş olan yerdə nəticə də olur. Əminəm ki, bu gün burada oynayacaq futbolçular da, – mən onların hamısına qələbə arzulayıram, – Azərbaycanımızı, doğma Vətənimizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil edəcəklər.

Sizi bu bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, səadət arzulayıram.

Sağ olun.

X X X

Şəmkir şəhər sakini Prezident İlham Əliyevə müraciətlə dedi:

- Əziz Prezidentimiz İlham Əliyev!

Əziz Mehriban xanım!

Rayonumuza xoş gəlmisiniz! Mən Sizinlə fəxr edirəm. Ona görə ki, 34 il ərzində respublikaya quruculuq, abadlıq, tikinti işlərini sizin qayınatanız, İlham müəllimin atası bəxş etmişdir. Mən fəxr edirəm ona görə ki, onun yurdunda belə oğul böyüyür, belə lider böyüyür. "Zər qədrini zərgər bilər" deyirlər. Yəni bizim qədrimizi o bilirdi, onun layiqli davamçısı bilir. Başqa heç kəs bizim qədrimizi bilə bilməz. Mən Sizə uzun ömür, cansağlığı, tutduğunuz bu yüksək vəzifədə böyük nailiyyətlər, uğurlar arzulayıram. Biz Sizinlə fəxr edirik. İngilis dilində xaricdə danışanda hamımız deyirik ki, Allah, sən onu bədnəzərdən qoru. O, bizim üçün, gələcəyimiz üçün, bu günümüz, sabahımız üçün lazımdır. Atanız respublikamızın bugünü, gələcəyi, sabahı üçün ömrünü şam kimi əritdi. Allahdan diləyim odur ki, Siz daim yaşayıb-yaradasınız. Sizinlə fəxr edirik. Bu gün Şəmkirə ikinci bir bayram bəxş etdiniz.

Allah Sizi həmişə bayramlı, toylu-büsatlı eləsin!

X X X

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 15-də axşamüstü Gəncə şəhərinə gəldi.

(Dövlətimizin başçısının Gəncəyə səfəri barədə geniş hesabat qəzetin növbəti nömrəsində dərc olunacaqdır).

AZƏRTAC
2004, 17 iyun

Azərbaycan Prezidenti İlham Əliyevin Şəmkir rayonuna səfəri
Şəmkir şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət
(1 noyabr 2006-cı il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 1-də Şəmkir şəhərində, ulu öndərin adını daşıyan prospektdə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etmişdir. Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.

Prezident İlham Əliyev burada salınmış Heydər Əliyev parkına baxdı, sakinlərin istirahəti üçün yaradılmış şəraiti, görülmüş abadlıq işlərini, prospekt boyu yaradılan səliqə-sahmanı yüksək qiymətləndirdi.

AZƏRTAC
2006, 3 noyabr

Heydər Əliyev Muzeyinin açılışı

(1 noyabr 2006-cı il)

Noyabrın 1-də Şəmkir şəhərində Heydər Əliyev muzeyinin açılışı olmuşdur.

Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.

Muzeyin direktoru Fəxri Yusibov dövlətimizin başçısına məlumat verdi ki, ümumi sahəsi 567 kvadratmetr olan ikimərtəbəli binanın birinci mərtəbəsində linqafon kabineti, inzibati otaqlar və arxiv yerləşmişdir. İkinci mərtəbədə isə iki ekspozisiya salonu və elektron kitabxana zalı vardır.

Heydər Əliyev Fondunun verdiyi tərtibat əsasında hazırlanmış ekspozisiyada ulu öndərin uşaqlıq və gənclik illərinə, milli təhlükəsizlik orqanlarında çalışdığı illərə, respublikamıza rəhbərliyinin hər iki dövrünə, Azərbaycanın yeni neft strategiyasının hazırlanması və həyata keçirilməsinə, ordu quruculuğu sahəsindəki fəaliyyətinə, xarici ölkələrə səfərlərinə aid fotoşəkillər, müxtəlif kitablar nümayiş etdirilir. Ulu öndərin həyat və fəaliyyəti ilə bağlı materiallar kompyuterlərin yaddaşına və disklərə yazılmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə muzeydə rayonun ən fəal gəncləri, məktəbliləri üçün xüsusi kurslar da açılacaqdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva rəssam Afaq Kərimovanın üzərində ulu öndərin ayrı-ayrı sahələr üzrə tarixi xidmətlərini nümayiş etdirən "Heydər Əliyev və Azərbaycan xilaskarı" adlı rəsm əsərinə maraqla tamaşa etdilər, muzeyin ekspozisiyasına, o cümlədən əbədiyaşar Prezidentin 1972, 1979, 1998 və 2000-ci illərdə Şəmkirə səfərlərini və burada keçirdiyi görüşləri əks etdirən fotoşəkillərə, ümummilli liderin xalq rəssamı Natiq Əliyev tərəfindən hazırlanmış büstünə baxdılar.

Prezident İlham Əliyev gənclərin bu cür muzeylərdən mərkəz kimi istifadə edərək, Heydər Əliyevin zəngin irsini öyrənməsinin əhəmiyyətli olduğunu bildirdi.

Dövlətimizin başçısı muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

AZƏRTAC
2006, 3 noyabr

Şəmkir-Qazax avtomobil yolunun açılışı

(1 noyabr 2006-cı il)

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 1-də Şəmkir-Qazax avtomobil yolunun açılış mərasimində iştirak etmişdir.

İnşaatçılar, tikinti şirkətlərinin nümayəndələri və sakinlər dövlətimizin başçısını və xanımını səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Nəqliyyat Nazirliyinin "Yolnəqliyyatservis" departamentinin sədri, Milli Məclisin deputatı Cavid Qurbanov avtomobil yolunun göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Dünya Bankının ayırdığı kredit hesabına çəkilən 2-ci texniki dərəcəli yolun örtüyü, əsasən asfalt-betondur. Yolun hərəkət hissəsinin eni 7,5 metrdir. 9 yeni körpü, 14 keçid salınmışdır. Layihə üzrə görülən işlərə 31,6 milyon ABŞ dolları xərclənmişdir. 603 min kubmetr çınqıl, 1 milyon 617 min kubmetr torpaq işləri görülmüş, yüzlərlə insan işlə təmin olunmuşdur.

Yolun ümumi uzunluğu 94 kilometrdir, 21 kilometri ötən ilin fevral ayında təhvil verilmişdir. 2001-ci ildə ulu öndərimiz tərəfindən təsdiq edilmiş sazişə əsasən, 2011-ci ildən başlayaraq qaytarmaq şərti ilə 35 illik güzəştli kredit hesabına Azərbaycan və Almaniya şirkətləri tərəfindən həyata keçirilir.

İLHAM ƏLİYEV: Deməli, bu yol Qazağa qədər gedəcəkdir, Qazaxdan Gürcüstan sərhədinədək olan hissənin layihəsi ayrıca hazırlanmışdır?!

CAVİD QURBANOV: Cənab Prezident, bu hissə Yevlax-Gəncə yolu layihəsinə daxil edilmişdir.

İLHAM ƏLİYEV: Yevlax-Gəncə və Qazax-Gürcüstan sərhədi.

CAVİD QURBANOV: Bəli. Bu yolların yenidən bərpa edilməsi nəzərdə tutulmuşdur.

İLHAM ƏLİYEV: Yol enlidir. Baxmayaraq ki, zolaqlıdır, amma enlidir. Məncə, o zolaqlar adi zolaqlardan bir az enlidir.

CAVİD QURBANOV: Sizə məruzə etmişdik. Sizin razılığınızla yolu genişləndirib hərəkət hissəsinin enini 9 metrə çatdırdıq. Yolun yatağı isə 15 metrdir, ancaq 9 metr enində asfaltlanmışdır. Bəzi yerlərdə asfaltın qalınlığı 22-25 santimetrdir.

İLHAM ƏLİYEV: Yəni, bütün yük maşınlarının ağırlığına davam gətirəcəkdir.

CAVİD QURBANOV: Ümumiyyətlə, bu yol demək olar, intensiv şəraitdə tikilibdir. Son üzlük asfaltın döşənməsindən əvvəl burada maşınlar hərəkət edirdi. İnanıram ki, bu yol keyfiyyətlidir.

İLHAM ƏLİYEV: Çox yaxşı. İndi bütövlükdə Bakı-Gürcüstan sərhədi yolunun tikintisi nə vəziyyətdədir, başqa hissələrdə işlər gedir, yoxsa yox?

CAVİD QURBANOV: Cənab Prezident, Hacıqabuldan Kürdəmirədək olan təxminən 86 kilometrlik məsafədə tikinti işləri gedir. Bu işi İtaliya və Azərbaycan şirkətləri görür. Sizin tapşırığınızla yol bütün şəhərlərdən kənar keçir. Ona görə də həmin hissədə yol 10 kilometr uzanmışdır.

İLHAM ƏLİYEV: Əlbəttə, magistral yol şəhərə girməməlidir. Kim istəyir, şəhərə başqa yolla gedə bilər.

CAVİD QURBANOV: Artıq Ucar-Yevlax arasındakı məsafənin çəkilişi ilə əlaqədər iştirakçı firmalar seçilibdir.

İLHAM ƏLİYEV: Hələ orada tikinti getmir?

CAVİD QURBANOV: Allah qoysa, bu ilin dekabrında başlanacaqdır.

İLHAM ƏLİYEV: Yevlax-Gəncə layihəsinə isə yenidən baxacaqsınız.

CAVİD QURBANOV: Bəli, yenidən baxırıq, layihənin icrasına gələn ilin fevral-mart aylarında başlanacaqdır.

İLHAM ƏLİYEV: Elə edin ki, eni kifayət qədər olsun. Bütövlükdə, gələcəkdə ikizolaqlı yolu gərək genişləndirək. O vaxt layihə hazırlananda, nədənsə, Bakı-Hacıqabul yolu dördzolaqlı, Hacıqabul-Gürcüstan sərhədi ikizolaqlı nəzərdə tutulurdu. Elədir?

CAVİD QURBANOV: Bəli.

İLHAM ƏLİYEV: İndi hərəkətin intensivliyi, yük daşımaları artır. Bəlkə də, gələcəkdə dördzolaqlı yol da bəs etməyəcəkdir. Gərək bunun üzərində də işləyək.

CAVİD QURBANOV: Sizin tapşırığınızla biz artıq bunun layihələşdirilməsi ilə məşğuluq. Nəqliyyat Nazirliyində bu məsələyə baxılır. Bütün yolboyu, yəni Bakıdan Qazaxadək olan 501 kilometrlik məsafənin ikinci zolağı yenidən işlənir.

İLHAM ƏLİYEV: Bəli, Bakıdan Hacıqabula qədər artıq bu var. Düzdür, Bakı-Ələt yolu hələ ki, bir az yubanır. O nədən yubanır? Axı bu, Bakıya ən yaxın olan hissədir.

CAVİD QURBANOV: Cənab Prezident, həmin yol əvvəllər ümummilli liderimizin tapşırığı ilə tikilmişdir və eni 50 metrdir. Onun təkcə bir zolağının eni 11 metrdir.

İLHAM ƏLİYEV: Bəli, çox genişdir.

CAVİD QURBANOV: Ancaq tikinti daxili investisiyanın hesabına olduğundan oraya pul ayrılmırdı. Sizin tapşırığınızla gələn il bu yol üçün 10 milyon manat ayrılmışdır.

İLHAM ƏLİYEV: Bu, kifayət edəcək?

CAVİD QURBANOV: Yəqin ki, kifayət edəcəkdir.

İLHAM ƏLİYEV: O yol da bu səviyyədə olmalıdır. Bundan aşağı səviyyədə olmamalıdır. Özü də Bakıya daha yaxındır. Bakıdan rayonlara gedən əsas yol oradandır. Səngəçal terminalına, ondan sonra başqa rayonlara - biri cənub, digəri qərb istiqamətinə ayrılır. Amma çalışın ki, o yol yaxşı vəziyyətdə, yüksək səviyyədə olsun. Ortada olan zolaq isə enlidir. Vaxtilə hansısa məqsədlər üçün belə tikilibdir. Bəlkə də oradan sovet vaxtında tank keçməli idi. O qala bilər və heç bir maneçilik törətmir.

CAVİD QURBANOV: Həmin yol 1980-ci illərdə tikilibdir. Biz hamımız Rafiq Xələfovun tələbələriyik. O vaxt ondan soruşmuşdum. Deyirdi ki, o yolun tikintisi ilə bağlı ulu öndər Heydər Əliyevə müraciət edəndə tapşırmışdı ki, yolu enli tikin. Çünki Bakıya yaxındır. Ulu öndər bunu uzaqgörənlik edib ehtiyat kimi enli tikdirmişdir.

İLHAM ƏLİYEV: İndi ortada olan torpaq zolağını da bəlkə yola qataq?

CAVİD QURBANOV: Cənab Prezident, mümkündür.

İLHAM ƏLİYEV: Bunu etsək, haradasa, 6 zolaqlı yol olacaqdır.

CAVİD QURBANOV: Bəli. Cənab Prezident, Sizin tapşırığınızla Bakı dairəvi yolunun layihəsi hazırlanıb, bir ay, ayyarımdan sonra tikintisinə başlanacaqdır. Həmin yol altızolaqlıdır. Əgər bu altızolaqlıdırsa, davamı kimi dördzolaqlı Ələt yolunu da ona bərabərləşdirmək olar.

İLHAM ƏLİYEV: Bəli, ortada olan torpaq hissəni yol etmək olar. İndi bizim bu qədər imkanımız var. Xüsusilə yol tikintisinə böyük vəsait ayrılır. Gələn il də nəzərdə tutulubdur. Yol Fondu da yaradılıbdır. Bizə imkan verəcək ki, bu işləri çevik şəkildə tənzimləyək.

X X X

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi. İnşaatçılarla, tikintidə iştirak edən xarici və yerli şirkətlərin nümayəndələri ilə görüşüb, onları təbrik etdi. Dövlətimizin başçısı dedi:

- Azərbaycanda bütün yollar ən yüksək səviyyədə olmalıdır. Dünyada harada ən yüksək səviyyədə yol varsa, Azərbaycanda da o yoldan olmalıdır. Mənim tələbim budur. Yaxşı da iş görürsünüz. Mən görürəm, keyfiyyətlidir. Düzdür, bu yolun keyfiyyətini, bəlkə, 2-3 ildən sonra dəqiq biləcəyik. Əgər burada hər şey yaxşı olsa, mən sizi tapıb bir daha təşəkkürümü bildirəcəyəm. Əgər pis olsa, onda gərək gizlənəsiniz.

Dövlətimizin başçısı sonra inşaatçılarla xatirə şəkli çəkdirdi və avtomobili özü idarə edərək, yeni yolun açılışını etdi.

AZƏRTAC
2006, 3 noyabr

Akademik Zərifə xanım Əliyevanın abidəsini ziyarət
(1 noyabr 2006-cı il)

Prezident İlham Əliyev və xanımı həmin gün Şəmkir şəhərinin mərkəzində yerləşən və sakinlərin sevimli istirahət guşələrindən biri olan akademik Zərifə Əliyeva adına parka gəldilər. Burada görkəmli oftalmoloq alimin abidəsi də ucaldılmışdır. Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.

AZƏRTAC
2006, 3 noyabr

"Şəmkir Quşçuluq" fabriki istifadəyə verilmişdir

(1 noyabr 2006-cı il)

Prezident İlham Əliyev noyabrın 1-də "AtaHoldinq" şirkətlər qrupuna daxil olan "AtaSənaye" MMC-nin Şəmkir rayonunun Yeni Həyat kəndində yerləşən quşçuluq fabrikində olmuşdur.

"AtaHoldinq" ASC Müşahidə Şurasının sədri Əhməd Erentok, "AtaSənaye" MMC Müşahidə Şurasının sədri Fuad Kərimov, "Şəmkir quşçuluq" fabriki idarə heyətinin sədri Şahmar Məmmədov və müəssisənin işçiləri dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.

Əhməd Erentok müəssisə haqqında məlumat verərək bildirdi ki, ulu öndər Heydər Əliyev tərəfindən tikdirilən Şəmkir quşçuluq fabriki 1980-ci ildə istifadəyə verilmişdi. Azərbaycanın qərb zonasını məhsulla təmin edirdi. "AtaHoldinq" Şirkətlər qrupu 2004-cü ilin axırında müvafiq biznes plan əsasında layihə hazırlayıb, 2005-ci ilin fevral ayında fabrikin beynəlxalq standartlara uyğun yenidən qurulmasına başlamışdır. İndiyədək 5 milyon dollar sərmayə qoyulmuşdur, bütün işlərin başa çatmasına isə 10 milyon dollar xərclənəcəkdir. İşçilərin orta aylıq əməkhaqqı 280 manatdır.

Hazırda burada quraşdırılmış bütün avadanlıq Hollandiya və Türkiyənin ən qabaqcıl texnologiyalarına əsaslanır. Almaniya cinsli toyuqlar 60 qramlıq yumurta verir. Fabrikin istehsal etdiyi "Kənd" yumurtası, "Kənd" toyuğu ticarət brendi kimi Azərbaycanda çox yaxşı tanınır və yüksək keyfiyyətinə görə dərhal satılır. Burada ildə 30 milyon ədəd yumurta istehsal edilir. 2007-2008-ci ilə qədər bunun 100 milyon ədədə çatdırılması planlaşdırılır. Bundan əlavə, fabrikdə min ton toyuq əti istehsal etmək mümkündür.

Hazırda fabrikdə 110 nəfər işçi çalışır. Tam gücü ilə işə düşəndən sonra işçilərin sayı 300 nəfərə çatacaqdır. Müəssisənin fəaliyyəti ilə bağlı formalaşmış ticarət şəbəkəsində çalışanlar da nəzərə alınmaqla, iş yerlərinin sayı 700 olacaqdır.

Dövlətimizin başçısı müəssisənin istehsal sahələri, laboratoriyası ilə tanış oldu, məhsulun satışı və keyfiyyəti ilə maraqlandı. Məlumat verildi ki, heç bir problem yoxdur. Bakıda təşkil olunan yarmarkalara gündə 40 min ədəd yumurta göndərilir. Bu fabrik Prezidentin sahibkarlığın inkişafına göstərdiyi qayğının bariz nümunəsidir.

Müəssisə ilə tanışlıqdan xatirə olaraq, dövlətimizin başçısına hədiyyələr təqdim edildi.

AZƏRTAC
2006, 3 noyabr

Füzuli qəsəbəsindəki orta məktəblə tanışlıq

(1 noyabr 2006-cı il)

Prezident İlham Əliyev noyabrın 1-də, Şəmkirə səfərinin sonunda rayonun Füzuli qəsəbəsindəki şəhid İ.Əliyev adına orta məktəbə gəlmişdir.

Məktəbin pedaqoji kollektivi dövlətimizin başçısını və xanımını böyük hörmətlə, gül-çiçəklə qarşıladı.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ayrı-ayrı fənn kabinetlərinə, kompyuter və sinif otaqlarına baxdılar, yaradılan şəraitlə tanış oldular. Bildirildi ki, Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir etdirilmiş məktəbdə iki növbədə 373 şagird təhsil alır. Kompyuterlər internetə qoşulmuş, istilik sistemi yenidən qurulmuşdur.

Bildirildi ki, məktəbdə uşaqların xarici dil öyrənməsi üçün müasir avadanlıq var. Dövlətimizin başçısı bunu müsbət qiymətləndirərək dedi ki, gərək uşaqlar ingilis, rus dillərini bilsinlər, başqa dillər də vacibdir.

Bununla da Prezident İlham Əliyevin ölkəmizin Qərb bölgəsinə səfəri başa çatdı.

AZƏRTAC
2006, 3 noyabr

Şəmkirdə Olimpiya İdman Kompleksinin təməli qoyulmuşdur

(1 noyabr 2006-cı il)

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 1-də Şəmkir şəhərində, Bakı-Qazax yolunun kənarında Olimpiya İdman Kompleksinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.

Mərasimə toplaşmış rayon ictimaiyyətinin nümayəndələri, idmançılar dövlətimizin başçısını mehribanlıqla, hərarətli alqışlarla qarşıladılar.

Prezidentə Olimpiya İdman Kompleksi barədə ətraflı məlumat verildi. Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramında nəzərdə tutulmuş bu kompleksə idman oyunları, güləş, boks, ağır atletika və gimnastika salonları, idman meydançası, su hovuzu, iki tennis kortu, 30 yerlik mehmanxana və 73 yerlik yeməkxana, 2 min tamaşaçı yeri olan futbol stadionu, maşınlar üçün dayanacaq və birmərtəbəli kotteclər daxildir. Tikintisi iki il ərzində başa çatacaq kompleksin layihəsini Gənclər və İdman Nazirliyinin sifarişi ilə "Azərinşaatlayihə" institutu vermişdir.

Dövlətimizin başçısı "Bu kompleksin təməli 1 noyabr 2006-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulmuşdur" sözləri yazılmış vərəqi imzalayaraq, kapsulun içərisinə qoydu. Kapsul obyektin bünövrəsinə qoyuldu, dövlətimizin başçısı bünövrəyə ilk beton qarışığını tökdü, tikintiyə xeyir-duasını verdi.

Sonra təməlqoyma münasibətilə mərasim keçirildi. Azərbaycan Prezidenti mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

-Əziz şəmkirlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı Şəmkir Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimi münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bu gün təməlini qoyduğumuz kompleksin tikintisinə başlanır. Əminəm ki, qısa müddət ərzində çox gözəl, möhtəşəm idman qurğusu tikiləcəkdir. Burada ən yüksək dünya standartları tətbiq olunacaqdır. Bundan həm idmançılar, eyni zamanda, Şəmkir şəhərinin sakinləri də faydalanacaqlar. Burada ən böyük idman zalları, açıq meydançalar, üzgüçülük hovuzu, mehmanxana, digər müxtəlif idman infrastrukturu olacaqdır. Kompleks həm idmanın inkişafına, həm də, Şəmkir rayonunun hərtərəfli inkişafına öz töhfəsini verəcəkdir. Eyni zamanda, bu kompleksin xarici görünüşü də çox gözəldir, müasirdir. Mənim də göstərişim bundan ibarətdir ki, yeni tikilən bütün binalar, müəssisələr, obyektlər ən yüksək dünya səviyyəsinə cavab versin və xarici görünüşü də gözəl, müasir olsun.

Şəmkir rayonu da müasirləşir, gözəlləşir. Burada çoxlu abadlıq, quruculuq işləri görülür. Mən Şəmkir rayonunda dəfələrlə olmuşam və bu dəyişiklikləri də görürəm. Axırıncı dəfə iki il bundan əvvəl olmuşdum. O vaxtdan bu günə kimi çox böyük işlər görülübdür. Həm rayonun abadlaşması sürətlə gedir, eyni zamanda, çox önəmli obyektlər tikilir. Yeni müəssisələr, fabriklər yaranır, iş yerləri açılır, bununla bərabər, sosial infrastruktur da yeniləşir. Çoxlu məktəblər tikilir. Bu, çox vacibdir. Bilirsiniz ki, Azərbaycanda məktəb tikintisi çox geniş vüsət almışdır. Azərbaycanın hər bir rayonunda məktəb tikilir. Bu, bizim dövlət proqramımızdır. Qarşıya vəzifə qoyulmuşdur ki, Azərbaycanda yararsız vəziyyətdə olan bütün məktəblər 2008-ci ilə qədər ya əsaslı şəkildə təmir olunmalıdır, yaxud da yeni məktəblər tikilməlidir. Hər iki proqram uğurla icra edilir. Üç il ərzində 700-dən çox məktəbin tikilməsi bunun əyani göstəricisidir.

Bir sözlə, burada hərtərəfli inkişaf üçün bütün amillər var. Yeni iş yerləri açılır, şəhər abadlaşır, gözəlləşir, yeni yollar salınır, fabriklər açılır və sosial obyektlər də tikilir. Mən əminəm ki, Şəmkirdə bu idman kompleksinin tikilməsinin şəhər infrastrukturunun inkişafına çox böyük təsiri olacaqdır. Çünki burada beynəlxalq tədbirlər, respublika əhəmiyyətli çempionatlar keçiriləcək, buraya gələn qonaqlar gözəl mehmanxanada qalacaqlar. Bu, özlüyündə turizmin inkişafına və bütövlükdə Şəmkir rayonunun daha da inkişafına kömək edəcəkdir.

Bu gün Azərbaycan çox sürətlə inkişaf edir. Demək olar ki, Azərbaycanın bütün sahələri inkişafdadır. Bu inkişafın təməlində 1993-cü ildə Azərbaycanda başlanmış Heydər Əliyev siyasəti durur. Bu gün biz Heydər Əliyev muzeyinin açılışını etdik. Orada nümayiş etdirilən şəkillər bir daha göstərir ki, Şəmkir rayonuna ulu öndərin xüsusi münasibəti var idi. Heydər Əliyev həm 1970-ci illərdə, həm də artıq müstəqil Azərbaycanın Prezidenti kimi dəfələrlə Şəmkir rayonunda olmuş, buradakı problemlərlə məşğul

olmuş, öz göstərişlərini vermişdir. Rayonun inkişafında onun çox böyük əməyi var idi. Bu gün bu siyasət davam etdirilir. Mən Şəmkir rayonuna böyük diqqət göstərir, bu rayonun inkişafına çox böyük əhəmiyyət verirəm. Şəmkir Azərbaycanda çox strateji əhəmiyyətə malik rayondur, çox böyük sənaye, kənd təsərrüfatı, intellektual potensialı var. Şəmkirlilər bütün dövrlərdə Azərbaycanın inkişafına öz töhfələrini vermişlər. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə böyük töhfə vermişlər. Mən çox istəyirəm ki, rayon daha da sürətlə inkişaf etsin. Biz bu gün bunu görürük. Rayonun inkişafına dair xüsusi sərəncam da imzalanmış, əlavə vəsait də ayrılmışdır və yenə ayrılacaqdır.

Bilirsiniz ki, rayonların inkişafı son üç ildə bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Çünki Azərbaycanın hərtərəfli inkişafı məhz hər bir rayonun inkişafından başlayır. Azərbaycanda güclü iqtisadi potensial yaranır. Əlbəttə ki, sənaye və iqtisadi potensial baxımından hər bir ölkənin əsas şəhəri, yəni paytaxtı daha da çox fərqlənir. O cümlədən Azərbaycanda da belədir. Bu, lazımdır. Bakı şəhəri də inkişaf etməli, onun potensialı da güclənməlidir. Amma mən tam əminəm ki, ölkəmizin uğurlu inkişafı üçün, ilk növbədə, regionlar inkişaf etməlidir. Bunun bir neçə səbəbi var. Birinci səbəb ondan ibarətdir ki, rayonlarda, kəndlərdə yaşayan insanların həyat səviyyəsi yaxşılaşmalıdır. Kəndlə, rayonla böyük şəhərlər arasında fərq azalmalıdır. İnkişaf etmiş ölkələrdə bu fərq çox azdır və bəzi hallarda rəmzi xarakter daşıyır. Bu, özlüyündə ölkənin ümumi inkişafını göstərir. O ölkələrdə rayonlarla paytaxt arasında fərq böyükdür, həmin ölkələr o qədər də inkişaf etmiş ölkə sayıla bilməz. Əlbəttə ki, Azərbaycan indi özünü inkişaf etmiş ölkə kimi təqdim edə bilməz. Bunun üçün hələ çoxlu işlər görmək lazımdır. Ancaq biz bu yolda uğurla irəliləyirik. Rayonlarda, bölgələrdə müasir infrastrukturun yaranması, ən müasir sənaye müəssisələrinin, məktəblərin, xəstəxanaların tikintisi - bütün bunlar o fərqi azaldır.

Yeni yollar salınır. Məsələn, siz yaxşı bilirsiniz ki, Şəmkir-Qazax avtomobil yolu yenidən tikilmişdir. Bu yol Bakı-Qazax yolunun bir hissəsidir. O yol da uğurla tikilir və yəqin ki, gələn ilin sonuna qədər istismara veriləcəkdir. Beləliklə, Bakıdan Şəmkirə, Qazaxa və Gürcüstan sərhədinə çox rahat, ən yüksək səviyyəyə cavab verən avtomobil yolu ilə gəlmək mümkün olacaqdır. Bütün bunlar regionları inkişaf etdirir.

Digər tərəfdən, regionların inkişaf etdirilməsi ona görə önəmlidir ki, bu, böyük şəhərlərə miqrasiya meyillərini azaldır. Bütün böyük şəhərlərdə bu proseslər var. İnsanlar çalışırlar daha çox paytaxtlarda iş tapsınlar. Çünki orada həm şərait daha yaxşıdır, həm də iş tapmaq üçün daha böyük imkanlar var. Bu proseslər başqa ölkələrdə də gedir. Böyük şəhərlərə miqrasiya prosesi həm onların infrastrukturuna əlavə yükdür, eyni zamanda, regionlardan insan axınına gətirib çıxarır. Buna biz imkan verə bilmərik. Amma necə? Ancaq və ancaq rayonlarda yüksək şəraitin yaradılması ilə. Yollar çəkilməlidir və çəkilir. Şəmkir rayonunda da geniş yol tikintisi aparılır. Mən əlavə vəsait ayıracağam ki, kənd yollarına da asfalt döşənsin və insanlar kəndlərə də rahat gedə bilsinlər.

Bir müddət bundan əvvəl büdcədənkənar əlavə vəsait ayrılmışdı və ondan səmərəli istifadə olundu. Məktəb tikintisi, xəstəxanaların, idman qurğularının tikintisi, iş yerlərinin açılması davam edir. Mənə məlumat verilib ki, Şəmkirdə böyük quşçuluq fabriki yaradılıb, bu gün gedib baxacağam. Çox müsbət haldır, çox müsbət göstəricidir. Bir tərəfdən, insanlar işlə təmin edilir, işsizlik aradan qaldırılır, insanlar daha da yaxşı maaş alırlar. Digər tərəfdən də, Azərbaycanda yerli istehsal yaranır. Azərbaycan artıq bir sıra məhsullarla özünü təmin edən ölkədir. Çalışmalıyıq ki, gələcəkdə öz tələbatımızı maksimum dərəcədə Azərbaycanda istehsal olunan məhsullarla təmin edək və biz buna doğru gedirik. Ona görə də 2004-cü ilin fevral ayında regionların sosial-iqtisadi inkişafı dövlət proqramının qəbul olunması və uğurla icra edilməsi Azərbaycanın inkişafına çox böyük təkan vermişdir.

Biz indi işin, demək olar ki, ilkin mərhələsindəyik. İndi diqqətimizi Azərbaycan üçün ən böyük əhəmiyyət kəsb edən məsələlərə yönəltmişik. Yollar, elektrik stansiyaları tikilir, Azərbaycanda yeni elektrik stansiyalarının tikilməsi ilə biz nəinki öz tələbatımızı yüz faiz ödəyəcəyik, həm də gələcəkdə elektrik enerjisini ixrac edəcəyik. Qaz xətləri çəkilir, rayonlar qazlaşdırılır. Azərbaycanda qaz hasilatı artdıqca, bu iş daha da genişlənəcəkdir. İnsanları narahat edən digər problemlər də həll ediləcəkdir. Bir daha məktəb tikintisinə qayıtmaq istəyirəm. Azərbaycanda 4500 məktəb var. Təkcə üç il ərzində çox yüksək səviyyədə 700-dən artıq məktəb tikilib və hər bir məktəbdə kompyuter sinfi yaradılır. Uşaqlar yaxşı təhsil, bilik almalıdırlar.

Bizim iqtisadi imkanımız artır və bu bizi çox sevindirir. Bu onu göstərir ki, dövlət siyasəti düzgün istiqamətdə gedir. Son üç ildə büdcə gəlirlərimiz 4 dəfə artıbdır. Bu, bizim imkanlarımızı artırır. Ancaq eyni zamanda, ölkənin uğurlu inkişafı üçün ilk növbədə, insanlar bilikli, savadlı olmalıdırlar. Mən bu məsələyə çox böyük diqqət göstərirəm. Həm təhsil infrastrukturu yaxşılaşmalı, yəni məktəb tikintisi təmin

olunmalı, eyni zamanda, təhsilin keyfiyyəti yaxşılaşmalıdır. Gənc nəsil gərək dünyada gedən bütün proseslərdən xəbərdar olsun, bunu izləsin. Dünyada gedən proseslər, yeni texnologiyalar, yeni ixtiralar, elm sahəsində yeni nailiyyətlər - bizim uşaqlarımız bunu bilməli və çox savadlı, bilikli olmalıdırlar. Azərbaycanın uzunmüddətli inkişafını onlar təmin edəcəkdir.

Bizim təbii sərvətlərimiz var. Bu, bizim böyük xoşbəxtliyimizdir. Eyni zamanda, bizim böyük xoşbəxtliyimiz ondadır ki, bu təbii sərvətlərdən səmərəli istifadə edirik. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və bu gün uğurla icra edilən neft strategiyamız böyük tarixi nəticələrə gətirib çıxardı. Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verildi və bundan sonra uzun illər, onilliklər ərzində təbii sərvətlər, neft və qaz sərvətlərimiz Azərbaycanın iqtisadi inkişafını təmin edəcəkdir. Amma vaxt gələcək və onlar qurtaracaqdır. Çünki bunlar tükənən sərvətlərdir. Ondan sonra Azərbaycan necə yaşayacaq? 50 ildən, 70 ildən sonra ölkənin inkişafı nəyin hesabına olacaq? Biz indidən bu barədə düşünürük. Bizim siyasətimiz həm qısamüddətli, həm də uzunmüddətli məsələlərə yönəldilibdir. Qısamüddətli məsələlər öz həllini tapır. Bizim iqtisadi islahatlarımız, büdcə gəlirlərinin artımı, Neft Fondunun uğurlu fəaliyyəti, neft sahəsində görülən işlər, iqtisadi islahatlar, sahibkarlığın inkişafı, Dövlət İnvestisiya Şirkətinin yaranması, kreditlərin verilməsi, "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması, - onun vasitəsilə kəndlilərə texnika və gübrə verilir, - bütün bunlar qısamüddətli proqramlardır. O cümlədən, elektrik stansiyalarının, qaz xətlərinin tikintisi - bunlar qısa müddət ərzində, 4-5 il ərzində ölkənin bütün əsas tələbatlarını ödəyəcəkdir.

Ancaq biz gərək gələcəyə baxaq. Gərək baxaq ki, 10 ildən, 20 ildən sonra nə olacaq, indidən bunu planlaşdıraq. İndidən bütün uzunmüddətli strategiyamızı müəyyən edək ki, ölkə məqsədyönlü şəkildə inkişaf etsin. Bu gün biz bu məsələlər üzərində işləyirik, bu barədə fikirləşirik. Ölkənin geniş inkişaf konsepsiyası hazırlanır və demək olar ki, onun ilkin konturları görünməkdədir.

Azərbaycan artıq güclü dövlətdir. Regionda söz sahibidir, aparıcı dövlətdir. Bunu təkcə biz yox, regionla məşğul olan bütün təşkilatlar, böyük ölkələrin mötəbər dairələri də təsdiq edir ki, Azərbaycan bölgədə lider dövlətdir. Bölgədə heç bir məsələ bizim razılığımız olmadan həll oluna bilməz. Bölgədə Azərbaycanın iştirakı olmadan regional əməkdaşlıq çərçivəsində heç bir məsələ həll edilə bilməz. Biz nəinki bütün layihələrin iştirakçılarıyıq, eyni zamanda, bir çox layihələrin təşəbbüskarıyıq. Yəni bizim gücümüz, siyasi çəkimiz artır. Əlbəttə, bundan istifadə edib ölkəni daha da inamla, daha da sürətlə inkişaf etdirmək olar.

Xarici siyasətimiz açıqdır, proqnozlaşdırılandır və Azərbaycan xalqının iradəsinə əsaslanır, onun maraqlarının tam şəkildə müdafiə olunmasına yönəldilibdir. Daxili siyasətimiz də açıqdır və aydındır. Bu da ondan ibarətdir ki, insanlar daha da yaxşı yaşasınlar. İnsanları narahat edən problemləri aradan qaldıraq. Hər yerdə, hər bir bölgədə, hər sahədə və bütün ölkələrdə problem var. Elə ölkə yoxdur ki, orada problem olmasın. Hətta iqtisadi, siyasi və bütün başqa cəhətlərdən ən inkişaf etmiş ölkələrdə də kifayət qədər problemlər var.

Əsas məsələ ondan ibarətdir ki, dövlət bu problemlərə necə münasibət göstərir. Başqa yerlərdə, ölkələrdə bəzi hallarda dövlət bu məsələlərə biganə qalır. O dövlətin və o iqtidarın ömrü uzun ola bilməz. O ölkələrdə ki, dövlət insanların və ölkənin problemlərini özü üçün prioritet kimi görür, orada uzunmüddətli inkişaf da olur.

Azərbaycanda uğurlar çoxdur. Müstəqilliyin əldə edilməsindən, demək olar, 2-3 il sonra Azərbaycan inkişaf dövrünə başlamışdır. Bütün bunlar var və biz haqlı olaraq qürur hissi keçiririk ki, ölkəmiz artıq çox böyük beynəlxalq nüfuza malikdir və ölkə daxilində çox gözəl ab-hava, ictimai-syasi mühit var. Amma bizim əsas məqsədimiz mövcud olan problemlərə münasibət göstərmək, onları qısa müddətdə, tezliklə aradan qaldırmaqdır. Bunu etmək üçün mən bölgələrdə tez-tez oluram, özüm gözümlə görürəm, vəziyyətlə tanış oluram. Sizə deyim ki, hər bir səfərdən özüm üçün çox önəmli nəticələr çıxarıram. Bəzi hallarda mənə məlum olmayan məsələləri öyrənirəm. Öyrənirəm ki, insanları narahat edən nədir, hansı problem var, onu necə həll etmək olar. Bəzi hallarda elə problem var ki, onu həll etmək üçün heç böyük vəsait də lazım deyildir. Sadəcə, diqqət lazımdır və insanlar biganə olmamalıdırlar. Elə problem də var ki, böyük vəsait tələb edir və əlbəttə, biz də bunu etməliyik.

İndi Azərbaycan bütün layihələrin həyata keçirilməsində sərbəstdir, müstəqildir, heç kimdən asılı deyildir. Öz siyasətini özü aparır və bütün layihələri həyata keçirə bilər. Əgər biz o çətin, ağır şəraitdə, xüsusilə 1990-cı illərin ortalarında hökm sürən və bölgədə çətin şəraitdə Heydər Əliyevin siyasəti, cəsarəti, müdrikliyi nəticəsində Bakı-Tbilisi-Ceyhan neft kəmərini reallaşdırıb istismara verə bilmişiksə, bundan sonra istənilən məsələni həll edə bilərik.

Ondan sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi başlanmışdır və bu ilin sonuna qədər istismara veriləcəkdir. İndi Türkiyə və Gürcüstanla bərabər biz Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə diqqət göstəririk. Azərbaycan artıq bəyan edib ki, öz maliyyə imkanlarını ortaya qoyur və tikintiyə lazım olan vəsaitin yarısını öz üzərinə götürür. Biz bunu da edəcəyik. Belə olan halda, o qədər böyük vəsait tələb etməyən məsələlərin həlli bizim üçün elə bir böyük problem yaratmır. Sadəcə olaraq, biz bilməliyik ki, harada qüsurlar, çatışmazlıqlar var, harada işlər yaxşı qurulmur. Yerlərdə də işlər yaxşı qurulmalıdır. Ölkə üçün vacib qərarlar, əlbəttə ki, mərkəzdə qəbul olunur. Amma yerlərdə də təşəbbüs olmalıdır.

Mən çox şadam ki, indi bölgələrdə quruculuq işləri çox sürətlə gedir. Rayonlarda gedən işlər də məni sevindirir. Yenə də deyirəm, tez-tez rayonlarda oluram, görürəm və müqayisə etmək üçün imkanlarım var. Hər bir gəlişimdə yenilik görürəm, yeni bir müəssisə, yaxud park, yeni küçə, yaxud da gözəl sosial infrastruktur obyektləri görürəm. Bu, inkişafdır və Azərbaycanda var və istəyirik ki, daha da sürətlə getsin. İnsanları narahat edən problemlər tezliklə aradan qalxsın və hər bir vətəndaş işlə təmin olunsun, hər bir vətəndaşın yaxşı ev şəraiti olsun, yaxşı maaş alsın, uşaqları yaxşı məktəbə getsin. Budur, bizim vəzifəmiz və Prezident kimi mən öz əsas vəzifəmi bunda görürəm, Azərbaycan xalqına xidmət etməkdə görürəm. Azərbaycan xalqı üçün nə etmək lazımdırsa, onu edirəm və bundan sonra edəcəyəm.

Olimpiya İdman Kompleksi bu işlərin içərisində, bəlkə də, çox balaca bir layihədir. Amma bir daha demək istəyirəm ki, çox böyük önəm daşıyır. Mən arzu edirəm ki, bu idman kompleksi tezliklə, özü də ən yüksək dünya standartları səviyyəsində tikilsin və mən də bir daha Şəmkirə gəlim və biz sizinlə bərabər bunun açılışını qeyd edək.

Əziz dostlar, mən sizi bir daha ürəkdən salamlayıram. Sizə xoşbəxtlik, cansağlığı arzulayıram. Sağ olun.

(Dövlətimizin başçısının nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə alqışlarla qarşılandı).

AZƏRTAC
2006, 3 noyabr

Tovuz

2004, 15 iyun

- Prezident İlham Əliyev: Mən çalişacağam ki, Tovuzlular daha yaxşı yaşasınlar: Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

2007, 30 may

- Azərbaycan Prezidenti İlham Əliyevin Tovuz rayonuna və Gəncəyə səfəri: Ulu Öndərin abidəsini ziyarət və yeni layihələrlə tanışlıq
- Aşağı Ayıblı kənd məktəbi müasir tələblərə cavab verəcək
- "Heydər Əliyev Seyrəngahı" Tovuza xüsusi yaraşıq verir
- Tovuz şəhərində Olimpiya İdman Kompleksinin təməli qoyulmuşdur: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

2008, 24 sentyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Qazax, Ağstafa və Tovuz rayonlarına səfəri: Tovuz rayonu ictimaiyyətinin nümayəndələri ilə görüş
- Zərifə Əliyeva Parkı Tovuzun yeni istirahət guşəsidir
- Tovuzda İdman Kompleksi tikilir
- Tovuzda Heydər Əliyev Muzeyi açılmışdır
- Karvansara tipli qala kompleksi ilə tanışlıq
- Tovuzda Müalicə-Diaqnostika Mərkəzinin təməli qoyulmuşdur

Prezident İlham Əliyev: Mən çalişacağam ki, Tovuzlular daha yaxşı yaşasınlar

(15 iyun 2004-ci il)

Azərbaycan Prezidenti İlham Əliyevin növbəti səfəri iyunun 15-də Tovuz rayonuna olmuşdur.

Dövlətimizin başçısı burada da çox böyük məhəbbətlə qarşılandı. Prezident İlham Əliyev tovuzlularla səmimiyyətlə görüşdü, Qurtuluş günü münasibətilə sakinləri təbrik etdi, onların problemləri ilə maraqlandı. Azərbaycan Prezidenti Tovuz rayonunun perspektivlərindən söhbət açaraq bildirdi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsi burada da insanların həyat səviyyəsinin yüksəldilməsi üçün yeni imkanlar açacaqdır.

Sonra şəhər parkında sakinlər ilə görüş oldu. Respublikamızın rəhbəri görüşdə çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Əziz tovuzlular!

Əziz bacılar və qardaşlar!

Sizin hamınızı salamlayıram. Sizi Milli Qurtuluş günü münasibətilə ürəkdən təbrik edirəm. Düz 11 il bundan əvvəl, iyunun 15-də müasir Azərbaycanın taleyi həll olunurdu. Azərbaycan xalqı öz müdrikliyini göstərdi, Heydər Əliyevə müraciət edərək onu rəhbərliyə dəvət etdi. Məhz o vaxtdan ölkəmiz inkişaf etməyə başladı. Bütün xoşagəlməz hallara son qoyuldu. Qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi, müharibəyə son qoyuldu, anarxiyaya, xaosa, siyasi, iqtisadi, hərbi böhrana son qoyuldu. Ordu quruculuğu inkişaf etdi. Əgər o vaxt başqa cür olsaydı, Heydər Əliyev Azərbaycana gəlməsəydi, ölkəmizi, xalqımızı böyük bəlalar gözləyəcəkdi. Biz hamımız çalışmalıyıq ki, ötən 11 ildə əldə olunmuş uğurları daha da irəliyə aparaq, artıraq.

Bilirsiniz ki, indi ölkəmiz çox sürətlə inkişaf edir. Mən bu gün Qazaxda, Ağstafada olmuşam, oradakı vəziyyətlə tanış olmuşam. Görmüşəm ki, böyük işlər gedir, yeni iş yerləri açılır. Bilirəm ki, Tovuzda da bu istiqamətdə böyük işlər görülübdür. Çox şadam ki, mənim səsimə səs verərək, tovuzlular da bu istiqamətdə fəal işləyirlər.

Mən istəyirəm ki, Azərbaycanın hər bir yeri inkişaf etsin. Azərbaycanda yaşayan hər bir insan daha da yaxşı yaşasın, daha yaxşı işlə, maaşla təmin olunsun. Bu istiqamətdə işlər aparılacaqdır. Bütün sosial məsələlər öz həllini tapacaqdır. Qəbul edilmiş regional inkişaf proqramı artıq öz bəhrəsini verməkdədir və Azərbaycan getdikcə daha da zənginləşəcəkdir.

Mən bizim əvvəlki görüşümüzü xatırlayıram. Seçkilərdən əvvəl mən Tovuzda olmuşdum, tovuzlularla görüşmüşdüm. Xatırlayıram, bir ağsaqqal bildirmişdi ki, Heydər Əliyev Tovuzda olarkən demişdi ki, mən tovuzluların dostuyam. Mən sizə söz vermişdim, çalışacağam ki, mən də tovuzluların dostu olum. Bütün fəaliyyətimdə çalışacağam ki, Tovuzda camaat daha da yaxşı yaşasın, bu bölgə, Azərbaycanın qədim torpağı olan Tovuz güclənsin və tovuzlular daha da yaxşı yaşasınlar. Mən bu fəaliyyəti davam etdirirəm. Bu fəaliyyət ölkə daxilində böyük rəğbətlə, dəstəklə qarşılanır.

Azərbaycanın beynəlxalq aləmdə də nüfuzu get-gedə artır. Qarşımızda duran bütün vəzifələr öz həllini tapır. Mən seçkilərdən əvvəl hansı vədi, hansı sözü vermişəmsə, bu sözə sadiqəm və bunu əməli surətdə həyata keçirirəm.

Mən sizi bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizi bağrıma basıram, qucaqlayıram, öpürəm. Sizə cansağlığı, xoşbəxtlik, yeni qələbələr arzulayıram.

Sağ olun!

Dövlətimizin başçısı İlham Əliyev daha sonra rayon mərkəzindəki istirahət parkına tamaşa etdi, sakinlərin istək və arzuları ilə maraqlandı.

AZƏRTAC
2004, 17 iyun

Azərbaycan Prezidenti İlham Əliyevin Tovuz rayonuna və Gəncəyə səfəri
Ulu Öndərin abidəsini ziyarət və yeni layihələrlə tanışlıq
(30 may 2007-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Tovuz rayonunda səfərdə olmuşdur.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə Tovuz şəhərinin Heydər Əliyev meydanında xalqımızın ümummilli liderinin abidəsini ziyarət edərək gül dəstələri qoydular.

Dövlətimizin başçısı sonra Tovuzda aparılacaq abadlıq və quruculuq işlərinə dair hazırlanmış tədbirlər planı, tikiləcək yeni obyektlərin, inzibati binaların layihələri ilə tanış oldu.

Rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalov məlumat verdi ki, ilk növbədə, Tovuz şəhərinin və mərkəzi su kəməri boyunca yerləşən yaşayış məntəqələrinin içməli su təchizatına diqqət yetiriləcəkdir. Bu məqsədlə 5,6 kilometr uzunluğunda su xətti çəkiləcək, anbarlar, suqəbuledici qurğular, laboratoriya binası tikiləcəkdir. Şəhərdə rəngli və musiqili böyük fəvvarə də yaradılacaq, yeni park və xiyabanlar salınacaqdır. "Turanbank"ın filialı üçün bina və yeni müasir mehmanxana da inşa ediləcəkdir.

Şəhərin giriş hissəsi milli memarlıq üslubunda tamamilə yenidən qurulacaqdır. Heydər Əliyev seyrangahı tamamilə yeni görkəm alacaq, Tovuzçayın yaxınlığında süni göl olacaq, sakinlərin mədəni istirahəti, gənclərin məşğuliyyəti üçün gözəl şərait yaradılacaqdır.

Prezident İlham Əliyev görüləcək işlərə tezliklə başlanmasının zəruriliyini bildirdi, müvafiq tövsiyə və tapşırıqlarını verərək dedi ki, nəzərdə tutulan bütün işlər yüksək zövqlə və keyfiyyətlə yerinə yetirilməlidir.

AZƏRTAC
2007, 31 may

Aşağı Ayıblı kənd məktəbi müasir tələblərə cavab verəcək
(30 may 2007-ci il)

Mayın 30-da Prezident İlham Əliyev Tovuzun Aşağı Ayıblı kəndinə gəldi və 1176 şagird yerlik orta məktəb binasının tikinti işlərinin gedişi ilə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, üçmərtəbəli təhsil ocağı iki bloklu olacaq və ayrıca idman kompleksi tikiləcəkdir. İnşaat işlərinə bir müddət əvvəl başlanılmış, artıq 1-ci və 2-ci mərtəbələrin tikintisi tamamlanmışdır. Bu təhsil ocağının yeni tədris ilinədək istifadəyə verilməsi planlaşdırılır. Şagirdlərin təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili üçün məktəb zəruri avadanlıqla təmin olunacaqdır. Bildirildi ki, bu kəndin 14 min əhalisi var və burada dörd məktəb fəaliyyət göstərsə də, onların əsaslı təmirinə böyük ehtiyac duyulur.

Prezident İlham Əliyev inşaatçılarla görüşdü, tikinti gedən sahələrə baş çəkdi, binaya bayır tərəfdən üzlük daş vurulması, xarici görünüşünün müasir olması üçün tapşırıqlar verdi. O dedi ki, birinci mərhələ məktəb tikintisi idisə, ikinci mərhələ mövcud məktəblərin təmiri məsələsidir. Bu məqsədlər üçün gələn ildən daha çox vəsait ayrılacaqdır.

AZƏRTAC
2007, 31 may

“Heydər Əliyev Seyrəngahı” Tovuza xüsusi yaraşıq verir

(30 may 2007-ci il)

Prezident İlham Əliyev mayın 30-da, Tovuz Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimi başa çatdıqdan sonra şəhərin girəcəyində yerləşən “Heydər Əliyev seyrəngahı”na gəldi. Dövlətimizin başçısını və xanımını burada musiqi və mahnılarla qarşıladılar.

Prezidentə bu mədəniyyət və istirahət guşəsində yaradılmış şərait və aparılacaq yenidənqurma işləri barədə məlumat verildi. Bildirildi ki, şəhərin giriş hissəsində, o cümlədən seyrəngahda aparılacaq kompleks abadlıq işləri Tovuza xüsusi yaraşıq verməklə yanaşı, insanların da ürəyincə olacaq və xarici qonaqlarda xoş təəssürat yaradacaqdır.

Prezident İlham Əliyev və xanımı yerli özfəaliyyət kollektivlərinin, mahnı və rəqs qruplarının, aşıqlar dəstəsinin ifalarını böyük maraqla dinlədilər, onlarla xatirə şəkilləri çəkdirdilər. Ulu öndər haqqında şeir hərarətli alqışlarla qarşılandı.

Dövlətimizin başçısı ifaçılara təşəkkür edərək onlara uğurlar arzuladı, gənclərə, istedadlı uşaqlara xüsusi diqqət və qayğı göstərilməsinin zəruriliyini vurğuladı və “Heydər Əliyev seyrəngahı”nın müasirləşdirilməsi ilə bağlı tövsiyələrini verdi.

AZƏRTAC
2007, 31 may

Tovuz şəhərində Olimpiya İdman Kompleksinin təməli qoyulmuşdur

(30 may 2007-ci il)

Mayın 30-da Tovuz şəhərinin giriş hissəsində Olimpiya İdman Kompleksinin təməlinin qoyulması münasibətilə mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Mərasimə toplaşmış minlərlə sakin dövlətimizin başçısını və xanımı

Mehriban Əliyevanı hərarətlə qarşıladı.

Prezident İlham Əliyev Olimpiya İdman Kompleksinin layihəsi ilə tanış oldu. Məlumat verildi ki, iki mərtəbədən ibarət bu idman qurğusu gələn ilin payızında istifadəyə veriləcəkdir. Kompleksdə üzgüçülük hovuzu, futbol, voleybol, basketbol meydançaları, idman salonları, təlim-məşq otaqları və kotteclər inşa ediləcək, idmançılar üçün hər cür şərait yaradılacaqdır.

Dövlətimizin başçısı gilizi təmələ atdı və beton qarışığı tökdü, inşaatçılara işlərində uğurlar arzuladı. Kompleksin təməlinin qoyulmasına həsr olunmuş mərasimi Tovuz Rayonu İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov açdı.

Tovuz rayonu icra hakimiyyətinin başçısı Tofiq Zeynalovun çıxışı

-Möhtərəm cənab Prezident!

Memarı və qurucusu dahi Heydər Əliyev olan Azərbaycan Respublikası Sizin şəxsi səyiniz, əzmkarlığınız sayəsində müasir inkişaf yoluna qədəm qoymuşdur. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramı bütün respublikada olduğu kimi, rayonumuzda da uğurla icra olunur. Bu gün hər bir tovuzlu müsbət dəyişiklikləri öz gündəlik yaşayışında hiss edir. Hazırda rayonda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 64 ailəlik iki yaşayış evinin, Tovuzçay su dəryaçasının, Zəyəmçaydan rayona ümumi uzunluğu 52 kilometr olan içməli su xəttinin tikintisi davam edir.

Təhsilin inkişafına göstərdiyiniz qayğının nəticəsi olaraq, rayonda 260 yerlik məktəb binası, 420 yerlik 21 əlavə sinif otaqları tikilib istifadəyə verilmiş, 6 məktəb binası əsaslı şəkildə təmir edilmişdir. Aşağı Ayıblı kəndində 1176 yerlik məktəb binası tikilir. Dövlət proqramına uyğun olaraq, bu il üç kənddə 400, 264 və 360 yerlik məktəb binalarının tikintisinə başlanacaqdır.

Eyni zamanda, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 640 yerlik üç müasir məktəb binası tikilib istifadəyə verilmiş, 720 yerlik üç məktəbin tikintisi də nəzərdə tutulmuşdur. Bu qayğıya görə hörmətli Mehriban xanım Əliyevaya tovuzluların minnətdarlığını çatdırmaq istəyirəm.

Möhtərəm cənab Prezident!

Milli Olimpiya Komitəsinə rəhbərlik etdiyiniz dövrdə ölkəmiz idman sahəsində böyük nailiyyətlər qazanmışdır. Regionlarda müasir olimpiya idman komplekslərinin inşası idmanın inkişafında, gənclərin mənəvi və fiziki baxımından daha sağlam böyüməsində mühüm rol oynamışdır. Rayonumuzun zəngin idman ənənələrini nəzərə alaraq, qısa vaxt ərzində 32 məhəlli idman meydançası istifadəyə verilmişdir və daha 30 meydançanın tikintisi davam etdirilir. Sevindirici haldır ki, bu il 15-16 yaşlılar arasında tovuzlu futbolçular respublika çempionu olmuşlar.

Respublika üzrə 16-cı olan belə möhtəşəm idman kompleksinin rayonumuzda tikintisinə başlanması Gənclər ilində Sizin tovuzlu gənclərə ən dəyərli hədiyyənizdir. Bu qayğıya görə minnətdarlığımızı bildirir və Sizi əmin edirik ki, Tovuzda idman sürətlə inkişaf etdiriləcək, böyük nailiyyətlər əldə olunacaq və sağlam gənclik formalaşacaqdır. Gələcək nəsillərin sağlamlığı üçün regionlarda tikilən diaqnostika mərkəzindən birinin də rayonumuzda nəzərdə tutulması barədə tovuzluların xahişini Sizə çatdırmaq istəyirəm.

Möhtərəm cənab Prezident!

Cəbhə bölgəsində yaşayan tovuzlular Vətənin müdafiəsində mərdliklə dayanmış, bir qarış torpağı düşmənə verməmişlər. Çünki onların arxasında ümummilli lider Heydər Əliyev dayanmışdı. Bu gün Ali baş komandan İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması barədə prinsipial mövqeyini xalqımız kimi, tovuzlular da tam müdafiə edirlər. Müharibənin nə olduğunu yaxşı bilən, ərazi bütövlüyümüz uğrunda döyüşlərdə 335 nəfər şəhid verən, göstərdikləri igidliklərə görə 2 nəfər Milli Qəhrəman adına layiq görülmüş tovuzlular Ali baş komandanın hər bir tapşırığını yerinə yetirməyə hazırdırlar.

Cənab Prezident, ölkədə sahibkarlığın inkişafı üçün yaradılan əlverişli şərait rayonumuzda da özəl sektorun genişlənməsinə, iş adamlarının rayona üz tutmasına, daxili sərmayənin artmasına səbəb olmuşdur. Sizə məruzə etmək istəyirəm ki, rayonun yerli xammalından istifadə etməklə sosial-iqtisadi inkişafın prioritetlərinin müəyyənləşdirilməsi, kartof emalı, konserv, kərpic, sement və mini-şərab zavodlarının tikintisi istiqamətində mühüm layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Tovuz şəhərinin müasir memarlıq simasının yaradılması üçün tədbirlər görülür.

Açıq etiraf etmək lazımdır ki, bunlar azdır. Tovuzun potensialı böyükdür, problemlərimiz də çoxdur. Mürəkkəb relyef şəraitinə malik dağla sərhəd kəndlərinə əlavə 60 kilometr asfalt yolu çəkilməsinə, Ceyrançöl qışlağına gedən avtomobil yolunun bərpasına ehtiyac vardır. Biz bundan sonra da əhalinin sosial sifarişlərindən irəli gələn problemlərin həlli istiqamətində bütün gücümüzü səfərbər edəcəyik. İnanırıq ki, bu işdə Siz, həmişə olduğu kimi, diqqət və qayğınızı tovuzlulardan yenə də əsirgəməyəcəksiniz.

Möhtərəm cənab Prezident!

Regionlara hər bir səfəriniz xalqın yaddaşında silinməz iz buraxır. Sizin hər bir regiona, hər bir vətəndaşa şəxsi diqqət və qayğınız qədirbilən xalqımız tərəfindən layiqincə qiymətləndirilir. Tovuzlular Sizi çox sevir. Tovuzda artıq üç dəfə olmusunuz. Biz istəyirik tez-tez gələsiniz. Belə möhtəşəm obyektlərin təməlinin qoyulması, istifadəyə verilməsi kimi sevincli günlərimizdə bizimlə birlikdə olmağınız bütün tovuzluları çox qürurlandırır. Əmin ola bilərsiniz ki, Siz Tovuzu gələcəkdə daha abad və gözəl görəcəksiniz.

X X X

Sonra Prezident İlham Əliyev sakinlərlə görüşdü, qayğı və problemləri ilə maraqlandı və onlarla xatirə şəkli çəkdirdi.

Tovuzlular ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısının qərb bölgəsinə səfərlərini xatırlatdılar. Rayonlarda görülən geniş abadlıq-quruculuq işlərinə görə Prezidentə dərin minnətdarlıqlarını bildirdilər və onun xarici və daxili siyasətini, ölkəmizdə əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işləri dəstəklədiklərini bildirdilər.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

-Əziz tovuzlular!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Çox şadam ki, yenidən Tovuzdayam və bu gözəl gündə, əlamətdar gündə sizinlə birlikdəyəm. Bu gün Tovuzda müasir Olimpiya kompleksinin təməlqoyma mərasimində bərabər iştirak edirik. Mən əminəm ki, qısa müddət ərzində, gələn il bu Olimpiya kompleksinin tikintisi başa çatacaq və biz yenə də görüşəcəyik, bir yerdə olacağıq.

Bu Olimpiya mərkəzinin Tovuzda yaradılması çox böyük əhəmiyyət kəsb edən məsələdir. Bu, təkcə Olimpiya idman mərkəzi deyil, eyni zamanda, turizmin inkişafı üçün çox gözəl dəstək olacaqdır. Burada gözəl mehmanxana, üzgüçülük hovuzu, gözəl idman salonları olacaq, yarışların, təlim-məşq toplanışlarının keçirilməsi üçün bütün şərait yaradılacaqdır. Bildiyiniz kimi, Azərbaycanda belə gözəl olimpiya qurğularının tikintisi geniş vüsət almışdır. Bu gün səhər mən Qazax rayonunda gözəl olimpiya mərkəzinin açılışında iştirak edirdim və bir daha gördüm ki, bizim nə qədər böyük potensialımız var, nə qədər böyük imkanlarımız var. İndi Azərbaycanda istənilən infrastruktur obyekti, istənilən müəssisə, sosial obyekt, o cümlədən idman qurğuları dünyanın ən yüksək standartlarına uyğun şəkildə yaradılır. Azərbaycanda son illər ərzində 11 müasir olimpiya idman kompleksi yaradılmışdır və hamısı da ən yüksək dünya standartları səviyyəsindədir. Mən əminəm ki, Tovuzda tikiləcək kompleks də dünya standartları səviyyəsində olacaq və rayonun inkişafına öz töhfəsini verəcəkdir.

Mən çox şadam ki, Tovuzda indi işlər çox sürətlə aparılır. Bu gün buraya gəlməzdən əvvəl Tovuzda görüləcək işlərlə tanış oldum, gördüm ki, çox böyük planlar var: həm abadlıq-quruculuq işləri, həm tarixi yerlərin bərpası, həm də insanları narahat edən sosial problemlərin həlli, su kəmərinin çəkilişi, məktəb tikintisi. Yəni bütün sahələrdə, bütün ölkəmizdə olduğu kimi, Tovuzda da çox böyük imkanlar var. İnkişaf üçün imkanlar var ki, rayon əhalisi daha da gözəl şəraitdə yaşasın. Tovuzun çox böyük potensialı var, çox

böyük rayondur. Mən çox istərdim ki, Tovuz çiçəklənsin, inkişaf etsin. Burada güclü sənaye potensialı yaradılsın, kənd təsərrüfatı inkişaf etsin, bütün sosial məsələlər öz həllini tapsın. Əlbəttə, mən əlimdən gələni edəcəyəm ki, biz birlikdə buna nail ola bilək.

Bildiyiniz kimi, Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Mən dəfələrlə bəyan etmişəm ki, biz insanlar üçün yaşayırıq, insanlara xidmət etmək üçün işləyirik. Mən əsas vəzifəni bunda görürəm. Həm ölkənin iqtisadi potensialını möhkəmləndirmək, həm də insanları narahat edən bütün problemləri uğurla həll etmək - bu iki istiqamətdə Azərbaycanda çox böyük işlər görülübdür, xüsusi proqramlar icra olunur. Biz tam şəkildə bazar iqtisadiyyatı şəraitində yaşayırıq. İqtisadiyyatımızın 81 faizi özəl sektorda formalaşıbdır. Ancaq bununla bərabər, sosial məsələlərin həlli də həmişə diqqət mərkəzindədir və belə də olmalıdır. Bəzi hallarda bazar iqtisadiyyatı prinsipləri tam şəkildə tətbiq olunanda sosial ədalət prinsipləri bir qədər kölgədə qalır. İnkişaf etmiş ölkələrin təcrübəsi, onların keçid dövrünün təcrübəsi bunu göstərir. Biz isə çalışırıq ki, Azərbaycanda bazar iqtisadiyyatı, iqtisadi islahatlar sürətlə aparılmaqla bərabər, insanların həyat səviyyəsi də yaxşılaşsın. Bir çox hallarda çox ciddi islahatlar aparılan zaman cəmiyyətdə sosial gərginlik artır. Bunun qarşısını almaq üçün, sosial məsələlərin həlli üçün müxtəlif proqramlar icra olunur. Minimum əmək haqqı, minimum pensiyalar mütəmadi qaydada qaldırılır. Ehtiyac içərisində yaşayan təbəqə üçün ünvanlı sosial yardım nəzərdə tutulubdur. Yoxsulluqla mübarizə proqramı uğurla icra edilir və Azərbaycanda yoxsulların sayı kəskin şəkildə aşağı düşübdür. Ümid edirəm ki, biz Azərbaycanda yoxsulluğun tamamilə aradan qaldırılmasına nail olacağıq.

Yəni, bu bizim prinsipial mövqeyimizdir, bizim siyasətimizdir və Azərbaycanda görülən işlərin, icra olunan bütün proqramların əsas məqsədi insanlarımızın daha da yaxşı yaşamasıdır. Bunu nəzərə alaraq, bildiyiniz kimi, Azərbaycanda indi yeni müalicə-diaqnostika mərkəzlərinin tikintisi də başlanmışdır. Müxtəlif bölgələrdə bu komplekslərin tikintisi nəzərdə tutulur. Biz vaxtilə olimpiya komplekslərinin tikintisinə başlayanda, - nəzərə almalıyıq ki, bunları bir ildə, iki ildə bütün bölgələrdə etmək mümkün deyil, - çalışırdıq ki, hər bir bölgədə olimpiya kompleksi yaradılsın. İndi isə çalışırıq ki, hər bir rayonda olimpiya kompleksi yaradılsın.

Eyni yanaşma müalicə-diaqnostika mərkəzlərinin tikintisində də mövcuddur. Biz ilk mərhələdə çalışırdıq və nəzərdə tutmuşduq ki, hər bir bölgədə belə mərkəzlər yaradılsın ki, insanlar ondan daha da rahat istifadə edə bilsinlər. Ancaq növbəti mərhələdə, əlbəttə, hər bir rayon mərkəzində belə müalicə-diaqnostika mərkəzinin tikintisi nəzərdə tutulacaqdır. Bu bölgədə Gəncə və Qazaxda nəzərdə tutulmuşdu. Qazaxda işlər artıq başa çatmaq üzrədir, Gəncədə də işlər gedir. Ancaq icra hakimiyyəti başçısının müraciətini və Tovuz rayonunun potensialını, əhalisinin çoxluğunu nəzərə alaraq, mən hesab edirəm ki, biz yaxın vaxtlarda burada da müasir müalicə-diaqnostika mərkəzinin tikintisinə başlamalıyıq. Mən bununla əlaqədar müvafiq göstərişləri verəcəyəm.

Bildiyiniz kimi, indi ölkəmizdə quruculuq, abadlıq işləri çox sürətlə gedir. Bizim iqtisadi potensialımız möhkəmlənir, büdcə gəlirləri və xərcləri kəskin şəkildə artır. İqtisadi artım dünyada analoqu olmayan sürətlə gedir. Biz son üç il ərzində bu göstəriciyə görə dünyada birinci ölkəyik, aparıcı yerdəyik. İqtisadi islahatlar, eyni zamanda, sosial siyasətin güclənməsi - bütün bunlar bizim imkanlarımızı artırır. Azərbaycanın dövlət büdcəsi ildən-ilə yüksək sürətlə artır. Bu yaxınlarda Milli Məclisdə bu məsələyə yenidən baxıldı və Azərbaycanın dövlət büdcəsi yenidən artırıldı. Bu il Azərbaycanın büdcə xərcləri 6,3 milyard manatdır. Bu da təxminən 7,4-7,5 milyard dollar təşkil edir. Biz nəzərə almalıyıq ki, bir neçə il bundan əvvəl dövlət büdcəmiz cəmi 1 milyard dollar idi. Görün, nə qədər artım var, imkanlar nə qədər artıbdır. Əsas məsələ ondadır ki, büdcə xərcləri ilk növbədə, sosial məsələlərin həllinə yönəldilsin, eyni zamanda, infrastruktur layihələrinin həllinə və Azərbaycanda güclü qeyri-neft sektorunun inkişafına yönəldilsin. Bu məqsədlə bizim xüsusi proqramlarımız var, o cümlədən sənaye inkişafı proqramı, regionların sosial-iqtisadi inkişafı dövlət proqramı. Mənə dünən verilən məlumata görə, 2003-cü ilin oktyabr ayından bu ayın sonuna qədər Azərbaycanda 552 min yeni iş yeri açılmışdır. Yəni, bu çox böyük göstəricidir. Bu, onu göstərir ki, bizim iqtisadi inkişaf proqramımız, regional inkişaf proqramımız uğurla icra edilir. Yoxsulluq azalır, işsizlik azalır və imkanlarımız da artır.

Əminəm ki, kənd təsərrüfatında aparılan islahatlar öz bəhrəsini verəcəkdir. İndi biz kənd təsərrüfatında artımı görürük. Müxtəlif proqramlar həyata keçirilir. "Aqrolizinq" Səhmdar Cəmiyyəti yaradılıbdır. Azərbaycanda artıq kənd təsərrüfatı texnikasının istehsalına başlanılıb və əminəm ki, yaxın zamanlarda kəndlilərə çox böyük sayda texnika veriləcəkdir. Kənd təsərrüfatına dəstəyin artırılması üçün büdcədə 80 milyon manat dotasiya nəzərdə tutulubdur. Sahibkarlığın, kənd təsərrüfatının, qeyri-neft sektorunun, yerli sənayenin inkişafı, idxalı əvəz edə biləcək məhsulların istehsalı - Azərbaycanın qeyri-neft

sektoruna aid olan ümumi inkişaf konsepsiyası budur. Bir daha demək istəyirəm ki, biz bu sahədə böyük uğurlar qazanmışıq. Ancaq, əlbəttə ki, hələ böyük problemlər var və onların həlli bizim üçün ən başlıca vəzifədir. Elə olmalıdır ki, Azərbaycanda bütün sosial məsələlər öz həllini tapsın. Azərbaycanda minimum əmək haqqı insanın minimum tələbatını ödəsin, baxmayaraq ki, bu sahədə də böyük artım var. Bu gün Azərbaycanda orta əmək haqqı 200 dollardır. İlin sonuna qədər yenə də artacaqdır. Ancaq onu da etiraf etməliyik ki, bütün kateqoriyalardan olan insanlar bu əmək haqqını almır. Büdcədən maliyyələşən təşkilatlarda işləyən insanların əmək haqqı baxmayaraq ki, bir neçə dəfə qaldırılıb, ancaq hələ ki, bizi qane etmir.

Azərbaycanda orta pensiya 58 manatdır. Əvvəlki illərlə müqayisədə çox böyük artımdır. Amma bu pensiya ilə insan özünü təmin edə bilmir. Bütün bu problemləri biz bilirik və onu da bilirik nə etməliyik. İlk növbədə, öz gücümüzə arxalanmalıyıq. İlk növbədə, iqtisadi potensialı maksimum şəkildə işə salmalıyıq. Bizim böyük təbii sərvətlərimiz – neftimiz, qazımız var. Heydər Əliyevin neft strategiyası uğurla icra edilir və Azərbaycana həm siyasi, həm də iqtisadi dividendlər gətirir. İndi ölkəmiz beynəlxalq müstəvidə özünə layiq möhkəm yerini tutubdur. Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərində çox fəal iştirak edir və bizim təşəbbüslərimiz, siyasətimiz, baxışlarımız bölgədə enerji siyasətinin formalaşmasında aparıcı rol oynayır. Bu, belədir və biz bu imkanlardan səmərəli istifadə etməliyik. Elə etməliyik ki, bu böyük təbii sərvətlər, bu kapital insan kapitalına çevrilsin. Bunun üçün olimpiya kompleksləri, məktəblər, xəstəxanalar, bütün sosial infrastruktur, iş yerləri, zavodlar, fabriklər lazımdır və biz bunu edirik.

Əgər biz müqayisə üçün istənilən ölkənin inkişaf dinamikasını götürsək görərik ki, istər ümumi daxili məhsulun artımına görə, istərsə də, yoxsulluğun azaldılmasına, iş yerlərinin açılmasına görə və xüsusi infrastruktur layihələrinin həyata keçirilməsinə görə ən sürətlə, ən dinamik inkişaf edən ölkə Azərbaycandır. Bu, məni çox sevindirir. Onu göstərir ki, bizim siyasətimiz düşünülmüş siyasətdir, ölkəmizin inkişafına gözəl şərait yaradır.

Mən xatırlayıram, prezident seçkiləri ərəfəsində Tovuzda olarkən, burada insanlarla görüşərkən camaatla, vətəndaşlarla söhbət edərkən demişdim ki, əgər bu yüksək vəzifəyə seçilsəm, əlimdən gələni edəcəyəm ki, ölkənin qarşısında duran bütün problemlərin həlli üçün çalışım və onları həll edim. Mən çox şadam, çox sevinirəm və çox böyük qürur hissi ilə deyə bilərəm ki, son 3-4 il ərzində Azərbaycan böyük və şərəfli yol keçibdir. Həm beynəlxalq müstəvidə, həm də ölkə daxilində gedən proseslər, iqtisadi islahatlar, ölkədə sabitliyin, vətəndaş birliyinin möhkəmlənməsi, vətəndaş cəmiyyətinin formalaşması, xalqla iqtidar arasında birliyin mövcudluğu və möhkəmlənməsi – bütün bunlar ölkəmiz üçün çox vacibdir.

Biz görürük, tarixdən də bilirik və indiki zəmanədə başqa ölkələrdə baş verən hadisələri də görürük. Görürük ki, harada siyasət xalq tərəfindən dəstəklənirsə, o ölkədə sabitlik də var, əmin-amanlıq da var, insanlar da normal yaşayırlar və heç bir böhranlı vəziyyət yaranmır. Mən çox şadam ki, Azərbaycanda bu gün məhz belə vəziyyət mövcuddur. 1990-cı illərin əvvəllərində Azərbaycanda hansı vəziyyət olduğunu biz hamımız yaxşı xatırlayırıq. Ölkəmizin gələcəyi üçün böyük təhlükələr var idi, ölkə idarəolunmaz vəziyyətdə idi. İndi isə ulu öndərin fəaliyyəti nəticəsində 10 il ərzində və ondan sonrakı illərdə o qədər böyük işlər görülüb, Azərbaycan dövlətçiliyinin elə əsasları qoyulub ki, bizim müstəqilliyimiz o qədər möhkəmlənib ki, indi bizim qarşımızda üfüqlər açıqdır, yolumuz açıqdır. Biz sadəcə olaraq, hamımız birləşib əl-ələ verərək ölkəmizin hərtərəfli inkişafı üçün çalışmalıyıq. Bu ab-hava bu gün Azərbaycanda var. Mən bölgələrə çox tez-tez gedirəm, görürəm, vəziyyətlə tanış oluram. Görürəm ki, insanlarda böyük nikbinlik, ruh yüksəkliyi var, gələcəyə inam var. Ölkəmizin inkişafı üçün böyük arzular var, böyük niyyətlər var. Ölkəmizin uğurlu inkişafı hər bir vətənpərvər insanı ruhlandırır. Bizə əlavə güc verir və insanları daha da böyük işlərin görülməsinə sövq edir.

Əziz dostlar, mən bu gözəl gündə sizi bir daha salamlamaq istəyirəm. Tovuzlular həmişə Azərbaycanın ərazi bütövlüyünün keşiyində durmuşlar. Həmişə düşmənlə üz-üzə dayanaraq, ona çox layiqli cavablar vermiş, öz doğma torpaqlarını, Azərbaycanın ərazi bütövlüyünü müdafiə etmişlər, həmişə mübariz olmuşlar. Bu gün Azərbaycanın gözəl inkişaf proseslərində tovuzlular çox fəal iştirak edirlər. Əminəm ki, Tovuz Azərbaycanın ən inkişaf etmiş rayonlarından birinə çevriləcəkdir, mən buna şübhə etmirəm. Çünki sizin gözəl planlarınız var, niyyətləriniz var, təşəbbüsləriniz var. Təbii ki, burada hələ çoxlu açılışlar olacaq və biz bundan sonra da həmişə birlikdə olacağıq.

Sizi bir daha təbrik edirəm və cansağlığı arzulayıram. Arzu edirəm ki, sizin həyatınızda hər şey yaxşı olsun. Sağ olun.

AZƏRTAC
2007, 31 may

Azərbaycan Prezidenti İlham Əliyevin Qazax, Ağstafa və Tovuz rayonlarına səfəri
Tovuz rayonu ictimaiyyətinin nümayəndələri ilə görüş
(24 sentyabr 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Prezident İlham Əliyev sentyabrın 24-də Tovuz şəhərində Heydər Əliyev Muzeyinin qarşısındakı meydanda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.

Rayonun ziyalıları adından çıxış edən həkim NƏSİB NAĞIYEV dövlətimizin başçısına müraciətlə dedi:

- Cənab Prezident, izacə verin, Tovuz camaatı adından Sizi salamlayım, "Xoş gəlmisiniz!" deyim, qədəmləriniz uğurlu olsun. Sizin hər gəlişiniz bizim üçün toy-bayramdır, bizə sevinc bəxş edir. Ulu öndərimiz Heydər Əliyev dörd dəfə burada olmuş, həmişə bizim rayonu diqqət mərkəzində saxlamışdır. Onun cavan, gümrah və prezidentlik dövrlərini görmüşəm. Mənim 72 yaşım var, ulu öndərin rayonumuza dörd səfərində onunla görüşmüşəm. Allah ona qəni-qəni rəhmət eləsin. O, bizə diqqət və qayğı göstərmiş, çox iş görmüşdür. Hamısını saymaqla qurtarmaz. Təkcə onu deyim ki, bu rayonda 14 iri emal zavodu tikdirib istifadəyə vermişdi. Siz də onun yolunu uğurla davam etdirirsiniz. Siz keçən il mayın 30-da Tovuza gəldiniz, Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimində iştirak etdiniz. İndi o kompleks tikilib qurtarmaq üzrədir, işlər çox yaxşı gedir. Bundan başqa, Siz tovuzlulara söz vermişdiniz ki, Müalicə-Diaqnostika Mərkəzi tikiləcəkdir. Bu gün onun inşası üçün xeyir-duanızı verəcəksiniz.

İLHAM ƏLİYEV: Bəli, gedəcəyəm.

NƏSİB NAĞIYEV: Siz Tovuzun abadlaşdırılması və quruculuq işlərinə başlanması barədə də tapşırıq vermişdiniz. Ötən səfərinizdən az vaxt keçməsinə baxmayaraq, Tovuz öz görkəmini dəyişmiş, yeniləşmişdir. Bütün yollar, küçələr, prospektlər yenidən quruldu, parklar salındı, fəvvarələr yaradıldı. Baxanda görürsən ki, Tovuz həmin Tovuz deyil, hər yan gül-çiçək içərisindədir. Biz bunların hamısına görə minnətdarıq. Bütün tovuzlular minnətdardır. Bu da hələ hamısı deyil. Tovuzda iş yerləri açılır və bu, davam edir.

Cənab Prezident, Tovuz camaatı çox yüksək əhval ruhiyyədədir. Daha əvvəlki kimi deyillər. Sözümü çox uzatmaq istəmirəm. Tovuz camaatı adından Sizə bir daha təşəkkürümü bildirirəm. Sizi özümüzə arxa bilirik. Sizə, ailənizə, övladlarınıza cansağlığı arzu edirəm. Qoy, canınız sağ olsun, möhkəm olsun və Heydər Əliyev siyasətini davam etdirin.

Sağ olun.

Prezident İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

- Sağ olun. Mən hələ beş il bundan öncə demişdim ki, bütün sahələrdə Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Son beş il ərzində çalışmışam ki, Azərbaycanın hərtərəfli inkişafı üçün yüksək səviyyədə xidmət edim. Çox şadam ki, Azərbaycanın bütün bölgələrində böyük quruculuq işləri aparılmışdır. O cümlədən Tovuz rayonunda. Siz bunu daha yaxşı bilirsiniz, çünki burada yaşayırsınız, bu dəyişiklikləri görürsünüz. Rayon gözəlləşir, abadlaşır, yeni müəssisələr yaradılır, Olimpiya İdman Kompleksi tikilir, bu gün Müalicə-Diaqnostika Mərkəzinin təməlini qoyacağıq. İş yerləri açılır, abadlıq işləri görülür, yeni parklar salınır. Gözəl Heydər Əliyev muzeyi yaradılıb, məktəblər tikilir, yollar salınır. Yəni insanların rahatlığı və rayonun inkişafı üçün bütün tədbirlər görülür. Bütün bu tədbirlər kompleks şəkildə görülür: həm infrastruktur layihələri, həm biznesin, özəl sektorun inkişafı üçün lazım olan tədbirlər, kənd təsərrüfatının inkişafı üçün qəbul edilmiş qərarlar, güzəştli şərtlərlə kreditlərin verilməsi, yanacağın yarı qiymətə, gübrənin güzəştli şərtlərlə verilməsi. Yəni biz bu işləri görürük. Keçən ilin və bu ilin iqtisadi göstəricilərində görürük ki, bunun nə dərəcədə böyük təsiri olmuşdur.

Azərbaycanın iqtisadiyyatı belədir ki, kənd təsərrüfatı, istehsal, ərazi imkanlar baxımından çox böyük çəkiyə malik olmasa da, biz elə eləməliyik ki, qeyri-neft sektorunun inkişafı daha da sürətlə getsin. Xüsusilə bölgələrdə. Rayonlarda olan infrastruktur, şərait, xidmət, təhsil, səhiyyə ocaqlarının səviyyəsi ən yüksək dünya səviyyəsində olmalıdır. Bax, mənim istəyim də, tələbim də budur. Mən görəndə ki, işlər bu tələblərə uyğun şəkildə aparılır, çox sevinirəm. Çünki biz elə etməliyik ki, Azərbaycan vətəndaşları yaxşı şəraitdə yaşasınlar, yaxşı işlə təmin olunsunlar, uşaqlar yaxşı məktəblərdə oxusunlar, xəstələr yaxşı tibbi xidmət alsınlar. Bütün bunlar hər bir ölkənin inkişafı üçün vacib amillərdir.

Bildiyiniz kimi, Azərbaycanda çox güclü sosial siyasət aparılır. Biz Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərini tam şəkildə tətbiq etmişik. Bu gün iqtisadiyyatımızın 84 faizi özəl sektorun payına düşür. 17 il bundan əvvəl özəl sektor Azərbaycanda qeyri-qanuni vəziyyətdə fəaliyyət göstərirdi. Amma bu gün iqtisadiyyatımızın əsas hissəsi özəl sektorun hesabına formalaşıbdır. Bu da çox yüksək göstəricidir.

Biz bütün iqtisadi islahatları cəsarətlə aparırıq. Təsadüfi deyil ki, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu Azərbaycanı bu il dünyanın birinci islahatçı ölkəsi kimi qəbul etdi və bunu bəyan etdi. Bütün bu işlər ümumi siyasət nəticəsində baş verir. Həm iqtisadi islahatlar, həm də siyasi islahatlar aparılır. Azərbaycanda açıq cəmiyyət formalaşıbdır. Demokratiyanın inkişafı çox sürətlə gedir. Bütün demokratik ölkələrə xas olan əlamətlər Azərbaycanda da mövcuddur. İnsanlar təhlükəsizlik, sabitlik şəraitində yaşayırlar və bu sabitlik olmasaydı, heç bir inkişafdan söhbət gedə bilməzdi. Çünki biz tarixi də bilirik, yaxın tarixi də yaxşı izləyirik və görürük ki, sabitlik pozulanda inkişaf dayanır. Nə yerli, nə də xarici sərmayələr qoyulur, daha çox ölkədən sərmayə çıxır və bunun nəticəsində iqtisadi problemlər yaranır.

Ona görə bir daha demək istəyirəm ki, biz bütün bu işləri düşünülmüş və mərkəzləşdirilmiş qaydada aparırıq - həm iqtisadi, siyasi, sosial məsələlərin həlli, regionların inkişafı, həm də regionlarda infrastrukturun yaranması. Yolların salınması, elektrik stansiyaları, ölkənin hərtərəfli inkişafı üçün lazım olan infrastruktur, əlbəttə ki, insanların rahatlığı lazım olan əsas amillərdir.

Mən demişəm, bir də demək istəyirəm ki, Azərbaycan vətəndaşları yaxşı yaşamalıdırlar, bu gün yaxşı yaşamalıdırlar. Siz də xatırlayırsınız ki, Əvvəllər, Sovet İttifaqı zamanında gələcək naminə işləyirdilər. Biz də gələcək naminə işləyirik və əvvəlki illərdə təməlini qoyduğumuz işlər Azərbaycanın gələcəyini təmin edəcəkdir. Ancaq gələcəklə bərabər, indi yaşayan insanlar - həm yaşlı nəsil, həm cavanlar, həm də uşaqlar, yeniyetmələr bu gün də bunun bəhrəsini görməlidirlər. Bunu etmək üçün çox güclü sosial siyasət və iqtisadi islahatlar aparılmalıdır.

Son beş ildə bizim dövlət büdcəmiz 10 dəfədən çox artıbdır. Heç bir başqa ölkədə belə artım sürəti yoxdur. Məlumatlar təqdim olunubdur, gələn ilin dövlət büdcəsi təxminən 14-15 milyard dollar səviyyəsində olacaqdır. 2003-cü ilin dövlət büdcəsi 1 milyard 200 milyon dollar idi. Bizim Neft Fondumuzda 10 milyard dollardan çox vəsait vardır. Ölkəmizin ümumi valyuta ehtiyatları 17 milyard dollardır. Bu, dünya miqyasında çox böyük bir göstəricidir. Biz bu vəsaitdən çox səmərəli şəkildə istifadə edirik və bu vəsaitin istifadə olunmasında hər bir vətəndaş iştitak edir. Necə?! Çünki, bütün bu xərclər Milli Məclis tərəfindən təsdiq olunur. Hər bir vətəndaş Milli Məclisdəki nümayəndələrinin vasitəsi ilə bu işlərdə iştirak edir.

Neftdən gələn bütün gəlirlər şəffaf toplanılır. Keçən il Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fonduna şəffaflığa görə mükafat təqdim edibdir. Bu, nə deməkdir?! Bu, bizim gördüyümüz işlərə verilən qiymətdir. Birləşmiş Millətlər Təşkilatı dünyanın bir nömrəli təşkilatıdır. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu dünyanın bir nömrəli maliyyə qurumlarıdır. Onların Azərbaycana verdiyi qiymət önəm daşıyır.

O ki qaldı, bəzi süni şəkildə yaradılmış qeyri-hökumət təşkilatlarına, onlar vaxtaşırı bəzi reytinqləri dərc edirlər. Bu, ancaq siyasi konyunktura, siyasi sifarişlərdir. Azərbaycan indi bölgədə böyük mövqelərə malikdir. Bizim həm öz təbii resurslarımız var, həm də təbii resursların istənilən istiqamətə nəqli üçün əvəzolunmaz rolumuz vardır. Şübhə yox ki, bizim önəmimiz artdıqca, bizə olan diqqət də artır. Edilən təzyiqlərin sayı da arta bilərdi, amma artmadı. Çünki mənası yoxdur. Bəzi hallarda belə qeyri-cidd-cəhdlərin üzə çıxmasının təməlində məhz bu amillər dayanır ki, Azərbaycan hansı yolla inkişaf edəcək, Azərbaycanın gələcək istiqaməti hansı tərəfə olacaqdır. Amma, bizim üçün, Azərbaycan xalqı üçün, Azərbaycan iqtidarı üçün belə sual yoxdur.

Azərbaycanın inkişafı Azərbaycan xalqının milli maraqlarına əsaslanır. Bizim maraqlarımıza nə cavab verirsə, o da olacaqdır, nə də cavab vermirsə, o da olmayacaqdır. Biz bütün ölkələrlə, - həm qonşu ölkələrlə, həm də başqa, böyük ölkələrlə qarşılıqlı hörmət əsasında münasibətlər qururuq. Qarşılıqlı hörmət, bir-birimizin işinə qarışmamaq və qarşılıqlı maraqlar əsasında.

Biz dünya birliyinin layiqli üzvüyük və əlbəttə, istəyirik ki, bütün ölkələrlə münasibətlərimiz yaxşı olsun. Amma bu münasibətlər bərabər əsaslarda qurulmalıdır. Biz artıq həm bölgə miqyasında, həm də Avropa qitəsində özümüzə layiq yerimizi tuta bilmişik. Biz özümüzə arxalanırıq, öz iqtisadi potensialımıza arxalanırıq. Heç bir başqa yerdən yardım gözləmirik, almamışıq da. Bizim ən ağır dövrümüzdə, torpaqlarımız işğal altına düşəndə, soydaşlarımız qaçqın, köçkün vəziyyətinə düşəndə biz heç yerdən heç bir yardım almamışıq. Baxmayaraq ki, çətin vəziyyət idi, yalnız öz gücümüzə arxalanaraq bu vəziyyətdən çıxdıq. 1990-cı illərin ortalarında bizim imkanlarımız çox məhdud idi. O vaxt ulu öndər tərəfindən hazırlanmış neft strategiyası yeni icra olunmağa başlamışdı. Nə kəmərlərimiz var idi, nə də hasilatımız var idi. Heç bir yerdən də kömək gəlmirdi. Ölkədə də vəziyyət o qədər sabit deyildi, iqtisadiyyat dağılmışdı, sənaye dayanmışdı. Belə ağır vəziyyətdə Heydər Əliyevin fəaliyyəti Azərbaycanı ağır vəziyyətdən çıxardı.

Bu gün isə bizim qarşımızada bütün yollar açıqdır. Bizim yolumuz dövlətçilik, müstəqillik, azərbaycançılıq yoludur, Azərbaycan xalqının yaxşı, təhlükəsizlik şəraitində yaşaması əsas məqsəddir. Bütün bölgələrin inkişafı Azərbaycan dövlətinin inkişafıdır. Necə ki, güclü Azərbaycan dövləti hər bir bölgə üçün vacib amildir, bölgələrin, xüsusilə paytaxtdan uzaqda yerləşən sərhəd bölgələrinin inkişafı da həm dövlətçiliyi möhkəmləndirir, həm də bizim potensialımızı göstərir.

Tovuz rayonunun Azərbaycanın inkişafında çox böyük rolu var, böyük potensialı və böyük çəkisi var. Mən çox sevinirəm ki, burada işlər sürətlə gedir, yaxşı gedir. Mən buraya keçən il gəlmişdim, ondan əvvəl də olmuşdum və bu dəyişiklikləri görürəm. Siz də görürsünüz, amma, siz burada yaşayırsınız və buna tez öyrəşirsiniz. Tovuz rayonuna bundan sonra da gələcəyəm, idman kompleksinin, xəstəxananın, başqa obyektlərin açılışları olacaqdır. Belə gözəl anları bərabər qeyd edəcəyik.

Sizə bir daha uğurlar, cansağlığı arzulayıram.

X X X

Sonda dövlətimizin başçısı Heydər Əliyev Muzeyinin qarşısında rayon ictimaiyyətinin nümayəndələri ilə xatirə şəkli çəkdirdi.

AZƏRTAC
2008, 24 sentyabr

Zərifə Əliyeva Parkı Tovuzun yeni istirahət guşəsidir
(24 sentyabr 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də Tovuz rayonuna gəlmişdir.

Dövlətimizin başçısı əvvəlcə Tovuz şəhərində salınmış akademik Zərifə Əliyeva adına parkla tanış oldu, görkəmli oftalmoloq alimin abidəsi önünə gül dəstəsi qoydu. Tovuz şəhərindəki keçmiş mədəniyyət və istirahət parkı yenidən qurulduqdan sonra rayon ictimaiyyətinin arzusuna uyğun olaraq, ona akademik Zərifə xanım Əliyevanın adı verilmişdir. Ümumi sahəsi 1,2 hektar olan parkda müasir üslubda şəlalə, fəvvarələr, yay teatrı var. Parkda çoxlu ağac və gül kolları əkilmiş, yaraşıqlı oturacaqlar qoyulmuş, işıqlandırılma sistemi müasirləşdirilmişdir.

Prezident İlham Əliyev parkı gəzdi və burada yaxşı səliqə-sahman, sakinlərin istirahəti üçün gözəl şərait yaradıldığını vurğuladı.

AZƏRTAC
2008, 24 sentyabr

Tovuzda İdman Kompleksi tikilir

(24 sentyabr 2008-ci il

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Prezident İlham Əliyev sentyabrın 24-də Tovuz şəhərində idman kompleksinin tikintisi ilə tanış olmuşdur.

5,5 hektar sahədə yerləşəcək kompleksdə böyük idman salonu, üzgüçülük hovuzu, futbol, voleybol, basketbol meydançaları, tennis kortu, məşq otaqları, kotteclər, mehmanxana tikiləcəkdir. Burada beynəlxalq yarışların keçirilməsi üçün də şərait yaradılacaqdır. Gələn il istifadəyə verilməsi nəzərdə tutulan bu idman qurğusunun sifarişçisi Gənclər və İdman Nazirliyidir.

Prezident İlham Əliyev kompleksin xarici görünüşünün də yüksək səviyyədə olması, tikinti işlərinin keyfiyyətlə aparılması ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.

AZƏRTAC
2008, 24 sentyabr

Tovuzda Heydər Əliyev Muzeyi açılmışdır
(24 sentyabr 2008-ci il

AZƏRTAC-ın müxbiri xəbər verir ki, sentyabrın 24-də Tovuz şəhərində Heydər Əliyev Muzeyinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.

İkimərtəbəli, öz görkəmi ilə şəhərin mərkəzi meydanına xüsusi yaraşıq verən binanın ümumi sahəsi 200 kvadratmetrdən çoxdur.

Muzeydə ümummilli lider Heydər Əliyevin həyatının müxtəlif dövrlərini, eləcə də Tovuz rayonuna səfərlərini və keçirdiyi görüşləri əks etdirən fotoşəkillər, dahi şəxsiyyətə həsr olunmuş kitablar toplanmışdır. Burada ulu öndərin büstü də qoyulmuşdur.

Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

AZƏRTAC
2008, 24 sentyabr

Karvansara tipli qala kompleksi ilə tanışlıq

(24 sentyabr 2008-ci il

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Prezident İlham Əliyev sentyabrın 24-də Tovuz şəhərinin girəcəyində turizm marşrutuna daxil edilmək məqsədi ilə qədim memarlıq üslubunda tikilmiş karvansara tipli qala kompleksi ilə tanış olmuşdur.

Üçmərtəbəli kompleksin ümumi sahəsi 1560 kvadratmetrdir. Kompleks şəhərə gələn qonaqları və turistləri ətraflı məlumatlandırmaq baxımından və gəzintisi üçün çox maraqlıdır. Burada qədim zamanlardan bəri bu ərazidə yaşayan insanların istifadə etdiyi məişət əşyaları toplanmışdır.

Prezident İlham Əliyev qalanın içərisini gəzdi, 1813-1828, 1918-1920-ci illərə və müasir dövrə aid xəritələrə baxdı.

Dövlətimizin başçısına məlumat verildi ki, kompleks rayon ərazisindəki eramızdan əvvəl 1-ci minilliyə aid edilən Torpaqqalanın, IV əsrə aid Şəmşədil qalasının və VI əsrə aid Köhnəqala abidələrinin rəmzi bərpasıdır.

Prezident İlham Əliyev Tovuzun qədim tarixi və zəngin təbiəti olduğunu vurğulayaraq dedi ki, burada turizmin inkişafı üçün şərait yaradılması zəruridir.

Dövlətimizin başçısı qalanın önündə xatirə şəkli çəkdirdi.

AZƏRTAC
2008, 24 sentyabr

Tovuzda Müalicə-Diaqnostika Mərkəzinin təməli qoyulmuşdur
(24 sentyabr 2008-ci il

AZƏRTAC-ın müxbiri xəbər verir ki, sentyabrın 24-də Tovuz şəhərində Müalicə-Diaqnostika Mərkəzinin təməli qoyulmuşdur.

İnşaatçılar Prezident İlham Əliyevi hərarətlə qarşıladılar.

Dövlətimizin başçısı mərkəzin baş planı və fotoşəkilləri ilə tanış oldu.

Təxminən iki hektar ərazidə yerləşəcək və Azərbaycan Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikiləcək mərkəzin üçmərtəbəli binasında laboratoriya, qəbul, şüa-diaqnostika şöbələri, poliklinika, stasionar travmatologiya və homodializ şöbələri, cərrahiyyə bloku, anesteziologiya və reanimasiya şöbələri yerləşəcəkdir. Mərkəzin elektrik enerjisi ilə təminatı üçün yardımçı stansiyası, habelə yeməkxanası, ehtiyat su anbarı da olacaqdır. Tikinti işlərinin iki il müddətinə başa çatdırılması nəzərdə tutulur. Yeni tibb ocağı ən müasir avadanlıqla təchiz olunacaqdır. Həkimlər üçün ayrıca yaşayış binası da tikiləcəkdir. Yerli kadrların hazırlanması üçün Türkiyədən mütəxəssislər dəvət olunacaq və onlar da bu binada yaşayacaqlar.

Burada qərb bölgəsi üçün kardiocərrahiyyə mərkəzi də fəaliyyət göstərəcəkdir. Hazırda ölkəmizin digər rayonlarındakı müalicə-diaqnostika mərkəzlərində açıq ürək əməliyyatları aparılsa da, ayrıca kardiocərrahiyyə mərkəzləri Tovuzda və Cəlilabadda yaradılacaqdır.

Prezident İlham Əliyev Azərbaycanın bütün bölgələrində müalicə-diaqnostika mərkəzlərinin tikildiyini xatırlatdı və müasir standartlara cavab verən bu tibb müəssisələrində istənilən xəstəliyin birinci mərhələdə müayinəsinin mümkün olacağını vurğuladı. Bildirdi ki, bu rayondan da insanlar digər şəhərlərə getməyəcək, elə Tovuzda müalicə üçün hər cür şərait yaradılacaqdır.

Sonra dövlətimizin başçısı gilizi təmələ qoyaraq beton qarışığı tökdü və inşaatçıları təbrik etdi, Müalicə-Diaqnostika Mərkəzinin tikintisinin vaxtında və keyfiyyətlə başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi.

Bununla da Prezident İlham Əliyevin Tovuz rayonuna səfəri başa çatdı.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də Gəncə şəhərində və Kürdəmir rayonunda da olmuşdur.

AZƏRTAC
2008, 24 sentyabr

Gəncə şəhəri

2004, 16 iyun

- Azərbaycanın ikinci böyük şəhəri olan qədim Gəncə hərtərəfli inkişaf etməli və gözəlləşməlidir: Azərbaycan Prezidenti İlham Əliyevin Gəncəyə səfəri
- Böyük Nizaminin xatirəsinə ehtiram
- İmamzadə pirini ziyarət
- Cavad xanın məzarını ziyarət
- "Xan bağı"nda gəzinti
- "Gəncə şərab-2" Səhmdar Cəmiyyəti ilə tanışlıq
- Gəncə hava limani yenidən qurulacaqdır
- Gəncənin mərkəzi meydanı Ümummilli Liderimiz Heydər Əliyevin adını daşıyacaqdır
- Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Gəncədəki "N" hərbi hissəsinin şəxsi heyəti ilə görüşmüşdür: Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandani İlham Əliyevin nitqi

2005, 19 may

- Azərbaycan Prezidenti İlham Əliyevin Gəncəyə səfəri
- Ümummilli lider Heydər Əliyevin abidə-muzey kompleksinin tikintisi ilə tanışlıq
- Cavad xanın məqbərəsini ziyarət
- Şah Abbas məscidini ziyarət
- Dekorativ-tətbiqi sənət mərkəzi ilə tanışlıq
- Gəncədə Olimpiya İdman Kompleksinin üzgüçülük Hovuzunun tikintisi ilə tanışlıq
- Gəncə Gil-Torpaq İstehsalat Birliyi ilə tanışlıq
- Nizami Gəncəvinin Məqbərəsini ziyarət
- Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Gəncə və Goranboyda uşaq tərbiyə müəssisələrində olmuşdur
- Gəncə Şəhər İcra Hakimiyyətində müşavirə: Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi
- Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

2005, 11 oktyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Gəncəyə səfəri: Beynəlxalq hava limanının tikintisi ilə tanışlıq
- Ümummilli Lider Heydər Əliyevin abidə-muzey kompleksi ilə tanışlıq
- Gəncə Regional Müalicə-Diaqnostika Mərkəzinin təməli qoyulmuşdur: Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir
- Gəncə şəhəri ictimaiyyətinin nümayəndələri ilə görüş: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

2006, 31 oktyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə səfəri
- Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət
- Prezident İlham Əliyev "Jardin Royal" şokolad fabrikinin açılışında iştirak etmişdir
- Gəncənin gerbinə abidə qoyulmuşdur
- Gəncə Olimpiya İdman Kompleksinin üzgüçülük hovuzu istifadəyə verilmişdir
- Gəncə beynəlxalq hava limanının açılış mərasimi: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

2007, 31 may

- Gəncə qapıları şəhərin girişini bəzəyəcək, ikinci paytaxtın tarixi görkəmini özünə qaytaracaqdır
- 6 nömrəli orta məktəb simasını dəyişir
- Gəncənin baş meydanı daha yaraşıqlı olacaqdır

2008, 3 mart

- Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə səfəri: Ulu Öndərin abidəsini ziyarət
- Dahi Nizaminin xatirəsinə ehtiram
- Gəncə regional müalicə-diaqnostika mərkəzinin tikintisi ilə tanışlıq
- "Gəncə Sənaye Cihaz" fəaliyyətini genişləndirir

- "Daşkəsən Filizsaflaşdirma" ASC-nin Gəncə polad kompleksinin və Det-Al Alüminium zavodunun təməlqoyma mərasimi: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

2008, 24 sentyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə və Kürdəmir rayonuna səfəri: Gəncədə Müalicə-Diaqnostika Mərkəzi açılmışdır
- Şah Abbas Məscidi yeni görkəm almışdır
- Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət
- Şəhər ictimaiyyətinin nümayəndələri ilə görüş

Azərbaycanın ikinci böyük şəhəri olan qədim Gəncə hərtərəfli inkişaf etməli və gözəlləşməlidir
Azərbaycan Prezidenti İlham Əliyevin Gəncəyə səfəri
(16 iyun 2004-cü il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Şəmkirdən qədim Gəncəyə gəlmişdir.

İyunun 16-da dəmir yolu vağzalı qarşısındakı geniş meydana toplaşmış gəncəlilər Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Yol boyunca şəhər sakinləri Azərbaycan Prezidentini hərarətlə salamlayırdılar.

Dövlətimizin başçısı onlarla səmimi görüşür, qayğı və problemləri ilə maraqlanırdı.

Azərbaycan Prezidenti Gəncənin Heydər Əliyev prospektində dövlət rəmzləri təsvir olunmuş obeliskə baxdı.

AZƏRTAC
2004, 18 iyun

Böyük Nizaminin xatirəsinə ehtiram

(16 iyun 2004-cü il)

Prezident İlham Əliyev və xanımı dahi Azərbaycan şairi Nizami Gəncəvinin xatirə kompleksinə gəldilər.

Dövlətimizin başçısı şairin məqbərəsi önünə əklil qoydu. Sonra Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva dünya poeziyası dahisinin məzarını ehtiramla ziyarət etdilər.

Mədəniyyət naziri Polad Bülbüloğlu Azərbaycan Prezidentinə kompleksdə nəzərdə tutulan bərpa işləri barədə ətraflı məlumat verdi.

Respublikamızın rəhbəri bununla əlaqədar öz təkliflərini söylədi.

AZƏRTAC
2004, 18 iyun

İmamzadə pirini ziyarət

(16 iyun 2004-cü il)

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İmamzadə pirini də ziyarət etdi.

Pirin axundu hacı Tahir ziyarətgah haqqında ətraflı məlumat verdi, Allah-Təaladan Prezidentə cansağlığı dilədi, ümummilli lider Heydər Əliyevin ruhuna və Azərbaycan xalqının gələcək firavanlığı, ölkəmizin ərazi bütövlüyünün təmin olunması naminə dua etdi. Din xadimi dedi ki, cənab Prezident, Sizi Gəncədə çox sevirlər. Sizinlə fəxr edirik. Bizim şəhərimiz İlhamsevərlər şəhəridir.

Prezident İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

- Çox sağ olun. Gəncə də mənim üçün çox əziz, doğma şəhərdir. Mən burada dəfələrlə olmuşam. Gəncə bizim qədim şəhərimizdir, Azərbaycanın tarixidir. Müstəqil Azərbaycanın ikinci şəhəridir. Ona görə Gəncəyə xüsusi diqqət, münasibət olmalıdır. Abadlıq, quruculuq işlərini görəndə, yolların salınmasını, camaatın əhval-ruhiyyəsinin yüksəlməsini görəndə mən çox sevinirəm. Mən istəyirəm ki, bu şəhər daha da gözəlləşsin, abadlaşsın.

Bilirsiniz ki, son dövrdə burada birinci təzə binanı, idman kompleksini biz tikdik. İndi hava limanı tikiləcəkdir. Mən qərar qəbul etdim, bu məsələyə baxacağam. Yeni binalar, yaşayış binaları, mehmanxanalar tikiləcək, şəhər, necə deyərlər, öz qədimliyini, tarixi özəlliyini saxlamaq şərtilə müasirləşməlidir. Mən də çalışacağam ki, hamınızla birlikdə, gəncəlilərlə birlikdə buna nail olam. Sağ olun.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İmamzadə pirini gəzdilər, qurban kəsdirdilər və Azərbaycan naminə nəzir verdilər.

AZƏRTAC
2004, 18 iyun

Cavad xanın məzarını ziyarət
(16 iyun 2004-cü il)

Prezident İlham Əliyev daha sonra Azərbaycanın görkəmli dövlət xadimi, iki yüz il əvvəl çar Rusiyasının işğalçı qoşunları ilə döyüşdə qəhrəmancasına həlak olmuş Gəncə xanı Cavad xanın məzarını ziyarət etdi. Gəncə Regional Elm Mərkəzinin rəhbəri professor Fuad Əliyev həyatını Azərbaycanın müstəqilliyi uğrunda qurban verən qəhrəmanın qılıncının rəmzi surətini Prezidentə hədiyyə etdi və onun tarixi fəaliyyəti barədə danışdı.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Azərbaycan rəhbərinə Cavad xanın xatirəsinə ucaldılacaq məqbərənin layihəsi barədə məlumat verdi.

AZƏRTAC
2004, 18 iyun

“Xan bağı”nda gəzinti
(16 iyun 2004-cü il)

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı gəncəlilərin sevimli istirahət yeri olan “Xan bağı”na da getdilər, şəhər sakinləri ilə görüşdülər. Gəncəlilər Prezident İlham Əliyevi və Mehriban xanımı böyük hörmət və məhəbbətlə salamladılar.

Prezident İlham Əliyev bağı seyr etdi, burada istirahət edənlərlə bərabər çay süfrəsi arxasında söhbət etdi.

AZƏRTAC
2004, 18 iyun

“Gəncə şərab-2” Səhmdar Cəmiyyəti ilə tanışlıq

(16 iyun 2004-cü il)

Prezident İlham Əliyev daha sonra məhsulları xaricdə də yüksək qiymətləndirilən “Gəncə şərab-2” Səhmdar Cəmiyyətinə gəldi. Müəssisənin işçiləri dövlətimizin başçısını və onun xanımını hərarətli alqışlarla qarşıladılar.

Baş direktor Namiq Məmmədov müəssisənin fəaliyyəti, texnoloji prosesin müxtəlif mərhələləri, quraşdırılmış müasir avadanlıq barədə məlumat verərək dedi ki, burada yüksək keyfiyyətli məhsullar istehsal olunur. Hazırda bir neçə ölkə ilə müqavilələr imzalanmışdır. Xüsusilə Rusiyanın bir çox iri müəssisələri ilə qarşılıqlı əməkdaşlıq yaradılmışdır. Zavod bu yaxınlarda öz məhsulunu ABŞ-a göndərmək üçün müqavilələr bağlayacaqdır.

Azərbaycan Prezidenti məhsulun keyfiyyətinə nəzarət edilən zavod laboratoriyası ilə də tanış oldu, müəssisənin yaxınlığında yeni salınmış və 78 hektar sahəsi olan üzüm bağına da baxdı. Burada əkilmiş yüksək məhsuldarlığa malik sortun tingləri Fransadan gətirilmişdir.

Dövlətimizin başçısı razılığını bildirərək dedi ki, mən çox razıyam, Gəncədə belə bir müasir müəssisə fəaliyyət göstərir və inkişaf edir. Yeni iş yerlərinin açılması mənim siyasətimin əsas istiqamətlərindən biridir. Sizə bu yolda uğurlar arzulayıram.

Sonra Prezident İlham Əliyev üzüm bağlarının çoxaldılmasının vacibliyini vurğuladı və lazımi tövsiyələrini verdi, dövlət orqanlarının və yerli icra orqanlarının bu işdə sahibkarlara kömək etməsini bir daha xatırlatdı. Prezident bildirdi ki, gələcəkdə sahibkarlara böyük həcmdə kreditlər veriləcəkdir. Siz də böyük işlər görürsünüz, insanları işlə təmin edirsiniz, məhsulu xaricə ixrac edirsiniz. Bu, böyük göstəricidir. Bir var ki, məhsul ölkə daxilində istehlak olunsun, bir də var, xarici bazara çıxarılsın.

AZƏRTAC
2004, 18 iyun

Gəncə hava limani yenidən qurulacaqdır

(16 iyun 2004-cü il)

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında Gəncədəki hava limanının yenidən qurulması da nəzərdə tutulmuşdur. Prezident İlham Əliyev Gəncəyə səfəri zamanı bu məqsədlə hazırlanmış layihə ilə ətraflı tanış olmuşdur.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov layihəyə əsasən görüləcək işlər barədə ətraflı danışaraq bildirdi ki, yenidənqurma başa çatdırıldıqdan sonra Gəncə hava limanı genişləndiriləcək və beynəlxalq standartlara cavab verəcəkdir.

Prezident İlham Əliyev layihə ilə bağlı tapşırıqlarını və tövsiyələrini verdi.

AZƏRTAC
2004, 18 iyun

Gəncənin mərkəzi meydanı Ümummilli Liderimiz Heydər Əliyevin adını daşıyacaqdır

(16 iyun 2004-cü il)

Azərbaycan Prezidenti İlham Əliyev şəhər icra hakimiyyətində Gəncədə tikiləcək yeni yaşayış binalarının, ümummilli liderimiz Heydər Əliyevə ucaldılacaq abidənin layihələri ilə tanış olmuşdur.

İcra hakimiyyətinin başçısı Eldar Əzizov şəhərin Atatürk prospektində tikiləcək müasir yaşayış komplekslərinin layihə və maketləri əsasında ətraflı məlumat verdi. Prezident İlham Əliyev binalarda müasirliklə yanaşı, milli memarlıq üslubuna da diqqət yetirilməsinin vacibliyini bildirdi. Azərbaycan Prezidentinə ümummilli liderimiz Heydər Əliyevin icra hakimiyyətinin binası qarşısındakı meydanda ucaldılacaq abidənin layihəsi haqqında da geniş məlumat verildi. Heykəltəraş Şərif Şərifovun hazırladığı layihə ilə bağlı xalq rəssamı, akademik Ömər Eldarov təkliflərini söylədi.

Azərbaycan Prezidenti İlham Əliyev abidəni necə görmək istədiyi barədə fikirlərini bölüşdü.

İcra hakimiyyətinin başçısı E.Əzizov bildirdi ki, abidə ucaldıqdan sonra Gəncənin mərkəzi meydanı Azərbaycanın dahi oğlu Heydər Əliyevin adını daşıyacaqdır.

Sonra Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva abidənin ucaldılacağı yerə baxdılar.

AZƏRTAC
2004, 18 iyun

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Gəncədəki "N" hərbi hissəsinin şəxsi heyəti ilə görüşmüşdür

(16 iyun 2004-cü il)

Azərbaycan Prezidenti, Ali baş komandan İlham Əliyev iyunun 16-da Gəncədəki "N" hərbi hissəsində olmuşdur.

Gəncə qarnizonunun rəisi general-mayor Nizami Osmanov Ali baş komandana raport verdi.

Prezident, Ali baş komandan İlham Əliyev əsgərləri salamladı.

Respublikamızın dövlət himni səsləndi.

Sonra Ali baş komandan hərbi hissəyə döyüş bayraqlarını təqdim etdi, şəxsi heyəti bu münasibətlə təbrik etdi.

Əsgər və zabitlər hərbi marşın sədaları altında tribunanın qarşısından keçdilər.

Görüşü müdafiə naziri general-polkovnik Səfər Əbiyev açdı.

Müdafiə naziri general-polkovnik Səfər Əbiyevin çıxışı

- Möhtərəm Prezident, cənab Ali baş komandan!

Hörmətli generallar, zabitlər, gizirlər, çavuşlar və əsgərlər!

Bu gün Silahlı Qüvvələrimizin həyatında əlamətdar hadisə baş verir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev növbəti dəfə Silahlı Qüvvələrimizin hərbi hissələrindən birinin şəxsi heyəti ilə görüşə gəlmişdir. Bu hadisə onun Azərbaycan Silahlı Qüvvələrinə nə qədər böyük önəm və qiymət verdiyinə dəlalət edir. İnanıram ki, bu görüş sizin hər birinizin həyatında unudulmaz hadisə olacaq və həmişə xatirinizdə yaşayacaqdır.

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali baş komandanı cənab İlham Əliyevi sizin hər birinizin adından, Silahlı Qüvvələrin bütün şəxsi heyəti adından və şəxsən öz adımdan ürəkdən salamlayım.

Möhtərəm Prezident, cənab Ali baş komandan!

Siz bu il mayın 12-də Naxçıvanda hərbi hissədə döyüş bayraqlarını təqdim edərkən söylədiniz ki, yalnız ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə Azərbaycan rəhbərliyinə qayıdışından, Prezident vəzifəsinə seçilməsindən sonra ölkəmizdə ordu quruculuğunda dönüş yarandı. O ildən başlayaraq son 10 il ərzində ordumuz gücləndi, inkişaf etdi və bu gün demək olar ki, bizim ordumuz çox yüksək səviyyədədir. Qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Sizin sözünüzə qüvvət olaraq, iftixar hissi ilə deyirəm ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri ümummilli liderimiz Heydər Əliyevin doğma övladıdır.

Ümummilli liderimiz Heydər Əliyev milli dövlətçilik tariximizə elə dəyərli töhfələr vermişdir ki, onlar tarix durduqca yaşayacaqdır. Onlardan biri də 15 iyun Qurtuluş günüdür. Dünən bu dövlət bayramının 11 ili tamam oldu. İcazə verin, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini və Sizi – Ali baş komandanı bu bayram münasibətilə təbrik edim, işinizdə uğurlar arzulayım.

Əgər bu gün Azərbaycan Respublikasının bir mərkəzdən idarə olunan vahid komandanlığa tabe, qarşısında qoyulan bütün döyüş tapşırıqlarını yerinə yetirməyi bacaran Silahlı Qüvvələri vardırsa, biz buna görə yalnız ümummilli liderimiz Heydər Əliyevin böyük xatirəsinə minnətdarıq. O, bu məqsədə nail olmaq üçün bütün gücünü və qüvvəsini, hətta həyatını belə əsirgəmədi. Onun əməlləri, gördüyü işlər, qoyub getdiyi irs və yaratdığı dövlətçilik sistemi xalqımızı və müstəqil Azərbaycan dövlətini yeni-yeni uğurlara aparacaqdır.

İcazə verin, Azərbaycan Silahlı Qüvvələrinin memarı, əbədiyaşar Ali baş komandanımız Heydər Əliyevin xatirəsini əbədiləşdirmək məqsədi ilə Cəmşid Naxçıvanski adına hərbi litseyin Naxçıvan filialının əvəzinə Heydər Əliyev adına Naxçıvan hərbi litseyinin yaradılması və Azərbaycan Ali Hərbi Məktəbinə Heydər Əliyevin adının verilməsi haqqında Fərman imzaladığınıza görə, Silahlı Qüvvələrimizin şəxsi heyəti və Müdafiə Nazirliyinin rəhbərliyi adından Sizə sonsuz minnətdarlığımı bildirim.

Möhtərəm Prezident!

Cənab Ali baş komandan!

Qürur hissi ilə qeyd edirəm ki, Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali baş komandanı kimi Siz bu gün ümummilli liderimiz Heydər Əliyevin irsini yaşadır, bu siyasəti davam və inkişaf etdirirsiniz. Azərbaycan Silahlı Qüvvələrinə ardıcıl olaraq diqqət yetirir, dövlət qayğısını gücləndirir, onun günbəgün möhkəmlənməsi və sıralarının mətinləşməsi üçün əlinizdən gələni

əsirgəmirsiniz. Bu diqqət və qayğı Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini döyüş hazırlığında yeni-yeni nailiyyətlərə ruhlandırır. Ərazi bütövlüyümüzün bərpası və düşmən üzərində tam qələbə qazanmaq üçün inamını artırır.

Möhtərəm Prezident, cənab Ali baş komandan!

Məruzə edirəm ki, hazırda Azərbaycan Silahlı Qüvvələrinin və qoşun növlərinin şəxsi heyəti döyüş hazırlığı planı üzrə təlim keçir və döyüş qabiliyyətini gücləndirir. Silahlı Qüvvələrimiz öz təkmilləşdirmə dövrünü yaşayır. Hərbi xidmət daha da mükəmməlləşir. Maddi-texniki təminat və təchizat güclənmişdir. Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu planlı surətdə davam etdirilir, qoşunların döyüşə və səfərbərliyə hazırlığı, döyüş və mənəvi psixoloji hazırlığı, idarəetmə orqanlarının hazırlanması, kadrların hazırlanması və yerləşdirilməsi, maddi-texniki təminat, hazırlıq planı və digər genetik sənədlər əsasında gerçəkləşdirilir.

Silahlı Qüvvələrin bütün növlərində hərbi hissə və birləşmələrdə komanda qərargah təlimləri və real döyüş şəraitinə yaxınlaşdırılmış səhiyyə təlimləri planlı surətdə həyata keçirilir. Qoşunların döyüşə və səfərbərliyə hazırlığı yüksək səviyyədə saxlanılır. Zabitlərin peşə hazırlığının səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Əməliyyat hazırlığının gedişində qərargah zabitlərinin taktiki və əməliyyat vərdişləri durmadan təkmilləşir. Döyüşün planlaşdırılması və hərtərəfli təminatının təşkili üzrə möhkəm bacarıq və vərdişlər əldə edilir. Hərbi hissələrin və bölmələrin idarə edilməsi üzrə qərargahların qarşılıqlı əlaqəsi təkmilləşdirilir. Silahlı Qüvvələrin şəxsi heyətlə komplektləşdirilməsi Ali baş komandanın göstərişlərinə və Azərbaycan Respublikasının hərbi qanunvericilik aktlarının tələblərinə uyğun olaraq yerinə yetirilir.

Əsas komanda qərargah vəzifələrinə ali hərbi təhsilli, mənəvi-fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi olan peşəkar zabitlərin təyin edilməsi diqqət mərkəzindədir. Silahlı Qüvvələrin təhsil ocaqlarının müasir standartlara uyğun yeni proqramla hazırlanmış məzunlarının buraxılışları və bu işin daha da keyfiyyətlə həyata keçirilməsi üçün şərait yaratmışdır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin fəaliyyətinin əsas istiqamətlərindən biri onun beynəlxalq əlaqələrinin genişləndirilməsi və qabaqcıl dünya dövlətlərinin silahlı qüvvələrinin təcrübəsindən bəhrələnərək inkişaf etməkdən ibarətdir. Bu əməkdaşlığın bəhrəsi kimi, indi zabitlərimiz NATO-nun mənzil qərargahında və müxtəlif komandanlıqlarında xidmət edirlər. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tərkibində sülhməramlı tabur yaradılmışdır. Bu taburun bölmələri hazırda Kosovoda, Əfqanıstanda və İraqda sülhməramlı əməliyyatlarda öz missiyalarını yerinə yetirirlər. Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində keçirilən bütün tədbirlərdə fəal iştirak edirlər. Azərbaycan Respublikasında da NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində tədbirlər həyata keçirilir.

2001-ci ilin noyabrında Bakıda Kooperativ Determineyşn çoxmillətli sülhməramlı komanda qərargah təlimləri keçirilmiş, bu ilin sentyabr ayında isə "Kooperativ Vester Fovd" səhiyyə təlimləri keçiriləcəkdir. Azərbaycan NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlığı yüksək səviyyədə davam etdirir. Bu əməkdaşlığın nəticəsi kimi, Siz Brüsselə səfəriniz zamanı, mayın 19-da NATO-nun baş katibinə "Fərdi tərəfdaşlığın fəaliyyət planı"nı təqdim etmisiniz. Qeyd edim ki, Azərbaycan tərəfdaş dövlətlər arasında bu planı NATO-ya təqdim edən ilk dövlətlərdəndir.

Azərbaycan Silahlı Qüvvələrində idman işinin, fiziki hazırlığın və kütləvi idman tədbirlərinin geniş şəkildə həyata keçirilməsi hərbi qulluqçuların döyüş səriştəsinin, hərbi tətbiqi vərdişlərinin və ustalıqlarının artırılmasına xidmət edir. Bu il Afinada keçiriləcək yay Olimpiya oyunlarında Silahlı Qüvvələrimizin 9 nəfər nümayəndəsi respublikamızı təmsil edəcəkdir.

Möhtərəm Prezident, cənab Ali baş komandan!

Siz Azərbaycan dövlətinin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində ümummilli liderimiz Heydər Əliyevin siyasətini davam etdirirsiniz. Diqqətinizə çatdırıram ki, Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti Sizin həyata keçirdiyiniz daxili və xarici siyasəti dəstəkləyir. Vətən torpaqlarını erməni işğalçılarından təmizləmək uğrunda hər bir fədakarlığa hazırdır. Mən xalqımızı və Sizi əmin edirəm ki, hər bir əsgər, çavuş, gizir, zabit və general iradənizlə Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək üçün tərəddüd etmədən silaha sarılmağı öz həyatından üstün tutacaqdır. Çox sağ olun!

X X X

Azərbaycan Prezidenti görüşdə nitq söylədi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandani İlham Əliyevin nitqi

- Əziz əsgərlər, zabitlər, generallar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və seçdiyiniz şərəfli peşənizdə sizə uğurlar arzulayıram.

Dünən bütün Azərbaycan xalqı və onun Silahlı Qüvvələri Azərbaycanın dövlət bayramını – Milli Qurtuluş gününü qeyd edirdi. Bu bayram Azərbaycanda geniş qeyd olunurdu. Eyni zamanda, başqa ölkələrdə də qeyd edilirdi. Mən bu bayramı, ilk növbədə, dünən səhər Gürcüstanda olarkən, orada yaşayan soydaşlarımızla birlikdə qeyd etdim. Ondan sonra Azərbaycanın müxtəlif rayonlarında oldum. Qazax, Ağstafa, Tovuz, Şəmkir rayonlarında oldum və bu bayramı yerli əhali ilə birlikdə qeyd etdik.

Həqiqətən, iyunun 15-i Azərbaycan tarixində çox önəmli yer tutur. Məhz 1993-cü il iyunun 15-də ümummilli liderimiz Heydər Əliyev xalqın tələbi ilə Azərbaycana rəhbərliyə qayıtmışdır. Azərbaycan o vaxt çox çətin dövr yaşayırdı.

Azərbaycan, demək olar ki, uçurum kənarında idi, ölkədə xaos, anarxiya, hərc-mərclik, özbaşınalıq hökm sürürdü. İqtisadiyyat böhran içində idi. İldən-ilə iqtisadi tənəzzül müşahidə olunurdu və 1993-cü ildə artıq kritik həddə çatmışdı. Siyasi, iqtisadi, hərbi böhran Azərbaycanı çox çətin vəziyyətə salmışdı. Əgər 1993-cü ilin iyun ayında xalq öz müdrikliyini göstərməsəydi, öz liderinə üz tutmasaydı və Heydər Əliyevi hakimiyyətə dəvət etməsəydi, ölkəmizin gələcəyi sual altında olardı. Xalqımızın lideri bu ağır yükü öz üzərinə götürdü. Ölkəmizdə sabitlik yarandı, qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi, asayiş bərpa olundu, qardaş qırğınının qarşısı alındı, müharibə dayandırıldı. Azərbaycan inkişaf etməyə başladı. Son 11 il ərzində ölkəmiz bütün sahələrdə böyük uğurlara nail olmuşdur. Bütün bu uğurlar xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Ölkəmiz beynəlxalq aləmin çox dəyərli üzvünə çevrildi. Azərbaycanın beynəlxalq nüfuzu ildən-ilə artır. Bu gün beynəlxalq təşkilatlarda bizə göstərilən münasibət, diqqət bir daha göstərir ki, 1993-cü ildə Heydər Əliyev tərəfindən seçilən siyasi strategiya böyük uğurlar gətirmişdir.

Azərbaycan iqtisadi cəhətdən gücləndi, ölkəmiz böyük iqtisadi layihələr həyata keçirməyə başladı. Bunun nəticəsində bütün qonşu dövlətlərlə müqayisədə deyə bilərik ki, Azərbaycan liderliyini saxlayır, əldən vermir və bunu daha da gücləndirir. Bu, təkcə bizim deyil, bütün beynəlxalq təşkilatların rəyidir. Azərbaycana gələn xarici qonaqların rəyidir. Ölkəmiz ildən-ilə gözəlləşir, güclənir, abadlaşır. Azərbaycanda sosial problemlər öz həllini tapır. Bu istiqamətdə hökumət böyük işlər görür. Ən çətin vəziyyətdə yaşayan, Ermənistan təcavüzündən əziyyət çəkən soydaşlarımız - qaçqınlar, köçkünlər böyük diqqətlə əhatə olunurlar. Onların çoxlu problemləri vardır, amma, biz çalışırıq ki, bunları aradan qaldıraq. Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qaçqınlara, köçkünlərə yardımlar edilir, onlar üçün yeni müasir qəsəbələr, şəhərciklər salınırdı. Bu siyasət davam edir.

Son on il Azərbaycana bütün sahələrdə böyük xeyirlər gətiribdir. Bizim vəzifəmiz, bizim məqsədimiz bu uğurlu meylləri inkişaf etdirmək, Azərbaycanı hərtərəfli inkişaf etdirmək, gücləndirməkdir. Heydər Əliyevin neft strategiyası Azərbaycana artıq böyük faydalar verdi, xeyirlər gətirdi. Bunun hesabına Azərbaycanın iqtisadi potensialı güclənir və heç kəs üçün sirr deyil ki, iqtisadi potensial gücləndikcə ölkənin ordu potensialı da güclənir. Hər şey iqtisadiyyatdan asılıdır, hər şey iqtisadi durumdan asılıdır. Ona görə bizim başlıca vəzifəmiz iqtisadiyyatımızı şaxələndirmək, hərtərəfli inkişaf etdirmək, Azərbaycanı daha da gücləndirməkdir. Bu istiqamətdə son aylar ərzində çox önəmli addımlar atılmışdır. Qəbul edilmiş sosial-iqtisadi və regional inkişaf proqramları uğurla həyata keçirilir. Mən çox şadam ki, ilk növbədə, bu, regionlarda özünü daha açıq-aydın göstərir, büruzə verir. Bizim məqsədimiz də məhz budur, Azərbaycanın hər bir bölgəsini inkişaf etdirməkdir. Etdiyim səfərlər çərçivəsində bir daha əmin oluram ki, Azərbaycana böyük hörmət var, Azərbaycanla dünyada hesablaşırlar, Azərbaycana hörmət edirlər, beynəlxalq aləmdə Azərbaycanın nüfuzu artır. Eyni zamanda, ölkə daxilində də bu istiqamətdə, iqtisadi inkişaf istiqamətində böyük işlər görülür, bölgələrdə yeni iş yerləri açılır. Bilirsiniz ki, iş yerləri açılması bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Bu istiqamətdə artıq böyük işlər görülübdür. Ordu quruculuğunda böyük işlər görülübdür. Heç kəs üçün sirr deyil ki, Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndə Azərbaycanda, demək olar ki, ordu yox idi. Ayrı-ayrı silahlı birləşmələr vardı və onların bir hissəsi hansısa siyasi qüvvələrin təsiri altında idi, bəziləri isə fərdi qaydada əməliyyatlarda iştirak edirdi. Ordu quruculuğu və bu istiqamətdə əldə edilmiş uğurlar ölkəmizə imkan verib ki, bu gün

Azərbaycanın nizamlı, güclü ordusu var. Orduda peşəkarlıq artır, ordunun maddi-texniki bazası güclənir və biz böyük planlar həyata keçirəcəyik. Ordumuzun maddi-texniki bazası bundan sonra daha da möhkəmlənəcəkdir. Azərbaycanın buna imkanları var və orduya diqqət, orduya qayğı bizim əsas məsələmizdir.

Mən Azərbaycanın qarşısında heç bir ciddi problem görmürəm. Qeyd etdiyim kimi, ölkəmiz beynəlxalq aləmdə nüfuz qazanıb, beynəlxalq təşkilatların dəyərli üzvünə çevrilibdir. Bütün etdiyim xarici səfərlər məni bir daha əmin etdi ki, ölkəmiz düz yoldadır. Xarici siyasətimiz düz istiqamətdə qurulub, aparılır. İqtisadi baxımdan ölkəmiz nəinki bölgədə, MDB məkanında və bəzi Şərqi Avropa ölkələri ilə müqayisədə daha da inamla, daha da sürətlə inkişaf edir. Bütün beynəlxalq maliyyə qurumları bunu görür və təsdiqləyir. Bu baxımdan da Azərbaycanın qarşısında heç bir problem yoxdur. Uğurlu neft strategiyasının tərkib hissəsi kimi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsi nəticəsində Azərbaycana böyük həcmdə maliyyə resursu daxil olacaqdır. Bu da öz növbəsində imkan verəcəkdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin. Azərbaycanda sosial problemlər həll olunur, əmək haqları, pensiyalar artırılır, bu istiqamətdə daha da ciddi addımlar atılacaqdır. O cümlədən orduda qulluq edən şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində çox önəmli addımlar atılacaqdır. Bu, bizim strateji hədəfimizdir. Ölkəmiz bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir, iqtisadiyyatımız liberal iqtisadiyyatdır, amma eyni zamanda, sosial problemlərə böyük diqqət göstərilir. Azərbaycanda sosial ədalət prinsipləri qorunur və ən çətin, ən ağır vəziyyətdə yaşayan insanlara bundan sonra da kömək göstəriləcəkdir. Bilirsiniz ki, yoxsulluqla, işsizliklə mübarizə fəal gedir və mən əminəm ki, gələn 5 il ərzində bu məsələ öz müsbət həllini tapacaqdır.

Bir sözlə, ölkəmiz qarşısında heç bir ciddi məsələ yoxdur, qonşularımızla ikitərəfli münasibətlər də çox yüksək səviyyədə qurulubdur. Azərbaycanın qarşısında bir məsələ var – bu da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Ermənistanın təcavüzü nəticəsində torpaqlarımız işğal altındadır. Bir milyon qaçqın, köçkünümüz var. Siz bilirsiniz ki, Azərbaycan hökuməti bu məsələni sülh yolu ilə həll etmək istəyir. Amma, əfsuslar olsun ki, bu günə qədər aparılmış danışıqlar heç bir nəticə vermir. Bu məsələ ilə bilavasitə məşğul olan, vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk qrupunun fəaliyyəti, təəssüflər olsun ki, heç bir səmərə vermir. Biz bir daha qeyd etmək istəyirik ki, sülh danışıqlarının aparılmasına tərəfdarıq. Amma, əlbəttə ki, bunun da bir həddi olmalıdır. Azərbaycan xalqının səbri tükənməz deyildir. Mən bunu dəfələrlə, o cümlədən beynəlxalq tribunalardan bəyan etmişəm ki, Azərbaycan heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını azad edəcəkdir. Bunu etmək üçün cəmiyyətdə səfərbərlik olmalıdır. Gənclərimiz, əsgərlərimiz vətənpərvərlik ruhunda tərbiyə edilməlidirlər. Ölkəmiz hərtərəfli inkişaf etmiş ölkəyə çevrilməlidir. Bizim iqtisadi potensialımız güclənməlidir. Sizə deyə bilərəm ki, bu gün Azərbaycanın iqtisadi potensialı Ermənistanın iqtisadi potensialından bir neçə dəfə üstündür. Azərbaycanın dövlət büdcəsi Ermənistandakından 3 dəfə böyükdür və ümid edirəm ki, 2005-ci ildə bu, 4 dəfə çox olacaqdır. Azərbaycanda gördüyümüz işlər, aparılan iqtisadi islahatlar nəticəsində bizim iqtisadi potensialımız daha da güclənəcəkdir. Orduya hər il ayrılan xərclər artır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Mən bəyan edirəm ki, orduya xərclənən vəsait bundan sonra artacaqdır, biz ordumuzun maddi-texniki bazasını daha da gücləndirməliyik. Bütün bunları etmək üçün bizdə imkanlar var, iqtisadi imkanlar yaranır, güclənir. Siyasi iradə var, Azərbaycanda sabitlik var. Ötən ilin oktyabr ayında keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı öz seçimini birmənalı şəkildə ifadə edibdir. Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Bu gün Azərbaycan xalqının dəstəyi mənim üçün çox önəmlidir. Bir Prezident kimi bir Ali baş komandan kimi, mən bu dəstəyə güvənirəm, arxalanıram və əminəm ki, bizim cəmiyyətimiz, hər bir vətəndaşımız bu istiqamətdə daha da fəal rol oynayacaqdır.

Siz bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin keçmişdə, hələ ötən əsrin 70-ci illərində də orduya diqqəti böyük idi. Baxmayaraq ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi, müttəfiq respublika idi, amma məhz Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb yaradılmışdı.

Demək olar ki, bu, çox nadir bir hadisə idi. Çünki digər respublikalarda belə məktəblər yox idi. Mərkəzi hökumət, Sovet İttifaqı Kommunist Partiyası bu məsələyə o qədər də müsbət baxmırdı. Heydər Əliyev buna böyük çətinliklə müvəffəq olmuşdu. Naxçıvanski adına məktəb bu gün də Azərbaycana xidmət edir. Yəqin ki, xalqımızın lideri o vaxt da Azərbaycanı müstəqil dövlət kimi görürdü. Bu gün ordumuzda xidmət edən zabitlərin bir çoxu Naxçıvanski adına məktəbin məzunlarıdır.

Xatırlayırsınız ki, məhz Naxçıvanski adına məktəbin 30 illiyi qeyd edilərkən, xalqımızın ümummilli lideri əsgərlər, zabitlər, generallar qarşısında çıxış edərkən onun səhhətində problemlər yaranmışdı. O, iki dəfə öz nitqini dayandırmışdır. Amma bütün buna ciddi baxmayaraq o, iki dəfə kürsüyə qayıtmış, öz nitqini başa çatdırmışdı. Budur, bizim hamımız üçün nümunə, budur, bizim hamımız üçün örnək. Bu fədakarlıq, bu cəsarət, bu siyasi iradə bizim hamımız üçün böyük örnək, nümunə olmalıdır. Biz hamımız çalışmalıyıq ki, xalqımızın ümummilli lideri Heydər Əliyevə oxşayaq, onun yolu ilə gedək. Azərbaycan xalqı bu istiqamətdə böyük işlər görür, bu siyasəti birmənalı şəkildə dəstəkləyir.

Mən əminəm ki, gələn illərdə Azərbaycan özünün ən ağrılı, ən çətin problemini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll edəcəkdir. Bu münaqişə yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bəzən səslər eşidilir ki, bu məsələdə kompromis olmalıdır. Azərbaycan heç bir dövlətin torpağını zəbt etməyibdir. Özünə məxsus olmayan heç bir bölgəni işğal etməyib ki, hansısa kompromisə getsin. Bu məsələdə, torpaq məsələsində heç bir kompromisdən söhbət gedə bilməz. Bunu başqa tərəf nə qədər tez anlasa, o qədər də yaxşı olacaqdır. Mən əminəm ki, biz bu məsələni həll edəcəyik. Azərbaycan güclü dövlətdir, inkişaf edir, bu, bizə məsələni həll etməyə imkan verəcəkdir.

Əziz əsgərlər, zabitlər, generallar!Siz Gəncə şəhərində xidmət edirsiniz. Gəncə Azərbaycanın qədim şəhəridir, gözəl diyarıdır. Azərbaycanın ikinci şəhəridir və Gəncəyə böyük diqqət, qayğı göstərilir. Son illər ərzində Gəncədə aparılan quruculuq, abadlıq işləri hamımızı çox sevindirir. Mən keçmişdə də Gəncədə dəfələrlə olmuşam. Prezident seçkiləri ərəfəsində, ondan əvvəlki dövrlərdə də olmuşam. Çox istəyirdim ki, Gəncədə quruculuq, abadlıq işləri getsin. Sizə deyə bilərəm ki, uzun fasilədən sonra Gəncədə ilk böyük tikili məhz Milli Olimpiya Komitəsi tərəfindən inşa edilmişdir. 2002-ci ildə Milli Olimpiya Komitəsi Gəncədə böyük idman kompleksini tikib istifadəyə vermişdir. Bu, Milli Olimpiya Komitəsinin Gəncəyə etdiyi hədiyyə idi. Bu addımla biz bütün digər qurumlara da işarə etdik ki, Gəncəyə diqqət göstərilməlidir. Burada yaşayan insanlara diqqət göstərilməlidir. Bu gün çox şadam, çox sevinirəm, görürəm ki, Gəncə öz simasını dəyişibdir. Burada yeni yollar salınır, yeni müəssisələr tikilir, dayanmış müəssisələr öz fəaliyyətini bərpa edir. Sosial infrastruktur qurulur, digər məsələlər öz həllini tapır. Gəncə hava limanının yenidən qurulması üçün önəmli addımlar atılmışdır. Gəncə hərtərəfli inkişaf etməlidir. Azərbaycanın ikinci şəhəri daha da gözəlləşməlidir. Mən bilirəm ki, siz - burada xidmət edən əsgərlər Gəncəni sevirsiniz. Bu, gözəl şəhərdir. Burada yaşayan insanlar da Azərbaycan cəmiyyətinin dəyərli üzvləridir. Azərbaycan dövlətçiliyinə gəncələlərin töhfəsi böyük olmuşdur. Mən sizi bir daha ürəkdən salamlayıram. Sizə seçdiyiniz şərəfli peşənizdə uğurlar arzu edirəm. Vətən uğrunda xidmətlərinizdə uğurlar arzulayıram.Sağ olun!

X X X

Sonra Ali baş komandan xidmətdə fərqlənən hərbçilərin bir qrupuna qiymətli hədiyyələr təqdim etdi. Prezident İlham Əliyev hərbi hissə ilə tanış oldu, texnikaya, əsgərlərin nümunəvi çıxışlarına baxdı, şəraitlə maraqlandı, yeməkxanada əsgərlərlə birlikdə nahar etdi. Ali baş komandan hərbi hissədə görülən işləri yüksək qiymətləndirdi.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 16-da axşamüstü Bakıya qayıtdı.

AZƏRTAC
2004, 18 iyun

Azərbaycan Prezidenti İlham Əliyevin Gəncəyə səfəri

(19 may 2005-ci il)

Azərbaycan Prezidenti Gəncə havalimanında gedən yenidənqurma işləri ilə tanış oldu. "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov məlumat verdi ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində Gəncə hava limanının beynəlxalq standartlar səviyyəsində yenidən qurulması layihəsinin dəyəri 39,5 milyon dollardır. Yenidənqurma işlərində 1000-1500 nəfər çalışacaqdır.

Konsernin baş direktoru daha sonra bildirdi ki, 1996-cı ildə beynəlxalq status verilmiş Gəncə havalimanı müasir tələbləri ödəmir. 1964-cü ildən istismar olunan uçuş-enmə zolağı orta tipli təyyarələr üçün nəzərdə tutulub, sovet dövründə qurulmuş işıqlandırma-siqnalizasiya sistemi, radio naviqasiya və meteoroloji avadanlıqlar tamamilə köhnəlmişdir. Yeni zolağın uzunluğu 3 min metr olacaq və ağır tipli təyyarələri qəbul etməyə imkan verəcəkdir. Hava limanının bütün texniki avadanlığı yeniləşdiriləcək, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaqdır. 2006-cı ilin mayında hava limanında tikinti işləri başa çatdırılacaq, istifadəyə verildikdən sonra 200-dən çox iş yeri açılacaqdır. Buradan A-319 aerobusları və AN-140 təyyarələri ilə Moskvaya, Kiyevə, Sankt Peterburqa, Bakıya, Naxçıvana, Təbrizə, Qarsa, Rostova, Volqoqrada və Mineralnıye Vodı şəhərlərinə uçuşların təşkili nəzərdə tutulur. Zəruri hallarda İL-76 və AN-12 təyyarələri ilə yükdaşımaları da həyata keçiriləcəkdir. Azərbaycanda fəaliyyət göstərən xarici avia şirkətlərə Gəncə havalimanından müxtəlif reyslər açmaq təklif olunacaqdır. Gəncə havalimanı həm də Avropa və Asiyaya uçuşları həyata keçirən Azərbaycanın və xarici dövlətlərin aviaşirkətlərinin təyyarələri üçün transit və ehtiyat havalimanı kimi istifadə ediləcəkdir.

Prezident İlham Əliyev uçuş-enmə zolağına, havalimanının yeni layihəsinə baxdı.

AzərTAc

Azərbaycan.- 2005.- 20 may.-№ 114 .- S. 1.

Ümummilli lider Heydər Əliyevin abidə-muzey kompleksinin tikintisi ilə tanışlıq
(19 may 2005-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 19-da Gəncənin baş meydanında ümummilli liderimiz Heydər Əliyevin abidə-muzey kompleksinin tikintisi ilə tanış oldu. Dövlətimizin başçısına məlumat verildi

ki, tikinti işləri hələ davam edir. 3 hektar sahəni əhatə edən meydanın hələlik bir hissəsində yenidənqurma işləri aparılmışdır. Təsdiq olunmuş layihəyə əsasən burada ulu öndərin 4 metrlik postament üzərində 7 metr hündürlüyündə heykəli ucaldılacaqdır. Abidənin müəllifi tanınmış heykəltəraş Şərif Şərifovdur. Kompleksdə dahi şəxsiyyətin ömür yolundan bəhs edən muzey yaradılmışdır. Prezident İlham Əliyev muzeydə ulu öndərin həyatının bütün dövrlərini, siyasi fəaliyyətini, respublikamıza və xarici ölkələrə səfərlərini əks etdirən şəkillərə baxdı.

AzərTAc

Azərbaycan.- 2005.- 20 may.-№ 114 .- S. 2.

Cavad xanın məqbərəsini ziyarət
(19 may 2005-ci il)

Mayın 19-da Prezident İlham Əliyev və xanımı işğalçılara qarşı mübarizədə qəhrəmancasına həlak olmuş Cavad xanın xatirəsinə ucaldılmış məqbərəni ziyarət etdilər. Məqbərənin qarşısında professor Mübariz Yusifov və xalq artisti Şahnaz Haşımova dövlətimizin başçısını və onun xanımını səmimiyyətlə salamladılar, Azərbaycan ziyalılarına elm, ədəbiyyat,

mədəniyyət, incəsənət işçilərinə göstərdiyi diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirdilər.

Azərbaycan Prezidentinə xatirə olaraq, Heydər Əliyev Fondunda saxlanılması üçün Gəncənin Cavad xan dövründəki emblem hədiyyə olundu. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Cavad xanın məzarı üzərinə gül

qoydular. Məqbərədə son tamamlama işləri başa çatdırılmışdır. Aran memarlıq məktəbinə xas üslubda, əsasən qırmızı kərpicdən və taxta şəbəkədən istifadə edilməklə ucaldılan məqbərəni yerli sənətkarlar tikmişlər.

AzərTAc

Azərbaycan.- 2005.- 20 may.-№ 114 .- S. 3.

Şah Abbas məscidini ziyarət

(19 may 2005-ci il)

Prezident İlham Əliyev mayın 19-da Gəncənin müqəddəs yerlərindən olan Şah Abbas məscidini ziyarət etdi. Burada dövlətimizin başçısına Qurani-Kərim hədiyyə olundu. Məscidin axundu məlumat verərək bildirdi ki, 1606-cı ildə azərbaycanlı alim və memar Şeyx Bəhaəddin tərəfindən tikilmiş və xalq arasında Şah Abbas məscidi adlanan bu cümə məscidi Azərbaycan memarlığının ən gözəl nümunələrindəndir. 1985-ci ildə burada bərpa işləri aparan erməni ustaları qədim memarlıq elementlərinin izini itirməyə çalışmışlar. Günün istənilən saatında məscidin içərisinə düşən günəş şüasının qarşısını almaq üçün mühüm pəncərələri bağlamışlar. Hazırda əvvəlki vəziyyətində bərpa olunmuşdur.

Rus qoşunları Gəncəyə hücuma hazırlaşarkən Cavad xan buradan şəhər əhalisinə müraciətlər edərmiş. Axund dindarlara, Gəncəyə göstərdiyi diqqətə, məscid binasının dam örtüyünün təmirinə köməyinə görə Prezidentə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev məscidin otaqlarına, buradakı qədimi əşyalara baxdı, çil-çıraqların köhnəldiyini vurğulayaraq, məscidə kifayət qədər çil-çıraq hədiyyə edəcəyini söylədi. Gəncənin baş axundu Hacı Tahir dövlətimizin başçısına müraciətlə dedi:

- Cənab Prezident, mən millət adından danışan bəzi insanlara deyirəm: ey nankorlar, haqqı görməyi bacarın. Onları buradan, Allahın evindən haqqa dəvət edirəm. Bütün gəncəlilər ürək sözlərini Sizə çatdırmağı məndən xahiş ediblər.

Onlar Sizə ona görə təşəkkür edirlər ki, Gəncəni abadlaşdırırsınız, Cavad xanın məqbərəsi, türbələr tikilmiş, küçələr abadlaşmış, iş yerləri açılmışdır, böyük tikinti, quruculuq işləri gedir. Bunlar məhz Sizin xidmətinizdir.

Allah Sizi yetirən o ataya, o ali rəhbərimizə, o böyük liderimizə, o böyük öndərimizə rəhmət eləsin, ruhu şad olsun!

Allah Taala Sizi xəta və bəlalardan hifz etsin. Sizə Vətənimiz, Azərbaycanımız, azadlıq və istiqlaliyyətimizin möhkəmlənməsi naminə, Qarabağ torpağının alınması uğrunda fəaliyyətinizdə, balalarımızın gələcəyi, üç rəngli bayrağımızın daim ucalması, qüdrətli ordumuzun yaranması naminə uğurlar diləyirik.

Mən bəzi ünsürlərə üzümü tutub deyirəm ki, biz gəncəlilər onları 1992-1993-cü illərdə yaxşı tanıdıq.

Bu gün Azərbaycanı yenidən iğtişaşlara, qırğınlara, ölkəmizi geriyə sürükləmək istəyənlərə ar olsun.

Amerikada olan erməni mafiyası bu gün də Azərbaycanda fəaliyyət göstərən bəzi müxalifət liderlərinin əli ilə respublikamızda qarışıqlıq salmaq istəyir. Biz onlara nifrət edirik. Qarabağ müharibəsi iştirakçılarının, qəhrəman Cavad xan yetirmələrinin, mərd oğul və qızlarımızın adından deyirəm ki, onlar tövbə etməli, haqqı görməlidirlər. Yaradan Allah Sizə qüvvət versin, xalqımıza bərəkət versin, millətimizi bütün bəlalardan saxlasın! Uca qamətli, qürurlu və vüqarlı, dünyaya səsimizi çatdıran Prezidentimizi hifz etsin! Qoy mənim bütün duama Azərbaycan xalqı amin desin!

Biz hamımız Sizin əsgərinizik.

Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva məscidin xidmətçiləri ilə xatirə şəkli çəkdirdilər.

AzərTAc

Azərbaycan.- 2005.- 20 may.-№ 114 .- S. 3.

Dekorativ-tətbiqi sənət mərkəzi ilə tanışlıq

(19 may 2005-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev Gəncədəki dekorativ-tətbiqi sənət mərkəzində də oldu, XII əsrə aid müxtəlif eksponatlara, yerli ustaların burada hazırladıqları sənət nümunələrinə baxdı. Dövlətimizin başçısına məlumat verildi ki, mərkəz qədim el sənətini yaşadır, keçmişin nümunələrini bərpa edib gələcək nəsillərə çatdırır.

Mərkəzin direktoru Qalib Bağırov dövlətimizin başçısına suvenir xəncər təqdim edərək, balaca Heydərə çatdırmağı xahiş etdi.

***

Yol boyu Azərbaycan Prezidentinin pişvazına çıxan gəncəlilər dövlətimizin başçısını böyük hörmət və ehtiramla, "İlham, İlham!" nidaları ilə salamlayırdılar. Prezident İlham Əliyev maşından düşərək şəhər sakinləri ilə səmimi görüşdü, problemləri ilə maraqlandı, şikayətlərini dinlədi, onları narahat edən hər bir məsələnin araşdırılıb tədbir görüləcəyini bildirdi. Şəhər sakinləri Prezidentə minnətdarlıq dolu ürək sözlərini çatdırdılar, xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərini xatırladaraq, onun Gəncəyə göstərdiyi diqqət və qayğısının unudulmayacağını söylədilər, ulu öndərin layiqli davamçısına Allahdan uzun ömür, can sağlığı arzuladılar.

AzərTAc

Azərbaycan.- 2005.- 20 may.-№ 114 .- S. 3.

Gəncədə Olimpiya İdman Kompleksinin üzgüçülük Hovuzunun tikintisi ilə tanışlıq
(19 may 2005-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin iştirakı və xeyir-duası ilə fəaliyyətə başlamış Gəncə Olimpiya İdman Kompleksində üzgüçülük hovuzunun tikintisi ilə tanış oldu. Kompleksin direktoru Sahib Rzayev məlumat verdi ki, kompleksin genişləndirilməsi Azərbaycan Milli Olimpiya Komitəsinin regionlarda idmanın inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır. Yeni korpusun layihəsində idmançılar üçün 25 nəfərlik istirahət otaqları, kafe və həkim otağı və sair də nəzərdə tutulmuşdur. Tikinti işlərini aparan AZƏRSUN Holdinq şirkəti obyekti ilin axırınadək istifadəyə verməyi qərara almışdır.

Prezident İlham Əliyev tikintinin gedişi ilə tanış oldu və dedi ki, gənclərdə üzgüçülüyə çox böyük maraq var. Elə təşkil edin ki, hovuzdan hamı istifadə edə bilsin. Əlbəttə, idmançılar burada məşğul olacaqlar, eyni zamanda gərək əhali də, yəni kim istəyirsə istifadə etsin. Dövlətimizin başçısı kompleksin ətrafındakı binaların təmir olunması barədə də müvafiq tapşırıqlar verərək dedi ki, bir halda burada gözəl binalar tikilir, ətraf binaları da təmir etmək lazımdır. Olimpiya kompleksinin genişləndirilməsi ilə bağlı nə problem olsa, Milli Olimpiya Komitəsinə müraciət edin, həll etsinlər.

Prezident İlham Əliyev burada beş ulduzlu hotelin tikilməsi təşəbbüsünü də yüksək qiymətləndirdi.

AzərTAc

Azərbaycan.- 2005.- 20 may.-№ 114 .- S. 3.

Gəncə Gil-Torpaq İstehsalat Birliyi ilə tanışlıq

(19 may 2005-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev Gəncənin ən böyük müəssisəsi olan Gil Torpaq İstehsalat Birliyinə gəldi. Müəssisənin kollektivi dövlətimizin başçısını gül-çiçəklə qarşıladı. Birliyin icraçı direktoru Əli Özkurt "Tərəqqi" medalı ilə təltif edildiyinə görə Prezidentə təşəkkür etdi və müəssisənin işi barədə məlumat verərək dedi ki, hazırda gün ərzində 900 ton alüminium oksidi istehsal olunur. İl ərzində istehsal 450 min tona çatacaq ki, bu da sovet dövründəkindən çoxdur. 2000-ci ilə qədər əla keyfiyyətli məhsul istehsal etmək mümkün olmamışdır.

Amma bu il yüz faiz keyfiyyətli məhsul ixrac edirik. Prezident İlham Əliyev verilən məlumatdan razılığını bildirərək dedi ki, bu məni çox sevindirir. Mən hər dəfə belə gözəl dəyişiklikləri görəndə çox sevinirəm. Sizin fəaliyyətinizdən çox razıyam.

Ona görə size "Tərəqqi" medalı ilə təltif etdim. 2003-cü ildə buraya gəlmişdim, onda çox şey dəyişməmişdi, lakin il yarım keçib, vəziyyət başqadır. Bax, inkişaf budur.

Dövlətimizin başçısı fəhlələrlə səmimi görüşüb, onların vəziyyəti ilə maraqlandı. Onlar dedilər ki, burada görülən bütün işlər Sizin qayğınızın nəticəsidir. Müəssisəyə sərmayə qoyulduqdan sonra istehsal 1,6 dəfə artmışdır. Bu, çox böyük göstəricidir. Aprel ayından əmək haqqımız 850-900 min manat olmuşdur. Xatirimizdədir, 2000-ci ildə ümummilli liderimiz zavodumuzda əməkçilər qarşısında çıxışında demişdi ki, sizin zavodunuz gələcəkdə yaxşı olmalıdır. Sizin sayənizdə zavodumuz Avropa standartlarına uyğundur. Gələcəkdə bundan da yaxşı olacaqdır. İnşallah, növbəti dəfə gələndə bundan da yaxşı görəcəksiniz. Hazırda pulsuz yeməklə təmin olunmuşuq, pulsuz nəqliyyat da veriləcəkdir.

Demək olar, sosial problemlərimiz həll olunub, maaşımız vaxtında verilir, elə bir çətinliyimiz yoxdur. Sizin bütün daxili və xarici siyasətinizi dəstəkləyirik, həmişə Sizinlə bir yerdəyik. Bütün respublikamızda gedən quruculuq işlərini görürük.

Gəncə son dövrdə tam dəyişibdir. Gördüyünüz işlər hamı tərəfindən yüksək qiymətləndirilir.

İlham ƏLİYEV:

Çox gözəl, çox razıyam. Gərək hər yerdə belə olsun ki, camaat razılıq etsin. Bizim siyasətimizin nəticəsi bunlardır.

Siyasət əməli praktiki işlərdir. Bu, söz deyil, böyük işdir. Sonra dövlətimizin başçısı müəssisə üçün tikiləcək yeni inzibati binanın və digər sahələrin layihələrinə baxdı, Hollandiyanın "Fondel metal" şirkətinə uzunmüddətli icarəyə verilmiş bu istehsal müəssisəsinin ərazisini, istehsal sahələrini avtobusla gəzdi. Ümumi ərazisi 170 hektar olan, 3 min işçinin çalışdığı müəssisədə orta aylıq əmək haqqı 800 min manatdır. Hazırda MDB məkanında belə bir müəssisə yoxdur.

AzərTAc

Azərbaycan.- 2005.- 20 may.-№ 114 .- S. 3.

Nizami Gəncəvinin Məqbərəsini ziyarət

(19 may 2005-ci il)

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Gəncəyə səfərinin sonunda Nizami Gəncəvinin məqbərəsini ziyarət edərək, dünya ədəbiyyatı xəzinəsinə əvəzsiz incilər bəxş etmiş dahi şairin məzarı üstünə gül qoydular.

***

Mayın 19-da Goranboy rayonuna gələn Azərbaycan Prezidenti İlham Əliyev əvvəlcə ümummilli lider Heydər Əliyevin heykəli önünə gül dəstəsi qoydu, rayonun tarix muzeyi, rəsm qalereyası ilə tanış oldu, ağsaqqallar evində görüş keçirdi.

Dövlətimizin başçısı Heydər Əliyev parkını gəzdi, mərkəzi stadionun açılışında iştirak etdi, yeni tikilən bazarda,

"Oplas" MMC-də, yağlı boya zavodunda oldu, Goranboy gips zavodunun təməlinin qoyulması mərasimində iştirak etdi və sonda jurnalistlərə müsahibə verdi.

(Goranboya səfər haqqında materiallar qəzetin növbəti nömrəsində dərc olunacaqdır.)

AzərTAc

Azərbaycan.- 2005.- 20 may.-№ 114 .- S. 4.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Gəncə və Goranboyda uşaq tərbiyə müəssisələrində olmuşdur

(19 may 2005-ci il)

Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Fondun fəaliyyətində kimsəsiz və valideyn himayəsindən məhrum, əqli və fiziki cəhətdən zəif uşaqlara qayğı, onların təlim-tərbiyə aldıqları internatların və digər xüsusi məktəblərin müasir tələblər səviyyəsində yenidən qurulması aparıcı istiqamətlərdən biridir.

Fondun prezidenti, YUNESKO-nun xoş məramlı səfiri Mehriban xanım Əliyeva özü bu işlərə xüsusi diqqət yetirir və müvafiq tədbirlər görülməsinə daim nəzarət edir.

AzərTAc-ın xüsusi müxbiri xəbər verir ki, Mehriban xanım Azərbaycan Prezidentinin Gəncə və Goranboya səfəri çərçivəsində fürsət tapıb təlim-tərbiyə müəssisələrində olmuşdur. Onun Səhiyyə Nazirliyinin Gəncədəki körpələr evinə gəlişi qəfil olsa da, həm uşaqların, həm də tərbiyəçilərin sonsuz sevincinə səbəb oldu.

Yeni təmir olunmuş binadakı səliqə-sahman, körpələrə qulluq xoş təsir bağışladı. Bununla belə,

Mehriban xanım problemlərlə də maraqlandı, əsasən atılmış uşaqların olduğu körpələr evinin bütün ehtiyaclarını ödəmək

Üçün Fondun imkanlarından istifadə ediləcəyini bildirdi. Xatırladaq ki, Fondun prezidenti hələ Gəncəyə gəlməmişdən qabaq buradakı uşaqlara hədiyyələr göndərmişdi. Təhsil Nazirliyinin Gəncədəki uşaq evində isə 3 yaşından 15 yaşınadək 109 uşaq tərbiyə alır. Burada da son vaxtlar təmir işləri aparılıb, səliqə-sahman yaradılmışdır.

Uşaqların təlim-tərbiyəsi, qidalanma rejimi ilə maraqlanan Fondun prezidentinə məlumat verildi ki, tərbiyə ocağının heç bir çətinliyi yoxdur. Mehriban xanım uşaqlarla şəkil çəkdirdi, bu tərbiyə müəssisəsi ilə də müntəzəm maraqlanacağını bildirdi. Goranboydakı Rəsul Atakişiyev adına internat əsas məktəbdə Mehriban xanım Əliyevanı öz doğmaları kimi qarşıladılar. Məktəblə tanışlıq zamanı Heydər Əliyev Fondunun prezidentinə məlumat verildi ki, bu təlim-tərbiyə ocağı ötən il Avropa Birliyinin vəsaiti hesabına əsaslı təmir olunmuş, yeni yeməkxana tikilmişdir.

Mehriban xanım sinif otaqlarını gəzərək, dərs prosesini izlədi, uşaqların necə qidalanması ilə maraqlandı. Buradakı şəraitdən razılığını bildirən Mehriban xanım məktəbə kompüter dəstləri bağışlayacağına söz verdi.

AZƏRTAC
2005, 19 may

Gəncə Şəhər İcra Hakimiyyətində müşavirə

(19 may 2005-ci il)

Mayın 19-da Gəncə Şəhər İcra Hakimiyyətində Gəncə beynəlxalq hava limanının yenidən qurulmasına həsr olunmuş müşavirə keçirildi.

Müşavirəni Azərbaycan Prezidenti İlham Əliyev açdı.

Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

- Salam əziz dostlar!

Mən yenidən Gəncəyə gəlmişəm. Bizim görüşlərimiz mütəmadi xarakter daşıyır. Mən çox şadam ki, hər dəfə Gəncəyə gələndə burada yeniliklər görürəm. Görürəm ki, şəhər abadlaşır, quruculuq işləri gedir və şəhər müasirləşir. Bu məni çox sevindirir. Çünki Gəncə bizim hamımız üçün əziz, doğma şəhərdir, Azərbaycanın qədim şəhəridir, ölkəmizin ikinci şəhəridir və gərək biz hamımız çalışaq ki, Gəncədə gedən quruculuq, abadlıq işlərinə öz köməyimizi göstərək. Hər halda, mən bunu edirəm və çox şadam ki, görülən işlərin çox gözəl nəticələri də vardır. İş olan yerdə həmişə nəticə də olur.

Mən xatırlayıram ki, Gəncədə son illər ərzində ilk yeni müasir bina Milli Olimpiya Komitəsi tərəfindən tikilmişdi və 2002-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev Olimpiya kompleksinin açılışında iştirak etmişdir. Bəlkə də xatırlayırsınız, o vaxt Gəncədə vəziyyət o qədər də ürəkaçan deyildi. Şəhər çox bərbad vəziyyətdə idi və heç bir quruculuq, abadlıq işlərindən ümumiyyətlə söhbət də getmirdi. Onu da yəqin xatırlayırsınız ki, bu mənzərə bizim hamımızı çox məyus etdi və ondan sonra burada rəhbərlikdə dəyişiklik edildi, icra hakimiyyətinin yeni başçısı təyin olundu və demək olar, Gəncənin inkişafında yeni dövr başladı.

Mən çox şadam ki, burada gedən işlər yüksək səviyyədədir. Gəncənin bütün əhalisi də bu quruculuq işlərinə qoşulur. Əsas odur ki, görülən işlər xalq tərəfindən dəstəklənir. Bu məni çox sevindirir. Ona görə Gəncəyə və burada gedən işlərə kömək etmək mənim üçün çox xoşdur. Kömək o yerə edilir ki, orada bundan səmərəli istifadə olunur, insanlar ürəklə işləyirlər, öz əməyi ilə, fəaliyyəti ilə yeni binalar tikir, xiyabanlar, parklar salırlar. İndiki mərhələdə, ölkəmiz öz inkişaf dövrünü yaşadığı bir vaxtda, əlbəttə, mən istəyirəm ki, Azərbaycanın hər bir bölgəsi bu inkişafdan bəhrələnsin.

Azərbaycanda keçən il qəbul edilmiş regionların sosial-iqtisadi inkişaf proqramının uğurlu icrası da məni çox sevindirir. Demək olar ki, Azərbaycanın hər bir bölgəsində canlanma özünü büruzə verir. O cümlədən bu bölgədə də.

Bildiyiniz kimi, keçən il mənim təşəbbüsümlə burada yeni aeroportun tikilməsi məsələsi öz həllini tapdı və biz bu müşavirədə tikintinin gedişatı ilə tanış olacağıq. Düzdür, təklif olunmuşdu ki, biz bu müşavirəni Bakıda keçirək. Onu da edə bilərdik, bu müşavirəni Bakıda da keçirmək mümkün olardı. Amma mən istəyirdim ki, bunu məhz burada, Gəncədə keçirək ki, bir tərəfdən, mən yenidən sizinlə birlikdə olum, digər tərəfdən, Gəncə ictimaiyyəti də bu məsələyə öz münasibətini bildirsin.

Biz çox istəyirik ki, bu aeroport müasir standartlara cavab versin. Ən yüksək dünya standartlarına uyğun olsun və bu aeroportdan həm sərnişinlər səmərəli və rahat istifadə etsinlər, həm də o, şəhərə yaraşıq versin.

Gəncə inkişaf edir, müasirləşir. Amma eyni zamanda, öz qədim simasını saxlayır və belə də olmalıdır. Ona görə biz bu gün bu məsələni müzakirə edəcəyik və məruzə etmək üçün sözü "Azərbaycan Hava Yolları" Dövlət Konserninin prezidenti Cahangir Əsgərova verirəm.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərovun çıxışı

-Möhtərəm cənab Prezident!

İcazənizlə, Sizi ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan ordenlə təltif olunmağınız münasibətilə səmimi qəlbdən təbrik edim və mülki aviasiyamıza göstərdiyiniz diqqət və qayğıya görə Azərbaycan aviatorları adından Sizə minnətdarlığımı bildirim.

Möhtərəm cənab Prezident!

Keçən il Gəncə şəhərində olarkən Siz Gəncə havalimanının yenidən qurulmasının konseptual layihəsi ilə tanış olmuş, göstərişlər vermişdiniz. Bu obyektin işçi layihəsi hazırlanmışdır və icazənizlə, Sizə ətraflı məlumat verim.

Möhtərəm cənab Prezident!

Gəncə havalimanının keçmiş aerovağzal binası ötən əsrin 70-ci illərində tikilmişdir. Sonralar bu binaya yeni sahələr əlavə edilmiş və ümumi sahəsi 2400 kvadratmetrə çatdırılmışdır. Aerovağzalın ümumi sahəsi 1900 kvadratmetr olan birinci mərtəbəsi yerli reyslərlə və keçmiş SSRİ-nin şəhərlərinə uçan sərnişinlərə xidmət üçün istifadə olunurdu. Gəncə havalimanına 1996-cı ilin oktyabrında beynəlxalq status verilmişdir. Bundan sonra aerovağzal binasının ikinci mərtəbəsində yenidənqurma işləri aparılmış və beynəlxalq uçuşların təşkili üçün 500 kvadratmetrlik sahə yaradılmışdı.

Möhtərəm cənab Prezident! Gəncə havalimanında 1964-cü ildən istismar edilən uçuş-enmə zolağının uzunluğu 2500 metr, eni 44 metrdir və orta tipli təyyarələrin qəbul olunmasına imkan verir. Uçuş-enmə zolağı keçmiş SSRİnin istehsalı olan "Sveça-3" tipli işıqlandırma-siqnalizasiya sistemi ilə təchiz edilmişdir. Uçuşların idarə olunması üçün istifadə edilən radionaviqasiya və meteoroloji avadanlıqlarında istismar müddəti sona çatmaqdadır. Müasir ağır tipli təyyarələri qəbul edə biləcək yeni uçuş-enmə zolağının, perronun, yönəldici yolların tikintisində 430 min kvadratmetr sahəyə asphalt-beton örtüyü salınacaq və 630 min kubmetr torpaq işləri görüləcəkdir. Uçuş-enmə zolağının uzunluğu 3 minmetr, eni 45

metr, sahəsi 135 min kvadratmetr olacaqdır. Yönəldici yolların uzunluğu 2 min metr, ümumi sahəsi 90 min kvadratmetr, perronun uzunluğu 400 metr, eni 200 metr, sahəsi 80 min kvadratmetr olacaqdır. Gəncə havalimanının uçuş-enmə zolağının, yönəldici yolların, perronun tikintisi üçün "AzVİRT" Səhmdar Cəmiyyəti ilə müqavilə imzalanmışdır. Yeni uçuş-enmə zolağının, perronun və yönəldici yolların inşasına dair işlərə başlanılmışdır. Uçuşların idarə olunması və təhlükəsizliyinin təmin edilməsi üçün uçuş-enmə zolağının, perronun, yönəldici yolların işıqlandırma-siqnalizasiya sistemlərinin birinci kateqoriya üzrə təchiz olunması nəzərdə tutulmuşdur.

Bu işlərin Heydər Əliyev adına Beynəlxalq havalimanının uçuş-enmə zolaqlarında, perronunda və yönəldici yollarında üç pilləli işıqlandırma-siqnalizasiya sistemlərini quraşdıran Almaniyanın "Siemens" şirkəti tərəfindən görülməsi planlaşdırılır.

Yeni inşa olunacaq aerovağzal binasının uzunluğu 130 metr, eni 43 metr, ümumi sahəsi 12 min kvadratmetr olacaqdır. 5720 kvadratmetrlik birinci mərtəbənin 5320 kvadratmetri adi sərnişinlər, 400 kvadratmetri isə rəsmi nümayəndələr (VİP salonu) üçün nəzərdə tutulmuşdur.

Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) tələblərinə əsasən, birinci mərtəbədə sərnişin daşımanın müasir təcrübəsinə uyğun olaraq texnoloji avadanlıqlar, biletlərin qeydiyyat masaları, gömrük nəzarəti masaları, baqaj konveyerləri, habelə uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün roentgen nəzarəti, metal axtaran avadanlıqlar quraşdırılacaqdır. Aerovağzal binasında sərnişinlərə gözləmə salonu, məlumat masaları, kafe və restoranlar xidmət göstərəcəkdir. İkinci mərtəbənin sahəsi 4350 kvadratmetrdir. Üçüncü mərtəbədə mərkəzləşdirilmiş istilik, kondisioner sistemləri avadanlığının quraşdırılması üçün texniki otaqlar nəzərdə tutulmuşdur. Aerovağzal binasına bitişik uçuşları idarəetmə qülləsində "Aeronaviqasiya" müəssisəsinin dispetçer məntəqəsi yerləşəcəkdir. Burada uçuşların idarə edilməsi üçün müasir avadanlıqla təchiz olunmuş 4 dispetçer masası quraşdırılacaqdır. Daxili və xarici yükdaşımalarının həyata keçirilməsi məqsədi ilə müxtəlif çeşidli yüklərin qəbulu və göndərilməsi üçün sahəsi 1000 kvadratmetr olan yük terminalının inşası nəzərdə tutulmuşdur. Hava gəmilərində sərnişinlərə xidmət göstərmək üçün sutkada 1000 pay yemək hazırlamaq imkanı olan ketrinq binası tikiləcəkdir. Aerovağzalın və köməkçi binaların elektrik təchizatı üçün transformator stansiyası inşa ediləcək, 2 ədəd 1600 kilovatlıq transformator və fasiləsiz enerji təminatı üçün 500 kilovat gücündə 1 ədəd ehtiyat dizel generator quraşdırılacaqdır.

Layihə üzrə qazanxana, kanalizasiya sularını təmizləmə qurğusu, yanğınsöndürmə binası, su və kanalizasiya nasos stansiyaları, havalimanının perimetri boyunca mühafizə hasarı, buraxılış məntəqələri, mühəndis kommunikasiyalarının inşası nəzərdə tutulmuşdur. Gəncə havalimanının xüsusi texnikasının və maşın mexanizmlərinin profilaktika baxışı və təmiri üçün avtomobil bazası da tikiləcəkdir. Burada maşın-mexanizmlərin təmiri üçün 300 kvadratmetrlik emalatxananın və 750 kvadratmetrlik örtülü dayanacağın tikintisi planlaşdırılır. Aerovağzalın köhnə inzibati binası əsaslı təmir edilərək polis, gömrük və sərhəd xidməti əməkdaşlarının istifadəsinə veriləcəkdir.

Tikinti işlərində Türkiyədə, İtaliyada, Almaniyada, Böyük Britaniyada istehsal edilən inşaat materiallarından və avadanlıqlardan istifadə ediləcəkdir. Bu tikintidə 1000-1500 nəfər mühəndis-texniki işçi və fəhlə çalışacaqdır. Onlardan 500 nəfəri Azərbaycan vətəndaşları olacaqdır. Gəncə havalimanının yenidən qurulmasını 2006-cı ilin may ayında başa çatdırmaq nəzərdə tutulmuşdur.

Möhtərəm cənab Prezident! Məlumat üçün bildirirəm ki, Gəncə havalimanında uçuşların idarə olunması və təhlükəsizliyin təmin edilməsi məqsədi ilə İCAO-nun və "Euocontro"nun beynəlxalq

tələblərinə və standartlarına cavab verən müxtəlif radio naviqasiya sistemləri və avadanlıqlar quraşdırılacaqdır. Bu sistemlər və avadanlıqlar Heydər Əliyev adına Beynəlxalq havalimanında və Naxçıvan Beynəlxalq havalimanında da istismara verilmişdir. Ona görə Gəncə havalimanında da dörd dispetçer iş yerindən ibarət hava hərəkətinin avtomatlaşdırılmış idarə olunması sisteminin quraşdırılmasına dair Ukraynanın "Aerotexnika" şirkəti ilə, yeni enmə sisteminin alınıb-quraşdırılmasına dair

"TALESATM" şirkəti ilə, yeni uçuş-enmə zolağının birinci kateqoriya üzrə meteoroloji (AWOS) sistemi və radiotexniki istiqamətləndirici mayaklar və maiker sistemləri ilə təchiz olunmasına dair "BAN-2000" şirkəti ilə, dispetçer radio lokatorunun modernləşdirilməsinə dair "Aerokom" şirkəti ilə müqavilələr imzalanmışdır. Bildirirəm ki, bu sistemlərin istismarı ilə əlaqədar "Azərbaycan Hava Yolları" Dövlət Konserninin mütəxəssisləri Ukraynada, Almaniyada və digər ölkələrdə təlimlər keçmişlər və hazırda onlar bu sahədə müvəffəqiyyətlə işləyirlər. Möhtərəm cənab Prezident! Gəncə havalimanında təyyarələrə və sərnişinlərə yerüstü xidmətin göstərilməsi üçün xüsusi texnika və maşın mexanizmlər də alınacaqdır. Bütünlükdə layihənin həyata keçirilməsi üçün 39,53 milyon ABŞ dolları məbləğində vəsait tələb olunur.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində bu layihənin həyata keçirilməsi nəticəsində Gəncə havalimanında 200-dən çox iş yeri açılacaqdır.

Möhtərəm cənab Prezident! Gəncə Beynəlxalq hava limanı istismara verildikdən sonra, Sizin diqqət və qayğınız nəticəsində alınmış yeni Aerobus A-319 və AN-140 tipli təyyarələrlə havalimanından aşağıdakı marşrutlarla beynəlxalq və yerli uçuşların həyata keçirilməsini planlaşdırırıq. Aerobus A-319 hava gəmiləri ilə: Gəncə-Moskva Gəncə; Gəncə-Sankt-Peterburq-Gəncə; Gəncə-Kiyev Gəncə. AN-140 təyyarələri ilə: Gəncə-Bakı-Gəncə; Gəncə Naxçıvan-Gəncə; Gəncə-Mineralnıye Vodı-Gəncə; Gəncə-Təbriz-Gəncə; Gəncə-Qars-Gəncə; Gəncə-Rostov-Gəncə; Gəncə-Volqoqrad-Gəncə.

Gəncə şəhərinin və regionun inkişaf proqramı ilə əlaqədar zəruri halda İL-76 və AN-12 yük təyyarələri ilə yük daşımaları həyata keçiriləcəkdir. Azərbaycan Respublikasında fəaliyyət göstərən aviaşirkətlərə də Gəncə havalimanından müxtəlif reyslərin açılması təklif olunacaqdır. Eyni zamanda Gəncə havalimanı Avropa və Asiyaya uçuşları həyata keçirən Azərbaycanın və xarici dövlətlərin aviaşirkətlərinin təyyarələri üçün tranzit və ehtiyat havalimanı kimi istifadə ediləcəkdir. Möhtərəm cənab Prezident!

İki vacib məsələ barəsində də Sizə məlumat vermək istərdim. Gəncə havalimanı fasiləsiz elektrik enerjisi ilə təmin olunmalıdır. Bunun üçün "Bayva-Qərbenerji" şirkəti tərəfindən təqdim olunan təklifə əsasən 110/10 kilovoltluq yardımçı transformator stansiyasının tikilməsi tələb edilir. Bu barədə müvafiq göstəriş verməyinizi xahiş edirik.

Havalimanında radio naviqasiya avadanlıqlarının quraşdırılması, habelə uçuşların təhlükəsizliyinin təmin edilməsi əsas şərtlərdən biridir. Bu baxımdan yeni inşa ediləcək uçuş-enmə zolağının yaxınlığında yerləşən keçmiş dəmir-beton zavodunun qalıqlarının sökülməsi zəruridir.

Möhtərəm cənab Prezident!

Bizə göstərdiyiniz diqqət və qayğıya görə mülki aviasiya işçiləri adından Sizə bir daha dərin minnətdarlığımı və təşəkkürümü bildirir, Azərbaycan Respublikasının siyasi və iqtisadi inkişafı naminə fəaliyyətinizdə böyük uğurlar arzulayıram. Sizi bir daha əmin etmək istəyirəm ki, Heydər Əliyev adına Beynəlxalq havalimanı və Naxçıvan Beynəlxalq havalimanı kimi, Gəncə beynəlxalq havalimanı da yüksək səviyyədə inşa olunacaqdır. Təşəkkür edirəm.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun çıxışı

-Möhtərəm cənab Prezident!

Sizin rəhbərliyiniz, köməyiniz və qayğınız nəticəsində son bir ildə Gəncə şəhəri böyük sıçrayış etmişdir. Bu gün şəhərimizdə geniş quruculuq, abadlıq işləri aparılır, yeni iş yerləri açılır. Bütün bunlara görə Sizə və Gəncə şəhərinin tarixi memarlıq abidələrinin bərpasına görə Heydər Əliyev Fondunun rəhbərliyinə şəhər ictimaiyyəti adından dərin minnətdarlığımı bildirirəm. Sizin siyasətiniz nəticəsində bu gün əhali şəhərə qayıdır. Əhalinin, qonaqların sayı artır. Biz bunu müşahidə edirik. Bu baxımdan havalimanının tikilməsinində böyük əhəmiyyəti vardır. Çox maraqlı layihədir və bütün müasir tələblərə cavab verir. Bugünkü təqdimatın özü onu göstərir ki, artıq Azərbaycan dünənki Azərbaycan deyil, ölkəmiz keyfiyyətcə yeni bir pilləyə çıxır.

Cənab Prezident, mən bu fürsətdən istifadə edərək, Sizdən xahiş edirəm ki, əgər mümkündürsə, konsernin rəhbərliyinə göstəriş verəsiniz ki, havalimanının tikintisində əsasən yerli işçi qüvvəsindən istifadə olunsun. Bakı şəhərində olduğu kimi, Gəncədə də havalimanına qədər olan yolun əsaslı təmiri və bərpası layihəyə əlavə olunsun. Diqqətinizə görə minnətdaram.

İlham ƏLİYEV:

Biz gərək bu məsələlərə kompleks şəklində baxaq. Bir halda ki, belə bir müasir aeroport tikilir, onun bütün infrastrukturu da gərək dünya standartlarına cavab versin. Burada yeni yardımçı stansiyanın tikintisindən söhbət açıldı. Əlbəttə

ki, bunu etmək lazımdır və BAYVA bunu etməlidir. Orada iri transformator qoyulmalıdır ki, enerji qıtlığı olmasın.

Aeroportdan avtomobil magistralına qədər olan yolun tikintisi konsernin birbaşa vəzifəsi deyildir. Amma gərək bunu da nəzərə alaq və bu yolda yüksək səviyyədə inşa edilməlidir. Ona görə bunu da layihəyə salın və Bakıdakı kimi yüksək səviyyədə inşa edin. Dəmir-beton zavodu da əgər işləmirsə və maneə törədirsə, onun da sökülməsi, yaxudda ki, başqa yerə köçürülməsi məsələsinə baxmaq lazımdır. Siz dediniz ki,uçuş-enmə zolağının uzunluğu 3 min metrdir. Bu kifayət edəcək,

bütün təyyarələrin qəbul olunmasına imkan yaradacaq?

Cahangir ƏSGƏROV:

Bəli, Cənab Prezident, 300-400 metr artırmaq lazımdır.

İlham ƏLİYEV:

Biz gərək elə edək ki, dünyada mövcud olan bütün təyyarələr, o cümlədən iri həcmli yük təyyarələri də buraya rahat enə bilsin.

Cahangir ƏSGƏROV:

Cənab Prezident, biz layihə hazırlayarkən o dəmir-beton zavodu mane olurdu. Əgər Siz göstəriş verirsinizsə ki,

sökülsün, onda problem yoxdur. Biz zolağı uzada bilərik.

İlham ƏLİYEV:

Bəli, maksimum artırın. Dünyada o zolağın uzunluğu maksimum nə qədər olur?

Cahangir ƏSGƏROV:

Maksimum 4200 metr.

İlham ƏLİYEV:

Bakıda nə qədərdir?

Cahangir ƏSGƏROV:

3300 metr.

İlham ƏLİYEV:

Naxçıvanda?

Cahangir ƏSGƏROV:

3300 metr.

İlham ƏLİYEV:

Elə burada da o qədər 3300 metr edin.

Cahangir ƏSGƏROV:

Baş üstə.

İlham ƏLİYEV:

Çünki, bu aeroportun strateji vəzifəsi də var və biz gərək burada çox güclü infrastruktur yaradaq. Gərək ən böyük

həcmli yük təyyarələri də buraya enə bilsinlər. Deyə bilərsiniz ki, yeni aerobuslarda bu marşrutda işləyəcək. Bu

da çox gözəl xəbərdir. Azərbaycan yeniləşir, müasirləşir. Yeni aerobusların alınması haqqında qərar qəbul edilibdir. Nə vaxt gətiriləcəkdir?

Cahangir ƏSGƏROV:

Bu il ərzində 3 ədəd gətiriləcəkdir.

İlham ƏLİYEV:

Gəncədən Moskva, Sankt-Peterburq və Kiyev şəhərlərinə uçacaqdır. Çox yaxşıdır. Siz yük terminalının tikintisini də

dediniz. Gəncə inkişaf edir, gələcəkdə, bir neçə ildən sonra bu inkişaf özünü daha da qabarıq şəkildə göstərəcəkdir. Ona görə siz işinizi ehtiyatlı tutun. Bəlkə də yük terminalının sahəsini böyütmək lazımdır, çünki gələcəkdə buradan çox yük gedəcəkdir. Gəncə qərb zonasının ən böyük nəqliyyat qovşağıdır. Ona görə, baxın, biz gərək hər şeyi əsaslı edək. Əlbəttə,

biz qənaət də etməliyik, amma bütün lazımi infrastruktur bəri başdan gərək nəzərdə tutulsun, sabah fikirləşməyək

ki, nəyisə unutduq, nəyisə eləmədik. Ona görə buna da diqqət yetirin. Əlbəttə, yerli işçilərdən maksimum dərəcədə istifadə olunmalıdır. Bu, həm iş yeri olacaqdır, eyni zamanda burada yerli insanlar işləməlidir. Aeroportun tikintisi ilə

bağlı sonra hansı məsələ qalır? Aerovağzal kompleksi də gərək gözəl memarlıq standartlarına cavab versin. Mən

baxdım, burada bir neçə təklif var. Yəqin ki, Gəncə ictimaiyyəti də öz sözünü deməlidir. Mən hesab edirəm ki, bu

kompleks müasir olmalıdır. Amma eyni zamanda Gəncəyə xas olan memarlıq elementləri də öz əksini tapmalıdır. Ona görə hələ ki, bunun üzərində işləmək mümkündür. Baxın, yerli mütəxəssislər, ictimaiyyət öz fikrini desin. Qeyd etdiyim kimi, gərək həm rahatlıq olsun, bütün standartlara cavab versin, eyni zaman da yaraşıqlı olsun. Bəlkə bu məsələ ilə bağlı

başqa kiminsə sualı, sözü var?!

Məmməd İBRAHİMOV (memar):

-Möhtərəm cənab Prezident!

Gəncə şəhərinə göstərdiyiniz qayğı, diqqət üçün və bugün vaxt tapıb Gəncə beynəlxalq havalimanının layihəsinin təqdimatında iştirak etdiyiniz üçün Sizə öz minnətdarlığımızı bildiririk. Təqdim olunmuş layihə funksional baxımdan beynəlxalq havalimanlarının normalarına və standartlarına cavab verməklə, yüksək səviyyədə hazırlanmışdır. Lakin

burada milli, regional kolorit fasadların həllində hiss olunmur. Cənab Prezident, Siz yaxşı bilirsiniz ki, orta əsrlərdə Azərbaycan ərazisində bir neçə memarlıq məktəbi formalaşmışdır. Gəncə Aran memarlıq məktəbinin mərkəzi olmuşdur. Biz arzulayardıq ki, həmin bu layihədə milli landşaft, Gəncənin tarixi və Aran memarlıq məktəbi geniş əksini tapsın.

Diqqətiniz üçün sağolun.

İlham ƏLİYEV:

Sağ olun. Mən razıyam. Mən də qeyd etdim ki, burada, bu binanın tikintisində yerli ictimaiyyət, memarlar, rəssamlar fəal şəkildə iştirak etməlidir. Biz hələ onun tikintisinə başlamamışıq, ona görə, siz təkliflərinizi verin və bilavasitə bu binanın inşası ilə məşğul olan şəxslərlə əlaqə saxlayın. Siz də təmin edin ki, burada yerli memarlar da iştirak etsinlər.

Cahangir ƏSGƏROV:

Baş üstə.

İlham ƏLİYEV:

Mən memar deyiləm, buradakı çoxlu variantlardan birini seçmək mənim üçün bir qədər çətindir. Ona görə gərək burada

geniş ictimai müzakirə aparılsın və dediyim kimi, bütün bu bölgəyə xas olan elementlər öz əksini tapmalıdır.

Məmməd ALİM (Azərbaycan Yazıçılar Birliyi Gəncəbasar bölməsinin sədri):

-Hörmətli cənab Prezident!

Bugün müzakirə olunan layihə və onun həyata keçirilməsi Sizin regionların inkişafına göstərdiyiniz diqqətin parlaq bir nümunəsidir. Son iki ildə Gəncədə görülən işlər hamımızın ürəyini açır və biz bilirik ki, Siz Gəncəni çox sevirsiniz və bilin ki, gəncəlilər də Sizi çox sevirlər. Mən məmur deyiləm, yaradıcı ziyalıyam. Yaradıcı ziyalılarımız adından Sizi salamlayarkən, demək istəyirəm ki, mən camaat arasında çox oluram. Sizin bu diqqətinizə və qayğınıza görə çoxlu minnətdarlıqlar, təşəkkürlər olur. Bir məqamı da qeyd edim. Bu təşəkkürlərdən hərdən bizim şəhərin icra hakimiyyətinin başçısına da pay düşür. Onun çox maraqlı bir xüsusiyyətini mən diqqətinizə çatdırmaq istəyirəm. Həmişə deyir ki, xahiş edirəm, mənə minnətdarlıq eləməyin. Bütün minnətdarlıqların hamısının ünvanı Prezidentədir. Çünki mən icraçıyam, Prezidentin tapşırıqlarının icraçısıyam. Əziz Prezidentimiz, bilirsiniz, Siz təkcə İlham Heydər oğlu deyilsiniz. Siz həm də

Heydər Əliyev siyasi məktəbinin, dövlətçilik məktəbinin çox layiqli müdavimisiniz, sözün əsil mənasında onun layiqli mənəvi varisisiniz. Xalqımızın bir misalı var: ot kökü üstə bitər. İnsan da belədir. Siz də öz kökünüzə bağlısınız. Ona görə də bizim üçün çox dəyərlisiniz. Mən Heydər Əliyevin çıxışlarını dinləyəndə hərdən həyəcan keçirirdim ki, o mürəkkəb cümlələr, dolanbaclarla ifadə olunan fikirlər,

cümlələr necə bitəcək, necə qurtaracaq, Allah eləməmiş, çaşmayacaq ki?! Onun nə qədər fenomenal bir nitqi var idi! Heydər Əliyevin ən gözəl mənəvi keyfiyyətlərinin Siz daşıyıcısısınız.

Mən söz adamıyam. Ona görə də Sizin çıxışlarınıza çox diqqətlə qulaq asıram. Sizin də natiqlik məharətiniz, Azərbaycan dilinin inkişafına verdiyiniz töhfə bizim üçün çox qiymətlidir, dəyərlidir. O ənənələlər davam edir. Ancaq danışıq üslubunuzda, ümumiyyətlə, iş üslubunuzda həm Heydər Əliyev ənənələrinin davamı var, həm də fərqlidir. Yəni öz xüsusiyyətləri ilə diqqəti cəlb edir. Əziz Prezidentimiz, mən 1997-ci ili xatırlayıram. Azərbaycan yazıçılarının X qurultayında mən çıxış edərkən Siz də orada idiniz. Çıxışımı "Qoy yeməsin içimizi qurd bizim" şeiri ilə bitirmişdim.

Rəhmətlik Heydər Əliyev həmişə bizim xalqın mənəvi birliyinə, həmrəyliyinə çalışırdı: yəni hamı birləşsin, bir amala, dövlətçiliyimizin inkişafına xidmət etsin. Çox sağolun ki, Siz də buna xidmət edirsiniz. Ona görə də mən Sizə Azərbaycanın inkişafı naminə, Gəncəyə göstərdiyiniz diqqətə görə, bu mürəkkəb şəraitdə, çətin vaxtda bizə vaxt ayırdığınıza, şəhərimizə bir daha təşrif buyurduğunuza görə, işğal altında qalan torpaqlarımızın azad olunması naminə, müstəqil dövlətimizin inkişafı naminə, yaradıcı ziyalılara diqqətinizin bir daha artırılması naminə təşəkkürümü bildirirəm. Çox sağolun.

***

Azərbaycan Prezidenti müşavirəyə yekun vurdu.

Azərbaycan Prezidenti İlham Əliyevin
yekun nitqi

- Xoş sözlərinizə görə çox təşəkkür edirəm. Həqiqətən də, bu gün Heydər Əliyevin siyasəti Azərbaycanda yaşayır və onun qoyduğu ənənələr davam etdirilir. Bu, çox vacibdir və Azərbaycanın gələcəyi üçün yeganə yoldur.

Bilirsiniz ki, mən prezident seçkiləri ərəfəsində bunu bəyan etmişdim və bu gün də bəyan edirəm ki, bu yola sadiq olacağam. Əgər seçkilər ərəfəsində bu, sadəcə bir bəyanat idisə, artıq bu gün reallıqdır, görülən işlərdə öz əksini tapır, yanaşmalarda öz əksini tapır. Mənim də fəaliyyətimdə əsas prinsip odur ki, doğma xalqıma ləyaqətlə xidmət edim. Mənim başqa amalım yoxdur. Bütün səylərimi buna yönəldirəm. İstəyirəm ki, Azərbaycan daha da inkişaf etsin, güclənsin, xalqımız daha da yaxşı yaşasın. Azərbaycan hərtərəfli inkişaf etsin, bölgələr inkişaf etsin.

Hər dəfə haradasa bir yenilik, abadlıq, inkişaf görəndə mən çox sevinirəm. Sevinirəm ki, inkişaf var. Bu, bizim müstəqilliyimizi də gücləndirir, iqtisadi gücümüzü də artırır. Dünyadakı mövqeyimizi də gücləndirir. İnsanda da, dövlətdə də, siyasətdə də güc olmalıdır. Əgər bu olmasa, uğur qazanmaq mümkün olmayacaqdır. Bu, həmişə, əsrlər boyu belə olubdur. Sadəcə, bunun müxtəlif formaları olubdur. Keçmiş dövrlərdə bu, özünü daha da qabarıq formada büruzə verirdi. İndi siyasi formalarda özünü əks etdirir. Amma məna dəyişmir. Ona görə mənim bütün səylərim, bütün fikirlərim bir məqsədə qulluq edir - biz Azərbaycanı necə daha da gücləndirək, iqtisadiyyatımızı necə daha da inkişaf etdirək ki, insanlarımız daha da yaxşı yaşasınlar. Ona görə bu yol mənim yolumdur. Başqa yolum da yoxdur, başqa məqsədim də yoxdur.

Çox şadam ki, son ilyarım ərzində görülən işlər artıq öz nəticələrini verməkdədir. Hər bir işin nəticəsini görmək üçün gərək müəyyən bir vaxt keçsin. Əlbəttə, səfərbərlik olmalıdır. Heç kim təkbaşına heç bir işin öhdəsindən gələ bilməz. Ona görə bütün cəmiyyət, cəmiyyətin bütün üzvləri bu işlərə qoşulmalıdır. Mən bu səfərbərliyi görürəm. Bu gün Azərbaycan cəmiyyətində birlik var. Biz hamımız bilirik ki, nə istəyirik. Hamımızın açıq-aydın məqsədi vardir. Əminəm ki, məqsədyönlü, ardıcıl fəaliyyətimiz nəticəsində biz qarşımızda duran bütün məqsədlərə nail ola biləcəyik.

Əlbəttə, ilk növbədə, bizim hamımızı ən çox narahat edən, qarşımızda duran ən ağır problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Bu istiqamətdə də əlimizdən gələni edirik. Əlimizdə olan bütün imkanlardan istifadə edib bu məsələnin bizim xeyrimizə həll olunması üçün çalışırıq. Bizim xeyrimizə deyəndə, mən onu nəzərdə tuturam ki, bu məsələ ədalətli həll olunmalıdır. Çünki bizim mövqeyimiz ədalətli mövqedir. Biz mövqeyimizi beynəlxalq hüquq normaları əsasında qururuq və bu mövqe artıq böyük dəstəyə malikdir.

Bu yaxınlarda Avropa Şurasının zirvə toplantısında keçirdiyim demək olar ki, bütün görüşlərimdə mən bunu hiss etdim və gördüm. Çünki bizim mövqeyimiz məntiqə əsaslanır, beynəlxalq hüquqa əsaslanır, normal insani davranışa əsaslanır. Belə olan halda, bu mövqe düzgün, hərtərəfli təqdim olunanda bu, qəbul

edilir. Mən inanıram ki, biz bu məsələni ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edəcəyik. Yenə də deyirəm, bunu etmək üçün gərək biz öz iqtisadi potensialımızı gücləndirək. Əgər danışıqlarda biz indi müsbət dinamikanı görürüksə, bunun müxtəlif səbəbləri var.

Əlbəttə, sadaladığım məsələlər də çox önəmlidir. Həm siyasi, həm diplomatik səylərimiz davam etdirilir və öz bəhrəsini verir. Avropa Şurasının yanvar ayında qəbul etdiyi qətnamə də bunun əyani sübutudur. Amma eyni zamanda, digər amillər də az rol oynamır. O cümlədən iqtisadi potensial. Bu potensialı yaratmaq üçün biz çalışmalıyıq və çalışırıq. Bu potensialı yaratmaq üçün bütün bu işlər də görülür. Regional inkişaf proqramı həyata keçirilir, digər proqramlar, yoxsulluqla mübarizə ardıcıl şəkildə aparılır. İşsizliyin aradan götürülməsi üçün işlər görülür və artıq nəticələr də göz qabağındadır.

Əlbəttə, bütün bu məqsədlərə qulluq edən amillər çox vacibdir. O cümlədən nəqliyyat infrastrukturunun inkişafı. Gəncə aeroportunun tikintisi məhz bu konsepsiyanın tərkib hissəsidir. Azərbaycan gərək öz nəqliyyat infrastrukturunu sürətlə gücləndirsin. Çünki bizim coğrafi vəziyyətimiz çox əlverişlidir. İqtisadi inkişaf da gedir. Nəhəng enerji layihələri ölkəmizi bölgədə lider dövlətə çeviribdir. Biz bütün amillərdən istifadə etməliyik. Ona görə bu gün Azərbaycanda aeroportlar tikilir, yeni müasir magistral yollar tikilir və tikiləcəkdir.

Nəqliyyatın digər sahələri - dəmir yolları, gəmiçilik inkişaf etdirilir. İqtisadiyyatın bu sektoru Azərbaycana uzunmüddətli gəlirlər gətirəcəkdir. Bu, necə deyərlər, neft, qaz deyil ki, bir gün tükənib qurtarsın. Bu, həmişə ölkəmizə xidmət edəcəkdir. Bu gün Şərq-Qərb, Şimal-Cənub dəhlizlərində bizim fəaliyyətimiz də bu məqsədi güdür.

Biz istəyirik ki, bütün yükdaşımaları ərazimizdən keçsin. Bunun həm siyasi, həm də iqtisadi tərəfi aydındır. Əlbəttə, bunu etmək üçün imkanlar lazımdır, maliyyə resursları lazımdır. Biz bunu da edirik. Azərbaycanın dövlət büdcəsi sürətlə artır. Yəqin ki, biz bu yaxınlarda büdcəyə yenidən baxacağıq və onu yenidən artıracağıq. Məqsəd odur ki, büdcəmiz ildən-ilə yüksək sürətlə artsın.

Bildiyiniz kimi, bu yaxınlarda 2006-cı ilin büdcəsinin formalaşdırılmasına başlayacağıq. Hədəf də odur ki, 2006-cı ilin büdcəsi 3 milyard dollar təşkil etsin. Bu artım davam etdiriləcəkdir. Biz bunu artıracağıq və Azərbaycan çox qısa müddət ərzində zəngin dövlətə çevriləcəkdir.

Mövcud olan problemlər də az deyildir. Biz onları da bilirik. Yenə də qeyd etdiyim kimi, ilk növbədə, yoxsulluq. Sözün düzü, bu problem məni həm çox narahat edir, həm də incidir. Çünki mən istəmirəm, heç kim də istəmir ki, ölkəmizdə yoxsulluq şəraitində yaşayan olsun. Düzdür, biz yoxsulluğun səviyyəsini aşağı salırıq, 49 faizdən 40 faizə düşübdür. Amma 40 faiz böyük rəqəmdir. Bizim insanlarımız nə üçün yoxsulluq şəraitində yaşamalıdır?! Nəyə görə, hansı səbəbə görə?!

Biz bunu aradan götürəcəyik. Mən əminəm ki, yoxsulluq şəraitində yaşayanların sayı qısa müddət ərzində kəskin şəkildə azalacaq və Azərbaycanın hər bir vətəndaşı yaxşı yaşayacaqdır. Gərək biz bunu təmin edək.

Əhalimizi narahat edən problemlərdən biri də elektrik enerjisi ilə və qazla təchizatdır. Burada problemlər var. Biz bunları bilirik və aradan qaldırmaq üçün tədbirlər planı hazırlanıbdır. Onu da bilməliyik ki, son illər ərzində Azərbaycanda "Şimal" elektrik stansiyasından başqa, heç bir elektrik stansiyası tikilməmişdir. Ancaq inkişaf sürətlə gedir, yeni binalar tikilir, müəssisələr açılır. Onların hamısı işıqla təmin olunur. Ona görə bizdə bir az qıtlıq yaranıbdır.

Artıq böyük elektrik stansiyasının tikintisinə başlanır. Ancaq o bir-iki il vaxt aparacaqdır. Ona görə biz bu məsələni operativ qaydada həll edəcəyik. Kiçik həcmli elektrik stansiyalarının alınması nəzərdə tutulubdur və bu ilin sonuna qədər ilk belə stansiyalar cənub bölgəsində quraşdırılacaqdır. Demək olar ki, bundan sonra cənub bölgəsində elektrik enerjisi ilə bağlı problem olmamalıdır. 2006-cı ildə isə Azərbaycanın müxtəlif yerlərində bu stansiyaların quraşdırılması nəzərdə tutulubdur. Belə olan halda, bizim əsas enerji mənbəyimizə - Mingəçevir elektrik stansiyalarına düşən yüklər azalacaq və həmin stansiyalar qərb bölgəsini daha böyük həcmdə təmin edəcəkdir.

Təbii qazın verilməsi məsələsi də həll olunmalıdır. Bu günlərdə "Azəri" yatağından səmt qazının hasilatına başlanmalıdır. "Şahdəniz" qaz yatağının istismara verilməsindən sonra bu məsələ də öz həllini tapmalıdır. Mən bu yaxınlarda demişəm ki, neft ölkəsi olan Azərbaycanda elektrik enerjisi ilə problem olmamalıdır. Hər bir vətəndaş Azərbaycanın hər bir yerində hər an düyməni basıb işığı almalıdır. Biz bunu etməyə çalışırıq.

Qeyd etmək istəyirəm və çox sağ olun, siz də dediniz ki, Gəncəyə mənim münasibətim həmişə çox əziz olubdur. Gəncə mənim üçün əziz, doğma şəhərdir. Mən bundan sonra da əlimdən gələni edəcəyəm ki, burada gedən işlərə öz köməyimi göstərim. Ancaq onu da bilirik ki, yerlərdə işləyən məmurlardan,

insanlardan çox şey asılıdır. Mən Bakıda oturub nə qədər çalışsam ki, bura daha da çox inkişaf etsin, nə qədər vəsait ayırsaq da, əgər yerlərdə bu vəsaitdən səmərəli istifadə etmirlərsə, məsələyə biganə yanaşırlarsa, heç bir nəticə ola bilməz. Ona görə ancaq bu prinsiplərin birləşməsi nəticəsində uğurlar ola bilər.

Mən çox şadam ki, Gəncənin rəhbərliyi və şəxsən Eldar Əzizov çox ləyaqətlə, vicdanla işləyir. O, bizim iş prinsiplərimizin, demək olar, hamısını burada tətbiq edir, daim xalqla əlaqədədir. İnsanların problemləri ilə məşğul olur. O, Bakıya gələrkən mən həmişə görüşürəm, soruşuram, maraqlanıram. Həmişə soruşuram ki, sizə daha nə lazımdır, mənə deyin. Buraya gəlməzdən əvvəl də soruşdum, nə lazımdır. Dedi ki, yox, biz özümüz edirik.

Ona görə, bilirsiniz ki, bu, çox vacibdir və xalq da bunu görür. Xalqdan heç bir şeyi gizlətmək mümkün deyildir. Xalq yaxşını da görür, pisi də görür, yaxşı rəhbəri də görür, pisini də görür və nəticə də çıxarır. Bizim iqtidarımızın dayağı da xalqdır. Bu, xalq hakimiyyətidir. Vəzifədə olan şəxslər sadəcə, xalqın xidmətçiləridir, o cümlədən də mən. Əgər bütün yerlərdə belə olsa, sizi inandırım ki, çox qısa müddət ərzində çox böyük müsbət dəyişikliklər baş verəcək, inkişaf daha da sürətlə gedəcəkdir.

Bilirsiniz ki, mən kadr siyasətinə çox böyük diqqət verirəm. Son müddət ərzində Azərbaycanın müxtəlif yerlərində yeni kadrlar işə cəlb olunubdur. Onların hamısını deyə bilmərəm, amma tam əksəriyyəti öz vəzifə borclarını yerinə yetirirlər. Mənim də onların qarşısında qoyduğum vəzifələr bundan ibarətdir ki, xalqın qayğıları ilə yaşasınlar, mövcud olan problemləri həll etsinlər və vicdanla işləsinlər.

Mən əminəm ki, bundan sonra Gəncədə proseslər daha da sürətlə gedəcəkdir. Mənə verilən məlumata görə artıq müasir, çoxmərtəbəli binaların tikintisinə də başlanılır. Bu, inkişafın ən gözəl göstəricisidir. Əgər hansısa şəhərdə yeni, müasir, çoxmərtəbəli bina tikilirsə, deməli, o yer inkişaf edir. Gəlin, uzağa getməyək, qonşu ölkələrə nəzər salaq, əsas şəhərlərdə belə hallara rast gəlmək mümkündür. Mən Bakını demirəm. Bakı inşaatın sürətinə görə, bəlkə də, dünyada indi aparıcı şəhərdir. Amma hər şey də Bakıda cəmləşməməlidir. Bakı bizim paytaxtımızdır, əziz şəhərimizdir. Amma bizim başqa yerlərimiz, şəhərlərimiz də var. Əgər bu şəhərlərdə də Bakıda gedən proseslər təkrarlanırsa, demək, bir neçə ildən sonra bu şəhərlər də sürətlə inkişaf edəcəkdir.

Yeni infrastrukturun yaranması, yolların salınması, abadlıq, quruculuq işləri, yeni binaların tikilməsi - inkişaf budur. Əlbəttə, belə olan halda insanlarımız da bizdən razı qalacaqlar. Mən buna şübhə etmirəm. Biz hamımız bundan sonra da doğma xalqımıza qulluq edəcəyik, Azərbaycanın müstəqilliyini möhkəmləndirəcəyik, ölkəmizi gözəl, zəngin, müasir dövlətə çevirəcəyik. Bu işdə hamımıza uğurlar arzulayıram. Sağ olun.

AzərTAc

Azərbaycan.- 2005.- 20 may.-№ 114 .- S. 1-2.

Azərbaycan Prezidenti İlham Əliyevin Gəncəyə səfəri
Beynəlxalq hava limanının tikintisi ilə tanışlıq
(11 oktyabr 2005-ci il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 11-də səhər Gəncə şəhərinə gəlmişdir. Dövlətimizin başçısını hava limanında səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Prezident İlham Əliyev beynəlxalq hava limanında tikinti işlərinin gedişi ilə maraqlandı. "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov məlumat verdi ki, tikinti işlərinin müəyyən hissəsi artıq yerinə yetirilmişdir. Yeni aerovağzal binasının uzunluğu 130 metr, eni 43 metr, ümumi sahəsi 12 min kvadratmetr olacaqdır. Burada VİP salonu da nəzərdə tutulmuşdur.

Müxtəlif çeşidli yüklərin qəbulu və göndərilməsi üçün sahəsi 1000 kvadratmetr olan yük terminalı, hava limanının xüsusi texnikasının və maşın-mexanizmlərinin profilaktikası və təmiri üçün emalatxana, avtobaza, avtomobil qarajı, örtülü dayanacaq tikiləcəkdir.

Aerovağzalın köhnə inzibati binası isə əsaslı təmir edilərək, polis, gömrük və sərhəd xidməti əməkdaşlarının istifadəsinə veriləcəkdir.

Bu tikintiyə yerli işçilər cəlb olunmuşdur. Bütün işlər yüksək səviyyədə aparılır və vaxtında başa çatdırılacaqdır.

Sonra Prezident İlham Əliyev gələcək tikililərin maketləri ilə tanış oldu və tövsiyələrini verdi. Bildirdi ki, aerovağzal binasının milli arxitektura elementləri nəzərə alınmaqla tikilməsinə nail olmaq lazımdır ki, xarici görünüşü də gözəl olsun.

Sonra dövlətimizin başçısı avtobusla hava limanının ərazisini gəzdi, uzunluğu 3000 metr, eni 45 metr, sahəsi 135 min kvadratmetr olacaq uçuş-enmə zolağının tikintisi ilə tanış oldu.

AZƏRTAC
2005, 11 oktyabr

Ümummilli Lider Heydər Əliyevin abidə-muzey kompleksi ilə tanışlıq

(11 oktyabr 2005-ci il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 11-də Gəncə beynəlxalq hava limanının tikintisi ilə tanışlıqdan sonra şəhərə yola düşdü. Dövlətimizin başçısını qarşılamaq üçün küçələrə çıxan on minlərlə gəncəli Prezidenti hərarətlə salamlayır, öz hörmət və ehtiramlarını alqışlarla ifadə edirdi.

Prezident İlham Əliyev əvvəlcə şəhərin mərkəzi meydanına gəldi. O, burada tanınmış heykəltəraş Şərif Şərifovun layihəsi ilə ümummilli liderimiz Heydər Əliyevə ucaldılmış abidəni ziyarət edərək, gül dəstəsi qoydu.

Dövlətimizin başçısına mərkəzi meydanın yenidən qurulması, ulu öndərin xatirəsinə yaradılan abidə-muzey kompleksinin tamamlanması üçün görülən işlər barədə məlumat verildi. Azərbaycan Prezident İlham Əliyev burada yaradılan səliqə-sahmanı, abadlıq işlərini yüksək qiymətləndirdi və gəncəlilərin istirahəti üçün çox gözəl şərait yaradıldığını bildirdi.

Dövlətimizin başçısı sonra Heydər Əliyev xatirə muzeyinə gəldi. Muzeyin qarşısında səmimi söhbət zamanı akademik Siddiqə Məmmədova şəhər ziyalılarının ürək sözlərini ifadə edərək, Prezident İlham Əliyevi yenidən Gəncədə görməkdən fəxr etdiklərini bildirdi, ona cansağlığı, uğurlu fəaliyyətində daha böyük nailiyyətlər arzuladı.

Sonra Prezident İlham Əliyev muzeylə yaxından tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətinin bütün dövrlərini, o cümlədən müstəqil Azərbaycanın Prezidenti kimi xarici ölkələrə səfərlərini, nüfuzlu dövlət xadimləri ilə görüşlərini əks etdirən fotoşəkillər, ulu öndərə həsr olunmuş kitablar toplanmışdır. Muzeydə qoyulmuş kompüter vasitəsilə Heydər Əliyevin bütün həyatı barədə internet saytından məlumat almaq mümkündür. Sonda Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözünü yazdı:

"Cənab Heydər Əliyev muzeyinin ekspozisiyası ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirir. Müasir Azərbaycanın qurucusu Heydər Əliyev Gəncəyə və gəncəlilərə həmişə böyük qayğı və diqqət göstərirdi. Bütün başqa sahələrdə olduğu kimi, bu işdə də Heydər Əliyevin siyasəti davam etdirilir. Gəncəyə və gəncəlilərə mənim xüsusi hörmətim vardır. Çox sevinirəm ki, öz tarixi simasını saxlayaraq, Gəncə yeniləşir, abadlaşır, gözəlləşir. Əminəm ki, bundan sonra da Gəncə sürətlə inkişaf edəcək. Burada yaşayan insanlar sülh, əmin-amanlıq, sabitlik şəraitində yaşayacaqlar. Gəncəlilərə öz dərin hörmətimi və məhəbbətimi ifadə edirəm.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Gəncə, 11.10. 2005-ci il".

Muzeylə tanışlıqdan sonra meydana toplaşan insanlarla səmimi görüşən Prezident İlham Əliyev onların qayğı və problemləri ilə maraqlandı. Sakinlər ulu öndərin siyasi xəttinin layiqli davamçısının Gəncəyə tez-tez gəlməsini yüksək qiymətləndirdilər, şəhərin inkişafına göstərdiyi diqqətə görə təşəkkürlərini bildirdilər.

Prezident İlham Əliyev şəhər sakinlərinə müraciətlə dedi: Yenidən Gəncəyə gəlmişəm. Görürəm ərizə, məktublar verirlər. İndi bunlar yığılır və hamısına baxılacaqdır. Siz narahat olmayın, mənə daxil olan məktublara reaksiya verilir, çalışırıq kömək edək ki, sizin problemləriniz aradan qaldırılsın. Mənim də bölgələrə səfərlərimin əsas məqsədi odur ki, yerlərdə abadlıq, quruculuq işləri daha da yaxşı getsin, ərizə və şikayətlərə baxılsın. Əgər kiminsə problemi varsa, narahat edən məsələ varsa, onlar həll olunmalıdır. Ona görə bütün ərizələrə, şikayətlərə baxılacaq və lazımi tədbirlər görüləcəkdir. Mən sizi bir daha salamlayıram, təbrik edirəm ki, şəhəriniz, bizim qədim Gəncəmiz günü-gündən gözəlləşir, abadlaşır, yeni müəssisələr yaranır, binalar tikilir, parklar salınır.

X X X

Sonra Gəncə regional müalicə-diaqnostika mərkəzi təməlinin qoyulması mərasiminə gedən Prezident İlham Əliyev yolüstü bir neçə yerdə dayanaraq sakinlərlə görüşüb söhbət etdi, onların problemləri ilə maraqlandı. Sakinlər dövlətimizin başçısına təşəkkür edərək, ona həmişə arxa-dayaq olacaqlarını

vurğuladılar, Gəncənin sosial–iqtisadi inkişafına göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

AZƏRTAC
2005, 11 oktyabr

Gəncə Regional Müalicə-Diaqnostika Mərkəzinin təməli qoyulmuşdur
Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir
(11 oktyabr 2005-ci il)

AZƏRTAC–ın müxbirləri xəbər verirlər ki, oktyabrın 11-də Gəncədə regional müalicə-diaqnostika mərkəzinin təməlinin qoyulması münasibətilə mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar. ARDNŞ-in prezidenti Natiq Əliyev respublikamızın rəhbərinə məlumat verdi ki, şirkətin vəsaiti hesabına tikiləcək mərkəz gələn ilin oktyabrında hazır olacaqdır. Ümumi sahəsi 7 min kvadratmetr olacaq 4 mərtəbəli binanın birinci mərtəbəsində yeməkxana, funksional dializ bölməsi, camaşırxana və təsərrüfat anbarları, şüa-diaqnostika, təcili yardım bölmələri fəaliyyət göstərəcəkdir. İkinci-üçüncü mərtəbələrdə diaqnoz bölməsi, konfrans salonu, həkim otaqları, palatalar, reanimasiya şöbəsi yerləşəcəkdir. Dördüncü mərtəbə isə cərrahiyyə-əməliyyat bloku üçün nəzərdə tutulmuşdur. Mərkəzdə müasir tibb avadanlığı quraşdırılacaq, müalicə və dializlər üçün hər cür şərait yaradılacaqdır.

Prezident İlham Əliyev Gəncəçayın səfalı sahilində müalicə- diaqnostika mərkəzinin tikilməsini yüksək qiymətləndirdi və bunu Gəncə sakinlərinin probleminin həlli istiqamətində növbəti tədbir kimi səciyyələndirdi.

Sonra Prezident İlham Əliyev müalicə-diaqnostika mərkəzinin bünövrəsinə içərisində yazılı kağız olan gilizi atdı və ilk beton qarışığını tökdü.

AZƏRTAC
2005, 11 oktyabr

Gəncə şəhəri ictimaiyyətinin nümayəndələri ilə görüş
(11 oktyabr 2005-ci il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, oktyabrın 11-də Azərbaycan Prezidenti İlham Əliyev qədim Gəncə şəhəri ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.

Görüşü Azərbaycan Yazıçılar Birliyi Gəncəbasar bölməsinin sədri Məmməd Alim açdı.

Azərbaycan Yazıçılar Birliyi gəncəbasar bölməsinin sədri Məmməd Alimin çıxışı

- Cənab Prezident!

Dahi Nizaminin vətəninə, xalqımızın tarixini yaşadan Gəncəyə xoş gəlmisiniz!

Gəncə ziyalıları, bütün şəhər əhalisi adından Sizi salamlamaq, ən xoş arzularımızı, minnətdarlığımızı bildirmək istəyirəm.

Əziz Prezidentimiz! Sizin ölkədaxili hər səfəriniz, Gəncəyə hər gəlişiniz regionların sosial-iqtisadi inkişafı proqramının uğurla həyata keçirilməsinin təsdiqidir. Bu, böyük Heydər Əliyev xəttinin məntiqi davamıdır.

Əziz Prezidentimiz! Mən Sizin Gəncə haqqında dediyiniz sözləri olduğu kimi xatırlayıram. Siz demişdiniz: "Gəncə inkişaf edir, müasirləşir. Amma eyni zamanda, öz qədim simasını saxlayır və belə də olmalıdır". Siz əmin ola bilərsiniz, Gəncə - ulu öndərimiz Heydər Əliyevin böyük diqqət və qayğı göstərdiyi bu şəhər indi həm Heydər Əliyevin, həm də Sizin göstərdiyiniz yolla gedir. Hazırda Gəncədə tarixiliklə müasirlik, sözün əsil mənasında, bir-birini tamamlayır. Bu gün Gəncədə regional müalicə-diaqnostika mərkəzinin əsasının qoyulmasının özü Sizin təşəbbüsünüzdür, birbaşa Sizin təşəbbüsünüzlə həyata keçirilən bir mərasimdir. Respublikamızın hər yerində, eləcə də Gəncədə çoxlu hündürmərtəbəli binalar tikilmişdir. Əziz Prezidentimiz! Mən deyərdim ki, Siz bu gün mənaca, məzmunca çox mötəbər bir Azərbaycan qurursunuz.

Hörmətli Prezidentimiz! Gözəl türk şairi Orxan Vəlinin sözlərini xatırlayıram. O yazırdı ki, tarixin bəyənərək tanıdığı insanlar daim dönüş nöqtələrində olanlardır. Dahi Heydər Əliyev də Azərbaycan tarixinin, dünya tarixinin belə dönüş nöqtələrində olan bir şəxsiyyət idi. O, dünyada, cəmiyyətimizdə baş verən hadisələri lazımi məcraya yönəldirdi. Çox sağ olun ki, Siz Heydər Əliyev yolunu layiqincə davam etdirirsiniz. Mənim belə bir inamım var və gəncəlilər də bu cür düşünürlər ki, Azərbaycan tarixinin çox mühüm dönüş nöqtələrindən biri yəqin Sizin adınızla bağlı olacaq.

Hörmətli Prezidentimiz! Mən bilirəm ki, Siz şəhərin mərkəzindən keçib gəldiniz və ulu öndərimiz Heydər Əliyevin abidəsini ziyarət etdiniz. Heydər Əliyevin şəhərin baş meydanında ucalan abidəsi, mən deyərdim ki, bu gün bizim deyəcəklərimizdən daha çox söz deyir. Mən bütün gəncəlilərin, o cümlədən ziyalıların fikrini ifadə edərək respublikamızın, müstəqil dövlətimizin tərəqqisi naminə, bizim Gəncənin inkişafı üçün gördüyünüz çox böyük işlərə görə Sizə dərin minnətdarlığımızı bildirirəm.

Heydər Əliyevin ruhu şad olsun! Sizin də canınız sağ olsun!

Əziz Prezidentimiz! Bu gün Gəncəçayın sahilində, çox səfalı bir guşədə, ekoloji cəhətdən çox sevimli bir yerdə müalicə-diaqnostika mərkəzinin təməlini qoydunuz. Biz gəncəlilər Sizdən xahiş edirik, öz fikirlərinizi bizimlə bölüşəsiniz.

X X X

Prezident İlham Əliyev görüşdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Əziz gəncəlilər!

Əziz bacılar və qardaşlar!

Sizin hamınızı ürəkdən salamlayıram və bu gün təməlini qoyduğumuz müalicə-diaqnostika mərkəzinin tikintisi münasibətilə Sizi təbrik edirəm.

Bir neçə ay bundan əvvəl biz birlikdəydik, mən Gəncəyə gəlmişdim. Burada yeni tikiləcək aeroportun layihəsi ilə tanış olurdum və geniş müzakirə aparılmışdı. Xatırlayıram ki, o tədbirdə siz də iştirak edirdiniz, geniş ictimaiyyətin iştirakı ilə müzakirə apardıq. Bu gün yenidən Gəncədə olarkən tikintinin

gedişi ilə tanış oldum və çox sevindim ki, müasir uçuş zolağı artıq hazırdır. Aerovağzal kompleksi tikilir, ən yüksək səviyyədədir, ən yüksək dünya standartlarına cavab verir. Bir neçə aydan sonra biz Gəncədə yeni aeroportun açılışına da toplaşacağıq və onu qeyd edəcəyik. Bu gün isə yeni bir xoş hadisə baş verir. Dövlət Neft Şirkəti tərəfindən Gəncədə yeni müasir müalicə-diaqnostika mərkəzi tikiləcəkdir. Bunlar çox əlamətdar hadisələrdir və onu göstərir ki, ölkəmiz, o cümlədən bizim qədim, doğma Gəncə şəhərimiz çox sürətlə inkişaf edir. Ölkədə gedən proseslər, quruculuq-abadlıq işləri, infrastruktur layihələrinin həyata keçirilməsi, sosial sahəyə diqqətin artması bu gün Azərbaycanın həqiqətləridir. Ölkəmiz inkişafdadır. Dünyada ən yüksək iqtisadi inkişaf sürəti Azərbaycandadır, ən yüksək büdcə artımı Azərbaycandadır, əmək haqlarının ən sürətli artımı Azərbaycandadır. Azərbaycanın hər yerində müasir infrastruktur yaranır. Hava limanları, xəstəxanalar, məktəblər tikilir. İndi Gəncədə yeni müasir mehmanxana da tikilir. Onu da xatırlayıram ki, keçən dəfə burada olarkən bu məsələni müzakirə elədik və bildirildi ki, Gəncədə yeni mehmanxanaya böyük ehtiyac var. Şəhər inkişaf edir, çoxlu qonaqlar gəlir, gələcəkdə daha çox gələcəkdir. Artıq mehmanxananın ilk mərtəbələri inşa edilir. Yenə deyirəm, bu, onu göstərir ki, ölkəmiz çox sürətlə inkişaf edir və bizim ümumi iqtisadi inkişafımız xalqın bilavasitə rifah halının yaxşılaşmasına xidmət edir.

İnsanları ən çox narahat edən məsələlər sosial məsələlərdir: əmək haqları, pensiyalar, təqaüdlər, təhsil, səhiyyə ilə bağlı problemlər, yəni insanların gündəlik həyatda qarşılaşdıqları məsələlərdir. Ona görə güclü infrastrukturun yaranması ilə yanaşı, sosial sahəyə də böyük diqqət verilməsi artıq gerçəklikdir. Onu da demək istəyirəm ki, bizim nəzərdə tutduğumuz bütün layihələr, proqramlar həyatda öz əksini tapır. Mən demişdim ki, Azərbaycanda bazar iqtisadiyyatı sürətlə inkişaf etməli və onun prinsipləri tam şəkildə öz ifadəsini tapmalıdır.

Ancaq eyni zamanda, sosial sektor da inkişaf etməlidir. Bu gün bizim büdcəyə baxsaq görərik ki, o, həm sosialyönümlü, həm investisiya yönümlüdür. Biz həm neft-qaz kəmərləri çəkirik, eyni zamanda məktəblər, xəstəxanalar da tikirik. Əsas budur. Bu, imkan verəcək ki, ölkə hərtərəfli inkişaf etsin və gedən müsbət proseslər hər bir vətəndaşın həyatına öz təsirini göstərsin. Bizim əsas məqsədimiz budur.

Regionlarda gedən abadlıq-quruculuq işləri əyani şəkildə sübut edir ki, bizim siyasətimiz düzgündür və yerlərdə də icra olunur. Bundan da çox şey asılıdır. Biz çox gözəl proqramlar qəbul edə, gözəl layihələr tərtib edə, öz planlarımızı yüksək səviyyədə hazırlaya bilərik. Ancaq əgər yerlərdə onlar düzgün icra edilmirsə, heç bir əhəmiyyəti, heç bir faydası olmayacaqdır. Ona görə də bu gün Gəncədə olarkən mən həmin məsələyə bir də toxunmaq istəyirəm. Mən çox şadam ki, Gəncə rəhbərliyi, onun icra hakimiyyəti başçısı, fəalları, ictimaiyyət şəhərin inkişafında çox böyük rol oynayırlar. Abadlaşan, gözəlləşən Gəncə bunun əyani sübutudur.

Bu gün buraya gələrkən ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdim. Keçən dəfə burada olanda muzey inşa edilirdi, abidə hələ qoyulmamışdı, onun layihəsini görmüşdüm. Amma bu gün hər ikisini hazır gördüm. Gördüm ki, xalqımızın ulu öndəri Heydər Əliyevin işıqlı xatirəsi gəncəlilər üçün çox əzizdir. Mən bunu bilirdim və bu gün bir daha əmin oldum. Azərbaycanın tarixində Heydər Əliyevin rolu müstəsna əhəmiyyət daşıyır. Ölkəmiz 1990–cı illərin əvvəllərində üzləşdiyi ağır problemləri onun siyasi biliyi, bacarığı, təcrübəsi, qətiyyəti nəticəsində həll edə bildi. Azərbaycan inkişaf yoluna çıxdı və bu gün dünyada ən sürətlə inkişaf edən ölkədir.

Sabah Gürcüstanda biz Heydər Əliyevin əsəri olan, onun təşəbbüsü ilə inşa edilən və adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin növbəti mərhələsinin başa çatmasını qeyd edəcəyik. Bu kəmər artıq Azərbaycana öz bəhrəsini verir. Azərbaycanda gedən quruculuq-abadlıq işlərinin, büdcəmizin artmasının, pensiyaların, maaşların qaldırılmasının və bunların gələcəkdə nəzərdə tutulan artımının təməlində məhz 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilməyə başlanmış neft strategiyamız dayanır.

Həmin strategiya bu gün uğurla icra edilir. Bir vaxt əfsanə sayılan Bakı-Tbilisi-Ceyhan kəməri indi reallıqdır. Rəmzi məna daşıyan hal odur ki, indi xəstəxanaları, müalicə-diaqnostika mərkəzlərini də məhz Azərbaycan Dövlət Neft Şirkəti tikir. Bu, çox gözəl təşəbbüsdür. Mən bəyan etmişdim ki, Azərbaycanın müxtəlif bölgələrində ən müasir tibb mərkəzləri yaranmalıdır, insanlar ən müasir müalicə almalıdır, onlara yüksək səviyyədə tibbi xidmət göstərilməlidir. Görün, qısa müddət ərzində Azərbaycanın müxtəlif yerlərində gözəl xəstəxanalar, diaqnostika mərkəzləri yaranır və bu proses geniş vüsət alacaqdır. Bunlar Azərbaycanın hər bir bölgəsində, ondan sonra isə hər bir rayonunda olacaqdır.

Güclü iqtisadiyyat, yeni iş yerlərinin açılması, iqtisadiyyatımızın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, sahibkarlığın inkişafı və sosial məsələlərin həlli bizim əsas məqsədlərimizdir. Gördüyünüz kimi, biz bu məqsədlərə inamla yaxınlaşırıq, qarşıda duran bütün vəzifələri yerinə yetiririk.

Rayonlarda, bölgələrdə gedən proseslər də bunu göstərir. Mən çox istəyirəm ki, bu proses daha sürətlə getsin. Yeni binalar tikilsin, yollar salınsın, şəhərlərimiz, kəndlərimiz, rayonlarımız abadlaşsın, insanlar daha da yaxşı yaşasınlar. Bunu etmək üçün hər cür imkanlar var, siyasi iradə var, xalqın Azərbaycan iqtidarına güclü dəstəyi var. Əsas budur. Əgər bu dəstək olmasa, heç bir proqramı icra etmək mümkün olmayacaqdır. Mən buna arxalanıram, buna güvənirəm, mənə güc verən xalqın dəstəyidir. Mən bunu hər yerdə görürəm, hər yerdə. Azərbaycanın hər bir yerində inkişaf var, abadlıq-quruculuq işləri gedir. Sabitlik, firavanlıq hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Böyük çətinliklərlə Azərbaycanda bərqərar olunmuş ictimai-siyasi sabitlik, asayiş bu gün ölkəmizin hərtərəfli inkişafına xidmət edir.

Heç kimə imkan verilməyəcək ki, Azərbaycanda bu sabitlik, asayiş pozulsun. Biz öz siyasətimizi qanunlar əsasında qururuq. Bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, Azərbaycanda gedən proseslər bunu bir daha göstərir.

Ümid edirəm ki, bu gün təməlini qoyduğumuz müalicə-diaqnostika mərkəzi də qısa müddət ərzində tikiləcək və biz birlikdə onun açılışında iştirak edəcəyik. Belə tədbirlər hələ çox olacaqdır. Ümid edirəm ki, Gəncə beynəlxalq hava limanının, başqa-başqa obyektlərin, yeni məktəblərin, binaların istifadəyə verilməsində birlikdə olacağıq. İnkişaf budur, Azərbaycanın gerçəkliyi budur, gələcəyi budur. Mən şübhə etmirəm ki, biz hamımız birlikdə doğma Azərbaycanımızı daha da inkişaf etdirəcəyik, Azərbaycanda sabitlik, əmin-amanlıq qorunacaq və ölkəmiz gələcəyə inamla gedəcəkdir.

Əziz bacılar və qardaşlar! Mən bir daha demək istəyirəm, çox şadam ki, yenidən Gəncədəyəm. Gəncə mənim üçün çox əziz, doğma şəhərdir, mən burada dəfələrlə, Prezident seçkiləri ərəfəsində və ondan sonra da olmuşam. Əminəm ki, bundan sonra da tez-tez görüşəcəyik. Hər dəfə görəndə ki, burada inkişaf gedir mən ürəkdən sevinirəm. Əminəm ki, siz də buna sevinirsiniz. Bu gözəl təməlqoyma mərasimi münasibətilə bir daha hamınızı ürəkdən təbrik edirəm.

Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun!

AZƏRTAC
2005, 11 oktyabr

Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə səfəri
(31 oktyabr 2006-cı il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Gəncəyə gəlmişdir.

Dövlətimizin başçısı Gəncə beynəlxalq hava limanının təntənəli açılış mərasimində iştirak etmişdir.

Prezident İlham Əliyevə Gəncənin inkişafına göstərdiyi xidmətlərinə görə Gəncə Şəhər İcra Hakimiyyətinin təsis etdiyi "Gəncə 2500" fəxri ordeni təqdim olunmuşdur.

Sonra Prezident İlham Əliyev Gəncə Olimpiya İdman Kompleksində üzgüçülük hovuzunun açılışında iştirak etmişdir.

Ölkəmizin rəhbəri Gəncənin baş meydanına gələrək ümummilli lider Heydər Əliyev abidəsini ziyarət etmiş və burada aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Gəncədəki "Jardin Royal" şokolad fabrikinin açılışında iştirak etmişdir.

AZƏRTAC
2006, 31 oktyabr

Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət

(31 oktyabr 2006-cı il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, oktyabrın 31-də Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin Gəncənin mərkəzi meydanında ucaldılan abidəsini ziyarət etmişdir.

Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.

Sonra Prezident İlham Əliyev mərkəzi meydanda aparılan yenidənqurma, tikinti-quruculuq işləri ilə tanış oldu, burada quraşdırılmış gözoxşayan, musiqili, rəngli fəvvarəni seyr etdi.

Prezident İlham Əliyev Gəncə sakinlərinin istirahəti üçün yaradılmış parkı gəzdi, buradakı bulaq kompleksinin yenidən qurulub müasir görkəmə salınması barədə tövsiyələrini verdi.

AZƏRTAC
2006, 31 oktyabr

Prezident İlham Əliyev "Jardin Royal" şokolad fabrikinin açılışında iştirak etmişdir
(31 oktyabr 2006-cı il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 31-də Gəncədə "Jardin Royal" şokolad fabrikinin açılış mərasimində iştirak etmişdir.

Müəssisənin kollektivi dövlətimizin başçısını gül-çiçəklə, böyük ehtiramla qarşıladı.

Prezident İlham Əliyev lenti kəsdi və fabrikin işə düşməsini bildirən düyməni basdı.

Dövlətimizin başçısına məlumat verildi ki, əsasən Fransa texnologiyası əsasında işləyən bu müəssisədə 120-yə yaxın adam çalışır, əməkhaqqı 100 manatdan 500 manatadəkdir. Fabrikdə 20-dən çox çeşiddə məhsul istehsal olunur. Yerli tələbatı ödəməklə yanaşı, məhsullar xarici bazara da çıxarılır. Gələcəkdə fabrikin genişləndirilməsi və yeni istehsal sahələrinin yaradılması nəzərdə tutulur.

Prezident İlham Əliyev istehsal prosesi ilə yaxından tanış oldu, müasir avadanlığın işi ilə maraqlandı və yüksək səviyyəli müəssisənin fəaliyyətindən razılığını söylədi. Dövlət başçısı belə müasir müəssisələrin regionlarda sosial-iqtisadi inkişafa müsbət təsir göstərdiyini bildirdi.

Prezident İlham Əliyev müəssisənin müasir standartlara uyğun yeməkxanası ilə də tanış oldu. Bildirildi ki, burada işçilər pulsuz nahar edirlər.

Dövlətimizin başçısına xatirə olaraq, fabrikin fəaliyyətinə dair videodisk hədiyyə edildi.

X X X

Oktyabrın 31-də Azərbaycan Prezidenti İlham Əliyev Gəncədən Daşkəsən rayonuna gəlmişdir.

Dövlətimizin başçısı burada Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yolunun, rayon mərkəzində ulu öndər Heydər Əliyevin abidəsinin və ümummilli liderin adını daşıyan muzeyin açılışı mərasimlərində iştirak etdi.

Sonra Prezident İlham Əliyev şəhid Anar Mürsəlov adına Daşkəsən 2 nömrəli şəhər orta məktəbi ilə tanış oldu.

Dövlətimizin başçısı "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin kollektivi ilə də görüşdü, daha sonra Daşkəsən şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş yaşayış binasının sakinlərinə orderlər təqdim etdi.

AZƏRTAC
2006, 31 oktyabr

Gəncənin gerbinə abidə qoyulmuşdur
(31 oktyabr 2006-cı il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Gəncənin Heydər Əliyev prospektində qədim şəhərin gerbinə ucaldılmış abidə ilə tanış olmuşdur.

Prezident İlham Əliyev abidəni seyr etdi. Abidənin üzərində "Əsrlər boyu Gəncə xanlığının bayrağında həkk olunmuş bu rəmz 1804-cü ilin yanvarında şəhərin işğalı zamanı ləğv edilmişdir. 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Gəncənin qədim rəmzi yenidən gerb olaraq bərpa olunmuşdur" sözləri yazılmışdır.

Bu abidənin müəllifi əməkdar rəssam Şərif Şərifovdur.

AZƏRTAC
2006, 31 oktyabr

Gəncə Olimpiya İdman Kompleksinin üzgüçülük hovuzu istifadəyə verilmişdir
(31 oktyabr 2006-cı il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 31-də Gəncə Olimpiya İdman Kompleksinin üzgüçülük hovuzunun açılış mərasimində iştirak etmişdir.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı burada gül-çiçək dəstələri ilə qarşıladılar. Dövlətimizin başçısı ümummilli liderimiz Heydər Əliyevin iştirakı və xeyir-duası ilə fəaliyyətə başlamış Gəncə Olimpiya İdman Kompleksində üzgüçülük hovuzunun rəmzi açılışını bildirən lenti kəsdi.

Kompleksin direktoru Fuad Rzayev Prezident İlham Əliyevə məlumat verdi ki, tikintisini "Azərsun Holding" şirkətinin maliyyələşdirdiyi hovuz uzunluğu 25 metr, eni 15 metr, dərinliyi isə 2 metr olan qapalı idman qurğusudur. Tamaşaçılar üçün 150 nəfərlik oturacaq quraşdırılmışdır. Burada beynəlxalq səviyyəli yarışların da keçirilməsi mümkündür. Kompleksin genişləndirilməsi Azərbaycan Milli Olimpiya Komitəsinin regionlarda idmanın inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin bir hissəsidir.

Prezident İlham Əliyev idman qurğusunun yardımçı otaqları, gimnastika salonu ilə də tanış oldu.

Dövlətimizin başçısı kompleksin ətrafındakı 150 nəfərlik tribunaları olan voleybol və basketbol meydançalarına da baxdı, Olimpiya kompleksinin ətrafını gəzdi, müvafiq tövsiyə və tapşırıqlarını verdi.

AZƏRTAC
2006, 31 oktyabr

Gəncə beynəlxalq hava limanının açılış mərasimi

(31 oktyabr 2006-cı il)

AzərTAc-ın müxbirləri xəbər verirlər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də qədim Gəncə şəhərinə gəlmişdir.

Yeni tikilmiş Gəncə beynəlxalq hava limanında dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.

Sonra Prezident İlham Əliyev Gəncə beynəlxalq hava limanının təntənəli açılış mərasimində iştirak etdi.

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramına uyğun olaraq, Gəncənin beynəlxalq hava limanının müasir standartlar səviyyəsində yenidən qurulması layihəsinin dəyəri 39,5 milyon dollardır. Yenidənqurma işlərində 1500 nəfər çalışmışdır. Sovet dövründə qurulmuş bütün avadanlıq tamamilə yeniləşdirilmişdir. Uzunluğu 3300 metr olan yeni uçuş-enmə zolağı ağır tipli təyyarələri qəbul etməyə imkan verəcəkdir. Burada sərnişinlərin rahatlığı üçün də hər cür şərait yaradılmışdır. A-319 aerobusları və AN-140 təyyarələri ilə Moskvaya, Sankt-Peterburqa, Kiyevə, Bakıya, Naxçıvana, Təbrizə, Qarsa, Rostova, Volqoqrada və Mineralnıye-Vodı şəhərlərinə uçuşların təşkili nəzərdə tutulmuşdur. Zəruri hallarda İl-76 və AN-12 təyyarələri ilə yükdaşımalar da həyata keçiriləcəkdir. Azərbaycanda fəaliyyət göstərən xarici aviaşirkətlərə Gəncə hava limanından müxtəlif reyslər təklif olunacaqdır. Buradan həm də Avropa və Asiyaya uçuşları həyata keçirən Azərbaycanın və xarici dövlətlərin aviaşirkətlərinin təyyarələri üçün tranzit ehtiyat hava limanı kimi də istifadə ediləcəkdir. Hava limanında 200 yeni iş yeri yaradılmışdır.

Mərasimi Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov açdı.

Gəncə şəhər icra hakimiyyətinin başçısı Eldar Əzizovun çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları,

Bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Ona görə yox ki, yeni hava limanı açılıb, ilk növbədə, ona görə ki, biz bu gün cənab Prezidentin üç illik hakimiyyəti dövründə beşinci, yubiley xarakterli səfərini yaşayırıq. Üç ildə beş səfər! Bu, bizim üçün böyük şərəfdir və hər belə gəliş yeni sıçrayışla nəticələnir.

Mən deyərdim ki, dahi Heydər Əliyevin "Gəncə hər bir vətənpərvər azərbaycanlı üçün doğmadır, əzizdir" sözlərini cənab İlham Əliyev öz işi ilə birmənalı təsdiq edir. Məhz onun siyasəti nəticəsində Gəncə bu gün qurulur, yeniləşir və öz tarixi yaddaşını bərpa edir.

Möhtərəm cənab Prezident!

İcazə verin, şəhərə olan diqqət və qayğıya, məhəbbətə görə Sizə və qədim Gəncənin tarixi yaddaşının bərpasında göstərdiyi köməyə görə böyük ziyalı Mehriban xanım Əliyevaya qədirbilən gəncəlilərin dərin minnətdarlığını bildirim.

Əziz gəncəlilər, bu gün biz tarixi bir gün yaşayırıq. Yeni və bütün müasir tələblərə cavab verən hava limanı açılır. Mən deyərdim ki, bu hava limanının açılışı artıq Gəncənin gələcək inkişafından xəbər verir. Yeni hava limanının açılması şəhərimizin və şübhəsiz, bütün regionun inkişafına böyük təkan verəcəkdir. Biz artıq bunu hiss edirik.

Son ilyarım ərzində Gəncə əhalisinin sayı 30 faiz artmışdır. Bu böyük sıçrayışdır və ilk növbədə, cənab Prezidentin regional siyasətinin nəticəsi kimi qəbul olunur. Məhz bu siyasətin nəticəsində bütün Azərbaycan kimi, Gəncə də indi yüksək inkişaf sürəti nümayiş etdirir. Gəncə yeniləşir və bu gün birmənalı deyə bilərik ki, Prezidentimizin səyləri sayəsində yeni mərhələyə çıxmışdır. Məhz bu böyük insanın səyləri nəticəsində şəhərimizdə islahatlar gedir.

Bu gün biz bir əlamətdar günü də yaşayırıq. Düz üç il bundan öncə oktyabrın 31-də möhtərəm Prezidentimizin andiçmə mərasimi olmuşdur. Ötən üç ili təhlil edəndə görürsən ki, bu illərin hər biri görülən işlərə, öz əhəmiyyətinə görə bir neçə ilə bərabərdir. Fikir verin, son üç il ərzində yüzlərlə orta məktəb, xəstəxana tikilib, tarixi abidə əsaslı şəkildə bərpa olunub, əksəriyyəti də yenidən ucaldılıbdır. Bu proses davam edir. Mən bir tarixçi kimi demək istəyirəm, illər, əsrlər keçəcək və gələcək nəsillərin tarixçiləri bu dövrü - İlham Əliyevin hakimiyyətdə olduğu dövrü quruculuq və inkişaf dövrü adlandıracaqlar. Qurucu İlham dövrü kimi adlandıracaqlar!

Möhtərəm cənab Prezident!

Fürsətdən istifadə edib, bütün görülən işlərə görə Sizə, görkəmli ziyalı Mehriban xanım Əliyevaya qədirbilən Gəncə sakinləri adından bir daha dərin minnətdarlığımı bildirim, Sizə yeni uğurlar, yeni qələbələr arzulayım.

"Azərbaycan Hava Yollari" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərovun çıxışı

- Möhtərəm cənab Prezident,

Əziz gəncəlilər,

Xanımlar və cənablar!

"Gəncəni sənaye şəhəri etmək, Gəncəni daha da böyük etmək, Gəncə sakinlərinin həyat tərzini yaxşılaşdırmaq həmişə Azərbaycan rəhbərliyinin diqqət mərkəzində olmuşdur". Ümummilli liderimiz Heydər Əliyevin bu sözləri artıq reallıqdır. Həqiqətən, zəngin tarixi olan Gəncə böyüyür, gözəlləşir və yeni tikililər şəhərə xüsusi yaraşıq verir. Yenidən qurulan Gəncə beynəlxalq hava limanı isə öz əzəmətli görünüşü və müasirliyi ilə bu qədim şəhərdə daha çox seçilir. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə, Nizami yurdunda biz tarixi bir hadisənin şahidi oluruq. Beynəlxalq standartlar səviyyəsində qurulan Gəncə hava limanı bu gün istifadəyə verilir. Bu münasibətlə sizi səmimi qəlbdən təbrik edirəm.

Hörmətli mərasim iştirakçıları, yenidən qurulmuş Gəncə hava limanı tanınmaz dərəcədə dəyişmişdir. Beynəlxalq standartlar səviyyəsində tikilmiş, uzunluğu 3300 metr olan uçuş-enmə zolağı dünyada istismar olunan ən ağır tipli təyyarələri qəbul etməyə imkan verəcəkdir. Gəncə hava limanı ölkəmizdə beynəlxalq statusu olan üçüncü hava limanıdır.

Ümummilli liderimiz Heydər Əliyevin bütün dövrlərdə mülki aviasiyamızda həyata keçirdiyi böyük işləri bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev uğurla tamamlayır və irəli aparır. 2004-cü ildə Bakıda yerli hava xətləri aerovağzal binasının, 2004-cü ildə Naxçıvan hava limanının, 2005-ci ildə Heydər Əliyev adına beynəlxalq hava limanında möhtəşəm yük terminalının, bu gün isə dünya standartlarına uyğun olan Gəncə hava limanının istifadəyə verilməsi buna əyani sübutdur.

Eyni zamanda, son illər mülki aviasiyamızın aviaparkı "Boinq" və "Aerobus" tipli sərnişin, "İl-76" yük təyyarələri, "Super Puma" və "Delfin Hyuz" vertolyotları hesabına təzələnmişdir. Onu da xatırlatmaq istərdim ki, 2006-cı ilin 2 iyulu önəmli bir gün kimi mülki aviasiyamızın tarixində həmişə qalacaqdır. Çünki Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ilk dəfə olaraq, öz peşə bayramımızı məhz həmin gün qeyd etmişik. Bundan sonra hər il iyul ayının 2-də peşə bayramımızın sevincini yenidən yaşayacağıq.

Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları!

Gördüyünüz kimi, Gəncə beynəlxalq hava limanı tamamilə dəyişmiş, tanınmaz olmuşdur. Sahəsi 15 min kvadratmetrdən çox olan üçmərtəbəli aerovağzal binası, hava daşımalarının təşkili və həyata keçirilməsi üçün sahəsi 2 min kvadratmetr olan yük terminalı, sahəsi 100 min kvadratmetr olan yeni asfalt-beton örtüklü perron, 80 min kvadratmetr sahədə yönəldici yol, aeroportun perimetri boyu 20 kilometr mühafizə hasarı, nəzarət-buraxılış məntəqələri, transformator stansiyası, yanacaqdoldurma məntəqəsi, yanğınsöndürmə binası və başqa mühüm obyektlər inşa olunmuşdur. Aerodrom ərazisində 400 min kvadratmetr sahədə asfalt-beton döşənmişdir. Aerovağzaldan Gəncə-Qazax magistralına qədər uzunluğu 3 kilometr, sahəsi isə 55 min kvadratmetr asfalt-beton yolun tikintisi tamamlanmışdır.

Möhtərəm cənab Prezident!

Sizə bildirmək istərdim ki, Gəncə hava limanının yenidən qurulması layihəsinin başa çatması nəticəsində burada 200-dən çox yeni daimi iş yeri açılmışdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramına uyğun olaraq isə, son üç ildə mülki aviasiyamızda mindən çox yeni iş yeri yaradılmışdır.

Möhtərəm cənab Prezident!

Hava limanının yenidən qurulması layihəsi çərçivəsində çox böyük tikinti proqramı yerinə yetirilmişdir. Sizin göstərişinizlə aeroport ərazisindəki bütün köhnə tikililər sökülmüş, əslində, çöllükdə, tamamilə boş yerdə yeni hava limanı inşa edilmişdir. Bütün obyektlərdə tikinti işləri çox keyfiyyətli və beynəlxalq standartlara uyğun aparılmışdır. Ona görə bu layihəni həyata keçirən "Azvirt", "Zema" inşaat şirkətlərinə və digər tikinti-quraşdırma təşkilatlarına, burada çalışan bütün inşaatçılara, qardaş Türkiyənin və başqa ölkələrin mütəxəssislərinə minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi əmin edim ki, Azərbaycanın tərəqqisi və inkişafı naminə qarşıya qoyduğunuz mühüm vəzifələrin yerinə yetirilməsində biz aviatorlar bundan sonra da var qüvvə ilə çalışacaq, təhlükəsiz uçuşlar həyata keçirməklə daha böyük uğurlar qazanacağıq.

Möhtərəm cənab Prezident!

Bu gün bir daha bəyan edirəm ki, "Azərbaycan Hava Yolları" Dövlət Konserninin çoxminlik kollektivi Azərbaycan Respublikasının Prezidenti kimi Sizin xarici siyasətinizi ürəkdən bəyənir və dəstəkləyir. Biz aviatorlar Azərbaycan dövlətinə və dövlətçiliyinə həmişə sadiq olacağıq.

Yaşasın möhtərəm Prezidentimiz cənab İlham Əliyev!

Yaşasın müstəqil Azərbaycan!

X X X

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Əziz gəncəlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Gəncənin yeni aeroportunun açılışı münasibətilə təbrik edirəm.

Bu aeroport dünyanın ən yüksək standartlarına cavab verir. Burada ən müasir avadanlıq quraşdırılıbdır və aeroportun xarici görünüşü də çox gözəldir. Mən xatırlayıram, biz aeroportun tikintisinə hazırlaşanda qərara gəldik ki, Gəncədə geniş müşavirə keçirək. Çünki Gəncə ictimaiyyətinin bu işlərdə iştirakını çox vacib sayırdıq. Ötən ilin may ayında burada keçirilmiş geniş iclasda aeroportun tikintisi məsələləri həll olundu və eyni zamanda, aeroportun xarici görünüşü haqqında geniş fikir mübadiləsi aparıldı. Mən məsələni belə qoymuşdum ki, Gəncəyə xas olan üslubda aeroport tikilsin və ictimaiyyətin nümayəndələri də bu fikirlə razılaşmışdılar. Beləliklə, bu aeroportun yaradılması bizim hamımızın zəhmətidir, hamımızın xidmətidir. Bu gözəl aeroport uzun illər – onilliklər ərzində Gəncə şəhərinə və gəncəlilərə xidmət edəcəkdir.

Gəncə Azərbaycanın ikinci şəhəridir, qədim şəhərdir və mən çox istəyirəm ki, burada yaradılan hər bir yeni tikili, hər bir yeni müəssisə yüksək standartlara cavab versin. Bu gün biz bunu görürük. Görürük ki, Gəncə gözəlləşir, yeni yollar salınır, binalar tikilir, abadlıq işləri gedir. Bu, məni çox sevindirir və bundan sonra da Gəncəni daim dəstəkləyəcək, Gəncənin inkişafına köməyimi əsirgəməyəcəyəm. Bununla yanaşı, onu da qeyd etməliyəm ki, mən Gəncə icra orqanlarının fəaliyyətini də yüksək qiymətləndirirəm. Burada göstərilən təşəbbüslər, görülən işlər məni çox sevindirir. Belə olan halda, işlərimiz daha da sürətlə gedir. Biz düzgün qərarlar qəbul edə, vəsait ayıra bilərik və bunu edirik də. Ancaq əgər yerlərdə bizim göstərişlərimiz icra olunmursa, yaxud da yerli rəhbərlik təşəbbüs göstərmirsə, əlbəttə ki, işimiz istənilən nəticəni verməz. Gəncənin timsalında hər iki amili görürük - həm dövlət qayğısı və əlavə vəsaitin ayrılması, eyni zamanda, yerli icra orqanlarının səmərəli fəaliyyəti. Bunun nəticəsində Gəncə gözəlləşir, abadlaşır və ən müasir şəhərə çevrilir.

Aeroportun tikintisi bütövlükdə bu regionun inkişafına böyük təkan olacaqdır. Çünki bilirsiniz ki, Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramının məqsədi məhz regionların inkişaf etdirilməsidir. Regionun da inkişaf etdirilməsi üçün orada müasir infrastruktur obyektləri olmalıdır. Aeroport, avtomobil yolları, sosial infrastruktur obyektləri – bütün bunlar olmalıdır və artıq var. İndi Gəncə-Qazax avtomobil yolunun tikintisi gedir. Bu yol Bakı-Qazax avtomobil yolunun tərkib hissəsidir. Gələn ilin sonuna qədər bu yolun tikintisi başa çatmalıdır və beləliklə, ən müasir, dünya səviyyəli avtomobil yolu yaradılacaqdır. Aeroport tikiləndə vəzifə qoyulmuşdu ki, oradan magistrala qədər olan yol da tikilsin. Çünki bir halda ki, belə gözəl aeroport tikilir, onun ətrafı da gözəl olmalıdır və bu gün mən bunu görürəm. İndi bura çox gözəl, abad yerdir. Amma siz də yaxşı xatırlayırsınız, mən də yaxşı xatırlayıram ki, bura nə gündə idi. Aeroportun binası faktik olaraq dağılmışdı. Çox görkəmsiz bir mənzərə var idi. Bu gün isə həm xarici görünüşü, həm də abadlıq işləri ən yüksək standartlara cavab verir. Eyni zamanda, burada aeroport infrastrukturunun bütün parametrləri mövcuddur.

Biz nəqliyyat sektorunun inkişafına çox böyük diqqət göstəririk. Çünki Azərbaycanın coğrafi vəziyyəti çox əlverişlidir. Biz əgər güclü nəqliyyat imkanlarına malik olsaq, ölkəmizi daha da inkişaf etdirə biləcəyik. Bu məqsədlə yeni aeroportlar tikilir. Bu gün Gəncədə aeroport açılır, ondan sonra Lənkəranda, Zaqatala şəhərində yeni aeroportlar istifadəyə veriləcəkdir. Azərbaycanda avtomobil yollarının tikintisi sürətlə gedir. Bütün istiqamətlərdə Azərbaycanı qonşu ölkələrlə birləşdirən magistral yollar tikilir: Bakı-Gürcüstan sərhədi, Bakı-Rusiya sərhədi və Bakı-İran sərhədi. Bununla bərabər, şəhərlərarası yollar, kənd yolları çəkilir. Yol infrastrukturu bütün başqa sahələrə daha da sürətli inkişaf gətirəcək, böyük təkan verəcəkdir. Ona görə buna böyük əhəmiyyət veririk.

Eyni zamanda, nəqliyyat sektorunda mühüm rolu olan gəmiçilik sistemində islahatlar gedir. Yeni yük gəmiləri, tankerlər alınır. Xəzər dənizinin şərqində yerləşən ölkələrdən Azərbaycan ərazisi ilə yükdaşımaların həcmi artır. Dəmir yolunun bərpası və infrastrukturunun inkişafı da indi diqqət mərkəzindədir. Yeni təyyarələr alınır. Yəni ki, bütün sahələrdə işlər gedir. Bütün bunlar Azərbaycanda güclü nəqliyyat sektorunun yaranmasına xidmət göstərir və biz bu gün buna artıq nail olmuşuq.

Azərbaycan istər siyasi, istər iqtisadi, istərsə də nəqliyyat baxımından bölgənin mərkəzidir. Belə olan halda, əlbəttə ki, bizim gücümüz, təsiretmə imkanlarımız artır. Ölkəmiz hərtərəfli inkişaf edir. İnsanlar bütün sahələrdə, o cümlədən nəqliyyat sektorunda daha da yüksək xidmət alırlar. Bütün başqa sahələrdə də biz bunu görürük.

Mən bu gün Gəncədə yeni tikilən üzgüçülük hovuzunun açılışında da iştirak edəcəyəm. Bu hovuzun tikintisi də şəhərin infrastrukturu üçün, idmançılar, şəhər sakinləri üçün çox önəmlidir. Siz yəqin yaxşı xatırlayırsınız ki, Milli Olimpiya Komitəsi tərəfindən Gəncədə tikilmiş Olimpiya kompleksinin açılışında ulu öndər Heydər Əliyev iştirak etmişdir. Olimpiya kompleksi tikiləndən sonra biz qərara gəldik ki, mütləq üzgüçülük hovuzu da tikilsin. Bu gün də bu, reallığa çevrilibdir. Deyə bilərəm ki, Heydər Əliyevin Gəncəyə o səfəri Gəncənin yeni dövrünün başlanması demək idi. Mən yaxşı xatırlayıram, o vaxt burada olan nöqsanlar, şəhərin bərbad vəziyyətdə olması, infrastrukturun dağıdılması Prezident Heydər Əliyevi çox narahat etmişdi. Məhz o səfərdən sonra islahatlar başlandı, yeni rəhbərlik təyin olundu. Gəncənin inkişaf və tərəqqi dövrü başlandı.

Bu gün Gəncə çox sürətlə inkişaf edən şəhərdir. Gəncənin çox gözəl tarixi abidələri, özünəməxsus xüsusiyyətləri, bənzərsiz siması var. Bütün bunlar qorunub saxlanmaqla bərabər, şəhər müasirləşir. Yeni yollar, xiyabanlar, binalar, aeroport, bütün başqa infrastruktur Gəncənin inkişafı deməkdir. Bu, Azərbaycanın inkişafı deməkdir. Mən çox şadam, çox sevinirəm ki, bütün bu işlərdə bizim hamımızın əməyi var, qəbul etdiyimiz bütün qərarlar vaxtlı-vaxtında icra edilir, bütün proqramlar həyatda öz əksini tapır. Bu, çox vacibdir. Çünki biz istəyirik və Prezident kimi mən çox istəyirəm ki, bütün sahələrdə, - infrastruktur, sosial sektor, məktəblər, xəstəxanalar, – inkişaf sürətlə getsin. Gəncədə indi yeni diaqnostika və müalicə mərkəzi tikilir. Onun təməlini biz birlikdə qoymuşduq. Yəqin ki, yaxın zamanlarda onun da açılışını qeyd edəcəyik. Bu, tibbi xidmətin səviyyəsini artıracaqdır. Orada ən müasir avadanlıq quraşdırılacaq və insanlar yüksək tibbi xidmət alacaqlar.

Azərbaycanın inkişafı bundan ibarətdir – güclü iqtisadiyyat, güclü infrastruktur və güclü sosial siyasət. Bütün bu amillər birləşəndə, biz uğura nail ola bilirik. Azərbaycanda maaşlar, pensiyalar artırılır, məktəblər, xəstəxanalar, bütün başqa infrastruktur obyektləri tikilir, iş yerləri açılır, - o cümlədən Gəncə şəhərində yeni müəssisələr işə düşür, - investisiyalar qoyulur, istilik-elektrik mərkəzinin tikintisi başlanmışdır.

Bir neçə il bundan əvvəl təsəvvür etmək çətin idi ki, Gəncədə yeni müasir, çoxmərtəbəli binalar tikiləcəkdir. Amma indi bu reallıqdır və məndə olan məlumata görə, tələbat daha da artır. Yəni insanların imkanları artır və yeni evlərin tikilməsi bunun göstəricisidir. Yeni binaların tikilməsi və bütövlükdə tikinti sektorunun inkişafı hər bir ölkənin ümumi inkişafından xəbər verir. Bakıda tikinti çox sürətlə gedir. O qədər sürətlə gedir ki, indi biz bunu bir az dayandırmağa çalışırıq. Gəncədə isə bu proses təzə-təzə başlayır. Çox vacibdir ki, tikilən bütün binalar gözəl memarlıq standartlarına cavab versin. Yəni xarici görünüşü də gözəl olsun, daxili quruluşu da müasir səviyyəyə cavab versin. Mən şübhə etmirəm ki, Azərbaycanın bütün bölgələri, o cümlədən Gəncə şəhəri bundan sonra da sürətlə inkişaf edəcəkdir. Bunu etmək üçün bütün imkanlar var. Elə möhkəm təməl qoyulub ki, bu təməl üzərində istənilən məsələni həll etmək mümkündür.

Bizim məqsədimiz çox konkret və çox sadədir - Azərbaycanın güclənməsi, güclü iqtisadiyyatın yaranması, siyasi sistemin möhkəmlənməsi və insanların həyat səviyyəsinin yaxşılaşdırılması. Bütün bunlar biri-birilə bağlı olan məsələlərdir. Bunları etmək üçün bütün imkanlar var və ən önəmlisi güclü iradə

və xalqın dəstəyi var. Bu dəstəyə arxalanaraq, mən bütün islahatları inamla aparıram və sizə söz verirəm ki, gələcək fəaliyyətimdə də bu siyasətə sadiq olacağam.

Üç il bundan əvvəl, oktyabrın 31-də mən Prezident kimi öz fəaliyyətimə başladım. Üç il ərzində görülən işlər haqqında çox danışmağım, bəlkə də, düzgün deyildir. Amma sizə səmimi deyirəm, çox böyük qürur hissi keçirirəm ki, verdiyimiz bütün vədlər həyatda öz əksini tapır, gördüyümüz bütün işlər Azərbaycanın güclənməsinə xidmət edir, bütün siyasətimiz insanların yaxşı yaşamasına yönəldilibdir və biz bu gün bunun gözəl nəticələrini görürük. Bir daha sizə demək istəyirəm ki, mən bundan sonra da əlimdən gələni edəcəyəm ki, doğma xalqıma, Vətənimə sədaqətlə xidmət edim, sizin etimadınızı daim doğruldum.

Əziz bacılar və qardaşlar, əziz gəncəlilər!

Bu gözəl, tarixi gündə mən bir daha sizin hamınızı ürəkdən salamlayır, gözəl aeroportun açılışı münasibətilə sizi təbrik edirəm, hər birinizə cansağlığı, səadət arzulayıram. Sağ olun.

(Dövlətimizin başçısının nitqi diqqətlə dinlənildi və dəfələrlə alqışlarla qarşılandı).

AZƏRTAC
2006, 31 oktyabr

Gəncə qapıları şəhərin girişini bəzəyəcək, ikinci paytaxtın tarixi görkəmini özünə qaytaracaqdır
(31 may 2007-ci il)

Prezident İlham Əliyev sonra Gəncənin qədim qapılarının ilkin şəkildə bərpası üçün görülən işlərlə tanış olmaq üçün şəhərin girəcəyinə gəldi. Burada Prezidenti və xanımını Gəncə ziyalıları böyük səmimiyyətlə qarşıladılar.

Xalq artisti Pərvanə Qurbanova dövlətimizin başçısına Gəncənin emblemində həsr olunmuş monumental abidənin Sankt-Peterburqda hazırlanmış maketini təqdim edərək dedi ki, cənab Prezident, Sizin qətiyyətiniz sayəsində Gəncənin gerbi, emblemi özünə qaytarılmış və bu, tarixi hadisəyə çevrilmişdir.

Prezident İLHAM ƏLİYEV ziyalılarla görüşdü, onlara təşəkkürünü bildirərək dedi:

-Mən çox sevinirəm ki, bu gün çox böyük işlər gedir, şəhər gözəlləşir, tarixi abidələr bərpa olunur, yeni abidələr yaranır. Düşünürəm ki, bu abidə də gəncəlilər tərəfindən yaxşı qəbul olunacaqdır. Biz tarixi abidələri bərpa etməliyik. Gəncənin böyük tarixi var, böyük keçmişi var. Biz gərək o tarixi qoruyaq. Bəzi səbəblər üzündən itmiş, yaxud da buradan aparılmış tarixi sərvətlərimizi həm qaytarmalıyıq, eyni zamanda, müvəqqəti olaraq onları əvəz edən surəti yaradılmalıdır. O cümlədən, Gəncənin qədim qapılarının.

Bildiyiniz kimi, o qapı Gürcüstanda kilsədədir. Biz müraciət etmişdik ki, o qapılar Gəncəyə qaytarılsın. İndi bu barədə danışıqlar gedir, amma hələlik məsələ öz həllini tapmır. Biz Gəncə qapılarının dəqiq surətini yaratmalıyıq və bu işlər də gedir. Bütün başqa tarixi abidələr – Gəncənin gerbi, tarixi keçmişdə Gəncəyə aid olan əlamətlər, elementlər gərək bərpa olunsun. Çünki bu bizim tariximizdir. Biz müstəqil ölkə kimi çox sürətlə inkişaf edirik. Bölgələr bütün sahələrdə inkişaf edir və bununla bərabər, həmişə öz tariximizə böyük hörmətlə yanaşmalıyıq, onu bilməliyik. Tariximizi gənc nəsil bilməlidir. Bizim memarlıq abidələrimizin bərpası, qorunması mütləq və mütləq davam etməlidir.

Mən bu gün səhər Qazaxda idim, ondan sonra Tovuzda oldum, böyük işlər görülür. İndi Azərbaycanın hər bir bölgəsində, o cümlədən Gəncədə quruculuq işləri aparılır. Sizi ürəkdən salamlayıram, yeni uğurlar arzulayıram.

Bilirsiniz ki, indi Azərbaycanda məktəb tikintisi çox geniş vüsət alıbdır. Xüsusilə o rayonlarda ki, orada yeni məktəblərə ehtiyac var. Ancaq birinci mərhələdə, əlbəttə, tikinti işlərinə diqqət göstərilirdi. Lakin Gəncə şəhərində, bəlkə də, yeni məktəbin tikintisinə ehtiyac yoxdur, mövcud olan məktəblərin təmirinə ehtiyac var. Ona görə indi xüsusi proqram hazırlanır və büdcədə dəqiqləşdirmə aparılan zaman əlavə vəsait nəzərdə tutulubdur. Bu il Gəncənin bir neçə məktəbində təmir işləri başlanacaqdır. Artıq yeddi məktəbdə təmir gedir. Gəncədə 44 məktəb fəaliyyət göstərir, onların vəziyyəti o qədər də yaxşı deyildir. Çoxdan tikilibdir, təmirsizdir. İndi yeddisinə bu il başlayırıq, ondan sonra da digər məktəblər yüksək səviyyədə təmir ediləcəkdir.

Müalicə-Diaqnostika Mərkəzi də tikilir. Yəni, yaşamaq üçün bütün şərait ən yüksək səviyyədə olacaqdır. Dünyada hansı səviyyə varsa, burada da olacaqdır. Baxın, təyyarənin səsi gəlir. Gəncədə ən gözəl hava limanı tikilibdir. Dünyanın ən böyük təyyarələri artıq Gəncəyə enir. Bütün bunlar inkişafı göstərir. Bu işlər gələcəkdə də davam etdiriləcəkdir. Əsas odur ki, biz bu yolla inamla irəliyə gedək, qarşıya qoyduğumuz bütün məsələləri həll edək. Bu, hamımızın istəyidir.

X X X

Ziyalılar dövlətimizin başçısına bir daha minnətdarlıqlarını bildirdilər, ona cansağlığı arzuladılar.

Sonra Prezident İlham Əliyev Gəncə qapılarının və Gəncə qalasının maketinə, fotoşəkillərinə baxdı. Məlumat verildi ki, dəmirçi Osmanoğlu İbrahim tərəfindən 1063-cü ildə hazırlanmış məşhur Gəncə qapıları 1139-cu ildə Gəncədə zəlzələ baş verərkən yadellilər tərəfindən aparılmışdır. İndi həmin qapıların və qala divarının kiçik bir hissəsini bərpa etmək məqsədi ilə burada tikinti işlərinə başlanılmışdır. Bərpa işlərini Milli Elmlər Akademiyasının Gəncə Regional Elm Mərkəzinin mütəxəssisləri aparırlar. Qapılar dəmir parçalarından və 800-dən çox çarmıxdan hazırlanır. Hündürlüyü 3,7, eni isə 3,4 metrdir. Hazırda tamamlama işləri gedir və yaxın vaxtlarda Gəncə qapıları şəhərin girişini bəzəyəcək, bu qədim diyara gələn hər bir qonaq, ilk növbədə, XII əsrdə mövcud olmuş Gəncə qapılarından keçəcəkdir.

Bildirildi ki, ətrafda 20 metr hündürlüyündə rəmzi qala divarının ucaldılması da nəzərdə tutulur. Memarlıq və şəhərsalma idarəsinin mütəxəssisləri tərəfindən layihələşdirilmiş qala divarının yuxarı hissəsində Gəncənin gerbi qoyulacaqdır və üz tərəfi Naxçıvandan gətirilmiş kərpiclə hörüləcəkdir.

Prezident İlham Əliyev Gəncə qapılarının Azərbaycan tarixinin bir parçası olduğunu vurğulayaraq, onun üzərində yazılmış sözlərin tərcüməsinin latın əlifbası ilə də yazılmasını tövsiyə etdi və bunun tarixin öyrənilməsi baxımından əhəmiyyətli olduğunu vurğuladı.

AZƏRTAC
2007, 31 may

6 nömrəli orta məktəb simasını dəyişir

(31 may 2007-ci il)

Prezident İlham Əliyev mayın 30-da Gəncədə Cəfər Cabbarlı adına 6 nömrəli orta məktəbə gələrək, burada aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, Gəncənin aparıcı ümumtəhsil ocaqlarından olan bu məktəb 1936-cı ildə inşa edilmişdi. Hazırda burada təmir işləri ən yüksək səviyyədə görülür və şagirdlərin təlim-tərbiyəsi üçün bütün şərait yaradılacaqdır. 47 sinif otağı və 34 fənn kabineti olan bu məktəbdə 900 şagird təhsil alır, 149 müəllim çalışır.

Prezident İlham Əliyev təmirin gedişi ilə maraqlandı, yenidənqurma işlərinin ən yüksək səviyyədə aparılması ilə bağlı məsləhət və tövsiyələrini verdi.

Respublikamızın Qərb bölgəsinə səfərini başa çatdıran Prezident İlham Əliyev mayın 30-da Bakıya qayıtdı.

AZƏRTAC
2007, 31 may

Gəncənin baş meydanı daha yaraşıqlı olacaqdır

(31 may 2007-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Tovuz rayonuna səfərini başa çatdırdıqdan sonra mayın 30-da Gəncə şəhərinə gəlmişdir.

Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə Gəncənin baş meydanında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoydular.

Prezident İlham Əliyev bütövlükdə baş meydanın və ətraf ərazinin yeni işıqlandırma sisteminin layihəsi ilə tanış oldu. Bildirildi ki, xalqımızın ümummilli liderinin adını daşıyan muzeyin, park və digər obyektlərin gecə mənzərəsinin tamamilə yeniləşdirilməsi üçün işlər davam etdirilir.

Dövlətimizin başçısı şəhər icra hakimiyyətinin binasında aparılan təmir işlərinə də baxdı, baş meydanın plitələrinin dəyişdirilməsi, müasir işıqlandırma sistemi ilə təmin olunması və təmir işlərinin keyfiyyətlə görülməsi barədə tövsiyə və tapşırıqlarını verdi.

AZƏRTAC
2007, 31 may

Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə səfəri
Ulu Öndərin abidəsini ziyarət
(3 mart 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Gəncə şəhərinə səfərə gəlmişdir.

Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə şəhərin mərkəzindəki Heydər Əliyev meydanına gələrək, ulu öndərin abidəsini ziyarət etdilər gül dəstələri qoydular.

Prezident İlham Əliyev meydanda aparılacaq yenidənqurma işləri ilə maraqlandı, müvafiq tapşırıq və tövsiyələrini söylədi.

Sonra dövlətimizin başçısı şəhər icra hakimiyyətinin binasında aparılan təmir işləri ilə maraqlandı, iş otaqlarına və akt salonuna baxdı.

AZƏRTAC
2008, 3 mart

Dahi Nizaminin xatirəsinə ehtiram
(3 mart 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Gəncədə dahi Nizaminin məqbərəsini ziyarət etmişdir.

Dövlətimizin başçısına məqbərədə aparılan abadlıq işləri barədə məlumat verildi. Prezident İlham Əliyev məqbərənin və ətraf ərazinin görünüşünün müasirləşdirilməsi və daha yüksək səviyyəyə çatdırılması ilə bağlı müvafiq tövsiyələrini verdi.

X X X

Sonra dövlətimizin başçısı şəhərin girəcəyindəki, yenidən bərpa edilmiş "Gəncə darvazası"na və qala divarına baxdı.

AZƏRTAC
2008, 3 mart

Gəncə regional müalicə-diaqnostika mərkəzinin tikintisi ilə tanışlıq
(3 mart 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, martın 3-də Azərbaycan Prezidenti İlham Əliyev 2005-ci il oktyabrın 11-də təməlini qoyduğu Gəncə regional müalicə-diaqnostika mərkəzində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Dövlətimizin başçısı onu hörmətlə qarşılayan inşaatçılara təşəkkür edərək dedi ki, həm memarlıq, həm də xarici görünüş baxımından gözəl bina yaratmısınız. Burada müasir avadanlıq quraşdırılacaq, yüksək səviyyəli kadrlar işləyəcəklər. Bu bölgədə buna bənzər bina yoxdur.

Sonra Prezident İlham Əliyev tikinti işlərinin gedişi ilə maraqlandı. Məlumat verildi ki, Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilən müalicə-diaqnostika mərkəzinin dördmərtəbəli binasinin ümumi sahəsi 7 min kvadratmetr olacaqdır. Birinci mərtəbədə dializ, rentgen, tomoqrafiya, ilkin tibbi yardım və travmatologiya şöbələri fəaliyyət göstərəcəkdir. İkinci mərtəbədə müvafiq şöbələr üzrə qəbul otaqları yerləşəcəkdir. Üçüncü mərtəbədə isə 12 palata, yeməkxana, əlavə yardımçı otaqlar olacaqdır. Reanimasiya şöbəsi, dörd əməliyyat otağı isə dördüncü mərtəbədə yerləşəcəkdir. İndi tikintidə 800 işçi çalışır. Müalicə-diaqnostika mərkəzinin bu ilin ortalarına qədər istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev tikintinin keyfiyyətlə aparılması ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi.

AZƏRTAC
2008, 3 mart

"Gəncə Sənaye Cihaz" fəaliyyətini genişləndirir

(3 mart 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Gəncənin Heydər Əliyev prospektində yerləşən "Gəncə Sənaye Cihaz" Açıq Səhmdar Cəmiyyətində olmuşdur.

Dövlətimizin başçısı əvvəlcə üzərində "Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan bu müəssisə bərpadan sonra Prezident İlham Əliyev tərəfindən 3 mart 2008-ci ildə açılmışdır" sözləri yazılan lövhəyə baxdı.

Prezident İlham Əliyev müəssisənin inzibati binasında ulu öndərin 2000-ci il mayın 25-də burada olmasından bəhs edən, zavodun keçmiş və indiki vəziyyətini əks etdirən filmə baxdı.

Dövlətimizin başçısına müəssisənin texniki-iqtisadi göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi ilə "Qalfservis" MMC arasında 2006-cı ildə imzalanmış müqaviləyə əsasən, "Qalfservis" "Gəncə Sənaye Cihaz" Açıq Səhmdar Cəmiyyətinə 3 milyon 500 min avro həcmində investisiya qoyuluşunu öhdəsinə götürmüşdü. 2008-ci ilin fevralına qədər "Qalfservis" müəssisəyə 4 milyon avro sərmayə qoymuşdur. 144 nəfərin işlədiyi zavodda işçilərin orta aylıq əmək haqqı 500 manatdır. Burada qaz və su sayğaclarının istehsalı nəzərdə tutulmuşdur. Hazırda qaz sayğacları istehsalı sexi fəaliyyətdədir. Quraşdırılmış avadanlıq Fransa, İspaniya, Almaniya və Türkiyədən gətirilmişdir. Müəssisənin illik istehsal gücü adi və smart-qaz tipli qaz sayğacları daxil olmaqla, 240 min ədəd təşkil edir. İlkin mərhələdə sayğaclar "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinə satılır.

Müəssisənin rəhbərliyi Prezident İlham Əliyevə ölkədə azad sahibkarlığın inkişafına yaratdığı şəraitə görə təşəkkür etdi.

Sonra Prezident İlham Əliyev cihazların yığılması, rənglənməsi proseslərini izlədi, quraşdırılmış müasir texnoloji avadanlığa baxdı. Dövlətimizin başçısı müəssisənin fəaliyyətini yüksək qiymətləndirdi. Özəl sektorun inkişafına bundan sonra da dəstək veriləcəyini bildirdi və gələcəkdə ölkənin tələbatını ödəməklə yanaşı, cihazların xarici bazarlara çıxarılmasının da zəruriliyini vurğuladı. Prezident İlham Əliyevə xatirə olaraq elektron qaz sayğacı hədiyyə edildi.

Sonra dövlətimizin başçısı müəssisənin əhaliyə xidmət mərkəzi ilə tanış oldu. Prezidentə ödənişlərin bankomatlar vasitəsilə həyata keçirildiyi barədə məlumat verildi, bu sistemin çox səmərəli olduğu vurğulandı. Bildirildi ki, hazırda Gəncədə 17,2 min elektron abunəçi vardır və bunlar "Kapital Bank" vasitəsilə ödənişlər aparırlar. Gələcəkdə Gəncədə daha 40 bankomatın quraşdırılması nəzərdə tutulur. Belə olan halda abonentlərin banka getməsinə ehtiyac qalmayacaqdır. Vurğulandı ki, elektron sayğaclar adi sayğaclardan daha əlverişlidir.

Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi. Yeni sistemin çox səmərəli olduğunu bildirərək dedi ki, insanlar biləcəklər ki, nə qədər pul ödəyiblər. Vətəndaşların qapısını döyməyə ehtiyac olmayacaq, şəffaflıq təmin ediləcəkdir. Bu, çox müasir bir sistemdir. Hamı biləcək ki, nə qədər pul ödəyir və kartda nə qədər pul qalır. Abunəçilər elektron sayğaclarla 100 faiz təmin olunmalıdır.

O da bildirildi ki, hazırda abonentlər arasında elektron sayğaclarda ödəmə depozitlə bərabər 110 faiz təşkil edir. Adi sayğaclar üzrə isə ödəmələr 50 faizdir.

AZƏRTAC
2008, 3 mart

"Daşkəsən Filizsaflaşdirma" ASC-nin Gəncə polad kompleksinin və Det-Al Alüminium zavodunun təməlqoyma mərasimi

(3 mart 2008-ci il)

Prezident İlham Əliyev martın 3-də "Daşkəsən filizsaflaşdırma" ASC-nin Gəncə polad kompleksinin və Det-al alüminium zavodunun təməlqoyma mərasimində iştirak etmişdir.

Prezident İlham Əliyev əvvəlcə Gəncə polad kompleksi ərazisinə gəldi. Burada dövlətimizin başçısını böyük hörmətlə qarşıladılar.

Azərbaycan Prezidenti polad kompleksinin və Det-al alüminium zavodunun texniki-iqtisadi göstəriciləri ilə tanış oldu, sənədli filmə baxdı. Filmdə ulu öndərin və Prezident İlham Əliyevin ölkəmizdə metallurgiya sənayesinin yaradılması ilə bağlı fikirləri vurğulanır və hər iki müəssisə barədə məlumat verilir.

Hər iki layihə Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilir. Dəmir filizindən son məhsula qədər istehsalı özündə birləşdirən polad kompleksi bir neçə zavoddan ibarət olacaqdır. Bu kompleks İtaliyanın "Danielli" və "Tedhink" şirkətlərinin qabaqcıl texnologiyaları əsasında Türkiyənin "Ekom" şirkəti tərəfindən inşa ediləcəkdir. Polad kompleksinin inşasına 800 milyon ABŞ dolları həcmində investisiya qoyulacaqdır. Kompleksin fəaliyyətə başlaması nəticəsində Daşkəsən və Gəncədə 1800 yeni iş yeri açılacaqdır. Burada ildə bir milyon ton polad istehsal olunacaqdır. Polad kompleksinin investisiya müddəti 2008-2011-ci illəri əhatə edir. Bu kompleksdə istehsal ediləcək polad neft hasilatı sənayesində istifadə olunan yüksək keyfiyyətli polad boruların, habelə inşaat materiallarının, o cümlədən armatur və müxtəlif çeşidli metal profillərin istehsalına imkan verəcəkdir. Polad kompleksinin fəaliyyətə başlaması nəticəsində polad məhsullarının ixracına geniş imkanlar yaranacaqdır.

İkinci layihə Gəncə şəhərində ildə 100 min ton alüminium istehsal edəcək zavodun inşası ilə bağlıdır. Bu zavodu Çinin "Smec" şirkəti tikəcək, mühəndislik layihələndirilməsini isə alüminium sənayesində qabaqcıl layihə şirkətlərindən olan "Qami" şirkəti həyata keçirəcəkdir.

Bu zavodun fəaliyyətə başlaması nəticəsində Azərbaycanda alüminium istehsalı ildə 160 min tona çatacaq, beləliklə, həmin məhsulun ixracı daha da artacaqdır. İnvestisiya müddəti 2008-2009-cu illəri əhatə edəcək zavodun tikintisinə 230 milyon ABŞ dolları məbləğində sərmayə qoyulacaqdır. Müəssisə fəaliyyətə başlaması nəticəsində 500 iş yeri açılacaq, tətbiq olunacaq müasir texnologiya xammaldan və elektrik enerjisindən daha da səmərəli istifadə etməyə imkan verəcəkdir.

Məsələn, zavodda bir ton alüminium istehsalına 13,6 min kilovat elektrik enerjisi sərf ediləcək ki, bu da hazırda MDB məkanında fəaliyyət göstərən oxşar müəssisələrlə müqayisədə təxminən 6000 kilovat azdır. Ekologiyanın qorunmasına da xüsusi diqqət yetiriləcəkdir. Müəssisədə quraşdırılacaq müasir avadanlıq istehsal prosesində yaranan zərərli tullantıların təqribən 98 faizinin buraxılmasının qarşısını alacaq ki, bu da dünya standartlarına yüksək səviyyədə cavab verir.

Polad kompleksi və alüminium zavodunda çalışacaq işçilərin bu sahədə beynəlxalq təcrübəyə yiyələnməsi məqsədi ilə indidən tədbirlər görülür və gələcəkdə onların xarici ölkələrdə təcrübə keçməsi nəzərdə tutulur. Hər iki layihənin həyata keçirilməsi ölkənin qeyri-neft sektorunun tərəqqisində mühüm rol oynamaqla yanaşı, respublikada metallurgiya sənayesinin sürətli inkişafı, ölkənin ixracat potensialının yüksəldilməsi baxımından da böyük rol oynayacaqdır. O da bildirildi ki, Azərbaycanda yaradılan bu müəssisələr dünya üzrə dördüncüdür, yəni Meksika, Misir, Rusiyadan sonra belə müəssisələr Azərbaycanda yaradılır.

Sonra burada Prezident İlham Əliyevin iştirakı ilə sənədlər imzalandı. "Noble Group Limited" şirkəti ilə Polad kompleksinin və Det-al alüminium zavodunun istehsal edəcəkləri məhsulların satışına dair çərçivə sazişi, "Danielli" şirkəti ilə Polad kompleksinin layihələndirilməsi və texnoloji avadanlıqla təchizatına dair niyyət razılaşması və "BNK Paribas" bankı ilə Polad kompleksinin inşasının maliyyələşdirilməsinə dair razılaşma sənədləri imzalandı. Sənədlərin imzalanmasından sonra müəssisənin tikintisində iştirak edəcək şirkətlərin rəhbərləri dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdilər.

Prezident İlham Əliyev Polad kompleksinin bünövrəsinə gilizi qoydu və düyməni basaraq beton qarışığını tökdü.

Dövlətimizin başçısı Polad kompleksinin həyətində qoyulmuş xatirə daşına baxdı. Daşın üzərinə "Daşkəsən filizsaflaşdırma" ASC-nin Gəncə polad kompleksinin təməl daşı Azərbaycan Respublikasının

Prezidenti cənab İlham Əliyev tərəfindən qoyulmuşdur. 3 mart 2008-ci il" sözləri yazılmışdır. Prezident İlham Əliyev xatirə daşının önündə şəkil çəkdirdi.

Sonra dövlətimizin başçısı Det-al alüminium zavodunun tikildiyi əraziyə gəldi. Buraya toplaşan inşaatçılar, xarici şirkətlərin nümayəndələri Prezidenti böyük hörmətlə və alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev gilizi bünövrəyə qoydu və düyməni basaraq beton qarışığını tökdü.

Dövlətimizin başçısı yeni müəssisələrin təməlinin qoyulması ilə əlaqədar toplaşanlar qarşısında nitq söylədi

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Əziz dostlar,

Bu gün ölkəmizin iqtisadi həyatında çox əlamətdar bir gündür, Gəncədə iki böyük zavodun təməli qoyulmuşdur. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu böyük zavodların tikintisi Azərbaycanda yeni sənayenin yaranması deməkdir. Biz çox istəyirik ki, Azərbaycan iqtisadiyyatı hərtərəfli inkişaf etsin, çoxşaxəli olsun və bu baxımdan, əlbəttə ki, güclü sənaye potensialının yaranması çox böyük əhəmiyyət kəsb edir. Bu iki zavodun timsalında biz bunu görürük. Böyük polad kompleksinin tikintisi nəticəsində Azərbaycan çox böyük iqtisadi imkanlara nail olacaqdır. Buraya çox böyük investisiyalar qoyulacaqdır. Eyni zamanda, alüminium zavodunun tikintisinə də investisiyalar qoyulacaqdır. Bütövlükdə investisiyaların ümumi həcmi 1 milyard dollardan çox olacaqdır. Bu da Azərbaycan sənayesinə, onun qeyri-neft sektoruna qoyulan ən böyük sərmayələrdən biridir. Bu onu göstərir ki, Azərbaycana böyük inam var, Azərbaycanın inkişafına böyük ümidlər var və xarici investorlar, banklar və tikinti şirkətləri Azərbaycanla işləmək üçün səylər göstərirlər.

Bu gün, eyni zamanda, bu iki zavodun tikintisi üçün lazım olan bütün razılaşmalar imzalanmışdır. İlk növbədə, kredit razılaşması. Bu da onu göstərir ki, Azərbaycanın artan nüfuzu, iqtisadiyyatın inkişafı və Azərbaycanda hökm sürən sabitlik, əlbəttə ki, xarici investorları və bankları da ruhlandırır. Bir milyard dollardan çox kreditlər ayrılacaqdır. Eyni zamanda, bu gün bu zavodların tikintisi ilə bağlı olan bütün texniki məsələlər də öz həllini tapıbdır. Yəni Azərbaycana gətiriləcək texnologiyalar ən qabaqcıl texnologiyalar olacaqdır. Bu sahədə razılaşma imzalanmışdır. Zavodların tikintisi ilə yanaşı, buraxılacaq məhsulun satışı ilə bağlı da razılaşmalar imzalanmışdır. Bir sözlə, bütün lazım olan sənədlər bu gün imzalandı və əminəm ki, zavodların qısa müddət ərzində tikilib istifadəyə verilməsi nəticəsində Azərbaycanın sənayesinə çox güclü təkan veriləcəkdir. Biz bunu çox istəyirik. Arzulayırıq ki, Azərbaycanın sənayesi ən yüksək dünya standartlarına çata bilsin. Zavodlarda ildə 1 milyon ton polad və 100 min ton alüminium istehsal olunacaqdır.

Bir daha qeyd etmək istəyirəm ki, bu zavodlar, əslində, yeni sənaye sahəsinin yaranması deməkdir. Biz Azərbaycanda çox güclü sənayeləşmə siyasətini aparırıq və bildiyiniz kimi, bu sahəyə diqqət günü-gündən artır. Biz həm yerli investorları ruhlandırırıq, həm də xarici sərmayələri alqışlayırıq. Elə etmək istəyirik ki, Azərbaycana qoyulan vəsait ölkəmizdə çox güclü sənaye potensialı yarada bilsin. Əlbəttə ki, bu sahədə biz beynəlxalq maliyyə qurumları ilə, tanınmış şirkətlərlə əməkdaşlığımızı davam etdirəcəyik.

Bu gün təməli qoyulan bu iki böyük kompleksin timsalında biz Azərbaycanda mövcud olan gözəl investisiya mühitini də görürük, investorların Azərbaycana olan inamını görürük. Bu inamı qazanmaq o qədər də asan məsələ deyildir. Xüsusilə nəzərə alsaq ki, hələ 16 il bundan əvvəl Azərbaycan müstəqil dövlət deyildi və müstəqilliyimizin ilk illəri də bizim üçün çox ağır keçmişdir. Azərbaycana böyük sərmayə qoymaq istəyən şirkətlərin sayı o qədər də çox deyildi.

Biz 1990-cı illərin ortalarında neft-qaz sahəsinə böyük investisiyalar cəlb edə bildik və Azərbaycan özünü dünyaya etibarlı tərəfdaş kimi təqdim edə bilmişdir. Ancaq o da sirr deyil ki, adətən, neft-qaz sənayesinə investisiya qoymaq istəyən şirkətlər daha fəal olurlar. Bizim isə əsas məqsədimiz qeyri-neft sektorunu inkişaf etdirməkdir ki, gələcəkdə Azərbaycanın neft amilindən asılılığını maksimum dərəcədə azaldaq. Düzdür, neft-qaz sahəsi Azərbaycanda bundan sonra da uzun illər ərzində aparıcı rol oynayacaqdır. Bu da təbiidir. Çünki bizim çox zəngin neft-qaz yataqlarımız var. Artıq bütün neft kəmərləri istismardadır. Ancaq iqtisadiyyatın digər sahələrini inkişaf etdirmək bizim prioritet məsələmizdir.

Mən bu məsələlərlə bağlı hələ 4 il bundan əvvəl, prezident seçkiləri ərəfəsində öz fikirlərimi bildirmişdim və seçkilərdən sonra öz iqtisadi proqramımı təqdim etmişdim. O proqramda, ilk növbədə, Azərbaycanın qeyri-neft sektorunun inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bu illər ərzində Azərbaycan

sənayesinin inkişafı üçün lazımi tədbirlər görülmüşdür. Azərbaycanda indi yeni sənaye müəssisələri yaradılır, yeni iş yerləri açılır və ölkəmizin qeyri-neft sektoru inkişaf edir. Ancaq bu iki kompleksin yaranması nəticəsində, əlbəttə ki, bu sahədə vəziyyət tam başqa şəkildə olacaqdır. Bu komplekslərin tikintisi həm yeni iş yerləri yaranması, həm qeyri-neft sektorunun inkişafı deməkdir, həm də xarici sərmayənin cəlb edilməsi və beləliklə, ölkəmizin hərtərəfli inkişafı deməkdir. Onların tikintisi, əslində, özündə bizim bütün iqtisadi siyasətimizi cəmləşdirir: yeni iş yerləri, regionların sosial-iqtisadi inkişafı, qeyri-neft sektorunun inkişafı və xarici investorlarla uğurlu əməkdaşlığımız. Biz bundan sonra da bu siyasətə sadiq olacağıq. Mən əminəm ki, bu iki nəhəng sənaye sahələrinin yaranması, eyni zamanda, digər investorlar üçün yaxşı nümunə olacaqdır. Yəni Azərbaycan etibarlı tərəfdaş kimi özünü dünyaya tam şəkildə təqdim edibdir və ümid edirəm ki, bu gözəl nümunədən sonra başqa şirkətlər də Azərbaycan iqtisadiyyatının digər sahələrinə investisiya qoyacaqlar.

Bu komplekslərin özəlliyi ondan ibarətdir ki, burada bütün istehsal prosesi Azərbaycanla bağlı olacaqdır. Yəni biz burada hansısa xarici xammaldan asılı deyilik. Bir müddət bundan əvvəl Daşkəsəndə başladığımız işlər bu gün polad kompleksinin təməlinin qoyulmasında özünü göstərir. Daşkəsən mədənlərinin işlənilməsi, filizsaflaşdırma səhmdar cəmiyyətinin fəaliyyəti, əlbəttə ki, polad kompleksi üçün gözəl xammal bazası yaradır. Düzdür, biz filizi xammal kimi sata bilərdik. Ancaq şübhəsiz, onu hazır məhsula çevirmək səmərəliliyi bir neçə dəfə artırır. Biz Azərbaycanda olan xammallardan səmərəli istifadə etməliyik, onun son məhsula çevrilməsini təmin etməliyik. Ancaq, əlbəttə ki, bu, böyük səylər, düşünülmüş siyasət tələb edir. Həm maliyyə imkanlarımız olmalıdır, iqtisadi sahədə apardığımız liberal siyasət daha da güclənməlidir və həm də bizneslə məşğul olmaq üçün şərait daha da yaxşı olmalı, xarici investisiyalar bundan sonra da qorunmalıdır. Bütün bu amillər Azərbaycanda var. İnvestisiyaların qorunması işində əldə etdiyimiz uğurlar, əlbəttə ki, bu gün xarici investorları daha da cəsarətli edir. Biz 1994-cü ildən neft müqavilələrinin imzalanması ilə üzərimizə öhdəliklər götürmüşük və o gündən bu günə qədər onları yerinə yetirmişik. Azərbaycanda çox yaxşı investisiya mühiti var. Biz xarici və yerli sərmayənin qorunması üçün lazımi qanunvericilik aktlarını da qəbul etdik, praktiki işlər də yaxşı gedir. Məhz buna görə 1993-cü ildən bu günə qədər Azərbaycan iqtisadiyyatına 46 milyard dollar sərmayə qoyulmuşdur və bu rəqəm ildən-ilə artır. Keçən il, 2007-ci ildə isə artıq daxili investisiyalar xarici investisiyaları üstələmişdir. Bu da çox gözəl nəticədir və onu göstərir ki, yerli şirkətlər güclənir, yerli şirkətlər artıq yeni inkişaf dövrünü yaşayırlar.

Beləliklə, gələcəkdə Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf edəcəkdir. Mən bunu çox arzulayıram. Bu gün bu iki nəhəng kompleksin təməlinin qoyulması ilə bağlı bütün lazımi tədbirlərin görülməsi üçün göstərişlər vermişdim. Bu gün, bu gözəl gündə deyə bilərəm ki, Azərbaycan sənayesində yeni dövr başlayır. Yeni, nəhəng istehsal müəssisələri yaradılır. Onların potensialı çoxdur, böyük olacaqdır. Burada 2 minə yaxın insan işləyəcək, yüksək maaş alacaqdır. Bu sahələrin inkişafı ilə bağlı kiçik özəl sektor da inkişaf edəcəkdir.

Alüminium zavodunun işə düşməsindən kiçik sahibkarlar da faydalanacaqlar. Çünki son məhsulun buraxılması üçün gözəl şərait yaradılır. Biz elə etməliyik ki, bu komplekslərin işə düşməsindən sonra kiçik sahibkarlığın da bundan faydalana bilməsi üçün bütün lazımi tədbirlər görülsün. İki nəhəng kompleksin tikintisi və bundan sonra bu sahədə görüləcək işlər, şübhə yox ki, bizi əhəmiyyətli dərəcədə gücləndirəcək. Həm iş yerləri, həm də ixracqabiliyyətli istehsal yaradılır. Bu da çox vacibdir. Biz istəyirik ki, dünyaya qeyri-neft sektorunda yaradılmış məhsulları ixrac edək. İxracla da bağlı heç bir problem olmayacaqdır. Çünki burada istehsal olunacaq məhsullar sərbəst bazarda satılacaqdır. Nəzərə alsaq ki, bu gün həm də məhsulların satışa çıxarılması ilə bağlı müqavilələr imzalanmışdır, mən bu sahədə də heç bir çətinlik görmürəm. Bəzi hallarda xarici bazara yeni məhsulla daxil olmaq o qədər də asan məsələ olmur. Nəzərə alsaq ki, indi dünyada rəqabət artır, yeni sənaye kompleksləri yaradılır, bu iki kompleksin özəlliyi ondadır ki, onların texnologiyası ən qabaqcıl texnologiyalardır. Dünyada mövcud olan ən qabaqcıl texnologiyalar nədirsə, onlar burada tətbiq olunacaq və beləliklə, Azərbaycanın gözəl ixrac potensialı yaranacaqdır. Bu, ölkə iqtisadiyyatına çox böyük təkan verəcək və əminəm ki, iki kompleksin işə düşməsindən sonra Azərbaycanda investisiya mühiti daha da yaxşılaşacaqdır.

Ancaq bu sahədə hələ çox işlər görmək lazımdır. Bildiyiniz kimi, biz Dövlət İnvestisiya Şirkətini yaratdıq ki, xaricdən investisiyaları daha da tezliklə cəlb edək. Düzdür, indi Azərbaycanın öz maliyyə imkanları da kifayət qədər böyükdür. Bizim uğurlu neft strategiyamız, ulu öndər Heydər Əliyevin 1994-cü ildə başladığı Azərbaycanın neft strategiyası bizə çox böyük uğurlar gətiribdir. Ölkəmizin valyuta ehtiyatları 7 milyard dolları ötübdür və əminəm ki, bu il həmin rəqəm ən azı iki dəfə artacaqdır. Yəni biz istənilən sahəyə investisiya qoya bilərik. Ancaq biz istəyirik ki, bu prosesə daha çox biznes strukturları

tərəfindən diqqət göstərilsin. O ki qaldı, Azərbaycan dövlətinin bu işlərə müdaxiləsinə, biz yalnız və yalnız gözəl investisiya mühitinin yaranmasında iştirak edəcəyik. Azərbaycan Dövlət İnvestisiya Şirkətinin işi də bu məqsədləri güdür. Yəni xaricdən gələn investorlarla bərabər, müxtəlif layihələrdə iştirak etmək.

Ancaq onu da görürük ki, indi Azərbaycana dünyada inam o qədər böyükdür ki, investorlar özləri öz vəsaitini buraya qoyurlar. Xarici banklar milyardlarla dollar həcmində kreditlər verirlər. Bizim kredit reytinqimiz də ildən-ilə qalxır. Azərbaycanın dünya iqtisadiyyatında rolu artır. Bu yaxınlarda dünyanın ən qabaqcıl maliyyə qurumları, Davos Beynəlxalq İqtisadi Forumu və digər beynəlxalq reytinq şirkətləri Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə 60-cı yerlərə qoyubdur. Yəni bu, böyük nailiyyətdir. Azərbaycanda 16 il bundan əvvəl özəl sektor yox idi. Özəl sektorun ümumi daxili məhsuldakı çəkisi sıfır idi. Bu gün isə 80 faizdir. 16 il ərzində dünya birliyində rəqabətqabiliyyətlilik sayəsində 60-cı yeri tutmaq çox böyük nailiyyətdir. Azərbaycanda biznes şəraiti liberallaşır. Biznes strukturlarının işinə müdaxilələr azalır. Mən bu barədə dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, dövlət nəzarət orqanları yalnız nəzarət etməlidir, harada ki, qanun pozuntuları var, onları üzə çıxarmalıdır. Biz heç kimə yersiz müdaxilələr etməyə imkan verməyəcəyik. İndi Azərbaycanda biznesə başlamaq üçün 3 gün lazımdır. Əvvəllər 72 gün lazım idi. Deyə bilərəm ki, "bir pəncərə" prinsipinin tətbiqi ilə biz bu sahədə inqilab etmişik və hamı görür ki, bunun yalnız və yalnız müsbət nəticələri var. Yəni özəl sektorun inkişafına biz çox böyük diqqət göstəririk. Mənim bu barədə fikirlərim sizə bəllidir - biz özəl sektoru daha da möhkəmləndirməliyik.

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının icrası da uğurla gedir. Bu komplekslərin tikintisində də biz məhz regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının icrasını görürük. Bu komplekslər başqa yerdə də tikilə bilərdi. Əlbəttə ki, belə böyük, nəhəng komplekslər əvvəllər daha çox paytaxtda tikilirdi. Ancaq bizim siyasətimiz ondan ibarətdir ki, bunlar regionlarda tikilsin. Son 4 il ərzində 600 mindən çox yeni iş yerlərinin yaranması və işsizliyin aradan qaldırılması, yoxsulluğun səviyyəsinin aşağı düşməsi - bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Bu məsələlərin də hamısı bizim iqtisadi siyasətə bağlıdır. O iqtisadi siyasət aparılmasaydı, bunların heç biri mümkün olmazdı.

Eyni zamanda, Azərbaycanda çox gözəl ictimai-siyasi vəziyyət var, sabitlik var. Sabitlik olan yerdə inkişaf da var. Ancaq onu da bilirik ki, inkişafsız sabitlik də yaranmır. Çünki insanların sosial problemlərinin həlli, yaşayış səviyyəsinin yaxşılaşması, ölkə iqtisadiyyatında mövcud olan müsbət meyillər ölkədə sabitliyi daha da möhkəmləndirir. Biz yaxın tarixdən görürük ki, inkişaf olmayan yerdə sabitlik pozulur. İnkişaf isə o deməkdir ki, həm ölkə iqtisadiyyatı artır, həm də insanlar yaxşı yaşamağa başlayırlar. Bizim iqtisadiyyatımız 4 il ərzində 96 faiz artmışdır. Demək olar ki, ümumi daxili məhsulumuzu iki dəfə artırmışıq. Bu, indiyə qədər heç bir başqa ölkədə olmamışdır və inanmıram ki, nə vaxtsa da olsun.

Biz 4 il ərzində büdcə xərclərimizi on dəfə artırmışıq və bu xərclər pensiyalara, maaşlara, sosial ödəmələrə, eyni zamanda infrastruktur layihələrinə yönəldilibdir. Bu il təkcə dövlət xətti ilə infrastruktur işlərinə 3,5 milyard dollar vəsait qoyacağıq. Bununla bərabər, özəl sektor da vəsait qoyur. Xarici investorlar Azərbaycanla maraqlanırlar və bu gün biz bunun əyani təzahürünü görürük. Yerli iş adamları güclənirlər və dövlətin dəstəyini hiss edərək, daha da fəal olurlar. Xarici tərəfdaşlarla işlərimiz çox normal səviyyədə qurulubdur. Hazırda burada müxtəlif ölkələrin nümayəndələri vardır, mən onlarla görüşmüşəm və bu gün bir beynəxalq əməkdaşlıq forumudur. Çünki müxtəlif ökələrdən tanınmış şirkətlər bu komplekslərin yaranmasında iştirak edəcəklər.

Bir sözlə, əziz dostlar, bütün bu amilləri nəzərə alaraq, bir daha böyük inamla demək olar ki, Azərbaycan çox uğurla inkişaf edir, bizim siyasətimiz düzgün siyasətdir. Gələcəkdə, əlbəttə ki, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının başa çatması və yeni proqramın hazırlanıb həyata keçirilməsi nəticəsində yeni böyük uğurlara biz nail olacağıq.

Mən çox şadam ki, bu gözəl, müasir sənaye komplekslərini biz məhz Gəncədə yaradırıq. Gəncə çox gözəl şəhərdir, Azərbaycanın qədim torpağıdır, burada çox gözəl insanlar yaşayırlar. Gəncənin abadlaşması, gözəlləşməsi hər bir Azərbaycan vətəndaşını sevindirir. Bildiyiniz kimi, Gəncənin inkişafı üçün lazımi tədbirlər görülür, vəsaitlər ayrılır. İnfrastruktur layihələrinin həyata keçirilməsi, abadlıq işləri, şəhərin mədəni həyatının inkişafı üçün lazımi tədbirlər görülür. Bu komplekslərin işə düşməsi nəticəsində Gəncə Azərbaycanın çox böyük və güclü sənaye mərkəzinə çevriləcəkdir. Mən əminəm ki, bundan sonra daha da yeni müəssisələr, yeni istehsalat sahələri yaranacaq, yeni sənaye sahələri yaranacaq. Biz əslində, bu gün yeni sənaye sahələrinin yaranmasının şahidləriyik. Budur, Azərbaycanın reallıqları və bu yol Azərbaycanı uğurlara, xoşbəxt gələcəyə aparacaqdır. Ölkəmizdə həm ictimai-siyasi vəziyyət həmişə sabit olacaq, həm də iqtisadi vəziyyət getdikcə yaxşılaşacaq və insanların sosial məsələləri həll ediləcəkdir. Burada işləyəcək işçilərin əmək haqları da çox yüksək olacaqdır. Mənə verilən arayışda gördüm ki, burada

500 manata qədər, ondan da çox maaş olacaqdır. Azərbaycan xalqı buna layiqdir və insanların həyat səviyyəsi ildən-ilə yaxşılaşmalıdır.

Əziz dostlar, bu nəhəng yeni sənaye müəssisələrinin yaradılması münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik etmək istəyirəm. Bütün xarici qonaqları bir daha salamlamaq, Azərbaycan dövləti tərəfindən minnətdarlığımı bildirmək istəyirəm ki, onlar birləşib və bizimlə bərabər bu gözəl kompleksləri yaradırlar. Mən bu gün burada bu müəssisələrin yaradılmasında iştirak edəcək inşaatçıları görürəm. Onları da salamlamaq istəyirəm və arzum odur ki, bu zavodları keyfiyyətlə tiksinlər. İndi Azərbaycanda çox böyük inşaat şirkətləri yaranmışdır. Bu da bizim zəmanəmizin əlamətidir. Əvvəllər daha çox xaricdən mütəxəssislər gəlirdi, indi yerli şirkətlər güclənibdir. Azərbaycanda o qədər inşaat gedir ki, əlbəttə, inşaat şirkətləri bundan faydalanırlar.

Bütün Azərbaycan xalqını, iqtisadiyyatımız üçün, sənayemiz üçün doğrudan da tarixi hadisə münasibətilə təbrik etmək istəyirəm. Sizə uğurlar və cansağlığı arzulayıram. Sağ olun.

AZƏRTAC
2008, 3 mart

Naftalan şəhəri

2008, 3 mart

- Azərbaycan Prezidenti İlham Əliyev Naftalan şəhərinə gəlmişdir: Heydər Əliyev parkı və muzeyi ilə tanışlıq
- "Çinar" sanatoriyasında əsaslı təmir və bərpa işləri aparılır
- Naftalan İstirahət və Sağlamlıq Mərkəzi ilə tanışlıq
- Naftalan şəhərinin ziyalıları ilə görüş: Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Azərbaycan Prezidenti İlham Əliyev Naftalan şəhərinə gəlmişdir
Heydər Əliyev parkı və muzeyi ilə tanışlıq
(3 mart 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Gəncədən Naftalan şəhərinə gəlmişdir.

Prezident İlham Əliyev əvvəlcə şəhərin mərkəzində yerləşən və ulu öndər Heydər Əliyevin adını daşıyan parkla tanış oldu. Dövlətimizin başçısı, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ümummilli liderin parkda ucaldılmış abidəsini ziyarət edərək, gül dəstələri qoydular.

Prezident İlham Əliyev parkı gəzdi. Burada fəvvarələr quraşdırılmış, sakinlərin istirahəti üçün lazımi şərait yaradılmışdır. 1967-ci ildə salınmış, 2006-cı ildə tamamilə yenidən qurulmuşdur. Dövlətimizin başçısı parkın daha da müasir formada abadlaşdırılması üçün müvafiq tövsiyələrini söylədi.

Sonra Prezident İlham Əliyev parkın ərazisində yerləşən Heydər Əliyev muzeyinə gələrək, ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərə və eksponatlara baxdı.

2006-cı ildə yaradılmış muzeydə 200-dən çox fotoşəkil və eksponat toplanmışdır. Onların arasında 1982-ci ildə ulu öndərin Naftalanın kurort şəhəri kimi inkişaf etdirilməsi ilə bağlı verdiyi qərar da vardır.

AZƏRTAC
2008, 3 mart

"Çinar" sanatoriyasında əsaslı təmir və bərpa işləri aparılır

(3 mart 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Naftalandakı "Çinar" sanatoriyasında aparılan əsaslı təmir və bərpa işləri ilə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, təmir-bərpa işlərinə 2007-ci ilin sentyabrında başlanılıbdır. 19 hektar sahədə yerləşən altımərtəbəli sağlamlıq mərkəzi "Azinterbiznes" MMC-yə məxsusdur. Burada gələcəkdə xəstələrə 62 tibbi heyət xidmət göstərəcəkdir. Müalicə, müayinə otaqlarından əlavə, 368 yerlik yeməkxana, 30 vanna otağı da olacaqdır.

Prezident İlham Əliyev "Çinar" sanatoriyasının müasir vəziyyətini əks etdirən fotoşəkillərə baxdı, təmir-bərpa işlərinin baş planı ilə tanış oldu, ərazini gəzdi və müvafiq tövsiyələrini verdi.

AZƏRTAC
2008, 3 mart

Naftalan İstirahət və Sağlamlıq Mərkəzi ilə tanışlıq

(3 mart 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Naftalan İstirahət və Sağlamlıq Mərkəzi ilə tanış olmuşdur.

Prezident İlham Əliyevə məlumat verildi ki, mərkəz 2005-ci ilin mayında, ulu öndər Heydər Əliyevin doğum günündə istifadəyə verilmişdir. 130 nəfərlik istirahət və sağlamlıq mərkəzi iki korpusdan ibarətdir. Burada 1, 2, 3 nəfərlik rahat otaqlar, müasir müalicə və müayinə kabinetləri, Naftalan nefti və yodlu-bromlu su vannaları, trenajor və müalicə idmanı otaqları, fizioterapiya, funksional diaqnostika kabinetləri, klinik-diaqnostik laboratoriya, biokimyəvi laboratoriya fəaliyyət göstərir. Nadir xüsusiyyətləri olan Naftalan nefti 70-dən artıq xəstəliyin uğurla müalicəsinə imkan yaradır. Sümük-əzələ sistemi xəstəlikləri, periferik sinir və damar, dəri və ginekoloji xəstəliklər müalicə olunur.

Xəstələr gündə 3 dəfə yeməklə təmin olunur, onlara 67 tibb işçisi xidmət göstərir.

İstirahət günləri respublikanın Gəncə, Şəki və Mingəçevir şəhərlərinə, Hacıkəndə və Göygölə səyahətlər təşkil edilir.

Prezident İlham Əliyev müalicə kabinetlərini, laboratoriyaları və digər şöbələri gəzdi, müalicə və müayinə prosesləri, müasir tibbi avadanlıqla tanış oldu və yaradılan şəraitin yüksək səviyyədə olduğunu bildirdi. Dövlətimizin başçısı Polşadan və Moskvadan müalicəyə gələnlərlə söhbət etdi. Onlar bu müalicə mərkəzinə vaxtaşırı gəldiklərini və burada müalicənin və müayinənin dünya standartları səviyyəsində olduğunu, çox gözəl təsir bağışladığını və yaradılan şəraitdən razı qaldıqlarını bildirdilər.

Dövlətimizn başçısı həm də gözəl iqlimi olan Naftalanın dünyada neftlə müalicənin aparıldığı yeganə kurort olduğunu vurğuladı.

X X X

Naftalana səfərini başa çatdıran Azərbaycan Prezidenti İlham Əliyev həmin gün, martın 3-də Samux rayonuna gəldi.

Dövlətimizin başçısı əvvəlcə Samux şəhidləri abidə kompleksi və Heydər Əliyev parkı ilə tanış oldu.

Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş samuxluların xatirəsini ehtiramla yad edərək, kompleksin önünə gül dəstəsi qoydu.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin parkdakı abidəsini ziyarət edərək, gül dəstələri qoydular.

Dövlətimizin başçısı parkda ictimaiyyətin nümayəndələri ilə görüşüb səmimi söhbət etdi.

Azərbaycan Prezidenti Samux şəhərində ulu öndərin adını daşıyan muzeylə də tanış oldu.

Prezident İlham Əliyev daha sonra şahmat məktəbinin açılışında iştirak etdi, "Az-Rus Dostluq" ASC ilə, "Universal NAA" Məhdud Məsuliyyətli Cəmiyyətinin ərzaq və meyvə-tərəvəz anbarları ilə tanış oldu.

AZƏRTAC
2008, 3 mart

Naftalan şəhərinin ziyalıları ilə görüş

(3 mart 2008-ci il)

Martın 3-də, Heydər Əliyev muzeyi ilə tanışlıqdan sonra parkda Prezident İlham Əliyevin Naftalan şəhərinin ziyalıları ilə görüşü keçirilmişdir.

2 nömrəli orta məktəbin pedaqoqu, respublikanın əməkdar müəllimi AİDƏ TALIBOVA dövlətimizin başçısını şəhər ziyalıları adından salamlayaraq dedi ki, cənab Prezident, bu gün sevincimizin həddi-hüdudu yoxdur. Ulu öndərimizin layiqli davamçısı kimi Siz bu gün bizimlə görüşə gəlmisiniz. Bu, bizdə böyük qürur hissi doğurur və inanırıq ki, Sizin bu gəlişiniz Naftalanın gələcək inkişafına böyük təkan verəcəkdir. Ulu öndərimizin 1982-ci ildə Naftalan kurort şəhərinin daha da inkişaf etdirilməsi barədə qərarından sonra burada 6-dan çox sanatoriya yaradıldı. Şəfa tapmaq üçün buraya dünyanın 100 ölkəsindən xəstələr gəlirdi. Ulu öndər həmişə deyirdi ki, Naftalan nefti xəstələrə şəfa verir. Buradakı xəstələrə elə xidmət göstərməyə çalışmalısınız ki, onlar gedəndə öz ölkələrində Azərbaycanın mədəniyyəti, insanlarının səmimiyyəti barədə xoş sözlər danışsınlar.

Cənab Prezident, qoy bu gəlişiniz uğurlu, qədəmləriniz mübarək olsun. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım da bizim qonağımızdır, əzizimizdir. Leyla xanım da əzizimizdir və gənc kadr kimi onun fəaliyyətini izləyirik. Çox sevinirik ki, xalqımızın belə gözəl, gənc övladları dövlətimizi təbliğ edirlər. Mehriban xanımın səmərəli fəaliyyəti hamımızın ürəyincədir və o, böyük rəğbət qazanıbdır. Təhsilimizin, mədəniyyətimizin, milli dəyərlərimizin qorunub saxlanılmasında bu gözəl qadının çox böyük xidməti var. Bilirik ki, XXI əsr kompyuter əsridir. Məktəblərin tikintisi, kompyuterlə təmin olunması sahəsindəki fəaliyyəti, xəstə uşaqları, onların valideynlərini sevindirməsi, müalicəyə göndərməsi təqdirəlayiqdir.

Aida Talıbova həyatının 38 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etdiyini, Prezident İlham Əliyev tərəfindən "Əməkdar müəllim" adına layiq görüldüyünü xatırladaraq dedi ki, cənab Prezident, bu il prezident seçkiləri keçiriləcəkdir. Bütün naftalanlılar adından qətiyyətlə bildirirəm ki, Siz bizim layiqli və daimi seçilmiş Prezidentimizsiniz. Siz hər kəsin Prezidentisiniz. Sizi xalqa yaxın edən qəlbinizin təmizliyi, sevimli olmağınızdır. Bunu Siz özünüz zəhmətkeşliyinizlə, səmimiyyətinizlə, həmişə xalqın içində olmağınızla qazanmısınız. Siz ölkəmizi iqtisadi baxımdan bütün dünyada zirvəyə qaldırmısınız. Təkcə hərbiyə ayırdığınız büdcə Ermənistanın ümumi büdcəsinə bərabərdir. Bu, böyük nailiyyətdir. Biz Sizə arxalanırıq. Siz ailənizlə birlikdə xalqın sevimlisisiniz. Bu görüşə görə Sizə bir daha təşəkkür edir, "Xoş gəlmisiniz!" deyir və bildirirəm ki, Siz bizim əbədi Prezidentimizsiniz. Sizin başınızın uca olması üçün biz naftalanlılar üzərimizə düşən hər bir vəzifəni uğurla yerinə yetirəcəyik.

"Möcüzəli Naftalan" sağlamlıq mərkəzinin baş həkimi GÜLTƏKİN SÜLEYMANOVA xatırlatdı ki, ulu öndərimizin 1982-ci ildə qəbul etdiyi qərar Naftalan kurortunu o vaxt ümumittifaq sanatoriyaları içərisində ön cərgəyə çıxarmışdı. Biz ümid edirik və əminik ki, Sizin gəlişinizdən sonra Naftalan kurortunun inkişafı haqqında qəbul olunacaq qərarlar buranı dünya miqyaslı kurortlar içərisində ön sıralara çıxaracaqdır.

X X X

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin
çıxışı

-Çox sağ olun. Mən də demək istəyirəm ki, Naftalanın inkişafına bundan sonra da diqqət göstəriləcək, vəsait ayrılacaqdır. Mənim buraya gəlməyimin ikinci səbəbi ondan ibarətdir ki, sizinlə görüşüm. Mən Prezident seçiləndən sonra ilk dəfədir ki, Naftalandayam. İstəyirdim, sizinlə görüşüm, öz fikirlərimi sizə bildirim. Digər tərəfdən, biz gərək Naftalanın keçmiş şöhrətini özünə qaytaraq. Çünki keçmiş Sovet İttifaqında, – siz də dediniz, - müxtəlif yerlərdə kurortlar var idi. Kurortlar daha çox müalicəvi su çıxan yerlərdə təşkil olunurdu. Naftalanın özəlliyi, xüsusiyyəti ondadır ki, yeganə kurort idi ki, burada insanlar müalicəvi neftlə öz sağlamlıqlarını bərpa edirdilər. Bu nadirlik bu gün də qalır. Yəni dünyada başqa belə bir yer yoxdur ki, insanlara buna bənzər şəfa gətirsin. Ona görə biz Naftalanı müasir kurort şəhərinə çevirməliyik ki, ilk növbədə, Azərbaycan vətəndaşları bu kurortdan səmərəli istifadə etsinlər. Eyni zamanda, xarici ölkələrdən gəlsinlər, Azərbaycanla tanış olsunlar. Beləliklə, Azərbaycanın turizm infrastrukturu da möhkəmlənəcəkdir.

Burada yeni sanatoriyalar tikilməlidir. Mən bildiyimə görə, artıq bəzi yerlərdə bərpa işləri gedir. Xarici investorlar da, daxili investorlar da maraq göstərirlər. Dövlət isə öz tərəfindən şəhərin infrastrukturuna, abadlıq, quruculuq işlərinə, yollara vəsait qoymalıdır ki, burada turizmin, kurort sahəsinin inkişafı üçün lazımi şərait yaradılsın.

Naftalanın yerləşdiyi yer də çox gözəldir, coğrafiyası, təbiəti, havası gözəldir. Gözəl ağaclar əkilibdir. Siz qeyd etdiniz ki, 1982-ci ildə ulu öndər şəhərin inkişafı ilə bağlı qərar vermişdi və qısa müddət ərzində sanatoriyalar yaradıldı. Amma ondan sonrakı illərdə, Sovet İttifaqı dağılandan sonra, Azərbaycanda vəziyyət gərginləşəndən sonra, əlbəttə, sanatoriyalar da tələblərə cavab vermirdi. Onların bir hissəsində qaçqınlar məskunlaşıbdır. Bu da təbiidir. Çünki müharibədən əziyyət çəkən soydaşlarımız Azərbaycanda məskunlaşmalı idilər. Ancaq indi bilirsiniz ki, qaçqınların problemlərinin həlli və məşğulluğunun artırılması ilə bağlı sərəncamlar imzalanmışdır. Yəqin ki, biz onları daha münasib yerlərə köçürəcəyik ki, burada həm köhnə sanatoriyalar bərpa olunsun, həm də yeni sanatoriyalar, mehmanxanalar, turizm yerləri tikilsin. Əlbəttə, bu, şəhərin inkişafına təkan verəcək, insanların həyat səviyyəsini yaxşılaşdıracaq, xidmət sahəsində işləyənlərin sayı artacaq və burada işlər daha da yaxşı gedəcəkdir.

O ki qaldı Azərbaycanın ümumi inkişafına, siz qeyd etdiniz, biz çox yüksək zirvəyə çatmışıq. Mən bu gün səhər Gəncədə iki böyük, nəhəng sənaye kompleksinin təməlini qoydum. O müəssisələrə bir milyard dollardan çox vəsait qoyulacaq və iki-üç il ərzində böyük sənaye müəssisələri yaradılacaqdır. Bu, həm iqtisadi inkişaf deməkdir, işsizliyin aradan qaldırılması, yoxsulluğun aradan qaldırılması deməkdir və həm də Azərbaycanın hərtərəfli inkişafı deməkdir. İndi bizim iqtisadi inkişafımız elədir ki, istənilən məsələni həll edə bilərik. Biz xarici kreditlərə də o qədər ehtiyac duymuruq. Bölgələrin abadlaşmasına ayrılan vəsait də ildən-ilə artacaqdır. Bir müddət bundan əvvəl Naftalanın inkişafına da vəsait ayrılmışdır. Ancaq hesab edirəm ki, biz bu məsələyə yenidən baxmalıyıq, əlavə vəsait ayrılmalıdır və ondan səmərəli istifadə etməliyik. Burada həm quruculuq-abadlıq işləri, binaların təmiri, yeni infrastrukturun yaradılması, həm də insanların həyat səviyyəsinin yaxşılaşması üçün bütün işlər görülməlidir. Hər yerdə olduğu kimi, şəhər əhalisi də yaxşı yaşamalıdır. Əsas məqsəd ondan ibarətdir ki, insanlar daha da yaxşı yaşasınlar.

Azərbaycanda sosial və iqtisadi sahələrdə gedən işlər bir-birini tamamlayır. Bəzi hallarda bazar iqtisadiyyatı şəraitində yaşayan ölkələrdə sosial məsələlərə o qədər də böyük diqqət göstərilmir. Çünki bazar iqtisadiyyatı prinsipləri bəzən insanlar üçün çox sərt olur. Ancaq biz həm sosial siyasət aparırıq, həm də islahatlar aparırıq. Bəzən iqtisadi islahatlar insanların həyat səviyyəsinə mənfi təsir göstərir. Biz bunun qarşısını almalıyıq. Maaşlar artırılır, pensiyalar keçən il artırılıb və bu il yenidən artırılacaqdır. Əlbəttə, işlə təmin olunmaq üçün şərait olmalıdır və biz bunu yaradırıq.

Sosial məsələlərin həlli üçün iqtisadi inkişaf, sənaye potensialının inkişafı vacibdir və bu, ölkəmizi gücləndirir. Bu gün biz bölgədə aparıcı ölkəyik. Buna biz özümüz nail olmuşuq. Biz öz gücümüzə, Azərbaycan xalqının gücünə arxalanırıq. Bütün siyasət, yəni xarici, daxili, iqtisadi, sosial siyasət - bunların hamısı bir istiqamətə yönəlibdir ki, ölkə güclənsin, insanlar daha da yaxşı, təhlükəsizlik, sabitlik şəraitində yaşasınlar. İndi hamımız görürük ki, Ermənistanda vəziyyət çox gərgindir. Nəyin nəticəsində?! Düşünülməmiş siyasətin, işğalçı siyasətin, özünütəcrid vəziyyətinə salan siyasətçilərin fəaliyyəti nəticəsində ölkə belə çətin vəziyyətə düşübdür. İnkişaf olmayan yerdə sabitlik ola bilməz. Sabitlik olmayan yerdə inkişaf ola bilməz. Azərbaycan həm inkişaf edir, həm vəziyyət sabitdir, həm də xalqla iqtidar arasında birlik var. Bizim bütün səylərimiz bir məqsədə qulluq edir: ölkəmiz güclənsin, Azərbaycan torpaqları işğalçılardan azad olunsun, soydaşlarımız öz doğma torpaqlarına qayıtsınlar. Biz öz gücümüzü artırmaqla o günü yaxınlaşdırırıq.

Naftalan həm coğrafi baxımdan strateji nöqtədir, həm də iqtisadi baxımdan çox mühüm bir şəhərdir. Burada müasir səviyyənin təşkil olunması mütləq və mütləq olmalıdır. Mən Bakıya qayıdandan sonra şəhərin inkişafına dair lazımi qərarları verəcəyəm və siz onların nəticələrini görəcəksiniz.

Çox sağ olun.

AZƏRTAC
2008, 3 mart

Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə və Kürdəmir rayonuna səfəri
Gəncədə Müalicə-Diaqnostika Mərkəzi açılmışdır
(24 sentyabr 2008-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də Gəncə şəhərində olmuşdur.

Dövlətimizin başçısı əvvəlcə Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etdi. Mərasimə toplaşan səhiyyə işçiləri və mərkəzin əməkdaşları Prezidenti səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi, ayrı-ayrı mərtəbələrdə yerləşən qəbul, şüa-diaqnostika, hemodializ şöbələri, konsultativ-diaqnostik poliklinika, inzibati şöbə və konfrans salonu, cərrahiyyə, anesteziologiya və reanimasiya şöbələri ilə tanış oldu.

Təməli 2005-ci ilin oktyabrında Prezident İlham Əliyev tərəfindən qoyulmuş bu səhiyyə ocağının tikintisində 200-dən çox fəhlə çalışmışdır. Tikintidə Türkiyə, Çin, Yunanıstan və Hindistandan gətirilmiş materiallardan da istifadə edilmişdir.

Dördmərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin ölkəmizdə səhiyyənin inkişafındakı xidmətlərini əks etdirən guşə yaradılmışdır. Almaniya, Türkiyə, Yaponiya və digər ölkələrdən gətirilmiş müasir avadanlıq keyfiyyətli müayinə və müalicə, mürəkkəb cərrahiyyə əməliyyatları aparmağa imkan verir.

Mərkəzin əməkdaşları ilə görüşüb söhbət edən Prezident İLHAM ƏLİYEV dedi:

- Mən bu gözəl müasir xəstəxananın açılışı münasibətilə sizi təbrik edirəm. Burada çox gözəl şərait var, avadanlıq var. Demək olar ki, dünyanın ən qabaqcıl texnologiyaları burada tətbiq olunmuşdur. Həkimlər üçün yaxşı şərait vardır. Mən əminəm ki, Müalicə-Diaqnostika Mərkəzindən səmərəli istifadə edəcəksiniz. Bu, həm Gəncə üçün, həm də ətraf rayonlar üçün böyük töhfədir. İnsanların sağlamlığı ən əsas məsələdir.

Ümumiyyətlə, sosial məsələlərin həlli güclənməyə başlayıbdır. Səhiyyə, təhsil məsələləri, humanitar məsələlər uğurla həll olunur. O cümlədən deyə bilərəm, Gəncə şəhərində yaxşı nəticələr var. Mərkəzin həm xarici görünüşü, həm də daxili tərtibatı çox gözəldir. Yəni, bir sözlə, dünyada ən yüksək səviyyə nədirsə, o, burada var. Sizə uğurlar arzulayıram. Xəstələrə yaxşı baxın, yaxşı xidmət göstərin. Əminəm ki, burada işləmək sizin üçün də xoş olacaqdır.

XALİDƏ SADIQOVA (həkim): Cənab Prezident, çox sağ olun. Biz də Sizə səhiyyə işçiləri adından təşəkkür edirik, dərin minnətdarlığımızı bildiririk. Bu Müalicə-Diaqnostika Mərkəzi Sizin Gəncəyə göstərdiyiniz böyük qayğı və diqqətin növbəti nümunəsidir. Çox sağ olun.

İLHAM ƏLİYEV: Yadımdadır, biz bu diaqnostika mərkəzinin təməlini 2005-ci ildə birlikdə qoymuşduq. Bu gün açılışında da birlikdə iştirak edirik. Tikinti isə 2006-cı ildə başlamışdı, iki ilə, qısa müddət ərzində tikilmişdir. Sağ olun, təbrik edirəm.

AZƏRTAC
2008, 24 sentyabr

Şah Abbas Məscidi yeni görkəm almışdır

(24 sentyabr 2008-ci il)

Sentyabrın 24-də Prezident İlham Əliyev bərpa və təmir işlərindən sonra Gəncədəki Şah Abbas məscidi ilə tanış olmuşdur. Bu cümə məscidi 1606-cı ildə memar Şeyx Bəhaəddinin layihəsi əsasında tikilmişdir. 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə məsciddə bərpa və təmir işləri aparılmışdır. Dövlət tərəfindən qorunan bu abidə indi yeni görkəm almışdır.

Dövlətimizin başçısına məlumat verildi ki, məscidin tarixində ilk dəfədir geniş əsaslı təmir-bərpa işləri görülmüşdür. Ətraf ərazidə də abadlıq işləri görülmüş, səliqə-sahman yaradılmışdır. Bərpaçılar Gəncədəki "Karvansara" və "Çökək hamam" kimi maddi mədəniyyət incilərimizin də müəllifi olan memar Şeyx Bəhaəddinin bu möhtəşəm yadigarının əvvəlki görkəminə qaytarılması və daha da gözəlləşdirilməsi üçün əllərindən gələni əsirgəməmişlər. Təmir-bərpa işləri zamanı keyfiyyətli tikinti materiallarından istifadə olunmuşdur. Məscidin döşəməsinə salınan xalça Türkiyədə xüsusi sifariş əsasında toxunmuşdur. Burada dini ayinləri icra etmək üçün hər cür şərait yaradılmışdır.

Azərbaycanda ən böyük məscid günbəzlərindən sayılan Şah Abbas məscidinin günbəzinə daxildən incə xətlə müqəddəs Qurani-Kərimdən ayə yazılmışdır.

Prezident İlham Əliyev aparılmış təmir-bərpa işlərinin səviyyəsindən razılığını bildirdi, ölkəmizdə vicdan azadlığına, dini-mənəvi dəyərlərə mühüm önəm verildiyini söylədi, dindarlara ən xoş arzularını çatdırdı.

Dövlətimizin başçısına Quran hədiyyə olundu.

AZƏRTAC
2008, 24 sentyabr

Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət

(24 sentyabr 2008-ci il)

Prezident İlham Əliyev sentyabrın 24-də Gəncə şəhərinin Heydər Əliyev adına mərkəzi meydanında ulu öndərin abidəsini ziyarət edərək gül dəstəsi qoymuşdur.

Dövlətimizin başçısına meydanda aparılmış yenidənqurma işləri barədə məlumat verildi. Şəhər icra hakimiyyətinin qarşısında yerləşən meydanın sahəsi 22 min kvadratmetrdir. Həmin sahənin 12 min kvadratmetrinə qranit döşənmişdir. İcra hakimiyyəti binasının fasadı da yeni görkəm almış, Azərbaycanın və Gəncənin gerbləri vurulmuşdur. Ətrafda salınmış yaşıllıqlar və çəmənlik meydana xüsusi yaraşıq verir. Azərbaycanda ilk musiqili fəvvarə də məhz burada quraşdırılmışdır. İşıqlandırma sistemi Rusiya və Azərbaycan istehsalıdır. Klassik üslubu ilə diqqəti cəlb edən yaraşıqlı işıq dirəkləri xüsusi sifariş əsasında respublikamızda hazırlanmışdır. Heydər Əliyev Muzeyinin də yerləşdiyi bu məkan gəncəlilərin və şəhərin qonaqlarının əsas gəzinti guşələrindən biridir.

AZƏRTAC
2008, 24 sentyabr

Şəhər ictimaiyyətinin nümayəndələri ilə görüş
(24 sentyabr 2008-ci il)

Sentyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Gəncədə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.

Gəncə şəhər təhsil idarəsinin metodik mərkəzinin direktoru AFAQ ƏLİYEVA dövlətimizin başçısını salamlayaraq dedi:

-Cənab Prezident, Sizi Gəncədə görmək bizim üçün çox sevindirici bir haldır. Gəncəyə, gəncəlilərə göstərdiyiniz qayğı və diqqətin nəticəsidir ki, bu gün şəhər belə inkişaf edir, gözəlləşir. Sizin hər gəlişiniz, verdiyiniz göstərişlər, tapşırıqlar sayəsində Gəncəmiz günü-gündən abadlaşır. Gəncəmiz öz tarixi yaddaşını qoruyub saxlayaraq müasirləşir.

Sizin bugünkü gəlişiniz təşəbbüskarı olduğunuz Şəhər gününə təsadüf edir. Məhz Sizin tapşırığınızla bərpa edilən Gəncə darvazalarının açarını Sizə təqdim etmək istəyirəm. Bu açar Gəncə Regional Elm Mərkəzinin sənətkarları tərəfindən qədim eskizlər əsasında hazırlanmışdır. Bu, əslində təkcə Gəncə darvazalarının açarı deyil, biz gəncəlilərin qəlbinin açarıdır.

Prezident İLHAM ƏLİYEV minnətdarlığını bildirərək dedi:

-Təşəkkür edirəm. Mən sizi Gəncə Şəhər günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Dünən, bu gün Gəncədə bayramdır. Bu gözəl bayram bütün şəhər sakinləri üçün də çox xoş bir hadisədir. Biz bu bayramı iki il bundan əvvəl qeyd eləməyə başlamışıq və artıq gözəl ənənəyə çevrilibdir. Siz dediyiniz kimi, qədim Gəncə müasirləşir, gəncləşir, yeniləşir, çox böyük abadlıq işləri aparılır, böyük sosial əhəmiyyətli obyektlər tikilir.

Mən bu gün Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etmişəm. Üç il bundan əvvəl o gözəl binanın təməli qoyulmuşdu. Bu gün isə Gəncədə ən müasir standartlara cavab verən Müalicə-Diaqnostika Mərkəzi fəaliyyətdədir. Orada quraşdırılmış avadanlıq dünyanın ən yüksək standartlarına uyğundur. Orada hər şey - ən qabaqcıl tibbi avadanlıq, ləvazimat var və ən yüksək tibbi xidmət göstəriləcəkdir.

Bu meydan da gözəlləşibdir. Yeni binalar, yeni küçələr salınır. Gəncə çox dolğun həyat sürür. Belə də olmalıdır. Qədim şəhərdir, Azərbaycan tarixində çox böyük rolu olmuşdur, bu gün də var. Mən istəyirəm ki, burada bütün işlər çox yüksək səviyyədə aparılsın. Biz bunu görürük, siz gəncəlilər də bunu gündəlik həyatda görürsünüz. Həm iqtisadi, həm də sosial məsələlər həll olunur, sənaye müəssisələri, məktəblər, xəstəxanalar tikilir, şəhər təsərrüfatı üçün lazım olan bütün tədbirlər görülmüşdür. Şəhər daha da gözəlləşir.

Mən son illər ərzində bir neçə dəfə Gəncədə olmuşam. Hər dəfə burada yenilikləri görəndə ürəyim sevinir. Əminəm ki, bu, sizi də sevindirir və Gəncənin sakinləri kimi siz də şəhərin inkişafı üçün böyük əmək sərf edirsiniz. Yəni bu, bizim hamımızın işidir. Hər bir rayonun, hər bir şəhərin gözəlləşməsi, abadlaşması, ilk növbədə, orada yaşayan sakinlərin əməyidir. İndi Azərbaycanda çox böyük quruculuq işləri aparılır. Əlbəttə ki, düzgün qərarlar verilir, proqramlar tərtib olunur. Amma o proqramları icra edən bölgələrdə yaşayan insanlardır, yerli icra hakimiyyəti orqanlarıdır, fəallardır, adi vətəndaşlardır. Onların fəaliyyəti olmasa, heç bir proqramı icra etmək mümkün olmayacaqdır. Bütün o proqramlar kağız üzərində qalacaqdır. Azərbaycanda isə bütövlükdə gözəl ab-haba hökm sürür və düzgün qərarlar, onların vaxtlı-vaxtında icrası və bütün fəalların bu işlərdə iştirakı, bax, sizin üçün belə gözəl şərait yaradır.

Ölkə inkişaf edir, irəliyə gedir, iqtisadi, siyasi gücünü artırır. Artıq bu, heç kimə sirr deyil, hamı bunu etiraf edir ki, Azərbaycan bölgədə aparıcı ölkədir. Bizim siyasi çəkimiz artır. Bu bölgədə gedən proseslərə təsir imkanlarımız artır. Biz yeni təşəbbüslər - iqtisadi, regional, siyasi xarakter daşıyan təşəbbüslər irəli sürürük. Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkə kimi artıq öz yerini tutubdur. Artıq hamı bununla hesablaşmağa məcburdur.

Biz isə istəyirik ki, öz müstəqil həyatımızı yaşayaq, öz müstəqilliyimizi möhkəmləndirək. Azərbaycanda insanların yaşayış səviyyəsi artsın, onlar sabitlik, təhlükəsizlik şəraitində yaşasınlar. Belə olan halda, istənilən məsələ öz həllini tapacaqdır. Harada sabitlik, təhlükəsizlik var, orada inkişaf da olur. Biz bu inkişafı bütün bölgələrimizin timsalında görürük. Bax, mən bu gün səhər Qazaxda idim, orada Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak edirdim. Ondan sonra Ağstafa rayonunda böyük tikiş fabriki açıldı. Min nəfər işçisi olan fabrikdir. Bu, hər bir böyük ölkə üçün çox önəmli sənaye obyektidir. Ondan sonra Tovuz rayonunda gedən abadlıq-quruculuq işləri ilə tanış olmuşam. Orada da böyük işlər görülür. İndi Gəncədəyəm, sonra başqa yerlərdə olacağam. İnfrastruktur obyektləri, sosial məsələlərin həlli, yeni sənaye müəssisələri, sahibkarlığın inkişafı – bu, hər bir yerdə var. Beləliklə, Azərbaycanın bölgələrinin canlanması prosesi gedir.

Beş il bundan əvvəl bu proqrama başlamışıq. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı 2004-cü ilin əvvəlində qəbul edilmişdir və uğurla başa çatır. Orada nəzərdə tutulmuş bütün maddələr və nəzərdə tutulmamış məsələlərin böyük əksəriyyəti həll olundu. Biz növbəti illərə də, necə deyərlər, eyni yanaşma ilə gedirik. Hər bir bölgə, şəhər, rayon üzrə xüsusi fəaliyyət planı hazırlamışıq və bu plan əsasında irəliyə gedəcəyik.

Mən çox şadam ki, Azərbaycanın qədim şəhəri olan, ikinci şəhəri Gəncə öz çiçəklənmə dövrünü yaşayır. Əminəm ki, bundan sonra Gəncənin, bu gözəl şəhərin inkişafında həm siz fəal iştirak edəcəksiniz, həm də mən öz səylərimi göstərəcəyəm. Bu müştərək səylər hesabına Gəncə daha da gözəlləşəcəkdir. Artıq deyə bilərəm ki, Gəncə regional müstəvidə öz yerini tutan bir şəhərdir. Burada istənilən regional paytaxta xas olan bütün şərait var. Bəlkə bəzi hallarda daha da yuxarı səviyyədədir. Ən müasir aeroport var, Bakıdan sonra ikinci aeroportdur. Ən müasir Müalicə-Diaqnostika Mərkəzi var, heç inkişaf etmiş ölkələrdə belə şərait yoxdur. Ən gözəl yollar, xüsusilə Bakı-Gəncə yolu tikilir. Mən gedib inşaat işlərinə baxacağam. Ən yaxşı tibb müəssisələri, təhsil ocaqları var, parklar, xiyabanlar salınır, yeni binalar, yaşayış binaları tikilir. Bakıdan sonra ilk dəfə belə bina Gəncədə tikilir. Bu, nəyi göstərir?! Bu, onu göstərir ki, burada insanların imkanı var ki, o mənzillərdə yaşasın. Belə inkişaf sürətlə gedəcəkdir.

Mən bilirəm ki, müxtəlif banklar, müxtəlif beynəlxalq şirkətlər Gəncədə öz filiallarını açmaq istəyirlər. Məşhur olan ticarət zəncirləri Gəncəyə gəlmək istəyir. Aeroport yolunda yeni müasir ticarət mərkəzləri tikilir. Bütün bu işlər müasir xarakter daşıyır. Əlbəttə, Azərbaycanın bütün inkişaf əlamətlərini izah etmək üçün çox vaxt gedər. Əsas belə demək olar ki, öz tarixi köklərimizə əsaslanaraq müasirliyə doğru gedirik. Azərbaycanın timsalında müasirlik o demək deyil ki, biz öz keçmişimizi unudaq, ancaq hansısa müasir təcrübəni tətbiq edək. Biz o təcrübəni tətbiq etməliyik ki, milli adət-ənənəmizə uyğun olsun. Bizim mənəvi dəyərlərimizə uyğun olsun. Öz mənliyimizi, tarixi keçmişimizi saxlamaqla ən mütərəqqi, bizə uyğun beynəlxalq təcrübəni gətirməliyik və bunu edirik. Mən əminəm ki, gələcək illərdə bütün istədiyimizə nail olacağıq.

Sizi bu gözəl bayram münasibətilə, həm də qarşıdan gələn Ramazan bayramı münasibətilə bir daha təbrik etmək istəyirəm. Arzu edirəm ki, Gəncə həmişə olduğu kimi, gözəl şəhər kimi qalsın və inkişaf etsin.

Sağ olun.

X X X

Prezident İlham Əliyev Gəncəyə səfərinin sonunda Nizami Gəncəvinin məqbərəsini ziyarət edərək, gül dəstəsi qoydu.

AZƏRTAC
2008, 24 sentyabr